

# MƏTBUATIMIZIN KLASSİKİ

Ч612
М55

240351

# MƏTBUATIMIZIN KLASSİKİ

"ÖNDƏR NƏŞRİYYAT"
BAKI-2006

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

# Mündəricat











Ön söz 4
Son müsahibə 10
**Anar.** *Xoş xatirələr* 16
**Balaş Azəroğlu.** *Süfrəmizin çörəyi* 18
**Bəxtiyar Vahabzadə.** *Cəsarətin simvolu* 22
**Cabir Novruz.** *"Bakı" qəzetini mən həmişə ülvi məhəbbətlə vərəqləmişəm* 26
**Fikrət Qoca.** *Nəsir müəllim haqqında* 28
**Hamlet Qoca.** *Xatirələrdən* 32
**Hidayət.** *Mətbuatımızın Nəsir İmanquliyev mərhələsi* 34
**Hüseyn Abbaszadə.** *Barıt qoxulu məktublarımın ünvanı* 44
**Qılman İlkin.** *Milli mətbuatın klassiki* 50
**Mövlud Süleymanlı.** *Yaxşı kişi* 52
**Nəbi Xəzri.** *Bakılıların dostu* 56
**Nəriman Həsənzadə.** *İmanquliyev məktəbi yaşayır* 58
**Sabir Rüstəmxanlı.** *Mənəvi bütövlüyümüzü qoruyanlardan biri* 62
**Arif Babayev.** *"Qəzet ata oğlunu tənqid edən kimi etməlidir"* 70
**Canəli Əkbərov.** *"Bakı" qəzetinin siması* 72
**Oqtay Mirqasımov.** *"Bakı" Nəsir müəllimin, o da "Bakı"nın siması idi* 76
**Tofiq Quliyev.** *"Bakı" həmişə populyar qəzet olub* 78
**Zeynəb Xanlarova.** *Nəsir müəllim də, onun "Bakı"sı da bizə dost idi* 80
**Ağahüseyn Hüseynov.** *Jurnalistikamızın patriarxı* 84
**Aslan Aslanov.** *Ustad dərsi unudulmur...* 92
**Cəmil Əlibəyov.** *Ustadlıq və səxavətli varislik* 100
**Dağbəyi İsmayılov.** *Mətbuatımızın siması...* 110
**Əflatun Amaşov.** *Jurnalistikamızın korifeyi* 118
**Ənvər Məşədiyev.** *Silinməz izlər qoyan böyük şəxsiyyət* 124
**Mailə Muradxanlı.** *Mən rəssam olsaydım...* 130
**Rəhilə Kəsəmənli.** *Ruhunuz qarşısında baş əyirəm!* 136
**Rəşad Məcid.** *Qayğıkeş müəllim, uzaqgörən redaktor* 138
**Şamil Şahməmmədov.** *Nəciblik zirvəsi* 144
**Şirməmməd Hüseynov.** *Mənəvi təmizlik ölçüsü* 154
**Valid Sənani.** *Obyektiv və cəsarətli jurnalist* 158
**Yusif Kərimov.** *O, məktəb idi, biz məktəbli...* 162
**Zemfira Məhərrəmli.** *Sağlam budaqlar sağlam köklərdən su içir* 198
**Abuzər Xələfov.** *Azərbaycanda mətbuat işinin və ali jurnalistika təhsilinin görkəmli təşkilatçısı* 204
**Akif Rüstəmov.** *Xeyirxah insan, qayğıkeş müəllim* 212
**Aqşin Babayev.** *İnsanlığın zirvəsinə yüksələn insan* 216
**Cahangir Məmmədli.** *Klassik müəllimin sənət həqiqətləri* 222
**Əsədulla Qurbanov.** *Gözəl insan, ustad jurnalist, unudulmaz müəllim* 230
**İfrat Əliyeva.** *Redaktoru üçün qəribsəmiş qəzet* 238
**İzzət Rüstəmov.** *Bizlərə örnək – böyük insan* 246
**Qəzənfər Paşayev.** *Nəcabətli adam* 252
**Nəsir Əhmədli.** *Jurnalistikamızın simvolu* 256
**Şamil Qurbanov.** *İşçilərinin qədrini bilən redaktor Nəsir İmanquliyev* 260
**Vaqif Arzumanlı.** *Jurnalistika məktəbini yaratmış Nəsir müəllim* 268
**Yalçın Əlizadə.** *İşıqlı ömür* 276
**Ağabəy Sultanov.** *Sağlamlığın keşikçisi* 286
**Akif Əlizadə.** *Alim hər yerdə qabaqcıl ola bilir* 288
**Akif Hacıyev.** *Böyük müəllim* 294
**Arif Mehdiyev.** *Köç yolu* 298
**Azad Nəbiyev.** *Qəzetçiliyin sonuncu mogikanı* 302
**Bəkir Nəbiyev.** *Böyük əməl sahibi* 308
**Budaq Budaqov.** *Jurnalist elmimizin XX əsr öndəri* 312
**Fuad Qasımzadə.** *Adına və soy adına layiq insan* 328
**Seyfəddin Qəndilov.** *Xatirəsi əziz insan* 336
**Vasim Məmmədəliyev.** *Milli jurnalistikamızın patriarxı* 342
**Yaqub Mahmudov.** *Doğma xalqına nur paylayan böyük ziyalı* 346

Redaktor:
**Nərgiz Paşayeva**
*filologiya elmləri doktoru, professor*

Tərtibçi:
**Şərəf Cəlilli**

**Mətbuatımızın klassiki.** Bakı, "Öndər nəşriyyat", 352 səh.

ISBN10 9952-416-77-5
ISBN13 978-9952-416-77-5

© "Öndər nəşriyyat", 2006

Bu kitab Nəsir İmanquliyevin işıqlı xatirəsinə həsr olunub. Respublikanın tanınmış şair və yazıçıları, jurnalist və pedaqoqları, alimləri və sənət adamları kitabın səhifələrində Nəsir müəllimdən söz açır, onunla görüşləri haqqında bəhs edir, birgə iştirak etdikləri müxtəlif hadisələri xatırlayırlar. Bütün bu xatirələr üçün ümumi olan bir cəhət elə ilk andan adamın diqqətini cəlb edir. Bu, səmimilikdir. Hər bir yazıda, hər bir xatirədə, hər bir məqalədə olan səmimilik.

Məlumdur ki, yazının dili mürəkkəb və ya sadə, məzmunu qəliz və ya bəsit, redaktəsi əla və ya ortabab ola bilər. O da bəllidir ki, yazını çapa hazırlayarkən onun mətninə çox şey gətirmək olar və çox şeydən də onu məhrum etmək olar. Təkcə bir faktoru süni surətdə yazıya gətirmək olmaz. Söhbət elə həmin səmimilikdən gedir. Nəsir müəllimin özü kimi onun haqqında yazılan xatirələrdə bir





səmimilik təravəti, səmimilik ruhu, səmimilik ab-havası var. Bu isə təsadüfi deyil. Əslində, bunun səbəbləri çox dərindir. Bunların bir qismi, sözsüz ki, Nəsir müəllimin özünün nadir şəxsiyyəti ilə bağlıdır, digərləri isə Nəsir müəllimin yaratdığı və otuz ildən artıq baş redaktoru olduğu «Bakı» –«Baku» qəzetlərinin o dövrün ictimai-siyasi və ədəbi mühitində tutduğu mövqedən və oynadığı roldan irəli gəlir.

«Bakı» qəzetini səhrada su üzünə həsrət qalmış insanın tapdığı bir içim suya və ya dərin bir zirzəminin ağır mühitindən sonra təmiz havaya çıxan şəxsin təəssüratına bənzətmək olar. Bakıda bir növ siyasətdən uzaq olan axşam qəzetinin çapa başlaması XX qurultaydan sonra Sovetlər Birliyində yaranmağa başlayan yeni mühitin bəhrəsi idi. Sərt Stalin rejimini əvəz edən yeni ab-hava, sözsüz ki, ölkədə böyük ümidlərin oyanmasına rəvac vermişdi. Bu ümidlər özünü doğrultmasa da, repressiyalar mexanizminin zəifləməsinin özü qələm əhli qarşısında yazıb-yaratmaq üçün nisbətən geniş imkanlar açmışdı. Məhz bu mənada «Bakı» qəzeti sovet tarixində bənzəri olmayan bu qurultayın «övladlarından» idi.

Sovet dövrü mətbuatının xüsusiyyətlərindən çox yazılıb və hələ də çox yazılacaq. Bu fenomen hələ axıra qədər təhlil olunmayıb, onun incəlikləri və çalarları araşdırılmayıb. Lənətləyərək, damğa vuraraq, totalitar rejimin mətbuatı adlandıraraq ondan uzaqlaşmağımıza sevinmişik. Artıq emosiyalardan təhlilə keçmək vaxtı yetişib.

Tarixə müraciət edərək görürük ki, sovet hakimiyyətinin elə ilk illərində bütün dövri mətbuatın partiyalılığı, xəlqiliyi və inqilabın düşmənlərinə qarşı amansız mübarizə alətinə çevrilməsi açıqca bəyan edilmişdi. Kommunist partiyasının siyasətini xalqa çatdıran mətbu orqanlar müxtəlif növlərə ayrılaraq partiya, sovet, profsoyuz, hərbi, kəndli, gənclər və digər nəşrlər kimi tanınmağa başlamışdı. Adları müxtəlif olsa da, əslində, bunlar eyni simaya, eyni üsluba, eyni məzmuna malik olan qəzetlər idi. Partiyanın ideoloji alətinə çevrilən bu mətbuatın öz stili, öz üslubu, öz dəst-xətti var idi. Mərkəzi və yerli qəzetlər ağlasığmaz nəhəng tirajlarla çap olunaraq hər bir vətəndaşı kommunizm quruculuğuna səfərbər etmək yolunda partiyanın ən qüdrətli silahı idi. Hər bir şair, hər bir yazıçı, hər bir yaradıcı insan «müsəlləh əsgər» olaraq bu ideoloji maşının təsir gücünü artırmağa xidmət edirdi.

Azərbaycanda formalaşan sovet mətbuatı da Moskvanın diktə və klişeləri əsasında yaradılmışdı. XX əsrin əvvəllərində göz oxşayan, qəlblərə, zəkalara hakim kəsilən qəzetlər, jurnallar bir göz qırpımında yoxa çıxmışdı. Azərbaycan mətbuatının Həsən bəy Zərdabi, Cəlil Məmmədquluzadə, Üzeyir bəy Hacıbəyov, Əli bəy Hüseynzadə, Əlimərdan bəy Topçubaşov, Ömər Faiq Nemanzadə ənənələri elə bil bir anlığa unutqanlıq ovsununa məruz qalmışdılar. Rəsmi məlumatlara, ideoloji çağırışlara və növbəti beşilliyin planlarının yerinə yetirilməsinə həsr olunmuş bu qəzetlər partiya tərəfindən qoyulmuş məqsədlərə xidmət edərək ən istedadlı adamları belə hakim stereotiplər çərçivəsində yazıb-yaratmağa vadar etməyi böyük ustalıqla bacarırdılar.

Bu informasiya məkanında axşam qəzetləri xüsusi yer tuturdu. Bunlar olduqca az idi. XX əsrin görkəmli şairlərindən biri məhz belə qəzetlərlə bağlı söyləmişdi ki, yazıçıya şan-şöhrəti axşam qəzeti bəxş edir. Rəsmi məlumatların kifayət qədər az və ideoloji amilin zəif təmsil olunduğu bu qəzetlər öz səhifələrində daha çox mədəni həyatı və ədəbi prosesləri işıqlandırırdılar. Əbəs yerə deyil ki, qısa zaman ərzində Azərbaycan ədəbiyyatının parlaq ulduzuna dönən bir çox insanlar ilk addımlarını məhz «Bakı» qəzetinin səhifələrində atmışdılar. Elə bil axşam qəzetinə belə bir qeyri-rəsmi icazə verilmişdi ki, o, siyasətdən bir növ uzaq ola, şəhərin sakinləri üçün daha maraqlı hadisələrə çox yer ayıra bilər. Bəlkə də buna heç bir icazə yox idi, qəzetin siması redaktorun öz şəxsiyyətindən və dəst-xəttindən irəli gəlirdi. Təsadüfi deyil ki, Nəsir İmanquliyevi Həsən bəy Zərdabi ənənələrinin davamçısı kimi qiymətləndirməyə başladılar.

Nəsir müəllim öz istedadı, qələm ustalığı, fenomenal dil duyumu və təşkilatçılıq bacarığı sayəsində tezliklə «Bakı» qəzetini minlərlə insanın sevimlisinə çevirə bilmişdi. Nömrədən-nömrəyə «ardı var» qrifi ilə çap olunan ədəbi əsərlər, cavan şairlərin yaradıcılığı, müxtəlif konsert və tamaşalardan rəylər, idman reportajları, əslində, yeni tipli qəzetin formalaşmasına gətirib çıxardı. Bu

qəzetin obrazı ilk günlərdən, şübhəsiz ki, yalnız Nəsir müəllimin düşüncələrində, arzularında və istəklərində mövcud idi və o, həmin arzularını çin etməyi bacardı.

Jurnalist var ki, özündən sonra çox sayda oçerklər və məqalələr, kitabdar qoyub gedir. Bu az deyil. Lakin Azərbaycanda ikinci elə bir jurnalist tapmaq mümkün deyil ki, bir qəzetin bünövrəsini qoysun, nüfuzlu bir redaksiya heyəti yaradaraq 30 il boyunca hər sayı hamı üçün maraqlı bir qəzet çıxarsın. Məhz buna görə Nəsir müəllimdən sonra bu 30 il ərzində baş redaktoru olduğu «Bakı»–«Baku» qəzetləri qaldı. Bu qəzetlərin hər biri bizim dövri mətbuatımızın əzəmətli abidəsidir. Əslində, bunlar elə Nəsir müəllimin özünə ucaldılan möhtəşəm abidədir.



## «BAKI» ZƏRURƏTDƏN YARANDI

**– Nəsir müəllim, min bir zəhmət bahasına yaratdığınız qəzetin – bizim hamımızın qəzetinin qırx illik yubileyi günlərində Sizdən – öz müəllimimdən müsahibə almaq mənə fəxarətdir. Yetirmələriniz bu qəzetin araya-ərsəyə gəlməsində sizin böyük xidmətlərinizdən xəbərdardırlar. Qəzetin yaranma tarixini xatırlamaq, fikrimcə, yerinə düşərdi...**

– Hələ əllinci illərin ortalarında, Mərkəzi Komitədə işlədiyim vaxtlarda Azərbaycan dilində şəhər qəzeti çıxarmağın vacibliyi barədə məsələ qaldırmışdım. Həmin dövrdə Bakının azərbaycandilli sakinlərinin sayını və tələbatını nəzərə alaraq təklifimi bəyəndilər, bu barədə müvafiq qərar qəbul olundu. Ovaxtkı rejimin tələblərinə uyğun olaraq, şəhər qəzeti yaratmaq barədə qərar təsdiq üçün Moskvaya – Sov.İKP MK-ya göndərildi. İş elə gətirdi ki, həmin dövrdə məni Azərbaycan Radio Verilişləri Komitəsinə sədr təyin etdilər. Bu komitədə yeddi-səkkiz ay işləmişdim ki, Mərkəzi Komitədən mərhum Şıxəli Qurbanov mənə zəng çalıb bildirdi ki, şəhər qəzeti açmaq barədə qərarımızın Moskvadan təsdiqi gəlib.

Bu xəbəri eşidəndə sevincimin həddi-hüdudu olmadı. Mənə bütün təşkilati işləri görüb yeni qəzeti açmaq və ona rəhbərlik etmək həvalə olundu. Düzdür, radio komitəsindəki işimi dəyişib qəzetə redaktor keçməklə, əməkhaqqımda fərq olsa da buna heyfsilənmədim: çoxdankı arzuma qovuşmuşdum.

Beş ay sürən hazırlıq işləri başa çatdı, yenicə işıq üzü görən ilk axşam qəzeti bakılıların görüşünə gəldi. 1958-ci il yanvarın 10-da respublikamızda çıxan mətbu nəşrlər arasına adı paytaxtın adından götürülmüş «Bakı» qəzeti də əlavə olundu. Bu mətbu nəşr elə ilk sayındaca Bakı sakinlərinin, sadə əmək adamlarının, ziyalıların qəzeti olacağını, şəhərimizin mübarizə ənənələrini davam etdirəcəyini vəd edirdi.

**– Həmin vədlər yerinə yetirilirdimi?**

Əlbəttə, qəzetin ilk sayından şəhərimizin zəngin həyatını, bakılıların qəhrəman əməyini, quruculuq işlərini işıqlandırır, rəngarəng, oynaq qəzet janrlarından istifadə edirdik. Başlıcası isə ətrafımıza, necə deyərlər, güclü qələmlər toplamışdıq. Sənət adamlarının – Abdulla Şaiqin, Süleyman Rüstəmin, Sabit Rəhmanın, Mirzə İbrahimovun, Rəsul Rzanın, Hüseyn Abbaszadənin, Qabilin qələmindən çıxan bədii nümunələr, publisistik yazılar qəzetə həm rəngarənglik gətirir, həm də oxucu marağını,

rəğbətini artırırdı. Redaksiyanın kollektivinə də ümidverən, öz orijinal dəst-xətti, üslubu ilə seçilən jurnalistlər – Şamil Şahməmmədov (o, sonralar doğma qəzetində müxbirlikdən redaktorluğadək yüksəldi), Səfər Məmmədov, Manaf Süleymanov, Əhməd Rəşidov, Ādil Cavad, Kazım Ələkbərov, Çingiz Ələkbərov, Cəmşid Əmirov, Şamil Qurbanov, Rəfael Nağıyev, Cabir Novruz, rəssam Arif Ələsgərov, sonralar Fazil Rəhmanzadə, Nüsrət Kəsəmənli və adını çəkə bilmədiyim neçə qələm adamı cəlb olunmuşdu ki, onların əməyi bu gün ehtiramla yad edilməlidir. Qürur hissi ilə deyim ki, «Bakı» qəzetində yetişən neçə əməkdaş sonralar yüksək vəzifələrə irəli çəkilmişdir.

Əvvəllər qəzet kiçik formada çıxırdı. Tədricən tiraj artdı, «Bakı» reklam əlavələri ilə birlikdə çap olunmağa başladı. 1962-ci ildən isə rus dilində «Baku» qəzetini də buraxmaq bizə müyəssər oldu. Qəzetlərimiz oxunur, sevilirdi. Büdcəyə fayda gətirən şəhər qəzetlərimizin hətta respublikanın ucqar rayonlarında belə abunəçiləri vardı, çoxlu oxucu məktubu alırdıq.

**– Vaxtilə respublikamızda nəşr olunan «Yeni yol» qəzetində 1922-1939-cu illərdə on iki redaktor dəyişib. Siz isə «Bakı» və «Baku» qəzetlərinin 30 il redaktoru olmusunuz. Bu «uzunömürlülüyün» sirri nədədir?**

– Maraqlı sualdır. Təvazökarlıqdan kənar səslənməsin, zənnimcə,
bunun sirri təşkilatçılıq bacarığında, məsuliyyət hissinin güclü olmasında,
kollektivdə adamlarla dil tapmaq məharətindədir.



**– Bir qədər əvvəl redaksiyamızda ikiillik müxbirlər universiteti açılmışdı...**

– Yaxşı xatirimdədir, həmin universiteti nə qədər ictimai müxbir bitirmişdi. Məşğələləri jurnalistika fakültəsinin müəllimləri aparır, müdavimlərə xüsusi sənəd təqdim edilirdi. Sonradan həmin ictimai müxbirlərin çoxu təhsillərini jurnalistika fakültəsində davam etdirmişdi.

**– Nəsir müəllim, «Bakı» qəzetinin tarixində xeyirxah işlər, əməllər çox olub. «Bakı» və «Baku» qəzetlərinin fəxri redaktoru kimi, sizin qəzetlərimizin bu günü ilə bağlı fikirləriniz və yetirmələrinizə arzularınız...**

– Yaxşı ənənələr yaşayır. Arzu edirəm ki, qəzet yeni ildə maliyyə çətinliklərindən xilas olsun, mövzu axtarışlarınızı genişləndirəsiniz. Oxucularla görüşləriniz çoxalsın, operativliyiniz artsın. Axı, indi çox şeyi sürət həll edir.

*Söhbəti yazdı:* Zemfira Məhərrəmli
*«Bakı» qəzeti, 2 mart 1998-ci il*




*"Jurnalistika elə nadir peşələrdəndir ki, orada peşəkar mükəmməlliyin son həddi yoxdur".*

*Nəsir İmanquliyev*



Anar
*Azərbaycan Yazıçılar Birliyinin sədri, xalq yazıçısı*

## XOŞ XATİRƏLƏR

Görkəmli jurnalist Nəsir İmanquliyevlə şəxsən tanış olmaqdan çox qabaq onun adımı eşitmişdim. Müharibə illərində atamla bir yerdə Krım cəbhəsində ordu qəzetinin Azərbaycan redaksiyasında çalışdıqlarını bilirdim. Bu qəzetin Azərbaycan redaksiyasının rəhbəri tənqidçi və teatrşünas Cəfər Cəfərov idi. Çox illər sonra Cəfər Cəfərova fəaliyyətinin müharibə dövrü ilə bağlı böhtan atılanda onunla birlikdə Krım cəbhəsində olmuş yazıçı və jurnalistlər Rəsul Rza, Əli Vəliyev, Abbas Zamanov İbrahim Novruzov Cəfər Cəfərovu müdafiə edən məktub yazmışdılar, onun ən ağır şəraitdə özünü cəsur apardığını təsdiq etmişdilər. Məktuba imza atanlardan biri də Nəsir İmanquliyev idi. Elə buna görə də Nəsir müəllimə qiyabi şəkildə hörmətim vardı. Sonralar o «Bakı» – «Baku» qəzetlərinin redaktoru işlədiyi zaman və mən təzə-təzə yazı-pozuya başladığım vaxt şəxsən tanış olduq.

Nəsir müəllimin redaktorluğu vaxtında bu qəzet ən populyar qəzetlərimizdən idi və başqa rəsmi qəzetlərdən daha sərbəst, daha maraqlı yazılar dərc etməsi ilə fərqlənirdi. Mən də bu qəzetdə həvəslə





çıxış edirdim, çünki həmişə Nəsir müəllimin qayğıkeş və xeyirxah münasibətini duyurdum. Ayrı-ayrı hekayə, esse, məqalələrimdən başqa «Bakı»–«Baku» qəzetlərinin bir neçə nömrəsində ard-arda iri yazılarım da dərc edilmişdi. «Gecə yarısında hadisə» adlı sənədli məhkəmə povestim (həm azərbaycanca, həm rusca) «Şövkət xanımın qərənfilləri» adlı essem (həm azərbaycanca, həm rusca) «Polşanın yaddaşı» (rusca) adlı yol qeydlərim bir neçə nömrədə çap olunurdu və bu şübhəsiz redaktorun gənc müəllifə etimadı və hörmətinin nişanəsiydi.

240351

İnsan kimi mülayim xasiyyətə malik olan Nəsir İmanquliyev redaktor kimi tələbkarlığı ilə yanaşı, müəllif mətninə (istər yaşlı, istər gənc müəllif olsun) yersiz müdaxilə etməzdi. O illərdə bəzən həm Moskvada, həm Bakıda müəllif mətninə, niyyətinə, üslub xüsusiyyətlərinə saygısız yanaşan redaktorlarla üzləşdiyim üçün Nəsir müəllimin bu ziyalı davranışını minnətdarlıqla xatırlayıram.

Nəsir müəllimlə son görüşümü də xatırlayıram. Əfsus ki, bu kədərli xatirədir. Nəsir müəllim ən yaxın ailə üzvlərini itirmişdi, evində televizoru alışıb bütün mənzilində yanğın törətmişdi. Küçədə rastlaşdığımız zaman mənə bu yanğından, bir çox kitablarının, əlyazmalarının tələf olmasından yana-yana danışırdı. O gün üzünün qəmli ifadəsini də, dediyi sözləri də yaxşı xatırlayıram:

– Nəsir müəllim, necəsiniz? – sualıma – Anar, qocalıq pis şeydir, – dedi.

Bu kədərli görüşə rəğmən Nəsir müəllim mənim yaddaşımda həmişə xoş xatirələrlə yaşayır və uzaq gənclik illərimdə mənə xoş münasibətini də heç vaxt unutmuram.

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

**Balaş Azəroğlu**
*xalq yazıçısı*

## SÜFRƏMİZİN ÇÖRƏYİ

Tariximizin yaddaşında mühacirlər və mühacirət deyilən acı bir səhifə olub. Xaqani Şirvaninin, İmadəddin Nəsiminin şəxsi və ədəbi taleləri buna ən bariz nümunələrdir. İranda şah rejiminə qarşı mübarizə, milli hərəkat yaşadığımız son iki yüz ildə bir neçə dəfə təkrarlandı. Şeyx Məhəmməd Xiyabaninin, Səttarxanın, Pişəvərinin milli istiqlal uğrunda mübarizəsi yeni-yeni Babəklər, Xaqanilər, Nəsimilər yetişdirdi. Bölünmüş Azərbaycanın yasdan çıxaraq ayağa qalxan Milli Hökumətin qurucularına – 21 Azər hərəkatının üzvlərinə qarşı hücumlar başlayanda bu tayın 37-ci ildəki repressiyaları o tayda tüğyan etməyə başladı.

O zamandan ədəbiyyatımızda, ictimai fikrimizdə mühacir və mühacirət ədəbiyyatı mövzusu başladı. Mədinə Gülgün, Hökumə Billuri, Əli Tudə, Söhrab Tahir, mən və bizim kimi neçə-neçə vətənpərvər şair öz vətənimizdə mühacirə çevrildik.

Araz, Təbriz həsrətindən, vətən itkisindən yaza-yaza XX əsrin mühacirət ədəbiyyatını yaratmış olduq. Mirzə İbrahimov, Mir Cəlal, Şəfaət Mehdiyev,





Nəsir İmanquliyev yaradıcılığı isə bir qədər də çoxşaxəli oldu. Alim, şair, yazıçı, mətbuat və institut qurucuları olan bu simalar həmin mühacirlərin bir növ dayaq yerləri oldu. Hörmətli Şəfaət müəllimin, Nəsir müəllimin, böyük yazıçımız Mir Cəlalın xeyirxahlığı, yaxşılığını heç birimiz unuda bilmərik.

Dara düşəndə, bir çətinlik olanda, xeyir-şərdə onların üstünə gedirdik. Mənim həyatımda, yaradıcılığımda çox böyük rol oynayan, düzünü desək, məni mətbuata çıxaran, oxuculara sevdirən, dövlətə tanıdan hörmətli alimimiz, gözəl qələm sahibi, əsl müəllim Nəsir İmanquliyevin zəhmətini isə unuda bilmərəm.

O zamanlar, indiki kimi deyildi, üç-dörd qəzet var idi. Onların ikisində «Kommunist» və «Bakı» qəzetində xüsusi nüfuza malik olan Nəsir müəllim şəxsən mənə yol açmaqla, ailəmin çörək verəni olub. Çünki onun yazdığı «qonorarlar» süfrəmizin çörəyi olub, əyin-başımızı düzəldib.

Nəsir müəllim kommunist idi. Dövlət adamı idi. Məmur idi. Amma Allahı başının üstündə, əməlində idi. Olduqca istedadlı qələm sahibi olan Nəsir müəllim böyük bir yazıçı qəlbini, şair təbiətini jurnalistikada, dövlət işində əritdi. «Bakı» və «Baku» qəzetini bir növ Yazıçılar İttifaqının filialına çevirməklə azad fikirli, istedadlı insanlara özünütəsdiq üçün qapı açdı.

Nəsir müəllim olduqca şən, zarafatcıl, əsl xeyir-şər adamı idi. Amma, olduqca ciddi, işini səliqəli görən, söz götürməyi sevməyən, ləyaqətli ziyalı idi. Beləsinə əsl şəxsiyyət deyirlər. Onun kübarlılıq, qüruru - Savalanı, kövrəkliyi - Arazı xatırladırdı, o

qədər kövrək adam idi ki, bir dərdli görəndə uşaq kimi ağlayırdı. Onun problemini həll etmək üçün açılmayan qapıları belə açardı.

Nəsir müəllim mənim də, əzizim Mədinənin də qardaşı, arxası idi. İndi yaşımın bu çağında, əlim qələm, dilim söz tutmayan vaxtda göz yaşımı sel edə-edə bəlkə də son sözləri söyləyirəm. Əzizlərim, bir zamanlar həyat necə də şirinmiş, hər tərəfdə xoşbəxtlik çiçəyi açıbmış. Siz olanda dostum, arxam, dayağım varmış. Əvvəl bölünmüş Azərbaycan oduna yandım, Balaş Azəroğlu oldum. İndi də qərib, tənha quşa dönmüşəm. Qolum-qanadım qırılıb. Sizin ikiniz də dostluqda, etibarda, sədaqətdə əvəzsiz idiniz.

İkinizin də bir amalınız var idi, xeyirxahlıq, yaxşılıq etmək. Möhkəm dost idiniz. Gecə kurslarına radio məşğələlərinə, zəhmətkeşlərlə görüşə birlikdə gedərdiniz.

Yadımdadır, bir dəfə Lənkəran zəhmətkeşləri ilə görüşdən gəlmişdiniz. Əhvalımız pəjmürdə idi. Arazı keçib o taya getməmək dərd olmuşdu sizə. Bu səfərimiz maraqlı səfər xatirəsinə, poeziya nümunəsinə çevrilmişdi...

İndi əllərim titrəyə-titrəyə çox şey yazmaq istəyirəm. əllərim sözümə baxmır. Onu bilirəm ki, siz cənnət quşlarına dönüb cənnətdə yuva qurmusunuz. Axı siz nəfsi tox, duyğuları təmiz insanlar idiniz.

Əzizim Nəsir, bilmirəm bu kitab çıxana qalarammı. Qalsam onu bağrıma basıb sənli günlərin iyini alaram. Qalmasam, yenə şükürlər olsun. Səni yada salmaq, səndən yazmaq cənnəti bu dünyada qazanmaqdı, ən böyük xeyirxahlıqdı.







**Bəxtiyar Vahabzadə**
*xalq şairi*

## CƏSARƏTİN SİMVOLU

İkinci Cahan müharibəsinin ən qızğın dövründə, yəni 1944-cü ildə «Kommunist» qəzetinin baş redaktoru Əli Vəliyev, baş redaktorun müavini Nəsir İmanquliyev idi. Nəsir müəllimi o zamandan tanıyıram. Çünki onların rəhbərliyi ilə «Kommunist» qəzetinin nəzdində ədəbiyyat dərnəyi təşkil olunmuşdu. Dərnəyi Əli Vəliyevlə, Nəsir müəllim aparırdı. Və bunların ikisində də gənclərə bir məhəbbət, qayğı hissi var idi. Gənclərin püxtələşməsində çox böyük zəhməti olan bu böyük ziyalılar bizim ilk şeirlərimizi dinləyər, qulaq asar, bəyəndikləri, məsləhət bildikləri qəzetin gələn nömrələrində çap olunardı.

Sonra 1947-ci ildə isə Nəsir müəllim universitetdə pedaqoji fəaliyyətə başladı. Azərbaycan mətbuatından, ümumən mətbuatın nəzəri məsələlərindən mühazirələr oxuyan Nəsir müəllim Universitet auditoriyalarında nəzəriyyə ilə praktikanı birləşdirməklə yeni, ali təhsilli jurnalistlər nəslinin yetişdirilməsinə əmək sərf etdi.

Mətbuatın müharibədə rolunu həsr olunan elmi işini çox böyük uğurla müdafiə etdi. 1947-ci ildən ömrünün sonuna qədər pedaqoji fəaliyyətlə məşğul olan Nəsir müəllim universitetin siması sayılan ləyaqətli ziyalılardan idi.

Onun nəşrə başlayan «Bakı» qəzetinə baş redaktor təyin olunması isə, demək olar ki, hadisəyə çevrildi. Nəsir müəllimin şəxsiyyəti, istedadı, peşəkar qələmi, milli vətənpərvər hissləri tez bir zamanda yenicə işıq üzü görən qəzetə nüfuz qazandırdı.

1958-ci ildən ana dilində nəşr olunan «Bakı» qəzetinin həm də rusca nəşri Nəsir müəllimə təkcə bir professional qələm sahibi kimi deyil, vətənpərvər ziyalı kimi də hörmət gətirdi. Azərbaycan ədiblərinin əsərlərini tərcümə etdirərək, çox zaman da özü tərcümə edərək rus dilində çap edən Nəsir müəllim sözün, bədii əsərlərin dili ilə xalqının mənəvi zənginliyini yad millətlərə sübut edirdi.

O zaman biz cavan nəsil, şair və ədiblər hörmətli Nəsir İmanquliyevin redaktor olduğu «Bakı» qəzetinin redaksiyasında tez-tez görüşərdik. Yaxşı yadımdadır, ilk şerlərim məhz bu qəzetdə çap olunmuşdu.

Təkcə şerlərim deyil, bir sıra publisistik, ictimai-siyasi məqalələrim də bu qəzetin səhifələrində işıq üzü görmüşdür. Xüsusilə də İçərişəhərlə bağlı. O, hələ qoruq elan olunmamışdı. Bakı küçələrinin adlarının dəyişdirilməsi barədə silsilə yazılar da yəqin oxucuların yadındadır.

Heç kimə gizli deyildi ki, şəhərimizin küçələrinin adlarının 80 faizi özgə millətlərdən olanların adlarını daşıyırdı. Mən bu adların dəyişdirilməsinə çox çalışırdım. Ruhu şad olsun Nəsir müəllimin. Mənim bu yazılarımın hamısını qəzet səhifələrində çap edirdi. Bu adam o zamanlar çoxunda olmayan cəsarətin simvolu idi. Onu da deyim ki, mənim bir şair, alim və ictimai xadim kimi yetişməyimdə «Bakı» qəzetinin böyük rolu olub. Mən bunu heç vaxt unutmaram və həmişə minnətdarlıqla xatırlayıram.

Bundan əlavə Nəsir müəllim «Bakı» qəzetində istedadlı cavanların elmi, ədəbi mərkəzi yaratmışdı. Şamil Qurbanov, Famil Mehdi, Şamil Şahməmmədov kimi tanınmış alimlər, ədəbiyyatşünaslar, jurnalistlər «Bakı» qəzetində püxtələşmişdilər. Biz də hər yerdə bu cavan alimlərə, jurnalistlərə Nəsir müəllimin tələbələri, yetirmələri kimi baxırdıq. Bir faktı da qeyd etmək istəyirəm. Bizim universitet Şəfaət Mehdiyevin, Cəfər Xəndanın, Mir Cəlalın universiteti kimi ad çıxarmışdı. Çünki bu insanlar təkcə böyük alim, müəllim deyildilər. Əsl şəxsiyyət, vətəndaşlıq nümunəsi idilər.

Universitetdə çalışmağım məni hörmətli alim, müəllim və söz adamı ilə çox yaxın etmişdi. Çünki biz iclaslarda, yığıncaqlar, mərasimlərdə bir olardıq. Qonşu auditoriyalarda mühazirələr oxuyardıq. Bir də eşitdik ki, Mir Cəlal müəllimlə Nəsir müəllim qohum olub. Mir Cəlal müəllim oğlu Arifə Nəsir müəllimin yeganə qızı Aidanı ad edib. Çox sevindik. Sözün həqiqi mənasında çox sevindik. Bu qohumluq





təsadüfi deyildi. Ona görə ki, bu adamlar xarakterсə bir-birinə çox yaxın idilər. Hər ikisində bir mədəniyyət var idi. Ziyalılıq var idi. Sözün geniş mənasında ziyalılıq. Onu da qeyd etmək istəyirəm ki, bu böyük qələm sahiblərində həm də gözü toxluq, nəfsi təmizlik var idi. Onlar öz nəfslərinin hakimi idilər.

Tələbələrinə övladları kimi baxan böyük insanların xeyir işlərində də iştirak etdik. Övladlarına xeyir-dua verdik. Allaha şükür, bu iki nəslin, xeyirxah ailələrin qohumluğu, iki gəncin uğurlu nikahı öz bəhrəsini verdi. Bir cüt qızılgül dünyaya gəldi. Nərgizlə, Mehriban.

Bu mehriban, gülərüz qızlar gözümüzün qabağında böyüyüb kamala çatdılar. Ana oldular. Elmə, mədəniyyətə, elm adamlarına qayğıları, ictimai fəaliyyətləri, insanlarla xoş rəftarları ilə Mir Cəlal kimi, Nəsir müəllim kimi müdriklərin, akademik Arif Paşayev, şərqşünas alim, professor Aida İmanquliyevanı genindən olduqlarını təsdiq etdilər. Bu xoş əməl, uğur yol nə yaxşı ki, bu gün də davam edir...

**Cabir Novruz**
*xalq şairi*

## «BAKI» QƏZETİNİ MƏN HƏMİŞƏ ÜLVİ MƏHƏBBƏTLƏ VƏRƏQLƏMİŞƏM

«Bakı» qəzetini mən həmişə ülvi məhəbbətlə oxumuşam, oxuyanda elə bil o səhifələr arasında öz gəncliyimi görürəm. Həmişə tərcümeyi-halımı tərtib edəndə «Bakı» qəzetinin adını iri hərflərlə yazıram. Taleyimə son dərəcə minnətdaram. Düz 40 il bundan əvvəl ilk dəfə bu qəzetdə işə başlamışam.

Məhz burada çalışdığım yeddi il ərzində istər şair, istər jurnalist kimi sözün həqiqi mənasında, təcrübə məktəbi keçmişəm və sonralar həmin qəzetdən əxz etdiyim dərslər mənə «Ulduz» və «Azərbaycan» jurnallarına, eləcə də «Ədəbiyyat» qəzetinə başçılıq etməkdə çox karıma gəlmiş və əlimdən tutmuşdur.

«Bakı»nın bu 40 illiyində mən milli mətbuatımızın ağsaqqalı, görkəmli jurnalist, böyük insan, qəzetin yaradıcısı, onun geniş oxucu





kütlələrinin sevimlisinə çevrilməsində əvəzsiz xidmətləri olan, az qala bir qərinə «Bakı» və «Baku» qəzetlərinə başçılıq edən Nəsir İmanquliyevi xüsusi ehtiram, hörmət və minnətdarlıq duyğuları ilə yada salıram. Biz – o dövrün «Bakı»ları sonralar müstəqil vəzifələrdə çalışanda, hər yerdə qürurla «Nəsir müəllimin yetirmələriyik» demişik.

**Fikrət Qoca**
*xalq şairi*

## NƏSİR MÜƏLLİM HAQQINDA

O illərdə yazıçı, şair üçün çap olunmağa çox az yer vardı. Xüsusilə gənc yazarlar üçün. Bədii əsərləri «Ədəbiyyat və İncəsənət» qəzeti, bir az «Gənclər» qəzeti, bir də «Bakı» qəzeti çap edirdi. Bəlkə «Bakı» qəzeti də şeir çap etməzdi. Baş redaktoru Nəsir müəllim yox, başqa biri olsaydı. O, bədii əsərin yaxşısını, pisini seçə bilirdi və ürək genişliyi ilə ədəbiyyata qəzetdə yer verirdi, xüsusilə cavanlara. Məni Nəsir müəllimlə Cabir Novruz tanış eləmişdi. O, Moskva Qorki adına Ədəbiyyat İnstitutunu yeni bitirib gəlmişdi. «Bakı» qəzetinin ədəbiyyat şöbəsində işləyirdi. Dostlaşmışdıq, tez-tez görüşürdük. Bəzən məktubları seçməkdə də Cabirə kömək edirdim.

Bir dəfə Nəsir müəllim şöbəyə girdi. Mən də məktubları saf-çürük edirdim. O, təəccüblə mənə baxdı. «Yəni bu kimdi?» Cabir tez ayağa qalxdı. Mən də başımı qaldırıb Nəsir müəllimi gördüm, cəld ayağa qalxdım. Cabir məni təqdim etdi:



– Nəsir müəllim, bu Fikrət Qocadı. Moskvada Qorki adına məktəbdə oxuyur. Tətilə gəlib mənə kömək eləyir. Mehribanlıqla görüşdü. Yazılarımı gətirməyi təklif etdi. Cabir dedi ki, məndə yazıları var.

İki gün sonra qəzetdə yazılarım çap olundu. Yaş fərqimiz çox olsa da Nəsir müəllim elə münasibət yaradırdı ki, adam onunla ünsiyyətə can atırdı. Sonralar Moskvadan da məktubla şeir göndərirdim. Tez də çap olunurdu. Bir zaman gördüm ki, göndərdiyim yazılar it-bat olur, qəzetdə çıxmır, yoxa çıxır. Tətilə gələndə bildim ki, Cabir iş yerini dəyişib. Birbaşa Nəsir müəllimin yanına getməyi özümə yekəxanalıq saydım, şöbəyə getdim. Orada başqa bir adam əyləşmişdi. Tanış olduq. Ona üç şeir verdim. Şeirlərimi yanımdaca oxudu, iki şeri mənə qaytardı, dedi «bunlar heç», bu şeri bir az düzəldib verərəm redaktora.

Özümü birtəhər ələ alıb sakitləşdim, dedim hay-küy salaram Nəsir müəllim deyər bu nə həyasız adam imiş. Ondakı şeri də əlindən aldım, otaqdan tez çıxdım. Çıxdım dəhlizə, dərin bir nəfəs alıb özümü sakitləşdirirdim, birdən qarşımda Nəsir müəllimi gördüm. Bilmədim idarədən gedirdi, yoxsa idarəyə gəlirdi. Gülümsünüb mənə əl uzatdı, görüşdüm. «Xoş gəlmisən. Tətildi hə...gəl görüm» kabinetinə keçdik.

– Yazı gətirmisən?

– Bəli, – dedim.

– Görüm...

Aldı şeirlərə baxdı, dedim şöbədə bunları bəyənmədilər. Niyə pis deyil, çap olunar – dedi.

O, bizim təzə işçidi. Cavandı, özü də şeir yazır. Yazılarını sən elə birbaşa mənim yanıma gətir.

Nəsir müəllim həssas insan idi. O, bilirdi ki, bu şeirlərin çapı mənə həm də dolanmaq üçün lazım idi. Başa düşürdüm ki, şeirlərimi bəyəndi, bəyənmədi çap etməyi ilə o mənə maddi yardım göstərirdi. Aldığım qonorar mənim üçün böyük pul idi. İndi min rəhmətlə Nəsir İmanquliyevi xatırlayarkən başqa qəzet və jurnal redaktorları da gəlib gözüm önündən keçdi. Mən bu günümə görə o gözəl insanlara, dəyərli ziyalılara ürəyimdə minnətdarlıq hissi keçirdim.







**Hamlet Qoca**
*yazıçı*

# XATİRƏLƏRDƏN

...1982-ci ildə uzun müddətli xarici ezamiyyətdən qayıdandan sonra uşaqlarımın ana dilində mütaliəsini artırmaq üçün kitablar arayırdım. Yeni çap olunmuş «Azərbaycan nağılları» kitabını tapanda sevindim. Amma bu sevincim uzun çəkmədi. Böyük oğlum kitabı oxumağa başlayandan az sonra mənə suallar verməyə başladı: «Dəfn-kəfn» nə deməkdir? «Süvar olub şikara çıxmaq» nə deməkdir? «Bəçeşm» nə deməkdir? və s. Kitabı özüm oxumalı oldum. Gördüm nağıllarımızın dilində bu cür ifadələrin işlənməsi bir yana, mənəviyyatına da müəyyən mənfi dəyişikliklər gətirilib. Elə bunları demək üçün bir məqalə yazdım, adını da oğlumun birinci sualına əsasən «Dəfn-kəfn» nə deməkdir?» qoydum.

Getdim «Ədəbiyyat və İncəsənət» qəzetinə. Ovaxtkı redaktor məni və bu məqaləni xeyli tərifləyəndən sonra onu müvafiq şöbənin müdirinə göndərdi. Bir ildən çox vaxt keçdi, amma məqalə çap olunmadı. Şöbə müdirinin yanına gedəndə isə o mənə açıqca bildirdi ki, məqaləni qəsdən çap etmir, nağıllarda işlənmiş ifadələr də dilimizdə işlənməlidir. Heç nə anlamadan məqaləni geri götürdüm və bir gün sonra aparıb verdim «Bakı» qəzetinin bir şöbə müdirinə. Yenə bir ildən çox gözləməli oldum.

Nəhayət ağlıma gəldi ki, məqalənin ikinci nüsxəsini aparıb qəzetin ovaxtkı redaktoru Nəsir İmanquliyevə göstərim. Asanlıqla qəbuluna düşüb yazını Nəsir müəllimə göstərdim. Oxuyub məni təbrik etdi və dedi ki, məqalə mütləq çap olunacaq. Üstəlik də əlavə etdi ki, istəyirəmsə «Ciddi siqnal» başlığı altında çap oluna bilər. Nəsir müəllimə dedim ki, kitabın çapından artıq üç ildən çox vaxt keçib və məqalənin tarixçəsi haqqında ona qısa məlumat verdim. Kişinin qəzəbdən rənginin boğulduğunu görəndə isə buna peşman oldum. O, məqalənin üstünə nə isə yaza-yaza mənə dedi: «Məqalə sabahkı nömrədə çap olunacaq» Qısaca bir görüş vaxtı mərd və təmkinli bir insan olduğunu duya bildiyim Nəsir müəllimin niyə əsəbiləşdiyini neçə illər sonra kimin kim olduğunu biləndən sonra anladım.

Ertəsi gün məqalə çap olundu. Xoşu gələn-gəlməyənlərdən xoş sözlər eşitdim. EA Ədəbiyyat İnstitutunun bir elmi əməkdaşı isə mənə belə dedi: «Məqalən çox bəyənilib, əgər üstündə «Ciddi siqnal» yazılsaydı İnstitutda müzakirə olunacaqdı...»

O vaxt arzuladığım kimi elə indi də çox istəyirəm ki, bütün dövrlərdə ziyalılarımız arasında Nəsir İmanquliyev kimi kişilər çox olsun.

**Hidayət**
*yazıçı*

## MƏTBUATIMIZIN NƏSİR İMANQULİYEV MƏRHƏLƏSİ

Ömür bir qatardır, yol gedir, ancaq o qatarda təkcə sən deyilsən, sərnişinləri var – qocası-cavanı, kişisi-qadını, fəhləsi-mühəndisi, yazıçısı-alimi... Min-min sərnişinin içində maraqlı insanlar, şəxsiyyətlər, müdriklər yadında qalır, yol yoldaşına, həyat bələdçisinə çevrilir, həmişə xoş təəssüratla xatırlanır. Aradan illər keçsə də!...

1963-cü ildən – mənim ömür qatarım da Azərbaycan Dövlət Universitetinin tələbəsi kimi yolumu davam etdirdi. O çağlar sanki srağagün idi. Görkəmli adamlarla ilk tanışlığın, sonrakı münasibətlərin yaşı o qədər də çox deyil. Əslində isə...

Sən demə, günlərin, ayların içində olanda vaxtın tez keçdiyi o qədər də hiss olunmur, fəqət qırx üç ilin uzaqlığından baxanda təəssüflənirsən ki, qatarın nə yaman sürətliymiş!...

O illərdə gələcək filoloqlar da, jurnalistlər bir fakültənin uşaqlarıydı (jurnalistika bölməsi





«filfak»ın tərkibində idi) və bir-birimizi yaxşı tanıyırdıq, hətta «potok» dərslərimiz, mühazirə dinləməyimiz də bir yerdə olurdu. «Nəsir müəllim» adını ilk dəfə o zaman jurnalistika fakültəsinin uşaqlarından eşitmişdim. İlk vaxtlardaca yüksək ziyalı, peşəkar qəzet redaktoru, ciddi, fikrini yığcam və dəqiq deməyi bacaran, ən əsası öyrətməyi bacaran tələbkar pedaqoq kimi. O da yadımdadır ki, ilk dəfə mən onu tələbələrdən imtahan götürən anlarda görmüşdüm.

...Tanınmış şair-jurnalist dostum Səyavuş Sərxanlının imtahandan çıxmasını gözləyirdim. Otağın qapısı açıq idi, hələ ki, bir qız imtahan verirdi, üzü qapıya sarı əyləşmişdi, səsi bizə çatmırdı. Çöhrəsindəki ifadələrdən necə həyəcan keçirdiyi, bildiklərini müəlliminə necə dəqiq çatdırmaq istədiyi aydın görünürdü. Sonra Səyavuş imtahan verdi. O qız da (adını unutmuşam), Səyavuş da «əla» qiymət aldılar. Onlar o gün imtahan verən son tələbələr idilər. Nəsir müəllim stolun üstündəki kağızlarını yığışdıranacan Səyavuş ona nəyi isə maraqla danışırdı. Otaqdan birlikdə çıxdılar. Nəsir müəllim mənə baxan zaman Səyavuş «Hidayət «filfak»ın tələbəsidir, şairdir, dostumdur» deyərək məni təqdim etdi. Nəsir müəllim bir də mənə maraqla baxdı, başıyla təsdiqlədi və bizdən uzaqlaşdı. Mən çox məmnun oldum və təəccübləndim. Görünür, Nəsir müəllim Səyavuşa gənc şair-jurnalist kimi hörmət edirdi. Şübhəsiz, hər tələbə də öz gənc şair dostunu Nəsir İmanquliyev kimi görkəmli qəzet naşirinə və pedaqoqa belə yolüstü təqdim edə bilməzdi.

Nəsir müəllimin imtahanı səhv etmirəmsə, ikinci kursda olurdu və tələbə dostlarımdan, tanışlarımdan kiminsə onun imtahanına hazırlaşdığı qədər başqa imtahana hazırlaşdığını görmədim. Tələbələr Nəsir İmanquliyevdən yaxşı qiymət almağı universiteti uğurla bitirmək, jurnalistlik sənətinə yiyələnmək ümidi kimi baxırdılar. Başqa bir həqiqət də yadımdan çıxmayıb. Nəsir müəllim özünə, assistentlərinə, tələbələrə nə qədər tələbkar olsa da, imtahandan bircə nəfər də olsun tələbə «kəsdiyini» eşitmədim. Öyrədərdi, oxutdurardı, çox tələbkar yanaşardı, öyrətməyincə qiymət yazmazdı - get, bir neçə gün də hazırlaş deyərdi, amma «kəsməzdi».

Populyar, maraqlı mətbuat olan «Bakı» qəzetinin baş redaktorunun (o illərdə «redaktor» deyilirdi) gələcək jurnalistlərə dərs verməsi tələbələr üçün çox önəmli hadisə idi. O illərdə düşünürdüm ki, qəzetin mövzularını belə maraqlı, rəngarəng edə bilən, belə baxımlı və tematikaya uyğun yaratmağı bacaran baş redaktor harada formalaşıb? Sonralar məlum oldu ki, gənc Nəsir hələ iyirminci illərin ortalarında peşə məktəbində oxuyan zaman çilingər peşəsinə yiyələnəndə də, mətbuatla maraqlanıb. Sonralar neft texnikumunda oxuya-oxuya «Kommunist», «Yeni el», «Gənc işçi» qəzetlərində çalışıb. Neft texnikumu və mətbuat? O illərdə də, indinin özündə də bu adətincə səslənmir. Gənc Nəsiri mətbuata çəkən onun təbii, anadangəlmə istedadının görüntüləri idi. Ədəbi işçilikdən ədəbi şöbənin müdir müavini, şöbə müdiri, məsul katib, redaktor vəzifələrinə uzanan yollar...

Nəsir müəllim mürəkkəb qəzetçilik sənətinin incəliklərinə yiyələndi, İkinci dünya savaşında da mətbuatdan ayrılmadı, siyasi işçi kimi cəbhədə iştirak edərək, «Döyüşən Krım» qəzetinin məsul katibi və hərbi hissədə tərcüməçi oldu.

İmkan tapan kimi təhsilini davam etdirdi: Moskvada Mərkəzi Qəzet Kursunu bitirdi, Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsini ekstern yolu ilə iki ilə başa vurdu, Moskva Ali Partiya Məktəbinin dinləyicisi oldu... Bakı Şəhər Partiya Komitəsinin təbliğat və təşviqat şöbəsinin müdiri, Azərbaycan KP MK təbliğat və təşviqat şöbəsinin müdir müavini, Mədəniyyət Nazirliyinin Radioinformasiya Baş İdarəsinin rəisi və nazirliyin kollegiya üzvü oldu...

Bir neçə profilli təhsil, mətbuatda ideologiya sahəsində ardıcıl fəaliyyət və yuxarıda dediyim kimi, sövq-təbii jurnalistlik istedadı və marağı onu redaktor-şəxsiyyət kimi formalaşdırdı və 1958-ci ildə «Bakı» qəzeti yarananda yəqin ki, Mərkəzi Komitədə Nəsir İmanquliyevin bu yeni orqana baş redaktor təyin olunmasının müzakirəsi çox vaxt aparmadı. 1963-cü ildən çapa başlayan «Baku» qəzetinin baş redaktorluğu da ona həvalə edildi.

Nəsir İmanquliyev istedadı, qəzetçilik sənətində dərin bilgisi, axtarışları, özünəməxsus tapıntıları sayəsində o illərdə son dərəcədə maraqlı, ən çox oxunan «Bakı»nı yaratdı və uzun illər ondan ayrılmadı. Nə üçün «Bakı»dan ayrılmadı? O vaxtlar da bu sual məni düşündürürdü. Belə mahir qəzet tərtibatçısı və redaktoru o illərin baş qəzeti sayılan «Kommunist»ə də rəhbərlik edə bilərdi və onu da «Bakı»nın səviyyəsinə qaldırardı. Ancaq «Bakı» onun övladıydı, məncə, ona görə ondan ayrılmırdı

və uzun, mənalı fəaliyyətində bu qəzetin son nömrəsinə imza atanacan da öz məqamına, peşəkarlıq səviyyəsinə, qəzet naşirliyi «dəst-xəttinə» sadiq qaldı.

* * *

«Bakı» qəzeti qısa rəsmi məlumatlarla sosial-iqtisadi xəbərlərlə birgə elm, mədəniyyət, idman barədə operativ informasiyalar, geniş məqalələr çap edirdi. Xüsusilə milli-mənəvi dəyərlərimiz barədə çap etdiyi yazılar, ədəbi parçalar, futbol reportajları və hesabatları mənim diqqətimi çəkirdi. Ona görə Maralzəmidə də, İrəvanda da «Bakı»nı oxuyurdum.

Bir epizod da yadımdan çıxmır: 1967, ya da 1968-ci il idi. O vaxtlar erməni təcavüzkarları yenidən fəallaşmışdılar, hətta həyasızcasına şayiələr yayırdılar ki, Qarabağla Naxçıvan guya yaxın günlərdə onlara veriləcək. Mən İrəvanda «Sovet Ermənistanı» qəzetində işləyəndə belə şayiələri eşidə-eşidə, şübhəsiz, psixoloji ağırlıq içindəydim. Elə o günlərdəcə Bəxtiyar Vahabzadənin «Bakı» qəzetində bir şerini oxudum. İlk misraları indiyəcən yadımdadır:

Azərbaycan oğluyam! –
Adım yaşımdan qədim.
Heç kəsin toyuğuna
Ömrümdə «kiş» demədim.
Kimsənin torpağında
Gözüm yox, bilsin aləm,
Torpağımdan bir çərək
Kimsəyə də vermərəm.



Mən qədim bir mahnıyam,
Xallarım əlvan-əlvan,
Musiqim Qarabağdır,
Sözlərimsə – Naxçıvan!
Bu yerdə bəstələnmiş
Koroğlunun «Cəngi»si,
Qıratın «Üzəngi»si...

Bu şeir ürəyimə məlhəm oldu, sanki içimə inam doldu, sakitləşdim. Məni ən çox sevindirən o idi ki, ermənilərə sillə kimi dəyən bu şeir «Bakı» qəzetində (ədəbi orqanların o illərdə belə şeir çap etməyə cəsarətləri çatmazdı) – Şəhər Partiya Komitəsinin orqanında çap olunmuşdu. Bu şeir İrəvanda erməni ədəbi mühitində bomba kimi partladı və rəsmi qəzetdə də çap olunduğundan əsərdə deyilən fikirləri Azərbaycanın rəsmi mövqeyi kimi qəbul etdilər.

Mən Bəxtiyar müəllimə telefon açdım, təşəkkür elədim, rəsmilərin münasibətini soruşdum. «Mənə də, Nəsir müəllimə də ciddi təqiblər var. Amma Nəsir müəllim bildirmir, o, çox dözümlü və məğrur adamdır».

Aradan illər keçəndən sonra Nəsir müəllimlə görüşəndə o şeri xatırladım və çap etdiyi üçün təşəkkürümü bildirdim. Bircə kəlmə demədi ki, o vaxt hansı təzyiqlər, təqiblər olub. Sanki o adi bir şeir imiş.

Çünki professional idi!

Bütöv şəxsiyyət, prinsipial insan idi!

Milli-mənəvi dəyərlərimizin qorunmasını, tariximizin düzgün öyrənilməsini, ədəbiyyatımızın, mədəniyyətimizin təbliğini jurnalistlik fəaliyyətinin əsas qayəsi sayırdı.

Əsl professional olduğundan professionallardan çəkinmirdi, əksinə, rəhbərlik etdiyi qəzetin şöbələrinə də peşəkarları, mütəxəssisləri, işdən xəbərdarları cəlb edirdi. Məsələn, redaksiyanın ədəbiyyat və mədəniyyət şöbəsində müxtəlif vaxtlarda şairlərdən Cabir Novruz, Nüsrət Kəsəmənli, nasir-publisist Ağəddin Mansurzadə çalışmışdılar.

«Bakı» qəzeti məndən nə çap edib? Yadıma sala bilmirəm. Çünki nədənsə bu qəzetə yazı təqdim etməmişdim. Ancaq onu xoş duyğularla xatırlayıram ki, həmişə oxuduğum bu qəzetin səhifələrində mənim haqqımda çox yazı çap olunub. Hələ İrəvanda yaşadığım illərdə çap olunan kitablarım, səhnəyə qoyulan pyeslərimin tamaşaları barədə sanballı məqalələr çap olunub. Hətta bəzən çap olunmamış yazılarım barədə də fikir söylənilib. Xatirimdədir: hələ altmışıncı illərin sonlarında Xəlil Rzanın gənc şairlərin əsərlərinə həsr olunmuş irihəcmli məqaləsində belə sətirlər vardı: «... Şeirlərini İrəvandan göndərən Hidayətin «Qoca» adlı şerinə diqqət yetirək...» Müəllif şeri bütöv verirdi və təqdir – fikirlərinin həcmi şerin həcmindən çox idi... Belə yazılar qaynar Bakı ədəbi mühitindən uzaqda yaşayan gənc şairə əvəzsiz mənəvi dayaqdı və şübhəsiz, baş redaktor ona görə çap olunmamış şerə belə geniş yer ayırırdı.

İrəvanda və Bakıda nəşr olunan kitablarım barədə də görkəmli müəlliflərin dəyərli məqalələri çap olundu bu qəzetdə. Nəsir müəllimlə bir görüş isə heç yadımdan çıxmır. 1978-ci ilin noyabr ayında İrəvan Azərbaycan Dram Teatrı öz qədim və zəngin





tarixində ilk dəfə Bakıya qastrol səfərinə gəlmişdi. Bu səfər Bakıda da, İrəvanda da çox qeyri-adi və heyrətlə qarşılandı. Yüksək ideya-bədii tutumlu, professional səviyyəli tamaşalar Azərbaycan tamaşaçılarını heyran etmişdi. Görkəmli adamlar, alimlər, yazıçılar İrəvan Teatrının tamaşalarına maraqla baxdılar. Və bir axşam qəzet redaktorlarının demək olar, hamısı mənim «Məhəbbət yaşayır hələ...» pyesimin tamaşasına baxırdılar. Tənəffüsdə, Musiqili Komediya Teatrının direktoru Bala Qasımovun kabinetində çay içəndə Nəsir müəllim məndən soruşdu:

– Hidayət, siz nə üçün bizim qəzetə yazı vermirsiniz?

Bu sözləri görkəmli redaktorun mənə verdiyi mükafat kimi qəbul etdim:

– Nəsir müəllim, Sizə elə minnətdaram! – dedim, – haqqımda ardıcıl yazılar çap edirsiniz, üzüm gəlmir, – sonrasını zarafata salmaq istədim, – qorxuram mənim yazılarıma yer tapılmaya.

Ürəkdən güldü və hamı bu gülüşə qoşuldu. Sonra əlavə etdim: «Nəsir müəllim, «Bakı» həmişə mənlə gəzir. Maralzəmidə, Zəngəzurda mənim kiçik kəndimdir, abunə yazılıb almışam, İrəvanda yaşadığım çox illərin hamısında abunəçiyəm. Sizə minnətdaram belə qəzet üçün».

Tamaşadan sonra Nəsir müəllim əsər barədə quruluş, rejissor şərhi, aktyor oyunu haqqında maraqlı fikirlər söylədi. Hiss olunurdu ki, teatr sənətini dərindən bilir. İki gün ötdü, «Bakı» qəzetində «Məhəbbət yaşayır hələ...» tamaşası barədə irihəcmli resenziya çap olundu.

Onu da deyim ki, İrəvan Teatrının qastrolunu ümumiyyətlə, bütün mətbuat, televiziya, radio yaxşı işıqlandırdı, ancaq bu səfər barədə ən çox material çap edən qəzetlərdən biri «Bakı» idi. Bu da Nəsir müəllimin Azərbaycandan kənarda fəaliyyət ocağımızın uğurlarının təbliğinə diqqətinin ifadəsiydi.

* * *

Nəsir İmanquliyev XX əsrdə Azərbaycan jurnalistikasının tarixinin öyrənilməsi, nəzəri əsaslarının işlənilib hazırlanması, dərsliklərin yazılması sahəsində müstəsna xidmətləri olan alim-publisist, pedaqoq və redaktor idi. Onun elmi, pedaqoji, jurnalist irsinin çoxsahəli fəaliyyətinin tədqiq olunması çağdaş publisistikamızın inkişafına kömək edərdi. Və nəhayət, Nəsir müəllim özünəməxsus güclü, iradəli, mübariz şəxsiyyət kimi çox maraqlı insan idi, onun haqqında xatirələr yazılsa və çap olunsa maraqla qarşılanar.

Bu, fikrimcə, çox vacibdir. Axı, xatirələr yalnız xatirə qəhrəmanının özgün cəhətlərini, ömür yolunu, əsərlərində, fəaliyyətində görünməyən iç dünyasının, cizgilərini bu günə çatdırmır, həm də çağdaşların, xüsusilə böyüməkdə olan nəsillərin vətəndaş kimi, şəxsiyyət kimi formalaşması prosesinə, tərbiyəsinə yardım edir.







**Hüseyn Abbaszadə**
*xalq yazıçısı*

## BARIT QOXULU MƏKTUBLARIMIN ÜNVANI

Xeyirxah, yaxşı insanlar, xisləti təmiz adamlar çox az-az doğulur. Onlarla tanışlıq, ünsiyyət insanın özünü saflaşdırır, durulaşdırır, əhvalını xoş edir. Mənim şəxsiyyəti önündə yaşımın bu çağında belə baş əydiyim Nəsir müəllim belələrindən idi. Onunla tanışlığımın, dostluğumun düz 56 illik bir tarixi var.

İlk dəfə 1942-ci ildə müharibənin odlu-alovlu günlərində, özü də qarlı, şaxtalı gündə rastlaşmışıq. Cəbhədə yaralanmışdım. Ağır yaralı olduğuma görə bir müddət hərbi hospitalda müalicə olunduqdan sonra xahiş etdim ki, mənə icazə versinlər müalicəmin arxasını evdə alım, həm də anamı görüm. Müraciətimə və yaralarımın ağırlığına görə mənə iki ay icazə verdilər. Şəhərə gələndə əvvəlcə hərbi məktəbə, təhsilimi yarımçıq qoyub müharibəyə getdiyim yerə – indi Azərbaycan





Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasına gəldim. Nəzarətində olduğum hərbi hissəyə baş çəkdim. Sonra ürəyimdən keçdi ki, «Kommunist» qəzetinin redaksiyasına gedim. Çünki, bu qəzet cəbhə üçün döyüşən səhifələr hazırlayırdı. Onun ön cəbhədə əsgərlərin vətənpərvərlik ruhunun oyanması üçün böyük əhəmiyyəti var idi. O illərdə qəzetin redaktoru, məsul katibi Nəsir İmanquliyev idi. O, məni çox böyük hörmətlə, əsl əsgərə layiq məhəbbətlə qarşıladı. Yazılarımı qəbul etdi. Döyüş yolu ilə bağlı bir məqalə də verdi. Və dedi ki, əsgər məktubları, hekayə və oçerklərlə qəzetdə çıxış edim.

İki ay sonra döyüşə, müharibənin odunun, alovunun içinə qayıtdım. Nəsir müəllim deyən kimi gündüz süngü ilə, gecələr qələmlə döyüşdüm. Yazılarımı, məktublarımı redaksiyaya göndərməyə başladım. Beləcə mənim barıt qoxulu məktublarımın iki ünvanı oldu. Biri anam, doğma ocağımız, biri də əzizim Nəsir və «Kommunist» qəzetinin redaksiyası.

Başqa şeyə keçməmiş onu da deyim ki, Nəsir müəllim olduqca halal, tox gözlü, xeyirxah adam idi.

Yazılarım çap olunduqca qonorarımı qəpik-qəpik, hələ deyərdim ki, artıqlaması ilə yazır, pul cədvəlimi götürüb anamın yanına gəlir, barmağını imza yerinə basdırır, onu əsgər oğlunun qazancı ilə sevindirirdi.

Düzdür, o pul bəlkə də, anama lazım deyildi. Hər bir əsgər anasına o illərdə oğlunun quruca nəfəsi, əlsiz-ayaqsız bir parçası gərəkdi. Qəzetdə çap olunmuş yazılar anamı inandırırdı ki, Hüseyn sağ-salamatdır.

İllər keçdi mən döyüşdən qayıtdım. Yenə əməkdaşlığımız davam etdi. Bu illərdə quruculuqla, dostluqla bağlı məqalələrim, oçerklərim, povest və hekayələrim yenə çap olunmaqda, Nəsir müəllimin xeyirxahlığı ilə işıq üzü görməkdə idi.

1942-ci ildən 1952-ci ilə qədər əməkdaşlığımız beləcə də davam etdi. 1956-1958-ci illər arasında rəsmi dövlət işinə dəvət olundu. Əvvəlcə Mərkəzi Komitənin təbliğat və təşviqat şöbəsinə, sonra isə Radio Komitəsinə rəhbərlik etdi. O, məni bu illərdə də unutmadı. Dövlət tədbirlərinə, zəhmətkeşlərlə görüşə, müxtəlif radio proqramlarına dəvət etdi...

1958-ci ildə isə bütün ictimaiyyət, elm, mədəniyyət adamları, Bakı sakinləri, Azərbaycan vətəndaşları üçün xoş bir hadisə baş verdi. Mətbuat salnaməmizdə Bakı Sovetinin orqanı olan «Bakı» qəzeti nəşrə başladı, 1963-cü ildə isə bu qəzet həm də rusca çap olunmağa başladı. Özüm də bilmədən tale mənə növbəti bir xoşbəxtlik qapısı açdı. Mənim Nəsirim, əziz Nəsirim yazıçı Hüseyn Abbaszadəyə xüsusi səhifələr artırdı. Bir neçə povest, roman və hekayət günlərlə, deyərdim ki, aylarla həm Azərbaycan, həm də rus dillərində özünün ilk oxucularını tapdı. Hələ çap olunmamış «Dörd bazar günü», «Onu tanımırlar», habelə «Leytenant Qiyaszadənin gündəliyindən» avtobioqrafik əsərlərinin ilk naşiri və redaktoru Əziz Nəsir müəllim, mətbuatımızın, poeziyamızın, nəsrimizin xeyirxahı Nəsir İmanquliyev oldu.

Bu əməkdaşlığımız o həddə çatdı ki, hətta yazıçılar bu münasibətə həsəd aparırdılar. Çünki,





Yazıçılar İttifaqı, «Bakı» və «Baku» qəzetlərində məndən çox əsəri çap olunan ikinci bir yazıçı yox idi...

Onu da deyim ki, bu qəzetlərdə çap olunan əsərlər mənə çoxsaylı oxucu məhəbbəti və məktubu qazandırdı. Bu məktubların çoxu isə yaranacaq əsərlərə mövzu olmaqla yanaşı, həm də yeni yaradıcılığa əsas, stimul idi...

Çox zaman bir dostun, tanışın toyuna dəvət alanda, bir nitq söyləyəndə, bir də görürdüm toyda iştirak edənlərin yarısı tökülüb üstünə, səni əhatəyə alıb hörmətini, rəğbətini izhar edir. Əsərlərimin qəhrəmanlarının gələcək taleyini soruşurdular. Bütün bunlara görə, «Bakı» və onun redaktoruna minnətdar idim. Nəsir müəllim hamıya yaxşılıq edər, hamıya əl tutardı. Amma, özü bu nüfuzundan, vəzifəsindən bir dəfə də olsun istifadə etməzdi.

Bir dəfə söhbət edirdik, o zamanlar mən Yazıçılar İttifaqının katiblərindən idim. Nasir müəllim üstüörtülü bildirdi ki, qızının ərəb məhcər ədəbiyyatının görkəmli tədqiqatçısı, şərqşünas alim Aida xanımın sənədləri iki aydı Yazıçılar İttifaqına üzv olmaq üçün təqdim olunub, amma bir xəbər yoxdu...

Dedim xəbərimiz yoxdu... Üzr istəmək istədim, dünyanı qopardı. Dedi, Aida savadlı qızdı, iki kitabı çap olunub. Bu il olmaz, gələn il İttifaqa üzv olar, Siz rayondan, kənddən gələn arxasız uşaqlara əl tutun!

İnsandakı böyüklüyə, mədəniyyətə, xeyirxahlığa heyran qaldım. O, istədiyi an zəng edib qızını İttifaqa üzv edərdi. Axı burada çalışmış bütün

yazıçılar, şairlər ondan xeyirxahlıq görmüşdülər. İttifaqın sədrindən tutmuş sıravi bir üzvə qədər. Amma, nə Nəsir müəllimin, nə də onun istedadlı alim, tərcüməçi, publisist qızının – Aida xanımın buna ehtiyacı var idi. Allah onları istedadlı, gözəl və halal yaratmışdı...

İki gün sonra biz Yazıçılar Birliyinin üzvlük vəsiqəsini Aida xanıma təqdim etdik. İnanırsınız necə sevinirdi. Axı o, sözlə böyümüşdü. Nəsir İmanquliyev kimi peşəkar qələm sahibinin qızı, Mir Cəlal müəllim kimi böyük yazıçının gəlini idi.

Nəsir müəllimlə dostluğumuz sonrakı illərdə də davam etdi. Yubileylərdə, xeyir-şərdə bir yerdə olduq. Onun 80 illik yubileyi «Bakı» qəzetində qeyd olunduqda yaxşı bir çıxış etmişdim. Elə hey ondan danışırdı. Çox zaman mən ona, o da mənə ilk oxucu olardı. Dərdləşmək də ki, o yana...

Nəsir müəllim sağlam adam idi... Ölümünə inanmaq olmazdı. Eşidəndə üstümə dünya çökdü. Üç gün əvvəl görüşüb dərdləşmişdik..

Mən Moskvaya getmişdim... Evdən zəng edib dedilər. İnsanın həyatda ən ağır adamının itkisi baş vermişdi.

O, mənim könül dostum, arxa-dayağım, yer üzündə təmənnasızlıq, xeyirxahlıq nümunəsi kimi tanıdığım, kübarlılığı, müdrikliyi ilə öyündüyüm ən yaxın adamım idi.

Bu illər ərzində o qədər olub ki, əlimi telefona atmışam ki, zəng edim, hal-əhval tutum. Sonuncu rəqəmi yığanda gözümdən yaş süzülüb, əllərim yanıma düşüb.



Bu gün iki şeylə təsəlli tapıram. Birincisi, Nəsir müəllim əziz nəvələrinin – Mehriban xanımın, Nərgiz xanımın mədəniyyətimizə, elmimizə, sənətimizə, ədəbiyyatımıza qayğı və diqqətində, xeyirxahlıq dolu əməllərində yaşayır. İkincisi mənim ömrümün elə çağıdı ki, nə əlim, nə dilim sözümə baxmır. Köçüm, karvanım o tərəfə - doğmalarımın ruhunun dolandığı yerədi. Ruhlar həmişə diri olur. Mənim bu dünyada bağlı qapılarımın çoxunun açarı Nəsir müəllim oldu. Hansı məclisə getdimsə orada onu gördüm. O, məni başa çəkdi. Bu da bir tale yazısıdı. Görünür ruhlara qoşulanda da taleyimin Nəsir adlı müqəddəs bir ruhu var. Ruhu şad olsun!

**Qılman İlkin**
*xalq yazıçısı*

# MİLLİ MƏTBUATIN KLASSİKİ

Mən ötən əsrin 30-80-ci illərində dövri mətbuatımız tarixində üç peşəkar adam tanıyırdım. Hər üçü qəzetçi, yəni jurnalist idi. Peşələri elə bil doğulan gündən onların boylarına biçilmişdi. Bunlar Xasay Vəzirov, İsrafil Nəzərov, Nəsir İmanquliyev idi. Qəzetçilik onların həyatı, amalı idi. Sevincləri, kədərləri də ancaq qəzetlə bağlı idi. Onlar qəzet üçün yaşayır, qəzetlə nəfəs alırdılar.

Nəsir İmanquliyevin fəaliyyəti daha ibrətamiz idi. Çünki o eyni zamanda iki qəzeti idarə edirdi. «Bakı», «Baku» qəzetlərini yaşlı nəsil yaxşı xatırlayır. Bu axşam qəzetlərini oxumayan tapılmazdı. Bu qəzetlər bütün evlərin qonağı idi.

85 illik həyatında neçə insan ömrü yaşamışdı Nəsir müəllim. Qəzet onun üçün hər şey idi, həm müsahibi, həm yol yoldaşı. Yorulmaq nə olduğunu bilmirdi, yanağından həmişə qan damardı. Bu illərin acılı-şirinli günlərini görmüş, həyatın acısını dadmış, dövrünün çarpaşıq hədəfi, bəzən də qorxulu iradlarına dözmüş, danlaq və məzəmmətlərə gərə-gərə ruhdan düşməmiş, mərdliklə öz işini davam etdirmişdi. Ona olan hücumların qarşısından heç zaman geri çəkilməzdi. Bu xüsusiyyət onun özünə əminliyindən, professionallığından irəli gəlirdi. O öz işçilərinə tapşırardı ki, gördüyünüz və ya eşitdiyiniz hər bir hadisəni 100 dəfə ölçməmiş qəzet səhifəsinə çıxarmayın. Bizim qəzetimizdə hər şey konkret, yığcam və dəqiq olmalıdır. Materialların ifadə tərzinə və səlisliyinə xüsusi diqqət yetirin. Mən o illərdə ədəbi və bədii əsərlərimlə yanaşı, bir oçerkçi kimi «Bakı» qəzetində tez-tez çap olunurdum. Bakının neftayırma zavodlarından, dəniz neftçilərindən oçerklər və kiçik hekayələrimi bu qəzetdə dərc etdirirdim. Bir dəfə Nəsir müəllimin yanında olanda belə bir hadisənin şahidi oldum. O, redaksiya əməkdaşının bir yazısını geri qaytararaq dedi: «Mən neçə dəfə demişəm ki, belə ciddi məsələlərdə əllaməliyə yol verməyin. Mənə tovuz lələyi kimi bəzək-düzəkli sözlər lazım deyil, yazılar səlis və məqsədyönlü olmalıdır ki, oxucuya aydın formada çatdırılsın».

Azərbaycanda bir çox gənc jurnalistlərin yetişməsində Nəsir İmanquliyevin böyük xidməti vardır. Hazırda respublikamızın qəzet redaksiyalarında çalışan əsl jurnalistlərin bir-birindən gözəl yazılarını oxuyarkən Nəsir müəllimin çəkdiyi zəhmətin hədər getmədiyinə sevinir, fəxr edirsən».

**Mövlud Süleymanlı**
*xalq yazıçısı*

## YAXŞI KİŞİ

Millət o zaman böyük olur ki, onu təmsil edən böyük qüdrət, istedad və ağır sahibləri olsun. Bu mənada bəxt Azərbaycan xalqının üzünə gülüb. Azərbaycan adını şərəflə, ləyaqətlə daşıyan və həyat yollarında xarakterсə bütöv, mətin, alicənab şəxsiyyət obrazını formalaşdırmaqla hər bir yaradıcı insana kişilik nümunəsi, ziyalılıq örnəyi olan sözün həqiqi mənasında böyük kişilər olublar. Bu böyük kişilər dünyanın sahibi olduqları qədər də, böyük əməllərin sahibi, yaradıcısı idilər. Onlar böyük əməlləri ilə də Azərbaycan adına böyük şərəf gətiriblər. Kamillik, bütövlük zirvəsində Azərbaycan boyda olublar. Bircə şəxsin timsalında dünya Azərbaycanı tanıyıb. Və yaxud da bir müdrik kişinin əməllərinin işığında Azərbaycan dünyaynan bir olub.

Eşidənləri, bilənləri də kamil insan, müdrik insan deyib həmin müqəddəs işıqların izinə düşüb illərlə yol gediblər, öz cığırında öz işığını yandırıb izini sala bilsin deyə. İllər ötüb, zaman keçib, yolunu başa vuran müdrik Dədələr bu dünyadan köçlərini sürüb gediblər. Amma köçə sarvan olsalar da, yurd, vətən eşqinə işıqlarını yanılı qoyub gediblər. Minlərin, on minlərin tapınacaq, sığınacaq yeri olsun deyə! Bu mənada Azərbaycan adına şərəf, qürur gətirən kişilər hər zaman diridir və nə qədər Azərbaycan var, onlar da Diri kişilərdir, böyük əməlləri, müqəddəs amalları və bir də yetirmələri ilə.

Mətbuat tariximizdə şərəfli iz qoymuş, milli mətbuatımıza «Bakı» qəzeti kimi əvəzolunmaz mətbu ordeni təqdim edən, Azərbaycan jurnalistikasında böyük pedaqoq kimi, bar verən müəllim, alim adına layiq istedadlı yetirmələri ilə hörmət sahibinə çevrilən Nəsir Əsədulla oğlu İmanquliyev məhz belə kişilərdən biri olub. Onu tanıyan, onunla az da olsa ünsiyyətdə olan hər bir kəs Nəsir müəllimin adı gələndə ilk sözü bu olardı: «Nəsir müəllim yaxşı kişi idi, yaxşı kişilərdən idi».

Nəsir müəllimin «Bakı» qəzetindəki fəaliyyəti bizim gənclik yaddaşımızdır. Yadımdadır ki, o illərdə öz dəsti-xətti ilə mətbuatımıza yeni nəfəs gətirən «Bakı» qəzeti bura həvəslə axışan gənc jurnalistlərin Nəsir İmanquliyev adında ata ocağı olduğu kimi, ədəbi mühitə yenicə qədəm qoyan yaradıcı insanların da üzünə hər zaman açıq olan bir ədəbi məclisi xatırladardı. O illərdə «Bakı» qəzetində işıq üzü görən ədəbi nümunələr və onların müxtəlif ədəbi məclislərdəki müzakirəsi böyük hadisəyə səbəb olardı. Çünki «Bakı» qəzetində çıxış etmək hər bir yaradıcı insana qürur hissi gətirərdi. İstər

mətbuatda, istərsə də ədəbi mühitdə təşəkkürəlayiq yeni ab-havanın yaranması heç şübhəsiz ki, Nəsir müəllimin adı ilə bağlı idi. Bu müqəddəs əməlin mayasında onun böyük zəhməti, gərgin fəaliyyəti dayanırdı.

Nəsir İmanquliyevin əmək fəaliyyətinin bir hissəsi də indi mənim çalışdığım kollektivin, Milli radiomuzun efir taleyi ilə bağlı olmuşdur. Nəsir müəllim bir müddət, 1956-57-ci illərdə Radio Verilişləri Komitəsinə rəhbərlik etmişdir.

Azərbaycan mətbuat tarixində «Bakı» qəzeti ilə şərəfli iz qoymuş Nəsir İmanquliyevin xatirəsi inanıram ki, illər keçməsinə baxmayaraq, hər zaman hörmətlə anılacaq, yada salınacaq.







Nəbi Xəzri
*xalq şairi*

## BAKILILARIN DOSTU

«Bakı» bizim hamımızın doğma qəzetidir. O, sevimli şəhərimizin adını daşıyır. Mən bu qəzetdə onun ilk saylarından çıxış edirəm. Həmişə Bakımızın dünəni, bu günü qəzet səhifələrində işıq üzü görən bir-birindən maraqlı yazılar öz aktuallığı, elmiliyi, obyektivliyi, əhəmiyyəti ilə həmişə diqqət çəkəndir. Elə bir sahə yox idi ki, orada baş verən yeniliklər «Bakı» qəzetində işıqlandırılmasın. Bu qəzet həqiqətən bütün bakılıların qəzeti, hər bir evdə səbirsizliklə gözlənilən ən əziz qonağı idi. «Bakı» axşam qəzeti gecənin aydınlığında bərq vuran Xəzəri xatırladırdı.

Amalı saf, təmiz, aydan arı, sudan duru. «Bakı» qəzetinə bu təmizliyi, duruluğu gətirənsə heç şübhəsiz ki, qəzetin baş redaktoru, bütün qələm sahiblərinin əzizi, dostu olmuş, hər zaman böyük hörmət və ehtirama layiq insan, müdrik şəxsiyyət Nəsir İmanquliyev olmuşdur. Onun zəhməti, əməyi





sayəsində «Bakı» qəzeti axşamın sərinliyində milli mətbuatımıza bir ılıq nəfəs, istilik, coşqunluq gətirdi. Biz bütün qələm əhli, yaradıcı insanlar «Bakı» qəzetində yazılarımızın, əsərlərimizin işıq üzü görməsindən fərəh hissi keçirərdik. Ona görə də əksəriyyət də bu qəzetdə çap olunmağa can atardı. Bu mənada Nəsir müəllim təkcə «Bakı» qəzetinin deyil qələm sahiblərinin redaktoru idi. Ətrafına topladığı böyük kollektivin hər biri böyük istedad sahibləri kimi oxucular arasında nüfuz qazanmışdılar. Nəsir müəllim isə nəinki yaradıcı insanların, alimindən ən sadə vətəndaşına qədər bütün bakılıların dostu, doğması idi.

«Bakı» qəzetinin ilk sayının işıq üzü görməsindən əlli ilə yaxın bir vaxt keçir. Qəzet üçün bu böyük bir tarixdir. Bu ömür yolunu «Bakı» qəzeti şərəflə, ləyaqətlə, Bakımızın adına layiq üzüağ, alnı açıq çıxıb bu günə gəlib. Onun gəlişinə ruhundan, duyğusundan can verən, əziz bir nemət kimi bakılılara təqdim edən Nəsir müəllim bu gün aramızda yoxdur. Onunla çiyin-çiyinə bu qəzetdə çalışan yetirmələrinin də bir hissəsi haqq dərgahına çatıblar. Amma Nəsir İmanquliyevin şah əsərlərindən biri kimi «Bakı» qəzeti haqq, ədalət naminə bu gün də şəhərimizin simasına ayna tutur sabahkı işıqlı günlərimiz naminə!

**Nəriman Həsənzadə**
*xalq şairi*

# İMANQULİYEV MƏKTƏBİ YAŞAYIR

Nəsir İmanquliyevi universitet tipli məktəbə bənzətsək, deyə bilərik ki, «Bakı» və «Baku» axşam qəzetləri sözün əsl mənasında jurnalistika kafedralarını əvəz edirdi. O vaxtın ən hörmətli dövlət qəzetlərinə (hələ sahə qəzetlərini demirəm) Nəsir müəllimin yanında işləyən jurnalistləri birinci növbədə işə götürürdülər. Nəsir İmanquliyev birbaşa Həsən bəy Zərdabinin, Üzeyir Hacıbəyovun varisiydi. Bu fikrin bir çox çalarları var ki, onların ruhi qohumluğundan xəbər verir.

Yadımdadır, bütün Bakı axşam qəzetlərinin çıxmasını gözləyir, qəzet köşklərinin qabağında növbə tuturdular. Qəzetlərin hər ikisinə özü nəzarət edirdi: bir vergül, nöqtə səhvini bağışlamaz, sətirbasılanda, başlıqlara lazımi şriftlər seçilməyəndə mən onun deyindiyini görmüşəm. Onun məsul katibi məşhur jurnalist Şamil Şahməmmədov idi. Nəsir müəllimin ondan razılıq etdiyini də eşitmişəm.





O mötəbər insan Azərbaycan Mərkəzi Komitəsində işləyəndə də mətbuatımızın təəssübkeşiydi. Hər bir qəzet redaktorunu danlamağa da onun hüquqi ixtiyarı (səlahiyyəti demirəm) var idi. Çünki mətbuatımızın mənəvi atasıydı. İradlarını qərəzsiz deyirdi, bir az da zarafatyana gülümsəyərək. Yəqin ki, ağrıları içində çəkirdi. Ədalətli, mehriban, yeri gələndə sərt idi. Öz işçisini özü danlardı, başqasının danlağına verməzdi, qoruyardı. Eşitmişdim ki, işə götürdüyü adamın əmrini yoxlamamış vermirdi. Nəsir müəllimin əmri həm redaksiyada, həm də o jurnalistin həyatında hadisə olurdu.

«Bakı» və «Baku» qəzetlərində işləyən jurnalistlərin özlərindən soruşanda ki, – harada işləyirsən? – məmnuniyyətlə, qəzetin adını yox, «Nəsir İmanquliyevin yanında» deyirdilər. Hər şey aydın olurdu. Bu nüfuz elə-belə qazanılmamışdı.

Mən «Ədəbiyyat və incəsənət» qəzetinə baş redaktor təyin ediləndə məni özü yanına çağırdı. Tövsiyələrini verdi. Mən onda böyüklük və bir az da «uşaqlıq» təbiəti, saflıq gördüm. Qərəz və təqiblərdən uzaq ol, – dedi. – Təsirlərdən özünü qoru, – dedi. – Qəzeti başdan-ayağa özün oxu, – dedi. – Birinci başlıqlara bax, – dedi – səhvlər adətən sərlövhələrdə gedir. Hazır materialları başqa qəzetlərdən götürüb səhifəyə qoyma, çalış öz adamların yazsın, hər qəzetin öz siması olmalıdır, – deyirdi.

Demək olar ki, hər həftə görüşürdük. Bir dəfə özüm getdim yanına. Nəsir müəllimin qızı, Azərbaycan gözəli və alimi, mərhum Aida xanımın ərəb dilindən tərcümə etdiyi hekayəni qəzetdə çap

etmişdim. Aydın və səlis tərcüməydi. Eşitmişdim ki, hekayə müəllifinin dili çox qəlizdi. Aida xanım özü də bunu etiraf edirdi. Amma dilimizi gözəl bilən, lüğət tərkibi zəngin olan Aida xanımda tərcüməçilik vergisi də var idi. Özü bizim redaksiyaya gəlmişdi. Yeri gəlmişkən deyim ki, indiki «Azərbaycan» nəşriyyatının 9-cu mərtəbəsində bizim «Ədəbiyyat və incəsənət» qəzeti yerləşirdi. İndi dünyalarını dəyişmiş, unudulmaz insanlar akademik Həsən Əliyev, Ziya Bünyadov, rəssam Hüseyn Əliyev, Aida xanım İmanquliyeva həmişə redaksiyaya özləri gəlir, görüşüb söhbət edir, yazdıqları materiallar barədə redaktorun şəxsi rəyini soruşurdular.

Nəsir müəllimə Aida xanımın yenicə çap etdiyim həmin hekayəsini aparmışdım. Onun ata sevinci indi də yadımdadır. Tam səmimiyyətlə deyirəm ki, Aida xanım nəinki Şərqin, Qərbin də ədəbi-fəlsəfi cərəyanları barədə özünəxas kübarlıqla danışar, sözlərinin əvvəlinə adətən «bildiyiniz kimi» ifadəsini də əlavə edərdi. Bu da onun ziyalı mədəniyyətiydi.

Nəsir müəllim qızı Aida xanımla, nəvələri balaca Mehribanla, Nərgizlə, kürəkəni Ariflə və görkəmli yazıçı Mir Cəlal Paşayevlə fəxr edirdi. Bunları mən yeri düşdükcə söhbətlərimiz zamanı görürdüm. Təbii ki, bu, başqa bir mövzunun söhbətidir.

Nəsir İmanquliyev öz fədakarlığına, əməksevərliyinə, təşəbbüskarlığına və təəssübkeşliyinə görə bir Mətbuat Abidəsidir. İmanquliyev məktəbi yaşayır. Və bu gün də elə bilirəm ki, axşam qəzetlərinin yenidən nəşrinə ehtiyac var. Bu da böyük jurnalistin xatirəsinə ehtiram olardı.







**Sabir Rüstəmxanlı**
*xalq şairi, Milli Məclisin üzvü*

## MƏNƏVİ BÜTÖVLÜYÜMÜZÜ QORUYANLARDAN BİRİ

«Elə adamlar var ki, onların ömür yolu respublikamızın ümumi tərcümeyi-halına çox bənzəyir; onlar öz talelərində xalqımızın tarixi inkişafının bütöv bir mərhələsinin mürəkkəbliyini və uğurlarını əks etdirirlər. Bəzən bir ailənin keçdiyi yol – yaşadığı tale küll halında xalqın, cəmiyyətin inkişafının bütöv bir mərhələsinin kiçildilmiş şəklinə çevrilir.

Məsələn, mən həmişə xalq yazıçımız Mirzə İbrahimovun, görkəmli tədqiqatçı alim, jurnalist, pedaqoq və tərcüməçilərimizdən Qulam Məmmədlinin, Nəsir İmanquliyevin, Şəfaət Mehdiyevin, Məmmədağa Sultanovun, Mübariz Əlizadənin keçdikləri yolu düşünəndə həyəcanlanıram. Ona görə ki, onların uzun həyat yollarındakı çətinliklər, ağrı, itki, məhrumiyyət,





uğur və uğursuzluqlar göz önünə gətiriləndə insan iradəsinə heyran qalmamaq olmur.

Mən bu balaca siyahıda, bilə-bilə, o adamların adını çəkirəm ki, onların uşaqlıq yolları Arazın o tayından, yurdumuzun güneyindən başlanıb və yəqin ki, haradasa Sərabda, Xəmnədə, Ərdəbildə və ya Təbriz ətrafı tozlu yollarda onların ayaq izləri indiyə qədər sızlayır. Onların ömrü bu yüz ildə Arazın o tayı və bu tayında Azərbaycan xalqının taleyinə düşən bütün sevinc və göz yaşlarının canlı şahidi və tarixidir, millətin tarixini öz şəxsi taleləri kimi yaşayıblar».

Bu sətirlər mənim 1985-ci ildə, yəni 21 il öncə yazıb çap etdirdiyim bir məqalədədir. Tale məni siyahıda adları çəkilən adamların hər biri ilə bu və ya başqa şəkildə bağlayır. Aramızdakı yaş fərqinə baxmayaraq hər biri ilə uzun illər davam edən əməkdaşlığım və dostluğum olub, taleləri, peşəkarlıqları, yüksək insani keyfiyyətləri və nəhayət Cənubun bir parçası olmaları məni bu insanlara yaxınlaşdırıb. Yeri düşdükcə hər biri haqqında ürək sözümü demişəm, yazmışam…

Azərbaycan ictimai fikri tarixində xüsusi yeri olan Nəsir İmanquliyev jurnalistikamızın patriarxlarından biri olmaqla, ilk şeir və məqalələrini 60-cı illərdən çap etdirməyə başlayan hər bir qələm sahibinin yaxşı tanıdığı və sevdiyi insanlardandır.

Dekabr ayının 22-də doğumunun 95 illiyidir. Bu yubileyə çatmasa da 87 illik uzun, sağlam, səmərəli, həyat sevgisi və xeyirxahlıqla dolu bir ömür yaşadı. O, öz dövrünün ən populyar mətbuat orqanlarında çalışıb, kəsərli qələm sahibi və təşkilatçı kimi

tanınmışdı. Rəsmi işlərlə yaradıcılıq işini məharətlə əlaqələndirə bilirdi. Buna görə də 60-cı illərdə Azərbaycan paytaxtının ayrıca mətbuat orqanının yaradılması məhz ona tapşırılmışdı.

Nəsir müəllim «Bakı» və «Baku»nu yaratdı və otuz il onların baş redaktoru oldu. Bu qəzetlər onun yüksək təşkilatçılıq qabiliyyətinin, prinsipiallığının aynası idi. O, sözün gücünü, kəsərini yaxşı bilirdi. Buna görə də ədaləti, vicdanı jurnalist üçün başlıca meyar sayırdı. Qəzetçilik mədəniyyəti, jurnalist etikası baxımından «Bakı» və «Baku» qəzetləri uzun illər mediamızda örnək olub.

Bizim nəslin yaddaşında bu qəzetlərin xüsusi yer tutması, şübhəsiz, Nəsir müəllimin qəzetçilik səriştəsinin, peşəkarlığının nəticəsi idi...

Əvvəla «Bakı» və «Baku» təkcə şəhər qəzetləri deyildi; bu qəzetlərin səhifəsində o vaxt ölkədə və dünyada gedən bütün proseslər əksini tapırdı. Ancaq bu, axşam qəzetlərinin və çağdaş qəzetçiliyin tələblərinə uyğun şəkildə olurdu. Sözçülüyə yol vermədən, xəbərin, məlumatın mahiyyəti çatdırılırdı. Bu baxımdan «Bakı» və «Baku» respublikanın digər qəzetlərindən fərqlənirdi. Bunlar informasiyanı operativ çatdırmaq baxımından müasir mətbuatda daha yaxın idilər; yəni bu qəzetlər rəsmi mətbuat çərçivəsini qırıb, xalqa, oxucuya yaxınlaşan qəzetlərdi. Buna görə də biz ən yeni xəbərləri «Bakı» və «Baku»da axtarırdıq.

Bu qəzetlər, həm də mədəniyyət, ədəbiyyat haqqındakı materialların bolluğu, maraqlı idman xəbərləri ilə seçilirdi.





Mən o vaxt «Ədəbiyyat və İncəsənət» qəzetində şöbə müdiri idim. Şəhər qəzetləriylə və Nəsir müəllimlə yaxın əlaqələrimiz vardı. Sahə qəzeti olmaya-olmaya «Bakı» və «Baku»nun ədəbiyyata geniş yer ayırması, ədəbi əsərlərin, tamaşaların, kinonun, rəssamlığın, tətbiqi sənətlərin heç birini diqqətdən kənarda qoymaması gözümüzün qabağındaydı. «Bakı» və «Baku»da çalışanlar arasında qələm dostlarım çox olduğundan qəzetdəki canlı yaradıcılıq havasını yaxından müşahidə edirdim.

Əslində «Ədəbiyyat və İncəsənət», «Bakı» və «Baku» – o vaxtın partiya mətbuatından fərqli mövqe tutan qəzetləriydi, bunun da əsas səbəbi, bu qəzetlərin daha sərbəst, daha cəsarətli, daha milli, əsl vətəndaşlıq mövqeyi nümayiş etdirməliydi.

Bunu təsdiq etmək üçün o illərin qəzetlərindəki tənqidi yazıları, felyetonları gözdən keçirmək yetərlidir.

Nəsir müəllim tez-tez deyirdi ki, qəzeti tənqidi yazılar oxutdurur. Bir şərtlə ki, doğru yazılsın, vaxtında çap edilsin... Gecikdirilsə «sahibi» çıxacaq, maneçilik törədənlər, tapşıran və tapşırılanlar artacaq...

O, özü belə şeylərdən çəkinmirdi və qəzetin jurnalistin mövqeyini sonadək müdafiə eləməyi bacarırdı.

60-70-ci illər ədəbiyyatı çağdaş ictimai və milli şüurumuzun inkişafında mühüm rol oynayıb. Buna görə o dövr mətbuatı, o cümlədən «Bakı» və «Baku» ədəbiyyata diqqətliydi. Ədəbi materialların

keyfiyyəti, həm də qəzetin keyfiyyətini göstərirdi; hər müəllif bu qəzetlərdə çap oluna bilməzdi.

Nəsir müəllim yazılara tələbkar olduğu kimi, kadr seçimində də tələbkardı. Neçə-neçə «dayılı» arasından seçib kimsəsiz, ancaq istedadlı adamları işə götürərdi. Bu gün belə rəhbərlər demək olar ki, qalmayıb. Tələbkar olduğu qədər də səmimiydi. Nəsir müəllimlə çalışan bütün jurnalistlərin xeyir-şər məclislərində onu başda görmüşdüm. Əsl ağsaqqaldı, məclislərə yaraşıq verərdi. Yoldan, adamlarla ünsiyyətdən yorulmazdı. Özü çox işləyirdi və işçilərinə də vaxtını boşuna sərf etmək imkanı vermirdi.

Tədbirli, hər işin yerini bilən, sözünü vaxtında deyən, hər sahədə, hər işdə mövqe nümayiş etdirməyi bacaran bütöv şəxsiyyətdi. Qılınc kimi kəsərli sözü sevirdi. Ancaq zarafatla «bu qılınc baş kəsmək üçün deyil» – deyirdi. Bu xasiyyətini xatırlayanda bu gün kəmfürsətlik ehtirasında boğulan adamları düşünürəm və Nəsir müəllimin yeri daha aydın görünür.

Qohum olduğu ailəyə görə Nəsir müəllimin də əziyyət çəkdiyi, yolunun bağlandığı vaxtlar olub. Ancaq o, bütün bunları mərdliklə və şəxsiyyətinə kölgə qondurmadan adladıb.

Nəsir İmanquliyev həm də Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin müəllimi idi. Mətbuat tarixindən dərs deyirdi. Jurnalistikamızın inkişafında xidmətləri olmuş, özü kimi dəyərli mətbuat işçilərinin unudulmasına imkan vermirdi. O auditoriyada da, redaksiyada da əsl müəllim idi.



Buna görə də tələbələri onu həm müəllim, həm də bir insan kimi çox sevirdilər. Onun yetirmələri uzun illər Azərbaycan mətbuatında əsas söz sahibi olublar və çalışdıqları yerdə Nəsir müəllimin jurnalistdən tələb etdiyi düzlük, peşəkarlıq, təmizlik, ləyaqət ölçülərini qoruyublar.

Azərbaycan mənəviyyatına, mədəniyyətinə, basqıların gücləndiyi, qloballaşma adı altında ciddi mənəvi aşınmalarla üz-üzə qaldığımız, mətbuatda qeyri-peşəkarlığın tüğyan elədiyi, sözün ucuzlaşdığı, özünü və sözünü bilməyən adamların jurnalistlik iddiası ilə ortaya çıxdığı bir zamanda Nəsir müəllim kimi şəxsiyyətlərin yeri daha aydın görünür.

*"Jurnalist ustalığının zirvəsi yoxdur və ola da bilməz. Əgər birisi özü barəsində "mən əla yazıram" deyirsə, yaxud bu cür fikirləşirsə, belə jurnalistin, xüsusən qəzet işçisinin yaradıcılığında heç bir irəliləyiş gözləməyə dəyməz".*

*Nəsir İmanquliyev*



**Arif Babayev**
*xalq artisti*

## «QƏZET ATA OĞLUNU TƏNQİD EDƏN KİMİ ETMƏLİDİR»

Elə insanlar, şəxsiyyətlər var ki, onların haqqında keçmiş zamanda danışmaq olmur. Öz əməli, işi, ləyaqəti ilə yaddaşlara yazılan ürəyimə yaxın bildiyim insanların içərisində hörmətli Nəsir müəllim də var.

Peşəkar jurnalist, xeyirxah, ləyaqətli insan kimi adı dillərdə dolaşan Nəsir müəllimlə çox görüşlərimiz olub. Çox zövqlü, musiqiyə, sənətə bağlı adam idi. Həmişə tamaşalara gələrdi. Özü də tamaşanın sonuna qədər oturardı. Rəyini, təklifini, «sağ ol»unu bildirmədən getməzdi. Çox səmimi adam idi. Könlü, ürəyi dolu idi. Bizim Rübabə xanımın, Zeynəb xanımın Leylilərindən elə danışardı ki, deyərdin bəs sənətşünasdır, teatrşünasdır.

Ona bir neçə dəfə işim düşmüşdü. Universitetin jurnalistika fakültəsinə ağdamlı uşaqlar həmişə daxil olub. Çoxunun da valideyni imtahan vaxtı məndən xahiş edirdi ki, «Nəsir müəllim ağır müəllimdir, ondan qiymət almaq çətindir». Mən də daha deyə bilmirdim ki, bu kişi jurnalistikanın kitabını yazıb, kim, hansı tələbə ona yalan danışa bilər. Hər dəfə zəng edəndə təbəssümlə deyərdi: «yenə yerlilərin səni üstümə salıb a..!». Mən də gülərdim. Amma Allah ruhunu şad etsin, sözümü yerə salmazdı. Bilirdi ki, sənətkar el atasıdır. El atası da dedim. Onu deyim ki, Nəsir müəllimdə bir ağsaqqallıq, ağayanalıq var idi. Çox ağırtaxtalı, sanballı adam idi.

Rastlaşanda, redaksiyaya dəvət edəndə çox səmimi söhbətlərimiz olardı. Düzlüyü, dəqiqliyi sevərdi. Qəzetin işi öyrətmək, yol göstərmək, yaxşı iş təbliğ etməkdi. «Qəzet ata oğlunu tənqid edən kimi etməlidir» – deyərdi.

Rəhmətlik indi sağ olsaydı bu getgəllərə çətin dözərdi. Təhqiri, hədyanı sevməyən adamlara indiki mətbuat bolluğu, özü də yersiz bolluğu ağır gələrdi. Bugünkü jurnalistlər zəhmət çəkib o kişinin 30 il redaktə etdiyi «Bakı» qəzetini vərəqləsələr, məktəb keçmiş olarlar. Nəsir müəllim doğrudan-doğruya bir məktəb idi. Böyük ziyalı, sanballı alim olduğu kimi. O, qayğıkeş ziyalı idi. Mədəniyyətin, mənəviyyatın qayğıkeşi, cəfakeşi...

Tale elə gətirib ki, mən onun istedadlı, əsl ziyalı xanım nəvələri ilə də ünsiyyətdə olmuşam. Bu yüksək mədəniyyətli, alicənab xanımlar vüqarda, cəsarətdə, nəciblikdə, sənəti, sənətkarı anlamaq məharətində babalarına, hörmətli alimlərimiz Mir Cəlal müəllimə və Nəsir müəllimə çəkiblər.

Atalar yaxşı deyib: «Ot kökü üstə bitər».

**Canəli Əkbərov**
*xalq artisti*

## «BAKI» QƏZETİNİN SİMASI

«Bakı» qəzetinin işıq üzü gördüyü gün indiki kimi yadımdadır. Onda cavan oğlan idim. Ürəyim sənət eşqi ilə döyünürdü. Atam, xanəndə Xanəli Əkbərovdan aldığım dərsləri başa vurub şəhərə gəlmişdim.

Günü-gündən dəyişən, küçələri, parkları salınan Bakı qaynar sənət meydanı idi. Təsəvvür edin Qara Qarayevin, Fikrət Əmirovun, Cahangir Cahangirovun ölməz əsərləri, Şövkət Ələkbərovanın, Sara Qədimovanın, Xan əminin, Rəşid Behbudovun ifaları əsl sənət məktəbi yaradırdı. Mənim kimi cavan xanəndələrin bu böyük sənətkarlarla çiyin-çiyinə addımlamağı, onlarla səhnəyə çıxmağı bir hadisə idi.

Azərbaycan Dövlət Opera və Balet Teatrına gəlişim, böyük əsərlərdə rol almağım sabahkı Məcnunu, Qəribi, Şah İsmayılı tamaşaçılara tanıtmaqla başladı.





Bunun səbəbi təkcə mənim ifam, ustad dərsi görməyimlə bağlı deyildi. O zamanlar radio və televiziyadakı çıxışlarım, qəzetlər də, xüsusən də «Bakı» qəzetində oynadığım tamaşalarla bağlı çap olunmuş məqalələr idi.

Daimi oxucusu olduğum, könüllü abunə yazıldığım «Bakı» qəzeti bütün şəhər əhalisinin, fəhlədən tutmuş alimə, sənətkara qədər hamının zövq ala-ala oxuduğu qəzet idi. Olduqca oxunaqlı, maraqlı yazılarla, bir-birindən gözəl olan imzalarla məşhur olan «Bakı» qəzetinin siması isə böyük ziyalı, görkəmli şəxsiyyət, hörmətli alim və müəllim Nəsir İmanquliyev idi. Allah bu kişiyə hər şey vermişdi. Uca boy, yaraşıq, xoş xasiyyət, ən əsası, istedad. Mən həyatımda çox jurnalistlər, redaktorlar, vəzifə sahibləri görmüşəm. Amma onun kimi alicənab, yüksək zövqlü, xeyirxah, təmənnasız insan görməmişəm.

Nəsir müəllim «Bakı» qəzetini filarmoniyanın, Opera və Balet Teatrının, AzKonsertin filialına döndərmişdi. Səfərə gedən, səfərdən qayıdan «Bakı»nın redaksiyasından keçərdi. Bu qəzetin səhifəsində mənim oynadığım tamaşalardan reportajlar çox verilib. Kollektivimizin uğurlarından, teatr mövsümünün açılışından oxunaqlı yazılar bir deyil, beş deyil....

Nəsir müəllim böyük şəxsiyyət idi. Böyük təşkilatçı və əsl müəllim idi. Onu xalq, milyonlarla oxucusu sevirdi, imzasına hörmət edirdi. Nəsir müəllimlə tez-tez Nizami küçəsində rastlaşardıq. Nəvələrinin əlindən tutub gəzişərdi. Tamaşalara əvvəllər qızı, böyük alim, ziyalı Aida xanımla

gələrdi. Sonra onu nəvələri ilə görərdik. Sözün düzü, çox qibtə olunacaq, qürur duyulacaq, nümunəvi bir ailə idilər. Əsl azərbaycanlı ailəsi. Gözəl, ədəbli, ziyalı bir ailə.

Bu ailənin təməli hörmətli Nəsir müəllim, zümrüd qaşı Aida xanım idi. Sonralar hörmətli akademik Arif Paşayevlə ailə quran Aida xanım Nəsir müəllimin, əsl ziyalının ailəsində böyüyüb tərbiyə aldığını sübut etdi. Şərqşünas alim, gözəl ana kimi bütün ziyalıların maraq dairəsində olan bu xanımı hamı Nəsir müəllimin qızı, Mir Cəlal müəllimin gəlini kimi qəbul edirdi. Nəsir müəllimdəki vüqarı, zənginliyi, nəcibliyi özündə birləşdirən Aida xanım idi. Mətbuatımızın sönməyən ulduzu sayılan Nəsir müəllim indi mədəniyyətimizin, elmimizin, muğamlarımızın, teatrımızın, ədəbiyyatımızın biliciləri, qayğıkeşləri olan nəvələrinin əməlində, sənətlə döyünən qəlblərində yaşayır.







**Oqtay Mirqasımov**
*xalq artisti*

## «BAKI» NƏSİR MÜƏLLİMİN, O DA «BAKI»NIN SİMASI İDİ

Hər bir xalqın mədəniyyəti onun mənəvi sərvəti ilə ölçülür. Kino, teatr, musiqi və mətbuat tarixini Şərq və Qafqaz xalqlarından daha öncə yazmış Azərbaycan xalqı öz mədəniyyəti və mənəvi sərvəti ilə öyünməkdə haqlıdır. XX əsrdə teatr, kino və musiqi tariximizdə baş verən intibah, milli mətbuatımızda da öz silinməz izlərini qoydu.

Şəhərinə, doğma Bakısına bağlı, vurğun bir insan kimi deyə bilərəm ki, təzadlar şəhəri olan Bakının 50-ci illərdən sonrakı quruculuq tarixini, intibah mərhələsini məhz iki dildə şəhər sakinlərinin görüşünə gələn «Bakı» qəzeti və onun memarı peşəkar jurnalist, ictimai xadim, pedaqoq, kübarlıq, zadəganlıq nümunəsi olan Nəsir İmanquliyev yazdı.

Çünki o, doğulduğu Abşeron torpağına, gilavara, xəzriyə qarışan Bakısına vurğun idi. Onun hər dalanı, hər küçəsi ona doğma olan kimi, əli qabarlı





fəhləsi də, laboratoriyalarda təcrübə aparan alimi, auditoriyalarda mühazirələr oxuyan qüdrətli pedaqoqları, qonurgözlü Bakını kətana alan rəssamı, Neft Daşlarında xariqələr yaradan geoloqları, dünyaya obrazların və kamerasının gözü ilə baxan rejissor, operator və sənətçiləri də doğma idi. Və Nəsir müəllim bu doğma insanların təkcə informasiya mənbəyi deyildi. Onların təəssübkeşi, arxası, haqqının carçısı idi.

Bu böyük insanı, ləyaqətli ziyalını isə Bakıda tanımayan, sevməyən yox idi. Ləyaqəti görkəminə yaraşan bu böyük alim və söz xiridarında Xəzərin zənginliyi, saflığı, əlçatmazlığı var idi. Onu yaxından, üzbəüz görməyənlər də yaxşı tanıyırdı. Çünki «Bakı» və «Baku» qəzetləri Nəsir müəllimin Bakıya olan məhəbbətinin ifadəsi idi. Nəsir müəllim isə «Bakı»nın və «Baku»nun parlaq siması idi.

**Tofiq Quliyev**
*xalq artisti*

# «BAKI» HƏMİŞƏ POPULYAR QƏZET OLUB

«Bakı» ilə mənim tanışlığım düz 40 il bundan əvvəl bu qəzetin yaranma dövründən başlanmışdır. O vaxt mənim də 40 yaşım vardı. Mən bu qəzetə vaxtaşırı müsahibələr verir, musiqi sənətimizin problemləri, həmkarlarımın yaradıcılığı haqqında məqalələr yazırdım. «Bakı» həmişə populyar qəzet olub.

Şəhər qəzetinin operativ məqalələr və yazılarla çıxış etməsini mən xüsusi qeyd etmək istərdim. Qastrola gələn hər bir ifaçının filarmoniyada ilk konsertindən heç bircə gün ötməmiş «Bakı» qəzeti resenziyalar verirdi. Eləcə də opera teatrında axşam göstərilən yeni tamaşa haqqında səhər yazı gedirdi... Bəli... bütün bu yeniliklər barədə məlumatı biz ilk dəfə bu qəzetin səhifələrindən alırdıq...







**Zeynəb Xanlarova**
*SSRİ xalq artisti, Milli Məclisin üzvü*

## NƏSİR MÜƏLLİM DƏ, ONUN «BAKI»SI DA BİZƏ DOST İDİ

«Bakı» qəzetinin ilk qədəmləri mənim səhnədəki ilk kövrək addımlarımla üst-üstə düşüb. O vaxtlar yeganə axşam qəzeti olan «Bakı»da mənim sənət aləmindəki bütün yaddaqalan uğurlarım barədə rəngarəng yazılar dərc edilirdi. Həm də təkcə mənim yox, mədəniyyətimizdə öz dəst-xətti olan bütün sənətkarların.

Qəzetin ilk redaktoru, səmimi, gözəl insan Nəsir İmanquliyev «Bakı»nın ətrafına tanınmış elm, sənət adamlarını cəlb etmişdir. Ən təzə mədəniyyət xəbərlərinin müjdəçisi «Bakı» idi. Dünyanın elə bir ölkəsinə qastrol səfərim olmayıb ki, «Bakı» bu barədə yazmasın. Özü də şirin dillə, özünəməxsus üslubda, bənzərsiz formada.

İndi arxivimdəki yerli, xarici qəzet-jurnallar arasında «Bakı»nın sayları var. Yaradıcılığımdan,





həyat və sənət yolumdan bəhs edən həmin nümunələri əziz xatirə tək qoruyub saxlayıram. Axı, hər şeyin təzəsi, dostun köhnəsi əzizdir...

Hörmətli Nəsir müəllim də, onun «Bakı»sı da bizə dost idi. O, sənətin, mədəniyyətin, musiqinin, əsl sənətkarın, xalqına sənəti ilə xidmət edən korifeylərin dostu idi.

Bu gün onun əməllərinin hörmətli Mehriban xanımın, professor Nərgiz Paşayevanın ideyalarında, mədəniyyətlə, sənətlə, muğamla, klassik musiqi ilə bağlı layihələrində yaşaması Bakını canı qədər sevən, «Bakı» ilə Bakının mədəniyyət tarixini yaradan Nəsir müəllimin ruhunu şad edir. Nəsir müəllim isə bütün insani keyfiyyətləri, güclü xarakteri, zəngin mənəvi aləmi ilə bu böyük istəyə layiq ziyalı, əsl vətəndaş idi.




*"Yazı yazın, səs salıb mis kimi cingildəsin".*

*Nəsir İmanquliyev*

**Ağahüseyn Hüseynov**
*«Bakı» və «Baku» şəhər qəzetlərinin redaktoru,*
*Azərbaycanın əməkdar jurnalisti*

*Əziz müəllimimin xatirəsinə*

# JURNALİSTİKAMIZIN PATRİARXI

*Milli mətbuatımızın görkəmli nümayəndəsi, alim, pedaqoq, ictimai xadim, professor Nəsir Əsədulla oğlu İmanquliyevin portret cizgiləri*

Əlimə qələm alıb bu xatirələri yazıya köçürərkən əvvəlcə fikrimdən məşhur bir mahnının sözləri gəlib keçdi: «Ey həyat, sən nə qəribəsən?!» Həqiqətən də, bu belədir, elə bil hər şey dünən baş verib, hər şey təzədir, hər şey hələ yaddaşdadır. Artıq on ilə yaxındır ki, Azərbaycan jurnalistikasının patriarxı, məşhur alim, pedaqoq, ictimai xadim, professor Nəsir Əsədulla oğlu İmanquliyev aramızda yoxdur. O, milli mətbuatımızda yarım əsrdən artıq fəaliyyəti ilə özündən sonra parlaq iz qoymuşdur. Zəngin biliyə, böyük təşkilatçılıq qabiliyyətinə, yüksək mədəniyyətə malik, insanlığa, ziyalılığa əsl nümunə olan Nəsir müəllim «Bakı» və «Baku» qəzetlərinin əsasını qoymuş və otuz il bu qəzetlərə rəhbərlik etmişdir...

Elə bil, Nəsir müəllimin az sayda insanı dəvət etdiyi 65, sonra 75, nəhayət, 85 illik yubileylərinin sakit və ciddi təntənələri hələ yaddaşlarda təzədir. Yaxşı yadımdadır, o, yubileylərinə qonaqları diqqətlə seçərdi, sanki səhvə yol verməkdən, ən əsası da qohumlardan, dostlardan, həmkarlardan kiminsə xətrinə dəyməkdən çəkinirdi. Ömrünün hər on ilini ölçən bu məclislərdə ağsaqqalın özünü gümrah saxlamasına, zarafatlar etməsinə, bir-iki badə qaldırmasına baxmayaraq, hər halda onun gözlərində bir narahatlıq oxunardı, elə bil yaşanmış enişli-yoxuşlu uzun ömrün sevincli və kədərli anları bu gözlərdə yığılmışdı.

Nəsir müəllim təmtərağı, məddahlığın və bakal cingiltilərinin həqiqəti batırdığı səsli-küylü şənliklərdən uzaq olardı. O, bütün həyatı ilə jurnalistikaya, ölkəyə, xalqa altmış illik xidməti ilə, heç şübhəsiz ki, yüksək dövlət təltiflərinə layiq idi, lakin öz təvazökarlığı üzündən, necə deyərlər həmişə «kölgədə» qalırdı. İnciklikləri, qarşılaşdığı təzyiqləri üzə vurmurdu, baxmayaraq ki, onun həyat yolunda belə hallar çox olurdu.

Mən Nəsir İmanquliyevi ilk dəfə 1958-ci ildə görmüşəm, indiki «Azərbaycan» mehmanxanasının yerində qərar tutan keçmiş Azərbaycan KP MK-nın birləşmiş nəşriyyatının darısqal sexində «Bakı» qəzetinin səhifələnməsi üçün taler dəzgahının

önündə hündürboylu, bir qədər dalğın, lakin tipik ziyalı görünüşlü bir şəxs dayanmışdı. Əlində qəzetin hazırlanmaqda olan nömrəsinin ottiskini (səhifəsini) tutan bu şəxs mürəttibə məqalələrdən birinin sərlövhəsini necə görmək istədiyini səbrlə izah edirdi. O, iki dəfə ustanın təklif etdiyi şrifti bəyənmədi və yalnız üçüncü cəhddə məmnunluqla dedi: bəli, bax bu, yarayar...

Usta sərlövhəni yığmağı mənə – mürəttib işini hələ təzə-təzə mənimsəyən "sütül" şagirdə tapşırdı. Sonra da mənə müraciətlə dedi:

– Yadda saxla, Nəsir müəllim kabinet redaktoru deyil, qəzeti necə etməyi bilir, odur ki, onun məsləhətlərinə qulaq as, öyrən...

«Bakı» o vaxtlar hər şeyə qadir olan partiyanın çətiri altında müdafiə edilən nüfuzlu qəzetlərin sırasında özünə yaşamaq hüququ və böyük nüfuz qazanmaq uğrunda səy göstərirdi. Beləliklə, hələ az tanınan axşam qəzeti qətiyyətlə, lakin zahiri hay-küysüz ayağa durmaq üçün özünə yol açdı, elə bir xüsusi gərginlik keçirmədən məşhurlaşdı, «simasını» təsdiqlədi. Günün sonunda – saat beş-altı radələrində köşklərin qarşısında «Bakı» axşam qəzeti üçün yaranan növbələr hələ yaddaşlardan silinməyib. Və əlbəttə ki, oxucular qəzeti açanda peşman olmurdular, kiçik formatlı "Bakı"nın səhifələrində onları narahat edən, doğma şəhərləri üçün aktual olan çox şey tapırdılar...

Axşam qəzetinin məşhurluğu, ilk növbədə onun redaktorunun əməyi ilə bağlı idi. Təcrübəli kapitan «Bakı» adlı gəmini məharətlə idarə edib, onu cəsarətlə böyük sulara çıxartdı. Nəsir müəllim onda arxa axtaran yazarları həssaslıqla qoruyurdu. Tezliklə, axşam qəzeti böyük formatda çıxmağa başladı, sonra isə Nəsir müəllim rus dilli «Baku» qəzetinin də nəşrinə nail oldu və ötən əsrin 80-ci illərinin sonlarınadək bu qəzet cütlüyünün «yüyənini» öz əlində cəsarətlə saxladı. O, yolboyu qarşıya çıxan maneələrdən yan keçməyi öyrəndi və başqalarını da buna öyrətdi.

Yox, onun həyat yoluna qızılgüllər səpilməmişdi. Yuxarı qalxmalar bəzən aşağı enmələrlə əvəzlənirdi, lakin Nəsir müəllim heç vaxt təslim olmurdu, heç vaxt həyatdan gileylənmirdi. O, üzərinə düşən çətinliklərin altında, sözün əsl mənasında, möhkəm yay kimi sıxılırdı və bəzən elə görünürdü ki, daha dözməyəcək. Ovaxtkı Bakı Şəhər Partiya Komitəsində, həmçinin MK-da yüksək vəzifə kürsülərində əyləşən və onu sevməyən məmurların hücumlarının qarşısında sınacaq. Lakin yay düzəlirdi, Nəsir müəllim özündə dirçəlməyə güc tapırdı. O, öz doğma qəzet işinə qayıdır və baş-qa hər şeyi, bütün xoşagəlməz məqamları unudurdu.

Xatırlayıram, təxminən 30 il bundan əvvəl partiya fəlakətinin qara buludları Nəsir İmanquliyevin başı üstünü bürümüşdü: Hansısa bir xırda məsələyə görə "ilişmə" gülməli idi. Şəhər miqyasındakı partiya bossunun özü də «Qaynadılan» işin cəfəngiyat olduğunu anlasa da, qətiyyətlə axşam qəzetlərinin sözdə və əməldə prinsipial olan redaktoruna təzyiqləri artırmaqda davam edirdi. O vaxtlar «işi» necə deyərlər, göyədək şişirtdilər, redaksiyaya, onun rəhbərliyinə ağır zərbə vurdular. Lakin Nəsir müəllim tab gətirdi. Hədsiz

səylər sayəsində redaksiyanı öz iş ahənginə qaytarmaq, kollektivi tərk etmək məcburiyyətində qalan təcrübəli jurnalistlərə layiqli əvəz tapmaq mümkün oldu. Zaman və sifarişlə «qaynadılan» işin bütün eybəcərliklərini üzə çıxartdı, hər şeyi yerbəyer etdi, bununla belə, jurnalistikamızın ağsaqqalının qəlbində sızıldayan bir çapıq qaldı. Uzun həyat yolunda o dəfələrlə qamçılanmışdı. Kənara çəkilmək, sakit ömür yaşamaq, bəlkə də, daha asan olardı, lakin Nəsir müəllimin təbiəti belə deyildi. O, əsl döyüşçü idi, sümüyünün iliyinədək qəzet işinə, öz övladlarına – «Bakı» və «Baku» qəzetlərinə sədaqətli idi.

Nəsir müəllimin başqalarında jurnalistlik vergisini çox həssaslıqla «görməsi» adamı heyran qoyurdu. O, təcrübəli bir psixoloq, məharətli seleksiyaçı kimi, qəzet üçün əməkdaşlar seçəndə yanılmırdı və uzun müşahidələrdən sonra üzərində dayandığı şəxsləri tərəddüd etmədən istehsalatdan, tələbə auditoriyasından birbaşa qəzetdə işləməyə dəvət edərdi. Nəsir müəllimin məktəbini sonralar yalnız peşəkar jurnalist kimi deyil, həm də ən müxtəlif sahələrdə tutduqları vəzifələrdə özlərini yüksək səviyyədə təsdiqləyən yüzlərlə insan keçmişdir. Onların arasında həm dövlət adamları, həm elm xadimləri, həm də hərbçilər və çoxlu sayda yüksək səviyyəli ali məktəb müəllimləri vardır. Lakin onların hamısı jurnalist, özlərinin ustadları sandıqları Nəsir müəllimin yetirmələri olaraq qalırlar.

Ağsaqqal Nəsir müəllim həyatı tam mənada, bütün genişliyi və rəngarəngliyi ilə qəbul edirdi. O,





lap elə əməkdaşlarının yalnız xidməti yox, həm də məişət qayğılarından xəbərdar olmağı özünün böyüklük borcu sanırdı. Redaksiya əməkdaşlarının elə bir toy məclisi olmazdı ki, Nəsir müəllim onun keçirilməsinə bu və ya digər dərəcədə kömək etməsin. O, hər bir əməkdaşın xarakterinə, onların tapşırılan işə, nizam-intizama münasibətlərinin müxtəlifliyinə hörmət etməyi bacarırdı.

Nəsir müəllim ilk növbədə özünə qarşı tələbkar idi və tabeçiliyindəkilərdən də bunu tələb edirdi. Bir sözlə, mənim (bir sıra digər işçilərin də) Nəsir müəllimlə münasibətləri «redaktor-əməkdaş» çərçivəsindən çox-çox kənara çıxmışdı. Tam yəqinliklə deyə bilərəm ki, bizlərdən çoxunun öz redaktorları ilə sıx ailə münasibətləri yaranmışdı.

Yeri gəlmişkən, Nəsir müəllimin öz ailəsinə münasibəti kifayət qədər yüksək idi və sözün əsl mənasında nümunə sayıla bilərdi. Bu da ona böyük hörmət qazandırırdı. Onun ömür-gün yoldaşı Gövhər xanımın xeyirxah obrazını unutmaq mümkün deyil. O, Azərbaycan qadınına xas olan ən yaxşı keyfiyyətləri özündə cəmləşdirirdi. Qızı Aida xanım, kürəkəni Arif müəllim (məşhur yazıçı Mir Cəlalın oğlu), nəvələri Nərgiz və Mehriban Nəsir müəllimin möhkəm və xoşbəxt ailəsini təşkil edirdi. O, jurnalistlər üçün həmişə mənəvi təmizlik, alicənablıq, yüksək davranış mədəniyyəti, ziyalılıq, xalqa, doğma torpağa bağlılıq nümunəsi olmuşdur. Obrazlı ifadə etsək, Nəsir müəllim bizdən ötrü həyatda özümüzü necə aparmaq üçün bir kompas idi...

Jurnalistikamızın patriarxı Nəsir müəllim təkrar etməkdən yorulmazdı: Qəzet səlahiyyətli

nümayəndədir, o hər evə, hər ailəyə girməlidir. Qəzetin arzuedilən olması üçün onu cani-dildən, əsaslı şəkildə, insanlar və dövlət üçün faydalı etmək lazımdır. Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) professoru, yarım əsrədək respublikanın bu aparıcı ali məktəbində dərs demiş Nəsir müəllimin mühazirələri də məhz bu yüksək amillərə istiqamətlənirdi. Onun mühazirələri ibrətamiz olurdu, jurnalistlik məktəbində qazanılan zəngin təcrübə ilə yoğrulurdu. Bu indidir, jurnalistikada (təkcə jurnalistikadamı?!) ağlasığmaz hərki-hərkilik hökm sürdüyü bir vaxtda öz sifarişli cızmaqaraları ilə üzdəniraq qəzetlərin səhifələrini dolduran və jurnalistlik işinin mahiyyətindən, onun təyinatından baş çıxarmayan hər cür "qələm əhli" güruhu zühur etmişdir. Əlbəttə ki, belə başabəla jurnalistlər qəzet işində həqiqəti, vicdanı, düzgünlüyü göz bəbəyi kimi qoruyan Nəsir müəllimin məktəbindən uzaqdırlar.

Bu keyfiyyətlər professor N.İmanquliyevdə hələ gəncliyindən, ötən əsrin uzaq 30-cu illərində onun – qazma idarəsinin texnikinin o vaxtlar öz sanbalına görə respublikada birinci olan «Kommunist" qəzetinin redaksiyası ilə əməkdaşlığa dəvət edildiyi vaxtlardan formalaşmışdır. Sonra o, gənc jurnalistin yaradıcılıq ustalığının cilalandığı «Gənc işçi», «Yeni yol» kimi başqa qəzetlərdə işləmişdir. Faşizmlə müharibə illərində Nəsir müəllim «Krım cəbhəsi» qəzeti ilə əməkdaşlıq etmiş, sonra yenidən «Kommunist» qəzetinə qayıtmışdır. Onun jurnalistika ilə yolunun müvəqqəti ayrıldığı vaxtlar da olmuşdur, lakin bu, uzun sürməmişdir. Nəsir





müəllim jurnalistikadan kənarda qalmağı bacarmaz və bunu heç istəməzdi də. Heç təsadüfi deyildir ki, o, ömrünün 30 ilini «Bakı» və «Baku» qəzetləri ilə bağlamışdır.

Nəsir müəllimin ömrünün son illəri çətin keçmiş, bəzən üzücü ağrılarla müşayiət olunmuşdur. Sevimli qəzet işindən ayrılmağın ağırlığı onun artıq yaşla bağlı əvvəlki möhkəmliyini itirən səhhətində özünü göstərirdi. Görmə qabiliyyəti zəifləmişdi, ürəyi şıltaqlıq edirdi. Axı onun uzun ömründə nə qədər haqsızlıqlar, inciklikər olmuşdu – buna hər kəs tab gətirə bilməzdi. Lakin bu insan, böyük şəxsiyyət ruhdan düşmədi, özünü itirmədi. O, aydın şəraitdə dərk edirdi ki, keçmişi geri qaytarmaq mümkün deyil, bununla belə həyatın faniliyi barədə düşüncələrə dalmaq, böyüməkdə olan nəslə xeyir-dua vermək imkanlarını da buraxmırdı. Yaşanmış 87 illik ömrün zirvəsindən əməkdar jurnalist, əməkdar mədəniyyət işçisi, «Qızıl qələm» mükafatı laureatı, alim, pedaqoq, ictimai xadim, professor Nəsir Əsədulla oğlu İmanquliyev çox şey görürdü. O, həyatı, doğma jurnalistlik işini, Bakını, Vətəni sevirdi. Hər şeydə başqalarına nümunə idi. Bax, elə buna görə də Nəsir müəllim onunla işləyən, onu tanıyan, ondan dərs alan, öyrənən hər kəsin qəlbindədir...

**Aslan Aslanov**
*AzərTAc-ın Baş direktoru*

## USTAD DƏRSİ UNUDULMUR...

Hələ sağlığında milli mətbuatımızın klassikinə çevrilmiş görkəmli jurnalist Nəsir İmanquliyev haqqında xatirələrimi qələmə almaq, bir qəzet yazısının imkanları daxilində oxuculara təqdim etmək barədə iş yoldaşlarımla fikir mübadiləsi apardığımız günlərdə eşitdiyimiz xoş xəbər bizi çox sevindirdi. Möhtərəm Prezidentimiz İlham Əliyev 2006-cı il sentyabrın 4-də unudulmaz müəllimimizin xatirəsinin əbədiləşdirilməsi haqqında Sərəncam imzalamışdı.

Nəsir müəllimlə ilk tanışlığım, ünsiyyətim 36 il əvvələ – artıq əlçatmaz, ünyetməz bir keçmişdə qalmış 1970-ci ilin sentyabr ayına, bütövlükdə qayğısız olsa da, daha çox acılı-şirinli anları ilə yadda qalan tələbəlik illərinin ilk günlərinə təsadüf edir...

Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinə qəbul olunmuş əlli tələbənin əyləşdiyi





auditoriyaya daxil olan, «Jurnalistikanın əsasları» fənnini tədris edəcək boy-buxunlu müəllim ciddi, zabitəli görkəmi, rəvan, ölçülü-biçili danışığı ilə hələ ali məktəbin ab-havasına uyuşmayan, bir qədər şıltaq-ərköyün gənclərin diqqətini dərhal özünə cəlb etdi. Bu, Nəsir müəllim idi. Elə ilk dərsdən hiss etdik ki, Nəsir müəllim jurnalistika sahəsində həm mükəmməl nəzəri biliyə malik alim, həm də zəngin təcrübəsi olan peşəkardır. Elmi dəlillərin həyati faktlar əsasında şərhi Nəsir müəllimin mühazirələrini yaddaqalan və maraqlı edir, gələcəyin jurnalistləri olacağımızdan iftixar duyurduq...

Aradan bir qərinədən artıq vaxt ötsə də, bu müddətdə həyatımızda acılı-şirinli çox hadisələr baş versə də, unudulmaz tələbəlik illərində Nəsir müəllimin jurnalist sənəti və sənətkarlığı ilə bağlı dəyərli fikirlərinin qəlbimizdə oyatdığı xoş duyğuların gələcək peşəmizin məsuliyyətindənmi, çətinliyindənmi, yaxud yazı-pozu işinin əzab-əziyyəti barədə eşitdiklərimizdənmi (bəlkə də onların hamısından) yarandığını hələ də müəyyənləşdirə bilməmişik. Ancaq bir məsələ şəksizdir ki, mətbuat aləmində, yazı-pozu işində nəyə nail olmuşuqsa (təkcə mən yox, Azərbaycan jurnalistlərinin bütöv bir nəsli), buna görə Nəsir İmanquliyev başda olmaqla, əziz və unudulmaz müəllimlərimizə borcluyuq.

Tələbəliyimizin hər ötən semestri, kursu bizi müəllimlərimiz arasında ciddiliyi, tələbkarlığı ilə sayılıb-seçilən Nəsir müəllimə elə yaxınlaşdırmış, doğmalaşdırmışdı ki, hətta aramızda pünhan tələbə-

müəllim dostluğu yaranmışdı. Açığı, bu doğmalıq, məhrəmlik, dostluq duyğularını bizə universitet auditoriyalarından daha çox Nəsir müəllimin yaradıcısı və düz 30 il dəyişməz redaktoru olduğu «Bakı» qəzeti redaksiyasındakı geniş kabineti aşılayırdı. Çünki Nəsir müəllim seminarları, adətən, redaksiyada aparardı və buna görə də biz özümüzü nisbətən sərbəst hiss edər, ustadımızın ömür yolunun, xarakterinin, xasiyyətinin hər dəfə bir məqamını, məziyyətini kəşf edərdik.

Nəsir müəllim ömrünün sonunadək Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində dərs deyib. Ancaq zənnimcə, Nəsir müəllimin əsil universiteti «Bakı» və «Baku» qəzetləri olub. Tarix elmləri namizədi, professor Nəsir İmanquliyev universitet auditoriyalarında tələbələrə yalnız jurnalistikanın əsaslarını öyrədirdi. «Bakı» və «Baku»nun «auditoriyalarında» isə bizə qəzetçilik işinin incəlikləri ilə bərabər, jurnalistlik məharəti, redaktə bacarığı, səbirlə işləmək vərdişləri, ən başlıcası isə, Nəsir İmanquliyev şəxsiyyətinə xas olan xeyirxahlıq, alicənablıq, nəciblik, yüksək daxili mədəniyyət və böyüklük – ağsaqqallıq, təmkinlilik kimi məziyyətləri təlqin edirdi. Məhz bu amillərə əsasən, tam məsuliyyət hissi ilə deyirik ki, Nəsir müəllim özünün jurnalistika məktəbini yaratmışdır.

Təbii ki, ustadların məktəbi olur və bu ali məqama, mərtəbəyə çatmağın necə çətin və şərəfli olduğunu bilmək üçün Nəsir müəllimin ömür yoluna ötəri bir nəzər salmaq da kifayətdir. 1932-ci ildə Azərbaycan K(b)P Mərkəzi Komitəsinin tapşırığı ilə «Kommunist» (indiki «Xalq qəzeti») qəzeti redaksiyasında işə qəbul olunan Nəsir müəllim taleyini birdəfəlik jurnalistikaya bağlamış, sonralar «Gənc işçi», «Yeni yol» qəzetlərində, müharibə illərində cəbhə qəzetində, sonra sərasər 24 il yenə də «Kommunist»də şöbə müdiri, məsul katib, redaktor müavini vəzifələrində çalışmışdır. Bir müddət Bakı Şəhər Partiya Komitəsi təbliğat-təşviqat şöbəsinin müdiri, Mərkəzi Komitədə həmin şöbənin müdir müavini, Radio Verilişləri Baş İdarəsinin rəisi, Azərbaycan Radio-Televiziya Verilişləri Komitəsi sədrinin birinci müavini işləmiş, nəhayət, 1958-ci ildə «Bakı» qəzetini (1963-cü ildə isə həm də «Baku»nu) yaradaraq, tam 30 il bu nəşrlərin dəyişməz redaktoru olmuşdur.

Nəsir müəllimin jurnalistika məktəbinin yetirmələri o vaxtlar da, elə indinin özündə də Azərbaycanın aparıcı mətbuat orqanlarında çalışır, dəst-xətləri ilə seçilirlər. Adları milli mətbuatımızın tarixinə düşmüş jurnalistlərin bütöv bir nəsli, sözün həqiqi mənasında, Nəsir İmanquliyev məktəbinin yetirməsidir, necə deyərlər, onun «şinelindən» çıxmışdır. Nəsir müəllimin məktəbi təkcə istedadlı jurnalistlər deyil, həm də görkəmli elm və ədəbiyyat xadimləri yetirmişdir. Sonralar Azərbaycan ədəbiyyatının tanınmış simaları olan bir sıra yazıçılar, şairlər, alimlər ilk yaradıcılıq addımlarını «Bakı» qəzetində atmışlar. «Bakı» həmçinin bütöv bir ədəbi nəslin yeni əsərlərinin işıq üzü gördüyü qəzet olmuşdur. Bu barədə çox zəngin bir siyahı tərtib etmək mümkündür. Ancaq mən qəzet məqaləsinin verdiyi imkan daxilində tanınmış ədəbi simalarımızın Nəsir müəllim haqqında dəyərli

xatirələrindən bəzi seçmələri diqqətə çatdırmaqla kifayətlənəcəyəm.

Xalq yazıçısı Elçin həyatdan vaxtsız köçmüş məşhur şərqşünas alim, Nəsir müəllimin gözünün ağı-qarası olan ciyərparəsi Aida İmanquliyeva haqqında «Dünyanın möhnəti və ziynəti» adlı məqaləsində yazır: «Görkəmli jurnalist Nəsir İmanquliyev bizim, yəni altmışıncı illərdə ədəbiyyata gəlmiş ədəbi nəslin dostu və xeyirxahı idi. Onun bizə bu münasibəti uzun müddət baş redaktoru olduğu «Bakı» qəzetində həmişə özünü göstərirdi. Mənim ilk yazılarımın bir çoxu o qəzetdə dərc edilmişdi. Haqqımdakı ilk məqaləni də o qəzet çap etmişdi və bizim Nəsir müəllimə xüsusi hörmətimiz var idi».

Xalq yazıçısı Qılman İlkin xatirələrinin birində deyir: «Nəsir İmanquliyev Azərbaycan ədəbiyyatının dostu idi. Ədəbi mühitdə qaldırılmış mühüm məsələlərin müzakirəsində «Bakı» qəzeti həmişə fəal iştirak edər və həmişə də düzgün mövqe nümayiş etdirərdi. Mən də uzun müddət şəhər qəzeti ilə yaxından əməkdaşlıq etmişəm. Əmək adamlarının həyatından bəhs edən silsilə oçerklərim bu qəzetin səhifələrində dərc olunmuşdur. Həmçinin, «Müsəmmərin kirayənişinləri» və «Bir gecənin ömrü» povestlərimi, çoxsaylı hekayələrimi oxuculara birinci olaraq «Bakı» qəzeti çatdırmışdır. Azərbaycan poeziyası, nəsri, dramaturgiyası və ədəbiyyatşünaslığının ötən əsrin ikinci yarısında yaşayıb-yaratmış simalarının hər hansı birini dindirsəniz, yaxud xatirələrini vərəqləsəniz, Nəsir müəllim haqqında mənim fikirlərimdən də dəyərli fikirlər eşidəcək və oxuyacaqsınız».





Qılman müəllimin sözlərinə qüvvət, mən (əlbəttə, başqaları da) müxtəlif tədbirlərdə, mərasimlərdə məşhur insanların, tanınmış ədəbiyyat, mədəniyyət və mətbuat xadimlərinin Nəsir müəllim və «Bakı»–«Baku» qəzetləri haqqında necə böyük məhəbbətlə, dərin iftixar hissi ilə danışdıqlarının dəfələrlə şahidi olmuşam. Həmkarım Dağbəyi İsmayılov deyir ki, 1999-cu ilin mart ayında akademik Bəkir Nəbiyevlə birlikdə müqəddəs Məkkədə həcc ziyarətində olmuşdur. Zəvvarlar arasında jurnalistlərin, həmçinin «Bakı» qəzeti əməkdaşının da olduğuna çox sevinən Bəkir müəllim asudə vaxt tapan kimi onları başına yığır, şəhər qəzetində çalışdığı gənclik illərini yada salır, Nəsir müəllimlə bağlı maraqlı, ibrətamiz xatirələr söyləyirdi. Belə söhbətlərin birində qeyd edildi ki, bu gün (martın 6-sı idi) Nəsir müəllimin vəfatının bir ili tamam olur. Bəkir müəllim təklif etdi ki, gəlin, şeyxə deyək, yığışıb xatirə mərasimi keçirək, ehsan süfrəsi açaq, Quran tapşırtdıraq.

Şeyxülislam hacı Allahşükür Paşazadə təklifi yüksək dəyərləndirdi və Azərbaycanın Səudiyyə Ərəbistanında ovaxtkı səfiri Elman Araslı, səfirliyin işçiləri və xeyli zəvvarın iştirakı ilə xatirə mərasimi keçirildi. Akademik Bəkir Nəbiyev, şeyxülislam Allahşükür Paşazadə, Bakı Dövlət Universitetinin dosenti İslam Əliyev Nəsir müəllimin müdrikliyi, nəcibliyi, xeyirxahlığı və milli mətbuatımızda bir sıra yeni ənənələrin təməlini qoyan novator redaktor olması barədə çox qiymətli fikirlər söylədilər.

Nəsir müəllimin layiq görüldüyü «Əməkdar mədəniyyət işçisi», «Əməkdar jurnalist» fəxri adları

onun mətbuatımızın inkişafındakı əvəzsiz xidmətlərinin rəsmi təsdiqidir. Ancaq qətiyyətlə demək olar ki, bu fədakar insanın banisi olduğu və otuz il sükanı arxasında vüqarla dayanaraq daim irəli apardığı, inkişaf etdirdiyi, övladı qədər sevdiyi, uğurlarından sonsuz iftixar hissi duyduğu «Bakı» qəzetinin 1958-ci il yanvarın 10-da nəşrə başlaması Azərbaycan mətbuatının tarixində milli hadisədir. Bu qəzet işıq üzü görməsi ilə o dövrün ciddi siyasi buxovları çərçivəsində sıxılan milli mətbuatımıza yeni nəfəs, yeni ruh, yeni dəst-xətt gətirmişdir. Oxucuların yaşlı nəslinin nümayəndələri hər gün axşamçağı «Bakı» və «Baku» qəzetləri üçün köşklərin qarşısında növbəyə dayandıqları vaxtın xiffətini çəkdiklərini indinin özündə də xoş duyğularla dilə gətirirlər. Milli mətbuatımızın indi üstünlük verdiyi xəbər janrının əhəmiyyətini hələ 40-45 il bundan əvvəl yüksək qiymətləndirən Nəsir müəllim rəhbərlik etdiyi qəzetlərdə operativ, dəqiq, maraqlı, rəngarəng xəbərlərə böyük üstünlük verirdi. Bu, şəhər qəzetlərini o zaman digər mətbu nəşrlərdən fərqləndirən əsas cəhətlərdən biri idi.

Fərqləndirici cəhətlərdən söz düşmüşkən, xatırlatmağı özümə borc bildim ki, mətbuatımızın tarixində 30 il fasiləsiz redaktor işləmək, hər həftə iki dildə bir-birini təkrarlamayan 12 nömrə qəzet buraxmaq, müxtəlif millətlərə, müxtəlif zövqlərə, fərqli düşüncələrə mənsub böyük bir kollektivi söz-söhbətsiz, dəqiq saat mexanizmi kimi işlətmək heç də hamıya nəsib olan hünər deyildir. Təkcə bu faktın özü Nəsir müəllimin ağsaqqallığı, idarəçilik üslubu, redaktorluq məharəti, ustalığı və ustadlığı haqqında çox söz deyir.





Nəsir müəllimə cəmiyyətdə, kollektivdə, dost-tanışları arasında nüfuz qazandıran nəcib xüsusiyyətlərindən biri də onun obyektivliyi, işçilərini ayağa verməməsi, çətinə düşəndə onlara arxa-dayaq olması idi. Adətən, rəhbərlər işçini işdən çıxarmaqla hədələyirlər, Nəsir müəllim isə səhvə yol verəni işdən çıxarmamaqla qorxudar, necə deyərlər, danlayıb suyunu çıxarar, üstündən 5-10 dəqiqə keçməmiş çağırıb könlünü alar, elə öyüd-nəsihət verərdi ki, bir daha qəbahət etməyə adamın cürəti çatmazdı.

Redaktor-işçi münasibətlərindən söz düşmüşkən, Nəsir müəllimin portret cizgilərini tamamlayan bir ştrixi də diqqətə çatdırmaq vacibdir. Kollektivin xeyrində də, şərində də ağsaqqallığı özünə mənəvi borc bilən Nəsir müəllim tez-tez süfrə açdırıb işçiləri bir yerə yığmağı çox xoşlayırdı. Deyirdi ki, bir süfrədə halal düz-çörək kəsmək adamları mehribanlaşdırır, umu-küsüləri aradan götürür, onlarda bir-birinə hayanlıq hissi aşılayır.

Nəsir müəllim bütün ömrü boyu saysız-hesabsız adama hayan olmuş, çoxunun müşkülünü yoluna qoymuş, dar günündə əlindən tutmuşdur. Allah sevimli bəndəsi Nəsir müəllimə bir çox fəzilətlərlə bahəm mənalı cismani ömürdən əlavə, haqq dünyasına qovuşduqdan sonra qəlblərdə xoş xatirələrlə əbədi yaşamaq şərəfi də qismət etmişdir.

Artıq səkkiz ildir ki, ustadımız Nəsir müəllim əbədiyyət dünyasındadır. Bu ayrılığın Nəsir müəllimin əzizləri, doğmaları, dostları və tələbələri üçün dəqiq başlanğıc tarixi vardır: 1998-ci il 6 mart. Ancaq son tarix heç zaman olmayacaqdır.

**Cəmil Əlibəyov**
*yazıçı*

# USTADLIQ VƏ SƏXAVƏTLİ VARİSLİK

Sevimli müəllimim Nəsir İmanquliyevin universitet auditoriyasında mühazirələrini dinləməmişəm, ustad jurnalistlə eyni bir redaksiyada işləmək mənə qismət olmayıb, ancaq mətbuatda çalışdığım yarım əsrdən çox bir müddətdə özümü onun tələbəsi - həmin nəslin şagirdi saymışam. Və ən vacibi qələm sahibi olduğum vaxtdan onların yaradıcılıq məsləkini özüm üçün örnək seçmişəm. Əqidələri belə idi: jurnalist bal arısıdır, kol-kol, çiçək-çiçək gəzir, topladığı balı insanlara verir, zəhəri özündə saxlayır...

Bu ideya ulularımızdan: Həsən bəy Zərdabidən, Cəlil Məmmədquluzadədən, Əli bəy Hüseynzadədən, Üzeyir bəy Hacıbəyovdan... irsi olaraq keçmişdi onlara. Otuzuncu-əllinci illərdə klassiklərin varisləri çox çətin şəraitdə əsl jurnalist sənəti dəyərlərini qoruyub saxlamış və sonrakı dövrdə bizim nəslə ötürmüşdülər.





Doğrudur, Nəsir müəllimin adı, orta və yaşlı nəsil üçün əsasən «Bakı» axşam qəzeti ilə hafizələrdə qalmışdır. Əslində, o, hələ mətbuatımızın güclü qolu olan «Yeni yol» (1922-1939) qəzetində fəaliyyəti ilə tanınmış, şöhrətlənmişdi. Xalqın maariflənməsi amalı ilə fəaliyyətə başlayan bu qəzet, ictimai-siyasi, ədəbi-bədii həyatda apardığı böyük işlərlə mətbuat tariximizin şanlı səhifələrini yazmışdır. Görkəmli yazıçıların redaktorluğu dövründə bədii yaradıcılıq diapazonu daha da genişlənmiş, son dövrdə isə axşam qəzeti funksiyası ilə neft sənayesinin inkişafına mənəvi arxa olmuşdur. Və «Bakı» axşam qəzetinə yol da bu təbii gedişlə uğurlu mənzilə gəlib çatmış, Nəsir müəllim iyirmi ildən çox bir müddətdə bu qəzetə başçılıq etmişdir.

Bax, Nəsir müəllimin yaradıcı ömür yolu bununla səciyyələnir, həm də təkcə redaktor səriştəliliyi ilə deyil, şəxsiyyət nümunəsiylə, haqpərəstlik qətiyyəti, paklığa-təmizliyə mərdlik iradəsi göstərməsi ilə!

Xatirələrimi vərəqləməli olacağam. Axırıncıdan - mərdlikdən başlayıram.

Altmışıncı illərdə belə bir ənənə vardı: respublika qəzetləri redaktorlarını partiya Mərkəzi Komitəsinə toplayardılar: təzə göstərişlər vermək, hərdən də danlamaq üçün. Ancaq vaxtaşırı, birinci katib özü bizi yığardı. «Nə var, nə yox?» üçün, yerlərdəki vəziyyətdən səhih xəbər tutmaqdan ötrü. Bir dəfə belə bir gözlənilməz hadisə oldu. Nəsir müəllim katibdən xahiş elədi ki, ikinci katibi də dəvət eləsin (sonra anladıq ki, arxasınca danışmaq istəməyib).

Katib gələndən sonra mətləbi açdı. Demə, «Bakı» qəzeti gənclərin tərbiyəsini pozan əxlaqsız bir qadın haqqında felyeton veribmiş. Amoral xislətli qadın özünü müdafiə etmək üçün mümkün olan instansiyalara müraciət etsə də, qəzetdə təkzib verilməsinə müvəffəq ola bilməyib. Öz millətindən olan ikinci katibin qəbuluna düşüb... Və katib qəzəblənib, hökmlə göstəriş verib ki, «qəzet səhvini düzəltsin!»

Nəsir müəllim qızıl-qırmızı ikinci katibin üzünə dedi ki, siz milli mənəviyyatı yox, milli məxsusiyyəti müdafiə edirsiniz...

Belə bir qeyri-adi ovqatdan pərt olsaq da, şəxsən aralarında ən cavan redaktor olan mənim üçün bu, jurnalist mətanəti, dərsi oldu.

Bir dəfə də «Azərbaycan gəncləri» qəzeti ilə bağlı Mərkəzi Komitə şöbəsində müzakirədə Nəsir müəllim hamını heyrətləndirmişdi. 1962-ci il idi. Tanınmış şair Qabilin «Tramvay parka gedir...» şerini çap etdiyimizə görə qəzəbə hədəf olmuşduq. Çox səmimi, lirik şeir idi. Ancaq yuxarıdakılar buna siyasi rəng vermişdilər. Gecə saat 1-də tramvay parka gedir, şəhər sönük gecə həyatını yaşayır, sürücü ilə nəzarətçi kənd üçün qəribçilik hisslərini bölüşürlər... Bu, bizim həyatımıza nihilist baxışıdır.

Yerindən duran redaktorlar, şöbə əməkdaşları az qala mənə xalq düşməni damğası yapışdıracaqdılar... Axırda Nəsir müəllim söz aldı. Güman elədim ki, bir vaxtlar sözündən çıxıb, onun qəzetinə işə getmədiyimə görə acığını çıxacaq, əksinə oldu. Nəsir müəllim dedi ki, burada redaktoru qınayırsınız ki, niyə Bakı gecəsindən



yazılmış şeri çap edib. Başa düşmək olmur, nə vaxtdan gecədən yazmaq qadağa olub. Siz niyə şerə gecə gözüylə baxırsınız. Belə fərz edin ki, o tramvay səhər tezdən kommunizm qurucularını iş yerinə aparıb, axşam da evlərinə daşıyıb, xeyirxah iş görüb. Buna siyasət damğası vurmaq, ən azı ədəbi naşılıq olardı bizim tərəfimizdən.

Və bununla da qəzəblər üstünə su ələndi...

Nəsir müəllimin qəzetinə getməmək qəziyyəsi üstünə qayıtmalı olacağam.

Əlli yeddinci ilin qışıydı: «Azərbaycan gəncləri» qəzetində məsul katib işləyirdim. Arada fürsət tapıb bazar günü Mil düzünə ova getmişdim. Gecə rayon Partiya Komitəsinin işçisi məni qohumumgildə axtarıb tapmışdı və təkid elədi ki, raykoma gedib, Mərkəzi Komitəyə zəng çalım. Nə ola bilərdi? Qəzetlə bağlı redaktor vardı... Çağırışdan məqsədi açıqlamadılar. Dedilər ki, hökmən şəhərə qayıtmalısan, bazar ertəsi səhər saat 10-da Mərkəzi Komitədə olmalısan.

...Şöbə müdirinin kabinetində Nəsir müəllimi görcək xatircəmləndim. Bir neçə dəfə tanınmış jurnalistlərlə bir yerdə rəhbərlər üçün çıxışın mətnini hazırlamalı olmuşduq... Güman etdim ki, bunun üçündür, təcili çağırış. Nəsir müəllim, həmişə olduğu kimi, məni gülərüzlə qarşıladı. Ancaq bu dəfə xüsusi mehribançılıq hiss etdim. Şöbə müdiri ilə baxışdılar. Söhbətə şöbə müdiri başladı. Mənə xoş gələn kəlmələr söylədikdə dalağım sancdı. O, həmişə yığıncaqlarda məni gülər üzlə qarşılayanda, yəqin bilirdim ki, bu tənqid üçün müqəddimədir. Dedi: «Neçə ildir, «gənclər»də

oturub qalmısan, partiya sizi məsul işə – partiya qəzetinə göndərir. Bunu dedi, məndən cavab gözlədi. Cavab da nə ola bilərdi. Qayda beləydi: «Mən partiyanın əsgəriyəm!» deməliydim. Nəsir müəllim niyyətimi duydu, səmimiyyətlə dedi: «Cəmil, istəyirəm bir yerdə işləyək, yəqin eşitmisən, «Bakı» axşam qəzeti açılır. Mənə redaktorluğu təklif ediblər. Səni də özümlə aparmaq istəyirəm. Sabah büroda təsdiq olunmalıyıq...

Sükutu şöbə müdiri pozdu: «Fikirləşməyə vaxt yoxdur».

Cavabım gözlənilməz oldu. Dedim ki, mənim «Azərbaycan gəncləri» qəzetinə qayıtmağımda Nəsir müəllimin xeyir-duası olub (ictimai keçmişimə görə məni komsomolun bürosunun qərarı ilə həmin qəzetdən kənarlaşdırmışdılar. «Ellər atası» dünyasını dəyişəndən sonra redaktorumuz İdris Qasımov o zaman Mərkəzi Komitədə mətbuatın kuratoru işləyən Nəsir müəllimin razılığı ilə «Gənclərə» qaytarılmağıma müvəffəq olmuşdu). Üstəlik komsomolda jurnalistlik təhsili almaq üçün Moskvaya oxumağa göndərib məni.. O qəzetə borcum çoxdur, mən...

Nəsir müəllim güldü: «Mən sizə dedim axı, onu «Azərbaycan gəncləri»ndən qoparmaq olmaz. Bu ziyalı anlaşıqlı qərar jurnalistlik taleyimin öz axını ilə getməsinə təminat oldu.

Bir il keçməmiş məni «Azərbaycan gəncləri» qəzetinə redaktor təyin etdilər. İlk təbrik zənglərindən biri də Nəsir müəllimdən idi. Ancaq təkcə mübarəkbadlıq deyildi. Dedi: bir il bundan əvvəl sənin istirahət gününü əlindən almışdım. Mən





də borcumu qaytarmaq istəyirəm. Bazar günü səni bağıma aparacamğam. Şəhərdə ol.

Və o gün Nəsir müəllimin əlində bel, ağaclara bağban qayğısı ilə qulluq etməsi, onun ziyalı simasına bir torpaq zəhmətkeşliyi əlavə edirdi.

Mənə çox sevdiyim nərgiz gülü şitili bağışlamışdı. – «Əkərsən» demişdi...

Bizim, aramızda on il yaş fərqi olsa da, sonrakı illərdə mehriban həmdəmliyimiz daha sıxlaşdı. Onun istiqanlılıq istedadı da vardı.

...1990-cı ildə «firavan» jurnalistlik həyatımız başa çatdı. Qanlı yanvar, məmləkətdə başıpozuqluq, erməni xəyanətinin tüğyan etməsi bizə şəxsi dərd-kədərimizi unutdurmuşdu. Mən «Kommunist» qəzetindən getməli olmuşdum. Bu az imiş kimi, dalımca da qara daş tullamağa başlamışdılar. Çox yaxınlarım uzaqlaşdı. Nəsir müəllim, əksinə. Baş redaktor işlədiyim «Yazıçı» nəşriyyatına gəlir, guya kitab nəşr etdirmək niyyəti ilə söhbət aparır, əslində, mənə təskinlik verirdi. Qınayırdı da... bizdə dərs deyəndə sənə çox dedik ki, mühazirələrini topla, müdafiə et. Elmi siyasətlə damğalamaq olmur. Mənim kimi, dərsini deyərdin, bədii yazıların üçün də çox vaxtın qalardı, romanlarını yazardın. Sonra alim Nəsir İmanquliyev də siyasət tufanından qoruna bilmədi.

Həyatımın ən məşəqqətli dövründə mənə göstərilən qayğılar unudulmazdır. Bu hər insanın işi deyil. Şeyx Nizami gözəl deyib: «Əsl insan Kişi olur». Bu kişiliyi mənim kimi çoxları Nəsir müəllimdən görüb, onun bərəkətli qayğısından mənfəətdar olub, şənyaşar ovqatından həyata bağlanıb, vərəsəlik bəxşişindən cəmiyyətdə mövqe qazanıb.

Nəsir İmanquliyevin təkcə «Bakı» qəzetində Azərbaycan mətbuatına, paytaxtımızın salnaməsinin yaradılmasına göstərdiyi xidmət onun əbədi anılmasına əsas verir. «Bakı» qəzeti təcrübəli, milli qeyrətli jurnalistin, redaktorun iradəsi, yaradıcılıq hünəri sayəsində mətbuat ailəmizin sevimli övladı oldu. Bu qəzet öz rəngarəng tərtibi, informasiya seçimi və üslubu, şəhər cəmiyyətinin həyatındakı qüsurlara qarşı amansız çıxışları, insanları tərəqqiyə yönəltməsi, kütləvi təşkilatçılığı ilə mətbuatımıza islahedici mübariz bir ruh gətirdi. Nəsir müəllim əsasən öz tələbələrindən seçim eləyib, yaradıcı kollektiv formalaşdırmaqla... «Bakı»da yeni bir praqmatik universitet açmışdı. Beləliklə, ustad jurnalistin əlindən su içmiş gənc nəsil yetişmişdi. Və sonrakı illərdə Azərbaycan informasiya kommunikasiyasında çox mühüm, məsul vəzifələri tutan məhz bu məktəbin nümayəndələri oldu. Yadımda qalanları deyim: publisist – şair Famil Mehdi professor rütbəsi ilə universitetin jurnalistika fakültəsinin kafedra müdiri oldu, istedadlı jurnalist Yusif Kərimov yarım milyon tirajla çıxan «Azərbaycan gəncləri» qəzetinin ən uzun stajlı redaktoru kimi fəaliyyət göstərdi, yazıları böyük maraqla izlənən Şamil Şahməmmədov ən çətin dövrdə Azərbaycan Teleqraf Agentliyinə ləyaqətlə başçılıq etdi...

Bu da çox şeydən xəbər verir ki, oxucular indinin özündə də «Bakı» axşam qəzetinin dadını-tamını unutmayıblar. Mətbuat uğuru üçün bu çox vacib amildir.

Nəsir müəllimin mənəvi keyfiyyətlərinin, mətbuat fədakarlığının dərin kökləri vardı. Əlbəttə, siftəsi əsil-nəcabətlə, fitri mənliklə bağlıydı. Nəsir müəllim məhdudiyyətlə keçirdiyi gənclik illərindən danışanda kövrələrdi. Otuzuncu illərdən söz düşəndə isə sakit təhərindən çıxardı, qəzəblənərdi. Axı, o və məxsus olduğu jurnalist nəsli həmin vaxtlar güclü məngənə arasında sıxılmışdı. Bir tərəfdən cəmiyyət tərəqqi edir, cəhalət, nadanlıq libasından çıxır, qəzet təbliğatla insanlarda öz güclərinə, qabiliyyətlərinə inamı artırır, onları qurub-yaratmağa ruhlandırırdı. Digər tərəfdən isə, əzazil dövlət maşını aydın zəkalı, roşənfikir insanları, güclü qələm sahiblərini biçib-tökür, haqsız yerə məhv edirdi. Jurnalistlər qürurlu, eyni zamanda sıxıntılı, üzücü «neynim-necə eləyim?» əzabına məhkum olmuşdu.

Nəsir müəllim «Yeni yol» qəzetində işlədiyi dövrdən danışanda həm öyüntülü, fərəhli hisslər onu çulğalayar, həm də çöhrəsini qəm-qüssə bürüyərdi. Qürurlanırdı ona görə ki, həmin zəmanənin qaynar istisindən, buz soyuğunda xalis polad kimi bərkiyib, mətinləşib üzü ağ çıxmışdı. Qüssə də onunla bağlıydı ki, o burada, əməkdaşlıq mühitində sevgisini tapmış, ailə qurmuşdu. Və çətin günlərini birgə keçirdiyi həyat yoldaşını sonralar çox erkən itirmişdi. İndiki xoş günlərini birgə yaşamaq ona nəsib olmamışdı... Nəsir müəllim çox ailəcanlı idi. Qızı Aida xanım dilindən düşməzdi, «gözümün ağı-qarası bir qızım var» sözünü tez-tez işlədərdi. Bu, onun yeganə təsəllisi idi...

Bir gün, günorta çağı – qəzetdə işin başdan aşdığı anlarda zəng çalındı. Nəsir müəllim salamlaşıb, sözünə sualla başladı: mənimlə bir-iki

saatlığa bir yerə gedə bilərsən? Mümkünsə aşağı düş, redaksiyada səni gözləyirəm...

Akademiyanın təzə binasına gəldik. Və burada gəlişimizin məqsədini açıqladı: qızım Aida xanım müdafiə edir. tək getmək istəmədim...

İclas başlanmamışdı. Nəsir müəllim otaqdan Aida xanımı dəvət etdi və məni təqdim elədi: «Azərbaycan gəncləri» qəzetinin redaktorudur, özü də şərqşünasdır, İsrafil əminin kürəkənidir». Aida xanım gülümsədi, «Cəmil müəllimi kim tanımır ki... zəhmət çəkib».

Həmin gün – hər ikimiz – qəzet vaxtının bir saatını, necə deyərlər, qızıla bərabər tutduğumuz bizlər iftixarla sevinc anları yaşadıq. Nəsir müəllim yeganə qızının elmi zəfərinə görə, mən isə müəllimimin, dostumun – həyatı ilə nəfəs aldığı qızının elmi uğurundan duyduğu fərəhə görə... Mənə elə gəldi ki, Nəsir müəllim ən xoşbəxt, ən dəyərli anını yaşayırdı. Axı, həm ata, həm ana fərəhi, qüruru duyurdu.

Tanrı ona tükənməz güc, geniş ürək və insanların xoş həyatı naminə yorulmadan çalışmaq xisləti vermişdi. Həm müəllim, həm redaktor, həm qayğıkeş insan fəziləti! Bunların hamısında o qibtə ediləcək insaniyyət nümunəsi göstərirdi. Mətbuatımızın banisi Həsənbəy Zərdabi varisliyi idi bu! Böyük ustadımız Həsənbəy yazırdı: «Əgər məndən soruşsaydılar ki, ən şərəfli sənət hansıdır? Mən o zaman iftixarla belə deyərdim: Müəllimlik!» Və belə deyə-deyə ilk qəzetimizi nəşr etdi və özündən sonra neçə-neçə jurnalistlər nəsli yetişdirdi, xalqına mənəvi dayaq oldu.





Nəsir müəllimin şəxsiyyəti də bax, bütün bunlarla – müəllimliyi, alimliyi, redaktorluğu, insansevərliyi ilə sevgi və sayğı ilə anılmağa layiqdir.

Həyatın təbii gedişatı var. Zəmanələr də, köçəri quşlar kimi uçub gedirlər, uçub qayıdırlar. Müəllimimizin jurnalist haqqının qayıdışı da belə oldu. Bizlər – nə yaxşı ki, «insanlara fikir bəxş edən» jurnalistlər nəslinin görkəmli nümayəndəsi Nəsir İmanquliyev şəxsiyyətinin indiki nəslə çatdırılması zamanını görə bildik.

Belə qədirşünaslıq üçün bax, bu xatirə nəşrinin təşəbbüsçülərinə, müəllimimizin ruhu və öz adımızdan lütfkarlıqla razılıq hisslərimizi və dərin minnətdarlığımızı bildiririk.

**Dağbəyi İsmayılov**
*AzərTAc-ın əməkdaşı*

## MƏTBUATIMIZIN SİMASI
### VƏ YA USTADIMIN PORTRETİNDƏN ŞTRİXLƏR

Adı, soyadı milli mətbuatımızın salnaməsinə qızıl hərflərlə yazılmış novator redaktor, böyük bir jurnalist ordusu yetişdirmiş müdrik müəllim, tanınmış ictimai xadim Nəsir Əsədulla oğlu İmanquliyevin 95 illiyi tamam oldu.

Hələ sağlığında mətbuatımızın klassiklərindən biri olan Nəsir müəllimin simasında, belə demək mümkünsə, bir neçə şəxsiyyətin, bir neçə yaradıcı fərdin ali məziyyətləri təcəssüm tapmışdı. O, ömrünün sonunadək dərs dediyi Bakı Dövlət Universitetinin auditoriyalarına daxil olanda əsl alim və müəllim, özünün yaradıb fasiləsiz 30 il rəhbərlik etdiyi «Bakı» və «Baku» qəzetləri redaksiyasının kandarından içəri qədəm qoyanda istedadlı qəzetçi, mahir redaktor və böyük mühərrir, dalbadal on çağırış deputat seçildiyi Bakı Şəhər Sovetinin sessiyalarına, mötəbər idarələrin yığıncaqlarına, fəxri təqaüdə çıxandan sonra sədrin müavini vəzifəsində çalışdığı Bakı Veteranlar Şurasının tədbirlərinə gedəndə tanınmış ictimai xadim, kollektiv üzvlərinin xeyir və şərində isə müdrik ağsaqqal idi.

Jurnalistikamızın yarım əsrdən çox bir dövrünə mənsub olan yazarlar nəslinin nümayəndələrindən biri kimi Nəsir müəllimdən qəzetçiliyin həm nəzəri, həm də praktiki sirlərinə yiyələnmək xoşbəxtliyi mənə də nəsib olub. Nəsir müəllim Bakı Dövlət Universitetində beş il müəllimim, «Bakı» və «Baku» qəzetlərinin redaksiyasında çalışdığım uzun illər ərzində isə ustadım olub. İşimlə, peşəmlə bağlı həyatda az-çox nəyə nail olmuşamsa, hamısı üçün Nəsir müəllimə minnətdaram.

İndi iftixar hissi ilə demək olar ki, Nəsir müəllimin redaktoru olduğu şəhər qəzetlərinin redaksiyası özünəməxsus dəst-xəttə, təlim və tərbiyə üsullarına malik milli jurnalistika universiteti idi. Bu universitetə qəbul olunmaq, vicdanlı, təmiz, mənəviyyatlı və peşəkar qəzetçiliyin sirlərinə yiyələnmək, qələm əhlinin əzablı həyat tərzinə alışıb, onun ağrı-acılarına tablaşmaq nə qədər çətin idisə, hansı səbəbdənsə oranı tərk etmək, başqa iş yerinə getmək ondan da qat-qat çətin idi.

Nəsir müəllim hər yazarı, hər əli qələm tutanı işə götürməz, götürdüklərini isə necə deyərlər, süzgəcdən keçirib redaksiyaya qəbul edərdi. Təkcə redaksiyanın əməkdaşları deyil, o illərin bütün qəzet-jurnal redaktorları, hətta yüksək səlahiyyət sahibləri də yaxşı bilirdilər ki, əslində son dərəcə qayğıkeş, dostcanlı, qəlbiyumşaq, rəhimli bir insan

olan Nəsir müəllim hər nədə desən güzəştə gedər, ancaq kadr məsələsində yox. Bir çox yetirmələri kimi, bu sətirlərin müəllifi də həm işə götürülərkən, həm də o zaman daha yüksək statuslu qəzetə dəvət edilərkən Nəsir müəllimin qətiyyətinin, qayğı və sayğısının şahidi olub.

...1975-ci ilin mayında universitetin jurnalistika fakültəsi məzunlarının diplom işinin müdafiəsi idi. Bundan bir qədər əvvəl isə təyinat bölgüsü olmuşdu. Mənim təyinatımı «Elm və həyat» jurnalının redaksiyasına vermişdilər.

Hələ diplom almasaq da, digər sənədlərimi artıq iş yerimə təqdim etmişdim. Sözün qısası, diplom işimi müdafiə edib auditoriyadan çıxanda Dövlət İmtahan Komissiyasının üzvlərindən biri olan professor Nəsir İmanquliyev məni geri çağırıb dedi:

– Oğul, uzağa getmə, sənə sözüm var.

Bir azdan Nəsir müəllim otaqdan çıxdı. Qolumdan tutub maşına əyləşdirdi və məni redaksiyaya gətirdi. Kabinetə keçib yerində əyləşəndən sonra beş il ərzində həmişə mülayim və gülərüz gördüyüm müəllimim ciddi və amiranə tərzdə dilləndi:

– Sabahdan bizim redaksiyada işə çıxarsan!

– Axı, mən «Elm və həyat» jurnalında...

Fikrimi yekunlaşdırmağa imkan vermədi:

– Bilirəm, Rza Şahvələdlə (o vaxt jurnalın baş redaktoru idi) danışaram, təyinatını dəyişdirmək mənim boynuma.

Beləliklə, ertəsi gündən «Bakı» qəzetinin redaksiyasında işə çıxdım. Ancaq düz 6 aydan sonra tam ştat müxbir vəzifəsinə təyin olunmağım barədə



əmr verildi. Həmin 6 ayda nə əzab-əziyyət çəkdim bir Allah bilir. Yazılarımı 2-3 dəfə yazdıqdan sonra birinci variantını qəzetə verir, adi bir faktdan ötrü məni dönə-dönə uzaq obyektə göndərir, işə 5-3 dəqiqə gecikməyimə görə ciddi tənbeh edir, bəzən səbəbsiz yerə danlayıb hövsələdən çıxarmağa çalışır, hətta redaksiyanın əməkdaşlarından hər hansı birinin ad günü və ya başqa bir məclisinə gedəndə məni yaxına buraxmırdılar. Sözün düzü, səbrim tükənsə də dözürdüm...

Nəhayət, Nəsir müəllim məni yanına çağırdı və dedi:

– Təbrik edirəm, sınaqdan yaxşı çıxdın, bu gündən tam ştata əmrini vermişəm.

Nəsir müəllim kadrları belə seçir, sınayır və yetişdirirdi. Düz 13 il – təqaüdə çıxanadək Nəsir müəllimin redaktorluğu ilə işlədim və günlərin birində «Kommunist» qəzetindən dəvət aldım.

70-ci illərin ortaları idi. «Kommunist» qəzetində (indiki «Xalq qəzeti») işləmək üçün sənədlərimi hazırlayıb təqdim etdim, Mərkəzi Komitədə söhbətdən keçdim, necə deyərlər, hələ ki, hər şey xeyrimə işləyirdi. Amma Nəsir müəllim bundan xəbər tutanda sözün əsl mənasında, tufan qopardı. Dəstəyi qaldıraraq Mərkəzi Komitəyə zəng vurub ciddi etirazını bildirdi, «Kommunist»in redaktorunu tapıb qədərincə danladı və mənim iş yerimi dəyişmək barədə ərizəmi cırıb ötkəmliklə dedi:

– Nə qədər ki, buradayam, səni heç yana buraxmayacağam. Get başını aşağı sal, işinlə məşğul ol.

Bax, Nəsir müəllim yetirmələrini bu cür qoruyur, işlədir və işləyirdi.

Nəsir müəllim xatirimdə qətiyyətli, dönməz, mərd və sərt adam kimi yaşayır. Kimliyindən asılı olmayaraq sözü üzə şax deyərdi. Günahı olan, səhv iş tutan redaksiya əməkdaşını özü qədərincə danlayar, tənbeh edər, cəzalandırar, ancaq ayağa verməzdi. Heç zaman kin saxlamazdı, küsdürdüyünü, danladığını az sonra yanına çağırıb çox mülayim tərzdə könlünü alar, dəyərli ağsaqqal tövsiyələrini verərdi.

Nəsir müəllim, adətən, tərcümələrini mənimlə oxuyardı. Belə məqamların birində qapı açıldı. İş yoldaşlarımızdan biri içəri daxil olub digər həmkarımız haqqında çuğulluq elədi. O vaxtadək Nəsir müəllimi belə qəzəblənən görməmişdim. Həmin əməkdaşa dediyi acı sözləri bir batman balla da yemək olmazdı. Nəsir müəllimi başqalarından fərqləndirən cəhətlərdən biri də sözünü bu cür qətiyyətlə deməsi, haqqı nahaqqa verməməsi, həmişə, hər yerdə ədalətli olması, ağsaqqal mövqeyində dayanması idi. Məhz bu amillərə görə idi ki, Nəsir müəllim təməlini qoyduğu şəhər qəzetlərinin 30 il fasiləsiz redaktoru işlədi, hər gün bir-birindən maraqlı iki qəzet buraxdı. Zənnimcə, Azərbaycan milli mətbuatı tarixində belə bir şans, belə bir xoşbəxtlik hələ heç bir redaktora nəsib olmayıb.

Söhbət düşəndə Nəsir müəllim iftixar hissi ilə deyərdi:

– Mənim iki evim, iki ailəm vardır. Biri yaşadığım ev, biri də çalışdığım redaksiyadır. Hər ikisi mənə doğma və əzizdir.

Nəsir müəllimi yaxından tanıyanlar bilirdilər ki, bu sözlər onun qəlbinin dərinliklərindən süzülüb





gəlir, bu, həqiqətən də belə idi. O, doğrudan da hər iki evi, hər iki ailəsi ilə nəfəs alırdı. Bu sevginin, bu istəyin nəticəsi idi ki, Nəsir müəllim təqaüdə çıxandan sonra da redaksiya ilə müntəzəm əlaqə saxlayır, «Bakı» və «Baku»nun hər sayını alıb diqqətlə oxuyur, dərhal da zəng vurub iradlarını deyir, tövsiyələrini verirdi. Hərdən zarafatla deyirdi: «Məni «Bakı»ya müxbir götürsələr, böyük həvəslə gəlib işləyərəm». Fikir verin, başqa qəzetə yox, «Bakı» qəzetinə! Bu, Nəsir müəllimin ikinci evinə - «Bakı»ya olan sönməz sevgisinin təzahürü idi. Bu, sənət sevgisi, həyat sevgisi və insan sevgisi idi! Belə bir yüksək sevgi, belə bir yüksək amal ilə yaşamaq, ömrü başa vurmaq hər adama nəsib olmur.

Nəsir müəllimin fəxri adları, fəxri mükafatları çox idi. Müəllimimin, ustadımın milli mətbuatımızın inkişafındakı xidmətləri nəzərə alınaraq, ona həm «Əməkdar mədəniyyət işçisi», həm də «Əməkdar jurnalist» fəxri adları verilmişdi. Nəsir müəllim o zaman yeganə redaktor idi ki, iki dəfə «Qızıl qələm» mükafatına layiq görülmüşdü. Ancaq heç yerdə, heç bir məclisdə bu barədə danışmaz, özünü öyməzdi. Amma sənətdən, qəzetdən, yaradıcılıqdan, peşəkarlıqdan söz düşəndə Nəsir müəllim «Bakı» və «Baku»dan, onunla çiyin-çiyinə çalışmış iş yoldaşlarından, onların uğurlarından danışmaqdan doymazdı. Bax, bu idi Nəsir müəllimin alicənablığı, böyüklüyü, müdrikliyi və ağsaqqallığı.

«Bakı» və «Baku» milli mətbuatımızın tarixində yeganə qəzetlərdir ki, Nəsir müəllimdən sonra da onlara kənardan redaktor təyin olunmamış, bu mətbu nəşrlərə ustadımızın öz yetirmələri rəhbərlik

etmişlər. Nəsir müəllimin ənənələrini Şamil Şahməmmədov da, estafeti ondan qəbul edən Ağa Hüseynov da layiqincə davam etdirmişlər. Bu faktın özü bir daha sübut edir ki, Nəsir müəllim «Bakı» evini elə təməl üzərində ucaltmışdır ki, yaşadıqca öz memarının adını, amalını və məramını yaşadacaqdır.

Doğru deyiblər ki, hər şey vaxta baxsa da, vaxt heç nəyə baxmır. Artıq səkkiz ildir ki, unudulmaz müəllimim – ustadım Nəsir İmanquliyevin ömrü xatirələrimizdə, düşüncələrimizdə yaşayır. Zaman bizi 1998-ci ilin 6 mart günündən – unudulmaz müəllimimizin dünyasını dəyişdiyi gündən uzaqlaşdırdıqca Nəsir İmanquliyevin böyüklüyünü, müdrikliyini, kamilliyini, mahirliyini, alicənablığını, ağsaqqallığını daha aydın görür və hiss edirik.

Nəsir müəllim mənim sənət-ömür yolumun yol göstərəni olub. Bəlkə, bu da taleyin qismətidir ki, Nəsir müəllim dünyasını dəyişəndən sonra da mənim başqa bir yolumun üstündə dayanıb. Şəhid oğlumun uyuduğu ikinci Şəhidlər xiyabanına aparan yol məhz Nəsir müəllimin məzarının önündən keçir. Hər dəfə bu ziyarətgaha gedərkən Nəsir müəllimin məzarı önündə ayaq saxlayır, xatirəsini ehtiramla anıb deyirəm:

– Yerin behişt, ruhun şad olsun, Ustad!







**Əflatun Amaşov**
*Azərbaycan Mətbuat Şurasının sədri*

# JURNALİSTİKAMIZIN KORİFEYİ

Ötən ilin söhbətidir. Ulu ustadımız Həsən bəy Zərdabinin anım gününün qeyd edilməsi üçün Beynəlxalq Mətbuat Mərkəzinə toplaşmışdıq. Milli mətbuatımızın banisi ilə başlanan söz-söhbət mərhələlərlə gəlib müasir çağlara qovuşdu. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin Həsən bəy ənənələrinin davamındakı xidmətləri sadalanarkən dünyasını dəyişən müəllimlərin də adları ehtiramla xatırlandı. «Bilirsiniz, bu fakültənin təməli nəhəng, saf, təmənnasız kişilər tərəfindən atıldığındandır ki, biz indi belə vüqarla, şəstlə danışırıq. Həsən bəyi görməmişdilər, ondan dərs almamışdılar, fəqət nisgilini yerdən götürən şəxsiyyətlər idilər. Nəticədə özləri də elə bir jurnalistika məktəbi yaradıblar ki, hər on illər başqalarına nümunə göstəriləcək. Sanki





həmin təməl Həsən bəyin də xeyir-duası, iştirakı ilə atılıb».

Jurnalistikamızın ciddi problemlər burulğanı ilə üzbəüz dayandığı məqamda bizi digər sahilə qovuşdura biləcək yaddaşların, misalların hər biri 20-30 illik tarixçəyə söykənirdi. Bunlar mediamızda tanınan, jurnalist adını, peşə prinsiplərini daim uca tutan həmkarlarımın dilindən səsləndiyindən optimist duyğular bəxş edirdi. Sonda belə fikir də vurğulandı ki, onların xidmətlərinin gələcək nəsillərə ərmağan olunması naminə adlarının əbədiləşdirilməsi zəruridir. Unutsaq, unudularıq!

Bu il sentyabrın 5-də aldığımız xoş xəbər yenidən müəyyən qismimizi bir araya gətirmişdi. Ölkə prezidenti görkəmli jurnalist Nəsir İmanquliyevin xatirəsinin əbədiləşdirilməsi üçün sərəncam imzalamışdı. Yaşı yarım əsrə çatan, əllini ötən həmsöhbətlərimin fərəhində sanki bütün jurnalistlərimizin duyğuları cəmləşmişdi. Nəsir müəllimin zəngin dünyasına xas xarakterik cəhətlər dilə gətirilirdi. «Sizə bir sirr açım, dedim, - mənim jurnalistikaya gəlişimdə onun verdiyi ürək-dirək əlimdən tutub…Onda BDU-nun filologiya fakültəsində təhsil alırdım. Lakin hansısa hiss məni istər-istəməz jurnalistika fakültəsinə apardı. Hərdən dostlarım Əliş və Surxayın köməyi ilə auditoriyanın diqqəti cəlbetməz saydığım arxa cərgələrində partizansayaq yer tuturdum. Nəsir müəllimin jurnalistikanın əsasları fənni üzrə mühazirələri, 2 saata sığmayan şirin söhbətləri məndə təsəvvür yaratmışdı ki, burada məhz belə insanlar dərs deməlidirlər – hündür qamətli, səlis nitqli, məntiqli,

qayğıkeş. Dördüncü cəhdimdə, belə desək, ilişdim. Dərs bitən kimi nəvazişlə yanına çağırdı. Tələbələrinin kimliyini yaxşı bildiyini təbəssümlə deyib hansı fakültədə oxuduğumla maraqlandı. Sonra: «Yəqin, səni bura gətirən qəlbinin hökmüdür, ona qulaq as, mübariz ol, istəyinə çatarsan» – dedi. Sənədlərim Moskva Dövlət Universitetinin jurnalistika fakültəsinə göndəriləndə bu tövsiyə xüsusi rol oynadı. Yola düşməzdən əvvəl Nəsir müəllimlə də görüşdüm, rüsxət aldım.

Yay və qış semestrləri başa çatanda Bakıdakı doğmalarım, keçmiş tələbə yoldaşlarımla yanaşı ona da baş çəkməyi özümə borc sayırdım. Nəsir İmanquliyevin həyat yolunu öyrəndikcə gördüm ki, mübarizlik deyəndə konkret nələri nəzərdə tutur. O, jurnalistlik fəaliyyətinə kütləvi informasiya vasitələrində işləmək üçün indiki kimi rahat şəraitin olduğu vaxtda başlamamışdı. Mətbuatda işləmək üçün istedadla yanaşı, şəxsi keyfiyyətlərin də buna əsas verdiyini təsdiqləyən zəmanət tələb edilirdi.

Azərbaycan Kommunist (b) Partiyası Mərkəzi Komitəsinin tapşırığı ilə 1932-ci ildə «Kommunist» (indiki «Xalq qəzeti») qəzetində fəaliyyətə başlayan gənc ömür yolunu birdəfəlik bu sənətə bağladı. Həmin nəşrin, eləcə də «Gənc işçi», «Yeni yol» qəzetlərinin səhifələrində yaşayan irili-xırdalı yüzlərlə məqalənin qələmə alınması üçün yağışlı, tufanlı, qarlı günlərdə saatlarla piyada getmək, alaçıqlarda gecələmək... lazım gəlirdi. Hələ İkinci Dünya müharibəsi illərində döyüşçü-müxbirin silaha sarılıb «ura» deyərək düşmən üzərinə atıldığı məqamları demirik. Nəsir müəllimin igidliklərinə





görə layiq görüldüyü təltiflərini pencəyinin sinəsində cərgələdiyini kimsə görə bilməzdi.

Nurəddin Babayev, Şirməmməd Hüseynov, Nəsir İmanquliyev, Seyfulla Əliyev, Nəriman Zeynalov... Jurnalistika fakültəsinin qurucuları olan müəllimlərimizin hər biri od-alov görmüşdü, insan həyatının, şərəf və ləyaqətinin nə olduğunu əyani yaşantıları baxımından dəyərləndirirdilər. Nəsir müəllim «Kommunist» qəzetində, Radio-Televiziya Verilişləri Komitəsində, Azərbaycan KP MK-da və sair yerlərdə rəhbər vəzifələrdə işləmişdi, özünün yaratdığı «Bakı» qəzetinin 30 il redaktoru olmuşdu. Amma, bircə dəfə təşəxxüslə bunları sadalamamış, nəzərə çatdırmamışdı. Bax, indi duyuruq ki, niyə təmənnalı şəxslər fakültəmizdə dərs deməkdən qorxurdular. Təməl necə möhkəmdirsə, təmənnasızlığın indinin özündə qəhrəmanlıq sayıldığı vaxtda da burada kimsə belə riskə girmək istəməz. Yadımızdadır ki, tələbələrin eyhamından sonra N.İmanquliyev həmin niyyətə düşən bir müəllimə nə dedi-demədi, daha onu auditoriyada görmədik. Çünki adi vaxtlarda sakit təbiətli N.İmanquliyevin çılğınlığından çoxları kimi o da məlumatlı idi...

Nəsir müəllim novator redaktorlardan biri olub. «Bakı» və «Baku» isə bu mənada onun canlı əsəri, yadigarlarıdır. Təsəvvür edin ki, senzura qılıncının baş üzərində parladığı vaxtda azad fikir üçün sütun ayırmaq necə riskli idi. N.İmanquliyev bunu edirdi – aramla, məntiqlə, planlı şəkildə. Özü demirdi, dedizdirməyi bacarırdı. Xalqın ruhundan, mənəvi ehtiyacından irəli gələn yazıları təqdim etməklə.

Halbuki başqa həmkarları kimi qayçını əlinə alıb publisistik materialların istənilən yerindən kəsmək, üstəlik əməkdaşının «suyunu çıxartmaq» imkanına malik idi. O, mediada rəngarəngliyə, palitraya əhəmiyyətlə yanaşırdı. Məzə ilə danışdığı lətifədə bürokratik yanaşmanın təsvirini verirdi: «Molla Nəsrəddin ovda cüllüt tutur, qanadını kəsir, qıçlarını qısaldır və deyir: bax, indi quşa oxşadın». Acınacaqlı olsa da, bu müqayisə sovet dönəminin partiyalı, basmaqəlib mətbuatına xarakterik cəhətlər sayılırdı.

Nəsir müəllim istedad təşnəsinin dayanmasına, kimlərinsə ruhdan düşməsinə imkan vermirdi. Bəzən saatlarla birgə təhlillər aparırdı, könül almağı bacarırdı.

«Bakı» və «Baku»da qəzet tərtibçiliyinin yeni çalarları praktik dərslərdə öyrənilirdi. Məsul katib, sonralar redaktor işləmiş Şamil Şahməmmədovun qapıları hər bir həmkarının üzünə açıq idi. Oxucular Fazil Rəhmanlının, Dağbəyi İsmayılovun və başqalarının yazılarını səbirsizliklə gözləyirdilər. O, necə bir məktəb yaratmışdısa özündən sonra qəzetlərə rəhbər təyinatında kollektivin başı üzərindən kiminsə təyinatına cəhd edilmədi...

Nəsir müəllim tələbkarlıqla qayğını özündə birləşdirən insan idi. Əməkdaşlarının əksəriyyətini mənzillə təmin etdirmişdi. Gənc müxbirləri ailə qurmağa tələsdirirdi. Lazım gələndə toy-düyünə köməyini əsirgəmir, xeyir-duasını verirdi. Buna görə də jurnalistika fakültəsinin məzunları «Bakı» və «Baku»da işləməyə can atırdılar. Qəzetin nəfis, dolğun saylarını almaq paytaxtın heç də bütün oxucularına nəsib olmurdu. Əyalətlərdən gələnlər nəşrlərin operativ mütaliəsi üçün onları alıb özləri ilə aparırdılar...

Nəsir müəllim daxilində vahid Azərbaycan ideyasını yaşadırdı. Cənublu yazarlara qəzetlərinin səhifələrində səxavətlə yer ayırırdı. 1978-ci ildə İranda inqilab baş verəndə fəxrlə deyirdi ki, bunu bizim o taydakı həmvətənlərimiz edib. Üstündən üç il ötəndən sonra mütəəssirliklə: «Cənubla bağlı arzularımız yeni inqilaba qədər təxirə düşdü», deyirdi...

Həmkarlarım danışdıqca portret ştrixlər təcəssümünü tapırdı. Əlavə edim ki, Nəsir müəllim məktəbi müdavimlərinin spesifik cəhətlərini Şamil müəllimlə birgə işləyəndə əyani gördüm. «Bakı» və «Baku»dan AzərTAc-a gəlmişdi. Əvvəl müavin, sonra baş direktor işlədi. O illər həyatımın ən mənalı dövrlərindəndir. Hazırda təqaüddə olsa da müntəzəm əlaqə saxlayıram.

Xatirələr dünyasıənginliklərində məskunlaşan şirin təəssüratlar fonunda heç vəchlə inanmağımız gəlmirdi ki, 8 il əvvəl haqq dünyasına qovuşub. Həmkarlarım hər sözə, ifadəyə, misala elə məsuliyyətlə yanaşırdılar ki, sanki ustadımız bizi dinləyir. Və Nəsir müəllim xarakterinə xas tərzdə onu tərifləyənlərin sözünü kəsəcək, hər birinə öz işi ilə məşğul olmağı tövsiyə edəcəkdi...

**Ənvər Məşədiyev**
*«Bakı»–«Baku» qəzetlərinin redaktor müavini*

# SİLİNMƏZ İZLƏR QOYAN BÖYÜK ŞƏXSİYYƏT

Şərəfli ömür yaşayan, özündən sonra silinməz izlər qoyan, xeyirxah əmələri, xalqına vurğunluğu, sadəliyi, mərdliyi, dünyagörüşü, zəngin biliyi və təcrübəsi ilə qəlblərə həkk olan yaradıcı insanlar çoxdur. Belə şəxsiyyətlərdən biri də görkəmli Azərbaycan jurnalisti, paytaxtımızın adını daşıyan «Bakı» və «Baku» qəzetlərinin yaradıcısı və ilk redaktoru professor Nəsir Əsəd oğlu İmanquliyev idi. Nəsir müəllim sözün əsl mənasında jurnalist, gözəl alim, təcrübəli pedaqoq, bacarıqlı təşkilatçı, ötkəm rəhbər işçi idi. Nəsir İmanquliyev xasiyyətcə kəsərli insan olduğu kimi, kəsərli sözün, obyektiv mövqeyin keşiyində dururdu.

Zəngin qəzetçilik, idarəçilik və elmi təcrübəyə malik, bir çox dərs vəsaitlərinin və dərsliklərin müəllifi, görkəmli jurnalist, professor Nəsir İmanquliyevin həyat və yaradıcılığı, keçdiyi şərəfli ömür yolu barədə çoxlu məqalələr, oçerklər yazılmışdır. Bu sətirlərin müəllifi də dəfələrlə N.İmanquliyevin yaradıcılığına müraciət etmiş, özünün «Yaddaşımın işığında» kitabında onun barəsində geniş söhbət açmışdır. Lakin Nəsir müəllimin həyat yolu o qədər zəngindir ki, onun barəsində neçə-neçə sanballı kitablar yazmaq olar.

50 ilə yaxın bir müddətdə fəaliyyət göstərən, paytaxtımızın yeganə mətbu orqanları olan «Bakı» və «Baku» qəzetləri məhz Azərbaycan jurnalistikasının inkişafına böyük xidmətlər göstərmiş Nəsir İmanquliyevin təşəbbüsü və yaxından iştirakı ilə yaradılmış, həyata vəsiqə almışdır. Milli mətbuatımızın sıralarına müvafiq olaraq ötən əsrin 50-ci və 60-cı illərində qədəm qoymuş bu qəzetlər yarandıqları ilk günlərdən xalqla təmasda olub, onunla bir yaşayıb, bir nəfəs alıb. Şəhərlərimizin mədəniyyətini, elmini, incəsənətini, sosial-iqtisadi inkişafını, problemlərini, hərtərəfli işıqlandırmağa səy göstərib və buna yüksək səviyyədə nail olub. Paytaxtımızın salnaməsini yaradan şəhər qəzetlərini vərəqlədikcə bunun bir daha şahidi olursan. Hələ Nəsir müəllimin rəhbərliyi dövründə ətrafına geniş oxucu kütləsi toplamış «Bakı» və «Baku» məhz onun bir redaktor kimi, obyektivliyi, ötkəmliyi, bilik və bacarığı sayəsində təşəkkül tapmış, nüfuz qazanmış, məşhurlaşmışdır. Bəli, Nəsir İmanquliyev özünün məktəbini – «Nəsir İmanquliyev məktəbi»ni yaratmışdır.

Eyni zamanda Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) jurnalistika fakültəsində dərs deyən Nəsir müəllimin

məktəbindən pərvazlananların sayı xeylidir. Onlardan bəzilərinin adlarını çəksək həm Nəsir müəllimin, həm də vaxtilə onun rəhbərliyi altında çalışan və dünyalarını dəyişən əməkdaşların ruhları şad olar. Hazırda müxtəlif mətbu orqanlarda, başqa yüksək vəzifələrdə işləyənlər isə öz müəllimlərinin anılmasından, onun yaşadığı binaya xatirə lövhəsinin vurulması barədə möhtərəm prezidentimiz cənab İlham Əliyevin imzaladığı sərəncamdan fərəh duyarlar. Tanınmış şairlər: Cabir Novruz, Famil Mehdi, Nüsrət Kəsəmənli, publisistlər, alimlər: Cəmşid Əmirov, Adil Cavadlı, Əhməd Rəşidov, Manaf Süleymanov, Alp Ağamirov, Qeybulla Rəsulov, Oqtay Atayev, Səfər Məmmədov, Rəfael Nağıyev, Çingiz Ələkbərov, Şamil Qurbanov, Şamil Şahməmmədov, Şakir Abdullayev, Şaban Şabanov, İsmayıl Kərimov, Akif Ağayev, Zemfira Məhərrəmli, Möhbəddin Səməd, hazırda AzərTAc-ın baş direktorunun müavini işləyən Hacı Dağbəyi İsmayılov, «Xalq» qəzetinin şöbə müdiri Hacı Qüdrət Piriyev, «Naş vek» qəzetinin baş redaktoru Xanlar Məmmədov və bir çox başqaları Nəsir İmanquliyev məktəbindən bəhrələnənlərdəndir. Yuxarıda adları çəkilənlərin hər biri milli jurnalistikamızın, ədəbiyyatımızın, elmimizin zirvələrinə yüksəlmiş şəxslərdəndir.

Nəsir müəllim kollektivin hər bir üzvünə, bütün müəlliflərə eyni münasibət bəslər, ayrı-seçkiliyə yol verməzdi. Tələbkarlığı da hamıya qarşı eyni idi. Yaxşı yazıların, özü demiş, mis səsi çıxaran felyetonların, tənqidi məqalələrin müəlliflərinə həmişə xüsusi «sağ ol»unu çatdırmaq istəyirdi.





Bunu açıq-aşkar etməsə də, sözarası vurğulayırdı. Çünki o, eyni zamanda işçilərin «qoltuğuna qarpız qoymaq» da istəmirdi.

Öz səlahiyyətindən, nüfuzundan istifadə edərək işçilərə mənzil verilməsinə, onlar üçün lazımi şərait yaradılmasına nail olurdu. Əməkdaşlarını ayağa verməyən Nəsir müəllim eyni zamanda onların daim məsuliyyət daşıdıqlarını, qəzetin keyfiyyətli çıxması üçün cavabdeh olduqlarını vurğulayır, iş vaxtından səmərəli istifadə etmələrini nəzarət altında saxlayırdı. Belə ciddi tələbkarlıq «Nəsir İmanquliyev məktəbi»nin nizamnaməsinin adi maddələrindən biri idi.

Nəsir müəllimin qapısı hamının üzünə açıq olardı. Adi şikayətçini də, yüksək vəzifəsi, titulları olan müəllifləri də eyni səviyyədə çox mədəni şəkildə qarşılayırdı. Elə bir mədəniyyət tədbiri, yeni tamaşanın premyerası olmazdı ki, Nəsir müəllim orada iştirak etməsin. Və ən əsası da o idi ki, həmin tədbirlər haqqında ilk yazılar, resenziyalar məhz «Bakı» və «Baku» qəzetlərində işıq üzü görürdü. Bu isə jurnalist, qəzet redaktoru üçün ən vacib xüsusiyyətlərdən biridir. Bəli, Nəsir müəllim çevikliyi, hadisələri hamıdan tez, dolğun və hərtərəfli şərh etməyi sevən adam idi. Elə bu səbəbdəndir ki, «Bakı» qəzetində dərc edilən materiallar əsasında neçə-neçə tədqiqat işləri aparılmış, dissertasiyalar müdafiə edilmişdir. Təsadüfi deyildir ki, «Bakı» və «Baku» qəzetləri ən çox müraciət edilən mətbu orqanlardan biri olub. Xalq yazıçılarının, Sosialist Əməyi Qəhrəmanlarının, istehsalat qabaqcıllarının, dövlət xadimlərinin,

ixtiraçıların, elm və texnika xadimlərinin, incəsənət, təhsil adamlarının imzalarına şəhər qəzetlərində tez-tez rast gəlinirdi. Yüksək titul sahibi olan insanların bu mətbu orqanlara müraciət etmələri qəzetlərin savadlı çıxması, onların Nəsir müəllimin obyektivliyinə, biliyinə, nüfuzuna və səmimiyyətinə olan hörmət-izzətinin nəticəsi idi.

Nəsir müəllim gözəl ailə başçısı idi. Onun ixtisasca həkim olan həyat yoldaşı Gövhər xanım mədəniyyəti, qonaqpərvərliyi, alicənablığı ilə seçilirdi. Qızı Aida xanım elmlər doktoru, tanınmış şərqşünas alim idi. Professor Aida İmanquliyeva bir ziyalı, bilikli elm adamı, təcrübəli pedaqoq kimi şöhrət qazanmışdı. Nəvələri Nərgiz xanım və Mehriban xanım respublikamızın elmi, ictimai-siyasi həyatında böyük uğurlar qazanmışlar.







**Mailə Muradxanlı**
*əməkdar jurnalist*

## MƏN RƏSSAM OLSAYDIM...

Mən rəssam olsaydım, onu kökləri torpağın təkinə işləyən qocaman palıd ağacına bənzədərdim. Zamanın sərt sınaqlarının öz izlərini qoyduğu azman gövdənin yarpaqlarını isə zərif, kövrək, yamyaşıl təsvir edərdim. Həzin meh yarpaqları titrətdikcə hünərli – sevincli, kədərli – nisgilli bir ömrün hekayəti səslənərdi.

Mən rəssam olsaydım, onun ürəyinin əvəzinə kətana nur parçası həkk eləyərdim. Məhəbbət, sevgi dolu bu nurdan hamıya pay düşərdi. Amma onun özəyi ailəsinə, yeganə övladı və dünyalar qədər sevdiyi Aida xanıma, qoşa nəvəsinə və nəticələrinə ünvanlanardı.

Yəqin ki, tanrı Nəsir müəllimi özünün xoş məqamında xəlq eləmişdi. Uca, şax qaməti, yapışıqlı siması, yalnız özünə bəlli hikmətlər gizlənmiş sınayıcı baxışları onu bizə həm sevdirirdi, həm də çəkindirirdi. Bilirdik ki, bu gözləri aldatmaq olmaz, bu baxışlardan nəyisə gizlətmək qeyri-mümkündür. Çünki o əsl müəllim, əsl ziyalı, sözün həqiqi mənasında böyük hərflərlə yazılmağa layiq kişi idi.

O vaxt ziyalılıq haqqında çox söhbətlər gedirdi. Hansısa bir rus yazıçısı – səhv etmirəmsə, V.Kojevnikov yazmışdı: «Bizim zamanda bütün boş kürsüləri tutmaq uğrunda mübarizə gedir. Yalnız bircə kürsü səbirsizliklə öz sahibini gözləyir. Bu – ziyalılıq kürsüsüdür!».

Universitetə qədəm basdığım ilk gündən – 1957-ci il sentyabrın 1-dən mən görkəmli jurnalist, xeyirxah insan, sözübütöv kişi, mahir pedaqoq Nəsir İmanquliyevi həmin o uca kürsüdə görmüşəm. Nəsir müəllimin tədris etdiyi fənnin məna tutumu da maraqlı idi: «jurnalistikaya giriş». .. Kimə jurnalist deyilə bilər? Onda hansı keyfiyyətlər olmalıdır? «Xəbər gətirən» mənasını verən «qazetta» – fransız sözü hansı xəbərlərə şamil edilməlidir? Ən başlıcası – bu xəbəri təqdim edənin şəxsiyyəti necə olmalıdır? Nəsir İmanquliyev bu suallara öz şəxsiyyəti, nüfuzu ilə cavab verirdi. Müəllimimizin ən başlıca keyfiyyəti onun auditoriya ilə energetik əlaqə yaratmaq məharəti idi. Biz onun mühazirələrini quru, cansıxıcı, elmi hökmlər kimi yox, həyat materialı kimi qəbul edirdik. Çox sevdiyi bir sitat vardı. «Pul kisəsindən asılı olan sənət əsl sənət deyil». Təbii ki, bu sitat o zamanlar çox dəbdə olan burjua jurnalistikasına şamil edilirdi. Allah sənə qəni-qəni rəhmət eləsin, Nəsir müəllim, bilsən bu gün həmin hökmün nə qədər müasir və gərəklidir...

Universiteti bitirdikdən sonra tez-tez görüşürdük. Mənim şən, hazırcavab təbiətim onun

xoşuna gəlirdi. Radioda hazırladığım verilişlərə qulaq asıb mənə rəyini söyləyirdi. İş elə gətirdi ki, mən sonradan fakültəyə çevrilən jurnalist qrupunun radio bölməsinə praktik məşğələlər aparmağa dəvət olundum. Amma bircə dəfə də olsun, Nəsir müəllimin yanında jurnal götürüb qrupa girməyə cəsarət eləmədim.

Bu gün hamı onu xoş xasiyyətli, həlim bir insan kimi xatırlayır. Amma Nəsir müəllimin sərt, ötkəm, sözünü döndərməyən vaxtları da çox olub. Heç yadımdan çıxmaz, artıq qızım Lalə Nəsir müəllimin tələbəsiydi. Və semestr imtahanlarına az qalmış mən öz müəllimimi radioya çıxışa dəvət etmək üçün zəng vurdum. Həmişə mənə ərkyana «ay qız» deyə müraciət eləyən Nəsir müəllim qəflətən acıqla dilləndi: «Siyahıda sən 16-cı adam oldun!».. Çaşıb qaldım. Yəni bu gün 16 nəfər Nəsir müəllimi çıxışa dəvət etmək istəyib?.. Yenə həmin sərt səslə əlavə elədi: «Qızın nəyə cavab versə, o qiyməti də alacaq. Ona «əla» yazmayacağam!» Sən demə, ona həmin gün zəng vuran hər kəs bir tələbəni tapşırmaq istəyibmiş...

Xatirələr çözələndikcə, yeni-yeni səhifələr yada düşür... Tələbə dostlarımızdan birinin – Yalçın Əlizadənin övladının toyu idi. O vaxt Yalçın artıq Nəsir müəllimlə bir kafedrada işləyirdi. Masabəyi cavan bir aktyor idi, radioda ədəbi dram verilişləri baş redaksiyasının baş redaktoru işlədiyimi eşidən kimi bəylə gəlini bir kənara qoyub məni tərifə başladı: «görkəmli jurnalist Mailə Muradxanlı» ifadəsini işlədəndə daha dözə bilmədim – məclisdə mənim müəllimlərim, o cümlədən Nəsir müəllim iştirak edirdi. Onların yanında məni belə təqdim eləmək ən azı hörmətsizlikdi.

Tələsib mikrofonu masabəyidən aldım: «Mən öz müəllimlərimdən üzr istəyirəm, – dedim, – «jurnalist» sözü sizə yaraşır, əziz müəllimlərimiz. Biz sizin açdığınız böyük yolun cığırlarına doğru hələ yol gedirik və bilmirik, o yola çıxacağıq, ya yox?!» Məclisdə iştirak eləyən tələbə yoldaşlarım məni alqışladılar. Elə bu dəm Nəsir müəllim ayağa qalxdı və «bir tərəkəmə» deyə sifariş verdi. Birlikdə oynadığımız o rəqs həm toyun, həm də mənim ömrümün ən yaddaqalan anlarıdır. Oynaya-oynaya qulağıma pıçıldadı: «Qız, yaman çoxbilmişsən a... Sən bizə yox, özünə tərif dedin» ...O lent bu gün ən əziz yadigar kimi qorunur.

Nəsir müəllimin itkili-nisgilli illərini xatırlamaq mənə ağır gəlir. Qürurunu, şəstini qoruyub saxlamağa nə qədər çalışsa da, sevimli həyat yoldaşının, sonra isə həmişə adı ilə öyünüb fəxr elədiyi Aida xanımın itkisi onu çox sarsıtmışdı. O bu kədər seli ilə heç cür barışa bilmirdi və yəqin ki, elə barışmadan da dünyasını dəyişdi.

Anadan olmasının 85 illiyində keçmiş tələbələrini onun başına topladım. Bu bəlkə də Nəsir müəllim üçün böyük bayram idi. Amma biz onun hələ də həyat eşqi parlayan gözlərindəki nisgili görməyə alışmamışdıq. Gənclik illərinin xoş xatirələrini, Nəsir müəllimin imtahanqabağı «sərt mesajları»nı, «Bakı» qəzetində təcrübədə olarkən gördüyümüz ibrətamiz səhnələri xatırlayıb məclisi şənləndirmək istədik. Nəsir müəllim əvvəlki centlmen ampluasında bizə – artıq «xanım» deyə müraciət etdiyi tələbələrinə

qulluq edir və xatırlandığı, yada düşdüyü üçün uşaq kimi sevinirdi. 90-cı illərin sərt dolanbaclarına duruş gətirib şəxsiyyətini qorumaq, sevilmək və unudulmamaq qisməti onun da payına düşmüşdü. Bu bizim Nəsir müəllimlə son vida görüşümüz oldu.

Həyatsevər, insansevər, məhək daşı misallı müəllimim ölkədə ilk axşam qəzetinə rəhbərlik etmişdi, böyük jurnalist nəsli yetişdirmiş və şəxsiyyəti, yaradıcılığı ilə onlara örnək olmuşdu.

Çox vaxt bizi unutqanlıqda günahlandırırlar. Belədə biz tarixin dərin qatlarına baş vururuq, amma unuduruq ki, yaxın bildiyimiz tarixin də bir azdan unudulmaq təhlükəsi var. Və bu tarixi sonrakı nəslə biz ötürməliyik. Görkəmli jurnalist, nadir şəxsiyyət, gülərüz, mehriban insan Nəsir İmanquliyev də həmin o tarixi sıradadır.

**P.S.** Yenə xatirəmin əvvəlinə qayıdıram. Əgər rəssam olsaydım...rəssam olsaydım, çiçəkləyən bir badam ağacı çəkərdim. Bahar nəsiminin ətrafa səpələdiyi ağ ləçəklər ömrünü təmiz ad, saf niyyətlə başa vuran, amma həmişə gözü yolda qalıb itirdiklərini axtaran kövrək bir ömürdən xəbər verərdi...







**Rəhilə Kəsəmənli**
*Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin əməkdaşı*

## RUHUNUZ QARŞISINDA BAŞ ƏYİRƏM!

Yaxşı adamları xatırladıqda yadıma düşənlər arasında Nəsir müəllimin xüsusi yeri var. Bəlkə də xasiyyətimdən irəli gəlir. Yaxşılıqlarını gördüyüm insanları heç cür unuda bilmirəm.

Eşidəndə ki, Nəsir müəllim haqqında kitab hazırlanır, çox sevindim. Sevindim ki, haqqında xatirə danışdıqca ürəyimi boşaldacağam. O sözləri deyəcəyəm ki, sağlığında ona deməyə utanırdım.

Nəsir müəllimi 1970-ci ildən tanıyırdım. Mən universitetin jurnalistika fakültəsinə gələndə o, «Bakı» və «Baku» axşam qəzetlərində baş redaktor vəzifəsində işləməklə yanaşı jurnalistika fakültəsində müəllim işləyirdi. Onu çox mehriban və savadlı müəllim kimi tanıdım. Sonradan bu insanın mənim xoşbəxt ailə qurmağımda böyük rolu oldu.

Nüsrət bizə dəfələrlə elçi göndərsə də, müsbət cavab ala bilmirdilər. Anam hər dəfə bir bəhanə ilə





onları yola salırdı. Bir gün elçiliyə Nəsir müəllimlə Gövhər xanım da gəldilər. Anamla necə danışdılarsa, razılığa gələ bildilər.

Elçiliyimizi, nişanımızı və toyumuzu rəhmətlik Nəsir İmanquliyev edib. Xeyir işimizin baş tutmasında ən böyük rol Nəsir müəllimin üzərinə düşmüşdü.

Nəsir müəllim çox xeyirxah insan idi. Yeni ailə qurduğumuz zamanlar kirayə evdə yaşayırdıq, böyük maddi çətinliklərlə üzləşirdik. Sanki ehtiyacımızı duymuşdu Nəsir müəllim. Bir gün Nüsrəti yanına çağırıb, 100 manat pul verib – «lazımın olar, məzuniyyətdən qayıtmısan» deyir. Xeyli vaxt keçəndən sonra biz bayram günü Nəsir müəllim və Gövhər xanımı təbrik etmək üçün onlara getdik. Həm də Nəsir müəllimin bizə verdiyi pulu qaytarmaq istədik. Onlarla bayramlaşıb evə qayıdanda pulu zərfin içində masanın üstünə qoyduq. Dəhlizdə geyinib sağollaşanda Nəsir müəllim həmin zərfi mənə verib – «Toydan sonra ilk dəfə gələn qonağa hədiyyə edərlər. Bu da Rəhilənin hədiyyəsi olsun» – dedi.

Toyumuzdan bir il sonra Nəsir müəllim bizi təzə evlə də təmin etdi.

Bütün bu xatırladığım anları gözümün önünə gətirdikcə xeyir-duanızla qurduğum xoşbəxt ailəyə görə sağlığınızda Sizə «Çox sağ olun!» deməyə utanırdım. İndi isə Sizə rəhmət oxuduqca gözlərim dolub-boşalır. Nə yaxşı ki, Sizin kimi şəxsiyyətlər olub bu dünyada. Allah sizə rəhmət eləsin.

Ruhunuz qarşısında baş əyirəm!

**Rəşad Məcid**
*«525-ci qəzet»in baş redaktoru,*
*Mətbuat Şurasının üzvü*

## QAYĞIKEŞ MÜƏLLİM, UZAQGÖRƏN REDAKTOR

Adətən hər bir insanın öz taleyini bağladığı sənətə inamını daha da artıran, seçdiyi peşəni bir az da dərindən sevdirən müəyyən şəxslər olur. Bu mənada, mənim də jurnalistikaya bağlılığımın müxtəlif səbəbləri var. İndi mən müəllim kimi həm Bakı Dövlət, həm də Bakı Slavyan universitetlərinin jurnalistika fakültələrində dərs deyirəm. Bir qayda olaraq bu fakültələrdə təhsil alan tələbələrin – gələcək jurnalistlərin hər yazısında, hər cümləsində bir işıq axtarıram və axtardığım həmin o işığı tapanda istər-istəməz öz tələbəlik illərimi xatırlayıram. Neçə illər öncə təhsil aldığım Azərbaycan Dövlət Universitetinin – indiki Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində bizə çox dəyərli insanlar, əvəzsiz müəllimlər dərs deyirdilər. Həmin müəllimlərin hər





birinin işıqlı simasını bugünkü kimi xatırlayıram. Onların arasında bir nəfər də vardı – o, həm bir müəllim, həm də qəzet redaktoru kimi öz fəaliyyəti ilə diqqəti daha çox cəlb edirdi.

Nəsir İmanquliyev 25 ildən artıq müddətdə «Bakı» və «Baku» qəzetlərinin redaktoru olmuşdu. O həm də Azərbaycan Dövlət Universiteti jurnalistika fakültəsinin Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasında müəllim kimi fəaliyyət göstərirdi. Taleyini jurnalistikaya həsr edən adamlar üçün qarşıya qoyulan son məqsədə çatmaq baxımından Nəsir İmanquliyev sözün həqiqi mənasında örnək sayıla biləsi insan idi. iki qəzetin redaktoru olmasına, iş qrafikinin gərginliyinə baxmayaraq, Nəsir müəllim jurnalistika fakültəsində dərs deməyə də vaxt tapırdı. Sözün düzü, o zamanlar Nəsir müəllimin işinin belə çox olmasına baxmayaraq, həm də pedaqoji fəaliyyətə bu qədər vaxt ayırmasının səbəbini başa düşə bilmirdim. Amma indi özüm də jurnalistika fakültələrində tələbələrlə təmasda olanda həmin o uzaq illərə qayıdır, bu daxili tələbatın Nəsir müəllimdə hansı səbəblərdən yarandığını aydınlaşdırmağa çalışıram. Nəsir müəllim tələbələrin yaddaşında təmkinli davranışı, mülayim xarakteri ilə qalan az-az müəllimlərdən idi. Xaraktercə mülayim bir insan olduğu dərs zamanı tələbələrlə ünsiyyəti zamanı da açıqca hiss edilirdi. O, həmişə tələbələrin istedadlı tərəflərini üzə çıxarmağa çalışır, hətta istedadı, qabiliyyəti olanları «Bakı» və «Baku» qəzetləri ilə əməkdaşlığa dəvət edirdi. Bu, doğrudan da, onun müdrik və uzaqgörən bir redaktor, qayğıkeş pedaqoq olduğunu göstərirdi.

Sovetlər dövrünün sərt və dəmir qadağaları altında dərc olunmasına baxmayaraq, bu qəzetlər tələbə-jurnalistlərin təcrübə qazanması, püxtələşməsi üçün bir meydan idi. «Bakı» və «Baku» şəhər qəzetləri olsa da, onun səhifələrində çeşidli materiallar – Azərbaycanın sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatını əks etdirən müxtəlif səpkili yazılar işıq üzü görürdü. Nəsir müəllimin tələbələri olmuş, sonralar isə «Bakı» qəzetində işləmiş qələm dostlarımız həmişə redaktorluq fəaliyyətindən danışarkən deyirdilər ki, Nəsir müəllim heç vaxt öz işçilərini kimsənin ayağına verməz, hansısa vəzifəli şəxs öz haqqında qəzetdə çıxan tənqidi yazıdan sonra redaktora zəng edib narazılığını bildirəndə o, birmənalı şəkildə jurnalistin tərəfini saxlayardı. Müxtəlif vaxtlarda Nəsir müəllimin tələbələri və işçiləri olmuş jurnalistlər söhbət düşəndə indinin özündə də xatırlayırlar – o, cavanların əlindən tutan, əməkdaşların ev, məişət problemlərinin həlli üçün bacardığı köməkliyi göstərən xeyirxah bir insan olub. Nəsir müəllim fakültədən redaksiyaya cəlb etdiyi işçilərin, eləcə də digər gənc jurnalistlərin hər birinin mənzillə təmin olunmasına çalışar, bu problemlərin müsbət həlli üçün əlindən gələni əsirgəməzdi. Bir vaxtlar Nəsir müəllimin rəhbərliyi altında çalışan jurnalist həmkarlarımdan birinin sözüdür. Redaktorluq fəaliyyətinin son illəri idi, səhhətində problemlər vardı, ona görə də işçilər, bir qayda olaraq, qəzetdə gedəcək vacib materialları qabaqcadan oxumaq üçün Nəsir müəllimin evinə aparardılar. Kim olur-olsun, Nəsir müəllim evinə gələn işçisini heç vaxt çörək kəsmədən, yemək





yemədən buraxmazdı. Elə bu faktın özü Nəsir müəllimin təkcə qayğıkeş müəllim və qəzet redaktoru yox, həm də gözəl insani keyfiyyətlərə malik bir şəxs olduğunun göstəricisidir. Əslinə qalanda bütün zamanlarda yaradıcı insanların qayğıya hamıdan çox ehtiyacı olub yazı-pozu adamları istedad və qabiliyyətinin müqabilində həmişə ətrafdakılardan diqqət, qayğı umublar. Amma heç də bütün səlahiyyət sahibləri, rəhbər şəxslər qələm adamlarının bu hissini anlayaraq onlara kömək göstərmək, qayğısına qalmaq barədə düşünməyiblər. Bu mənada, əlində olan səlahiyyətlərdən, cəmiyyətdəki mövqeyindən istifadə edib istedadlı insanlara bacardığı köməkliyi göstərən şəxslər elə də çox deyil. Amma ən müxtəlif dönəmlərdə belə insanlar olub və onların xatirəsi həmişə yalnız isti sözlərlə yad edilib. Jurnalistika aləmində belə dəyərli insanlardan biri də şübhəsiz ki, Nəsir müəllim idi.

Yeri gəlmişkən, universitetdə neçə-neçə yaxşı ənənəylə yanaşı, bəyənmədiyim, xoşuma gəlməyən, içimdə etirazla qarşıladığım məqamlar da vardı. Onlardan biri də təbii ki, uşaqların imtahanlardan tapşırılması məsələsi idi. Düzdür, jurnalistika fakültəsində müəllim-tələbə münasibətləri, müsbət mənada, başqa fakültələrlə müqayisədə xeyli yaxşı idi. Amma tələbələrin imtahandan tapşırılması hallarına burada da rast gəlinirdi. Uşaqların tapşırılmasını xoşlamayan Nəsir müəllimin bu mənfi tendensiyaya qarşı özünəməxsus əks münasibəti vardı. Əgər auditoriyada 30 tələbə vardısa və bunlardan 15 nəfəri tapşırılırdısa, Nəsir müəllim

tapşırılmayan o biri 15 nəfərə də qiymət yazıb yarızarafatla deyərdi ki, onlara da mən dayılıq edəcəyəm.

...Nəsir müəllimin yubileyi ərəfəsində mən onun işıqlı simasını yenidən xatırlayası oldum. işinin kifayət qədər çoxluğuna baxmayaraq, onu müəllimliyə sövq edən daxili tələbatın haradan qaynaqlandığı – yazının əvvəlində dediyim kimi, gənc yaşlarımda bunun səbəblərini aydınlaşdırmaq mənim üçün çətin idi – mənə məhz indi, həm qəzet redaktoru, həm də müəllim işlədiyim dövrdə aydın olmağa başlayır və bu işlər vaxt məhdudluğu baxımından bir xeyli problemlər yaratsa da, həmin duyğuları tamamilə təbii sayıram. Bu gün Nəsir müəllimin neçə-neçə tələbəsi müxtəlif mətbuat orqanlarında çalışır. Və hesab edirəm ki, çağdaş Azərbaycan mətbuatında keçmişdən gələn bir çox üstün keyfiyyətlərin hələ də itib-batmamasında, başqa unudulmaz müəllimlərimiz kimi, Nəsir İmanquliyevin öz tələbələrinə aşıladığı o təcrübənin də böyük rolu var.







**Şamil Şahməmmədov**
*əməkdar jurnalist*

# NƏCİBLİK ZİRVƏSİ

Adətən, sevimli müəllimin haqqında xatirə yazanda dəfələrlə götür-qoy etməli olursan, onun təkrarsız məziyyətlərini ən dəqiq cizgilərlə təsvir etməyə çalışırsan, hamının yaxşı tanıdığı bu şəxsin obrazını özünə layiq ifadələrlə canlandırmaq istəyirsən. Əgər ustadın özü müqtədir qələm sahibi, tələbkar redaktor olubsa, məsuliyyət hissin qat-qat artır: hər cümləni yazanda neçə dəfə ölçüb-biçirsən, sanki zabitəli müəllim qarşısında imtahan verirsən.

Mətbuatımızın görkəmli şəxsiyyəti, jurnalistlərimizin neçə-neçə nəslinin müəllimi, bir çox həmkarımızın, o cümlədən mənim həyat və peşə taleyimin uğurlu məcraya yönəlməsinin səbəbkarı, qəzetçilikdə mükəmməl bir məktəbin yaradıcısı olmuş Nəsir İmanquliyevə hər dəfə dərin minnətdarlıq hissləri keçirirəm.

Nəsir müəllim haqqında yazdığım xatirələrdə bir məqamı əvvəllər də vurğulamışam: unudulmaz ustadımız Azərbaycan mətbuatının tamhüquqlu klassiki adına layiqdir. Biz, qələm əhli intellektual əməyin başqa sahələrində (elm, ədəbiyyat, incəsənət) öz yaradıcılığı və fəaliyyəti ilə əbədi izlər qoymuş şəxsiyyətləri haqlı olaraq klassik adlandırırıq, amma həmin sahələrdən biri sayılan jurnalistikanın öndərlərini təvazökarlıq ucbatından unuduruq. Nəsir müəllimin işıqlı siması qarşısında bu borcumuzu qaytarmaq zərurətini bir daha xatırlatmaq istərdim.

Əlbəttə, bu fikrin danılmaz həqiqətlərə söykəndiyini nümayiş etdirmək üçün onun ömür naməsinin yüksəliş, gərgin zəhmət, fədakarlıq timsalı olan səhifələrini bircə-bircə vərəqləmək olardı. Ancaq müəllimimizin həyat yolunun, yəqin ki, başqa bir yazıda əks olunacağını nəzərə alaraq yalnız onu vurğulamaq istəyirəm ki, respublikanın ən nüfuzlu qəzetlərində daim irəli çəkilə-çəkilə işləmək, partiyanın ali qərargahında ölkə mətbuatına rəhbərlik etmək, cəbhə qəzetində fəaliyyət göstərmək, Radio Verilişləri İdarəsinin sədri olmaq, jurnalistika fakültəsinin ilk təşkilatçılarından biri olub ömrünün axırınadək burada dərs demək, nəhayət, Azərbaycanda tamamilə yeni tipli bir mətbu orqanı – «Bakı» axşam qəzetini yaradıb otuz il ərzində ona başçılıq etmək – bütün bunlar şərəfli ömür yolunun tarixçəsidir.

...Qəribə bir təsadüfdür ki, Nəsir müəllim universitetin jurnalistika şöbəsində (sonralar fakültəyə çevrildi) bizim qrupa dərs deməmişdi, məni tələbəlikdən tanımırdı. O, Radio Verilişləri İdarəsinə rəhbərlik edəndə mən dördüncü kursda

oxuyurdum və radionun ştatdankənar müxbiri idim. 1957-ci ilin axırları idi. Xeyirxah insan olan «Son xəbərlər» redaksiyasının baş redaktoru Hacı Hacıyev mənə dedi ki, Bakıda axşam qəzeti açılacaq, Nəsir müəllim redaktor təyin olunub, radiodan da bir neçə nəfər ora gedir, sənin də namizədliyini vermişəm. Doğrusu, tələbə ikən işə qəbul olunacağıma inanmırdım, amma bir neçə gündən sonra Nəsir müəllim məni dəvət edib qısa söhbətdən sonra adımı siyahıya yazdı. Eşitdiyimə görə, MK-da namizədlər müzakirə olunarkən mənim adımı silmək istəmişdilər, ancaq gələcək redaktorum şöbə müdirini necə inandırmışdısa, razılıq vermişdilər.

Beləliklə, bu nəcib insanın misilsiz xeyirxahlığı sayəsində ömür yolum müəyyən olundu və Nəsir müəllim əslində mənim gələcək müqəddəratım üçün məsuliyyəti öz üzərinə götürdü. Otuz il ərzində jurnalist sənətinin incəliklərini, redaktənin sirlərini, idarəetmə bacarığını ondan öyrəndim, əsl həyat məktəbi keçdim. Bütün bunlara görə əziz müəllimimə dönə-dönə minnətdaram.

«Bakı» axşam qəzeti Azərbaycan mətbuatının tarixində parlaq iz qoyan yeni ruhlu, o dövrün digər nəşrlərindən əsaslı şəkildə fərqlənən, rəsmiyyətçiliyə meyl etməyən, «palaz-palaz» məqalələr əvəzinə daha çox xəbər, reportaj, müsahibə janrlarına üstünlük verən, paytaxtın həyatını, əhalinin qayğılarını rəngarəng formalarla işıqlandıran, yaranışından oxucuların rəğbətini qazanan bir orqana çevrildi. Bütün bu keyfiyyətlər redaksiyanın «sükanı» arxasında zəngin təcrübəli, yüksək zövqlü, iradəli və cəsarətli bir jurnalistin durduğunu





göstərirdi. Ən mühüm rəsmi hadisələr» Səhər qəzetlərində» rubrikası altında bir cümlə ilə oxucuya çatdırılırdı. «Bakı»nın hər nömrəsi əldən-ələ gəzirdi, axşama yaxın onu almaq üçün qəzet köşklərinin qarşısında uzun növbələr düzülürdü.

1958-ci il yanvarın 10-da qəzetin ilk nömrəsi mətbəədən redaksiyaya gətiriləndə gənc kollektivdə əsl bayram növrağı hökm sürürdü, heç kim evə getmək istəmirdi. Hamıdan çox sevinən isə Nəsir müəllim idi. Bu, qanuni iftixar hissi idi.

Qəzet beş il yarım ərzində kiçik formatda çıxsa da, respublikanın mətbuat orqanları arasında özünə layiqli yer tutdu, təkcə Bakıda deyil, rayonlarda da yayıldı, tirajı ilbəil artdı. Başqa qəzetlərdən fərqli olaraq gündüz hazırlanıb axşamüstü satışa çıxan «Bakı» günün ən mühüm hadisələrini cəmi bir neçə saatdan sonra oxucuya çatdırırdı. Bu, kollektivdən yüksək operativlik tələb edirdi. Bəzən müxbir qəzetin gecikməməsi üçün xəbəri mətbəədə linotipçiyə (indi bu mətnyığan maşınlar ömrünü başa vurub) diqtə edirdi.

Operativliyi və dəqiqliyi qəzetin ən vacib keyfiyyətləri hesab edən Nəsir müəllim gənc əməkdaşları da bu ruhda yetişdirirdi. Heç yadımdan çıxmır – böyük bəstəkarımız Fikrət Əmirov Amerikaya səfərdən qayıdarkən (orada onun simfonik muğamları məşhur dirijor Stokovskinin rəhbərliyi ilə Nyu-York simfonik orkestri tərəfindən ifa olunmuş və böyük uğur qazanmışdı) redaktorumuz gənc jurnalist Fazil Rəhmanzadəni və fotomüxbirimiz Yaşar Xəlilovu Biləcəriyə göndərmişdi. Onlar Moskva-Bakı qatarını orada

qarşılayaraq paytaxta çatana qədər bəstəkarla müsahibə aparmış, sonra isə redaksiyaya qayıdıb operativ yazı və şəkil hazırlamışdılar. F.Əmirov vətənə dönən günün axşamı qəzetimizdə onunla müsahibə dərc olundu. Bu, ən yüksək operativlik nümunəsi idi. Belə faktlardan çox gətirmək olar.

Nəsir müəllim qəzetin ictimai-siyasi məzmununu o dövrün tələbləri səviyyəsində saxlamaqla bərabər, oxucu zövqünü oxşayan bədii yazıların hər nömrədə yer almasına da həmişə diqqət yetirirdi. Həsən Seyidbəylinin «Cəbhədən cəbhəyə» romanı bir neçə ay ərzində qəzetimizdə dərc olundu. Azərbaycan ədəbiyyatında ilk detektiv əsərlərdən biri olan bu roman qəzetə oxucu marağını qat-qat artırdı – qəzet əldən-ələ gəzirdi. Sonrakı illərdə «Bakı»nın səhifələrində xalq yazıçısı Hüseyn Abbaszadənin povestləri, Əbülhəsənin «Tərs adamlar» romanı, başqa yazıçı və şairlərimizin əsərləri müntəzəm dərc olunurdu. Teatrlarda premyeralara hökmən baxan Nəsir müəllim elə oradaca tanınmış teatrşünaslara sifariş verir və tamaşa haqqında sanballı resenziya ilk dəfə bizim qəzetdə çıxırdı.

Redaktorumuz özü idman azarkeşi deyildi. Amma idman, xüsusən futbol yarışları qəzetdə həmişə geniş işıqlandırılırdı. «Oxucu istəyirsə, vermək lazımdır» – Nəsir müəllimin mövqeyi belə idi. Bir dəfə «Neftçi» Daşkənddə «Paxtakor»a 5:1 hesabı ilə qalib gəlmişdi. Mən təklif etdim ki, bu barədə yazını birinci səhifədə verək. Redaktorumuz mənalı-mənalı gülümsəyərək razılaşdı. Bu, mətbuatımızın tarixində görünməmiş bir cəsarət idi – futbol partiya qəzetinin birinci səhifəsində?!





Nəsir müəllimin böyük təkidlərindən sonra 1963-cü ilin yayından «Bakı» axşam qəzeti iri formatda çıxmağa başladı. Bununla yanaşı, redaksiyamız rus dilində «Baku» qəzetini də nəşr edirdi. Həftədə 12 nömrə çıxan, bir-birinin təkrarı olmayan iki qəzetə rəhbərlik etməyin çətinliklərini təsəvvürünüzə gətirin. Ancaq bu fədakar insanın tükənməz enerjisi hətta gecə-gündüz işləməyə kifayət edirdi. Hələ üstəlik redaksiyamız Bakı Şəhər İcraiyyə Komitəsinin qərarlarından ibarət aylıq bülleten də hazırlayırdı. Bundan başqa, ildə iki dəfə Azərbaycan və rus dillərində futbol təqvim-məlumat kitabçaları buraxırdıq. Onların da nəşrinə redaktorumuz rəhbərlik edirdi. Nəhayət, Nəsir müəllim jurnalistika fakültəsində dərs deyirdi, müharibə illərində cəbhə qəzetlərinin fəaliyyəti haqqında dissertasiya yazıb müdafiə etdi, əvvəl dosent, sonra isə professor elmi adına layiq görüldü.

Məlumdur ki, öz iş sahəsində böyük xidmətləri olan şəxslərə «əməkdar» adı yalnız bir dəfə verilir. Nəsir müəllimin fəaliyyəti o dərəcədə çoxcəhətli və zəngin olub ki, bu qaydaya rəğmən o, həm «Əməkdar mədəniyyət işçisi», həm də «Əməkdar jurnalist» fəxri adlarına layiq görülübdür. Eləcə də, respublika Jurnalistlər Birliyinin «Qızıl qələm» mükafatını ancaq bir dəfə almaq olar. Mətbuatımızın fədaisi və klassiki olan Nəsir müəllimə isə bu fəxri mükafat iki dəfə verilmişdir. Halaldan da halal olduğu üçün!

Yaxşı xatırlayıram ki, Nəsir müəllimin «yoruldum» deyən işçilərdən xoşu gəlmirdi. Çünki özü yüksək işgüzarlıq, fədakarlıq, dəmir intizam timsalı idi.

Redaktorumuzun həm tələbkar, həm də qayğıkeş münasibəti sayəsində sağlam və səriştəli bir kollektiv formalaşdı. Təcrübəli işçilərlə gənc jurnalistlərin birgə işi qəzetin səviyyəsinin günbəgün yüksəlməsinə kömək edirdi. Nəsir müəllimin hər birimizə xeyirxahlıqla, öz övladı kimi yanaşması sayəsində redaksiya bizim üçün doğma evə çevrildi. Redaktorumuz rəsmiyyətçilikdən, inzibatçılıqdan uzaq bir adam idi. Redaksiyanın əmrlər dəftərində töhmət, «işdən azad olunsun» sözlərinə rast gəlmək mümkün deyildi. Əlbəttə, intizamı pozan, vəzifəsinin öhdəsindən gəlməyən işçilər də olurdu. Bu zaman Nəsir müəllim «aspirin metodu»na əl atırdı: günahkarı yaxşıca danlayıb «tərlədir», sonra isə adəti üzrə fikrini tamamlayırdı: «Get, başını aşağı sal, bir də belə iş görmə». Bu geniş qəlbli insanın kimisə işdən çıxarması yadıma gəlmir. Əslində onun redaksiyaya işçi qəbul etməsi də asan məsələ deyildi. Hətta ən yuxarı «mərtəbə»lərdən gələn xahiş-minnətləri də «gözüyumulu» qəbul etmirdi. «Qoy gəlsin, ştatdankənar işləsin, özünü göstərsə götürərəm» deyirdi. Amma kollektivdə püxtələşmiş, Nəsir müəllimin məktəbini keçmiş işçilərin nəinki redaksiyadan getməsinə, necə deyərlər, «ayağına daş dəyməsinə» belə imkan vermirdi.

Zəngin həyat və iş təcrübəsi olan bu müdrik insanın üstəlik də gözəl seçmə qabiliyyəti, bir növ «seleksiyaçılıq» keyfiyyəti var idi. Tələbələri arasından, özü demişkən, «işartı verənləri» seçib işə dəvət edirdi. Nəsir müəllimin qəzetə gətirdiyi gənclərin bir çoxu sonralar mətbuatda rəhbər vəzifələrə yüksəldilər, tanınmış jurnalist, alim, yazıçı kimi yetişdilər. Onların sayı o qədər çoxdur ki, adlarını sadalamağa çətinlik çəkirəm.

Kollektivdə ailə səmimiyyəti, əsl mehribanlıq şəraiti yaranmasında Nəsir müəllimin tükənməz xeyirxahlığı həlledici rol oynayırdı. O, hər bir işçini, xüsusən cavanları mənzillə təmin etməyi özünə atalıq borcu hesab edirdi. Başqa redaksiyaların işçiləri bu cəhətdən bizə həsəd aparırdılar. Mən və ailə üzlərim heç zaman unutmuruq ki, Nəsir müəllim mənə əvvəl iki, sonra isə dörd otaqlı mənzil alıb vermişdir. Belə xeyirxahlıqlar həmişə rəhmət duaları ilə xatırlanır.

Redaktorun qayğıkeşlik «ünvanları» təkcə mənzillə məhdudlaşmırdı. O, bir ağsaqqal kimi gənc işçiləri üçün elçiliyə getməyi, toylarda ailə üzvü qədər canıyananlıqla iştirak etməyi sevirdi, hüzr məclislərindən qalmırdı, ehtiyacı olanlara əl tuturdu. Nəsir müəllim kollektivdə mehribanlığı möhkəmləndirmək üçün bizi arabir Pirşağıdakı bağ evinə dəvət edir, özünü müdir kimi yox, qonaqpərvər ev sahibi kimi aparır, qollarını çırmayıb kabab bişirirdi.

Bir olayı isə bu hadisənin bütün iştirakçıları uzun illər boyu insaniyyətin ən yüksək zirvəsi kimi xatırlayırdılar. Hətta yazıçı Süleyman Vəliyev bu mövzuda hekayə də yazmışdır. Maraqlıdır ki, əsərdə hadisələr Şamil adlı gənc jurnalistin dilindən təsvir olunur. Mərhum yazıçı bu hekayənin də daxil olduğu öz kitabını avtoqrafı ilə mənə bağışlamışdı.

...Həmin günü indiki kimi xatırlayıram. Nəsir müəllim sabahkı nömrənin maketini təsdiq edərkən mənə dedi ki, «bu gün işdə çox ləngimə, axşam bizə

gəl, bir yazı var, birlikdə oxuyarıq». Doğrusu, çox təəccübləndim: axı, həmişə olduğu kimi, yazını idarədə oxumaq olardı. Nizami küçəsində onun yaşadığı binaya yaxınlaşanda işçilərimizdən Səfər Məmmədov və Famil Mehdi ilə rastlaşdım. Məlum oldu ki, ev sahibi onlara da eyni sözləri demişdir.

Mənzilə daxil olanda isə heç gözləmədiyimiz bir mənzərə ilə qarşılaşdıq: geniş ziyafət süfrəsi açılmışdı, işçilərimiz və Nəsir müəllimin yaxın dostları əyləşib şirin-şirin söhbət edirdilər. Burada «yazı oxuyacağıq» əhval-ruhiyyəsindən əsər-əlamət yox idi. Ev sahibi özü, onun ömür-gün yoldaşı, bizə həmişə doğma adamları kimi mehribanlıq göstərən mərhum Gövhər xanım, müəllimimizin gözünün ağı-qarası, sevimli övladı Aida xanım (təəssüflər olsun ki, bu gözəl insan və görkəmli alim dünyasını çox tez dəyişdi) hər birimizi gülərüzlə qarşıladılar. Məlum oldu ki, həmin gün Nəsir müəllimin yubileyidir və o, qonaqların hədiyyə almaq qayğısına qalmamaları üçün hərəmizi bir «səbəb»lə dəvət etmişdir.

Bu, nəcibliyin, təmənnasızlığın, genişqəlbliliyin ən yüksək zirvəsi idi! Mən indiyədək nə həyatda, nə də bədii ədəbiyyatda buna bənzər nümunəyə rast gəlməmişəm.

Nəsir müəllimin işçilərə qayğısı haqqında saatlarla danışmaq olar. Ancaq mənə etdiyi yaxşılıqları xüsusi fərqləndirmək istəyirəm. Birgə işlədiyimiz illərdə o, imkan yarandıqca gəncləri irəli çəkirdi. Mənim barəmdə isə bu xeyirxahlığı dörd dəfə edib: əvvəlcə tələbə vaxtımda işə götürüb, beş il ədəbi işçi (müxbir) olmuşam, sonra məni şöbə müdiri,





məsul katib, nəhayət, redaktor müavini vəzifəsinə layiq görübdür. Beşincisi də var. Mən «Kommunist» qəzetinə redaktor müavini təyin olunanda Nəsir müəllim əsl böyüklük ərki ilə məndən incidi. Hətta yolasalma mərasimində uzaqgörənliklə dedi: «Onsuz da yenə bura qayıdacaqsan».

Bu sözlərin dərin mənasını düz bir ildən sonra anladım. Qəflətən məni Bakı Komitəsinə dəvət edib doğma «Bakı»–«Baku» qəzetlərinə redaktor təyin etdilər. Həm də bildirdilər ki, Nəsir müəllim pensiyaya çıxmaq barədə ərizə yazıb və öz yerinə sizi məsləhət görüb.

Mən üç il ərzində müəllimimin yolunu davam etdirdim, sonra 12 il AzərTAc-da işlədim. Hər iki vəzifədə çalışarkən ağsaqqalımla ünsiyyətim davam edirdi. Onun zəngin təcrübəsi, xeyirxah məsləhətləri müstəqil işdə mənə böyük dayaq oldu.

...Aida xanımın dünyasını dəyişməsindən sonra Nəsir müəllimin gümrahlığından, həyatsevərliyindən əsər-əlamət qalmadı. Təsəllisini əziz nəvələrindən alırdı. Ancaq AzərTAc-da və onun evində arabir görüşərkən daxili qəm-kədəri üzündən açıq-aydın hiss olunurdu. 1998-ci ilin mart ayında isə bu böyük insan əbədi olaraq gözlərini yumdu.

Allah qəni-qəni rəhmət eləsin...

Nəsir müəllim bu gün doğmalarının nəcib əməllərində, yetişdirmələrinin və xeyirxahlıq etdiyi saysız-hesabsız insanların xoş xatirələrində, pərvəriş verdiyi və otuz il rəhbərlik etdiyi «Bakı»–«Baku» qəzetlərinin heç vaxt solmayan səhifələrində yaşayır.

**Şirməmməd Hüseynov**
*Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin professoru*

# MƏNƏVİ TƏMİZLİK ÖLÇÜSÜ

Nəsir İmanquliyev mənim üçün həm yüksək əxlaqi-mənəvi keyfiyyətli, hərtərəfli savadlı, təcrübəli jurnalist-müəllim, sonralar həm də səmimi və xeyirxah həmkar, qayğıkeş dost, böyük qardaş olmuşdur. 1945-ci ildə Azərbaycan Dövlət Universitetində filologiya fakültəsində jurnalistika şöbəsi yaradıldı. Mən də elə həmin il bu şöbəyə daxil oldum. O vaxt fakültədə respublikanın ən tanınmış adlı-sanlı alim-müəllimləri dərs deyirdi. Məmməd Arif, Mir Cəlal Paşayev, Əli Sultanlı, Mikayıl Rəfili, Həmid Araslı, Məmmədhüseyn Təhmasib, Cəfər Xəndan, Məmmədağa Şirəliyev, Hadi Mirzəzadə, Həbib Səmədzadə, Feyzulla Qasımzadə və b. 1946-cı ildə fakültədə jurnalistikanın nəzəriyyə və təcrübə kafedrası yaradıldı. Kafedranın müdiri 30-cu illərdə Moskvada Dövlət Jurnalistika İnstitutunu bitirmiş, zəngin elmi-nəzəri və təcrübi hazırlığı olan Həsən Şahgəldiyev təyin edildi. Həsən müəllim respublikanın tanınmış jurnalist və rəhbər mətbuat işçilərini tədris işinə cəlb etdi. Bunların sırasında respublikanın ən nüfuzlu rəsmi «Kommunist» qəzeti redaktorunun birinci müavini Nəsir İmanquliyev, həmin redaksiyanın məsul katibi İsrafil Nəzərov, Azərnəşrin direktoru, yazıçı Qılman Musayev, tanınmış tərcüməçi Cümşüd Əzimov və başqaları vardı.

Nəsir müəllimlə dörd illik tələbə-müəllim münasibətlərimiz yaddan çıxmadı. Jurnalistikanın əsas sirlərini, yazmaq vərdişini, məsuliyyət hissini, dürüstlük və dəqiqliyi biz öz müəllimlərimizdən öyrənmişdik.

1950-ci ildə mən şöbəni bitirdim. Moskva Dövlət Universitetinin aspiranturasına qəbul olundum.

1954-cü ildə namizədlik dissertasiyası müdafiə edib doğma universitetə qayıtdım. Elə bu vaxtdan öz müəllimlərim, o cümlədən Nəsir müəllimlə həmkarlıq illəri başladı. Nəsir müəllimlə onun ömrünün sonuna qədər fasiləsiz bir fakültədə canla-başla işləmişik. Doğrudur, Nəsir müəllimin əsas iş yerləri zamanla dəyişirdi; o, Dövlət Radio və Televiziya Komitəsində sədr müavini, Azərbaycan KP MK-nın təbliğat-təşviqat şöbəsində müavin, 1958-ci ildən təxminən 30 il «Bakı» və «Baku» axşam-səhər qəzetlərinin baş redaktoru işləyirdi. Lakin müəllimlik fəaliyyətini bir an belə kəsməmişdi.

Nəsir müəllimlə birgə elmi əməkdaşlığımız da vardı. 1966-cı ildə Azərnəşr kafedramızın hazırladığı «Jurnalistika məsələləri» dərs vəsaitini nəşr etdi. Bu

kitabın əsas müəlliflərindən biri də N.İmanquliyev idi. «Qəzetdə xəbər» bölməsini Nəsir müəllimlə mən birgə yazmışdıq. Tələbələr indi də bu dərs vəsaitindən istifadə edirlər. Dərslik «Qızıl qələm» mükafatına layiq görülmüşdür. Sonralar bu birgə elmi əməkdaşlığımız davam etdi. Dərsliyin 1972-ci ildə növbəti nəşri çıxdı. Yenə əsas müəlliflərdən biri Nəsir müəllim idi. Bu elmi əməkdaşlığımız sonralar da davam edirdi. Nəsir müəllim Azərbaycan mətbuatının Böyük Vətən müharibəsi dövrü fəaliyyətinə dair namizədlik dissertasiyası yazdı və uğurla müdafiə etdi. Dosent və sonralar universitetin jurnalistika kafedrasının professoru oldu.

Nəsir müəllim Azərbaycan jurnalistika kadrlarının bir neçə nəslinin xeyirxah, səmimi, qayğıkeş müəllimi olmuşdur.

Mən dəfələrlə Nəsir müəllimgildə olmuşam. O evdə çörək kəsmişəm. Onun səmimi və alicənab həyat yoldaşı Gövhər xanımı, sevimli, istedadlı alim, şərqşünas qızı Aida xanımı çox böyük hörmətlə xatırlayıram.

Əgər bu gün universitetin jurnalistika fakültəsində işgüzar atmosfer, tələbkarlıq və düzlük, xeyirxahlıq və səmimiyyət varsa, bu keyfiyyətləri yaradan və miras qoyanlardan biri də məhz Nəsir İmanquliyev olmuşdur»







**Valid Sənani**
*Beynəlxalq Jurnalistlər İttifaqları Konfederasiyası Şurasının üzvü, Azərbaycan Jurnalistlər Birliyi sədrinin müavini, əməkdar jurnalist*

## OBYEKTİV VƏ CƏSARƏTLİ JURNALİST

Hansı dövlət quruluşunda yaşamasından, işləməsindən asılı olmayaraq, jurnalist obyektiv, cəsarətli, analitik düşüncə sahibi olmalı, sözü yerində və vaxtında deməyi bacarmalıdır. Oxucu bu keyfiyyətlərə malik olan jurnalistə rəğbət bəsləyir, onun yazılarını səbirsizliklə gözləyir.

Mən hələ Dövlət Universitetinin tələbəsi ikən jurnalistikada kövrək addımlarımı atanda Nəsir müəllimin məhz belə bir jurnalist olduğunu yaşlı həmkarlarımdan eşitmişdim. Amma özünü görməmişdim.

Nəsir müəllimlə ilk tanışlığım radioda oldu. Mən üçüncü kursu bitirdikdən sonra diktor müsabiqəsində qalib gəldim və radioda işləməyə başladım. O vaxt Mədəniyyət Nazirliyi yanında radio informasiya Baş idarəsinin sədri İsrafil Nəzərov idi. 1956-cı ildə İsrafil müəllim mədəniyyət nazirinin müavini təyin edildi.

Həmin günlərdə radio işçilərindən tez-tez «Nəsir müəllim sədr olacaq» – sözlərini eşidirdim.

Bir müddətdən sonra yeni rəhbərin gəlişi radio dalğalarında hiss edildi. Yeni verilişlər, yeni musiqi proqramları yarandı, informasiyanın operativliyi artdı, idman xəbərlərinə daha geniş yer verildi. Nəsir müəllimin sədr olduğu vaxt ilk dəfə efirdə futbol reportajı Azərbaycan dilində səsləndi. Bu, rus dilinin az qala hamı üçün ana dili olduğu, dövlət işlərinin, rəsmi yığıncaqların rus dilində aparıldığı, adi arayışın rus dilində verildiyi bir vaxtda xəbərlər şöbəsinin müdiri Hacı Hacıyevin təşəbbüsü ilə futbol reportajlarının rus dilində aparılmasından imtina edib (oyunları A.Qnezdov şərh edirdi), Azərbaycan dilində aparılmasının nə demək olduğunu başa düşmək çətin deyil. Nəsir müəllimin bu təşəbbüsü dəstəkləməsi çox vacib idi. Belə də oldu.

Nəsir müəllim əsl redaktor idi. Bir hadisə heç vaxt yadımdan çıxmır.

Rus yazıçısı L.Leonovun «Rus meşəsi» romanı Lenin mükafatına layiq görülmüşdü. Azərbaycan dinləyicilərini bu əsərlə tanış etmək üçün tərcüməçi İshaq İbrahimova tapşırıldı ki, ondan parçaları tərcümə etsin. Bir həftə ərzində hər axşam romandan parçalar diktor Aydın Qaradağlının ifasında səslənirdi. Birinci verilişin başlanmasına bir neçə dəqiqə qalırdı. Aydını studiyada görmürdüm. Narahat oldum. O vaxt bədii qiraəti başqa diktor elan edirdi. Növbədə mən olduğum üçün verilişi mən elan etməli idim. Üçüncü mərtəbəyə,

redaksiyaların olduğu mərtəbəyə qalxanda pilləkənlərdə Aydınla rastlaşdım. Dedi ki, verilişin bir neçə səhifəsini götürmüşəm, ardını Nəsir müəllim redaktə edir. O oxuduqca birbaşa studiyaya gətir.

Elə də etdim. Üçüncü mərtəbədən ikinci mərtəbəyə - studiyaya enəndə Nəsir müəllimin gözəl xətlə (diktorun oxuması üçün məhz belə lazım idi) etdiyi düzəlişlərə baxırdım. İshaq İbrahimovun peşəkar tərcüməsi, Nəsir müəllimin məharətlə etdiyi redaktə və Aydın Qaradağlının yüksək səviyyədə qiraəti elə təsəvvür yaradırdı ki, sanki Leonov «Rus meşəsi» romanını azərbaycanca yazıb.

Nəsir müəllimin hər sözün, hər cümlənin üstündə əsl redaktor həvəsi ilə işləməsi bizim üçün əsl məktəb idi. O, Azərbaycan dilinin saflaşması yolunda mübariz mövqedə idi.

«Bakı» – «Baku» axşam qəzetləri təsis ediləndə Nəsir müəllim redaktor təyin olundu. O, radionun bir neçə təcrübəli işçisini qəzetə dəvət etdi. Mənə də təklif etdi ki, idman şöbəsində işləyim. Razılıq verdim. Dedilər ki, səhər saat onun yarısında radioda ol, Mərkəzi Komitəyə gələcəyik, təsdiq olunmalıyıq.

Həmin gün gecə növbəsində işlədiyimdən səhər yuxuya qaldım. Saat 10-da təngənəfəs radioya gələndə dedilər ki, Nəsir müəllim komandası ilə birlikdə gedib. Görünür, Nəsir müəllimlə qəzetdə işləmək qismətimdə yox imiş.

Radioda xəbərlər, müsahibələr, reportajlar yazdıqca püxtələşir, yaşlı həmkarlarımın məsləhətləri ilə jurnalistikanın, xüsusən də radio jurnalistikasının nə demək olduğunu anlamağa başlayırdım.





1960-cı illərin ortalarında «Bakı» qəzetinə arabir məqalələr yazırdım. Bir dəfə redaksiyada Nəsir müəllimlə görüşdüm. Elə bil fikrimi gözlərimdən oxudu:

– Yaxşı yazırsan, – dedi. Sonra zarafatla əlavə etdi:
– Daha yuxuya qalmırsan?

1989-cu ildə «Əməkdar jurnalist» fəxri adına layiq görüləndə də, 1991-ci ildə Azərbaycan Jurnalistlər Birliyinin sədrinin müavini seçiləndə də məni birinci təbrik edənlərdən biri də Nəsir müəllim idi.

O illərdə Nəsir müəllim Jurnalistlər Birliyinə tez-tez gələrdi. Yaş fərqimiz böyük olsa da söhbətimiz tuturdu. Jurnalistikaya necə gəldiyindən danışar, qələm dostlarımı xatırlayar, yeni yaranan qəzetlərdə peşəkarlığın aşağı səviyyədə olmasından gileylənərdi.

Belə söhbətlərdən birində məndən soruşdu:
– Bizim fakültəni neçənci ildə qurtarmısan?

Dedim ki, mən geoloji-coğrafiya fakültəsini bitirmişəm.

– Lap əcəb eləyib jurnalist olmusan - dedi. Təki jurnalistika fakültəsini bitirənlər sənin kimi jurnalist olaydı. Jurnalistə ixtisas təhsili lazımdır, ancaq jurnalistlik şairlik, yazıçılıq kimi bir şeydir. Gərək adamın içindən gəlsin. Quyuya su tökməklə sulu olmaz.

Nəsir müəllimdən bu sözləri eşitmək mənim üçün olduqca xoş idi. Xüsusən ona görə ki, jurnalistlik onun qanında, canında idi.

Nəsir müəllim xatirələrdə həm də əsl pedaqoq, gənclərin yaxın məsləhətçisi kimi yaşayır.

Ruhun şad olsun, Nəsir müəllim!

**Yusif Kərimov**
*yazıçı-publisist*

# O, MƏKTƏB İDİ, BİZ MƏKTƏBLİ...

Onu dəqiq bilirəm ki, dünya praktikasında «Məktəb» anlamı təkcə təhsil ocağı mənasında başa düşülmür. Bu sözün məna çalarları o qədər zəngindir ki, hətta ayrı-ayrı şəxslərin adı ilə bağlı çoxlu sayda «məktəblər» mövcud olub. Və bu cür fərdi ziya mənbələrinin təfəkkür dünyasında oynadığı rol kütləvi təlim-tədris ocaqlarından heç də geri qalmayıb. Söylədiyim mülahizələrə söykənərək, belə bir ziya mənbəyi haqqında danışmaq istəyirəm. Bizim jurnalistika dünyamızda onu «Nəsir məktəbi» adlandırırdılar...

Təxminən əlli il bundan öncə Azərbaycanın mətbuat səmasında yeni ulduz parladı. Daha doğrusu, həyata gəlişi ilə şimşək çaxmasını xatırlatsa da o, şimşək ömrü yaşamadı. Həmişəyaşar ulduza çevrildi. Bu, Azərbaycan və rus dillərində nəşr olunan «Bakı»-«Baku» axşam qəzetləri idi. Yeni nəşrin sükanı da jurnalistika aləmində yeni «peyda olmuş» insana etibar olunmuşdu. Peşə etibarilə jurnalistikadan «uzaq» olan Nəsir İmanquliyev belə bir mürəkkəb nəşrə baş redaktor təyin olunmuşdu. O, yüksək partiya kürsüsündən gəlmişdi və bu təyinatı istehza ilə qarşılayanlar az deyildi. Pessimistlər Nəsir İmanquliyevin «oxucuların diqqətini və məhəbbətini qazanan əsl şəhər qəzeti» çıxara biləcəyinə şübhə ilə yanaşırdılar. Amma zaman adlı məhək daşı bu fikrin puçluğunu sübuta yetirdi. Bir qədər irəli «qaçaraq» xatırlatmaq istəyirəm ki, Nəsir İmanquliyev nəinki arzu olunan qəzeti yüksək səviyyədə çıxara bildi, həm də otuz il müddətində xalq sevgisi qazanan orqanın idarə pultunu əllərində dəyanətlə saxladı, mətbuat aləmində hər «peşəkar» jurnalistə nəsib olmayan «Məktəb» yaratdı...

«Bakı»-«Baku» axşam qəzetlərini təsadüfən «mürəkkəb nəşr» adlandırmadım. Əvvəla, bu iki qəzet vahid redaksiyada birləşməsinə baxmayaraq, hər biri müstəqil və fərqli qəzet idi. Başqa sözlə, biri digərinin tərcümə variantı deyildi. Hərəsinin özünəməxsus yaradıcı kollektivi, o cümlədən spesifik mövzusu və oxucu potensialı var idi. Xüsusən rus dilində çıxan «Baku» qəzeti bütün ölkəyə (SSRİ-ni nəzərdə tuturam) yayıldığından baş redaktor tərəfindən daha çox diqqətə və yaxşı mənada «nəzarətə» möhtac idi. Baş redaktor həm də hər iki qəzetin məqsəd və vəzifələrini vahid məcrada birləşdirməli idi: Azərbaycan paytaxtının həyatını olduğu kimi, lakin rəngarəng və oxunaqlı yazılar vasitəsilə işıqlandırmaq, paytaxt əhalisinin rifahına layiqincə xidmət etmək!

«Bakı»–«Baku» qəzetlərinin digər «mürəkkəbliyi» isə onların «axşam qəzeti» olmasında idi. Dünya təcrübəsindən məlumdur ki, belə «qriflə» nəşr olunan mətbuat orqanından yüksək dərəcədə operativlik tələb olunur. Günün birinci yarısında baş verən olayları əks etdirən «axşam qəzeti» çıxarmaq və günün sonunda onu qəzet köşkünə, yaxud abunəçilərə çatdırmaq mətbuat sahəsində ən çətin işlərdən sayılır. Çünki bu məqsədi həyata keçirmək üçün təkcə jurnalist çevikliyi, yaxud «entuziazm» hissi kifayət etmir. Bunun üçün müasir poliqrafiya bazasının və operativ yazıların yaranmasını təmin edən redaksiya avadanlığının olması, habelə redaksiya ilə oxucu arasında körpü rolu oynayan poçt-rabitə qurumlarının saat mexanizmi kimi dəqiq və əlbir fəaliyyəti vacib şərtlərdəndir.

Ancaq o zamankı Azərbaycanda bu amillərin əksəriyyəti çatışmırdı. Yazı avadanlığı və mətbəə texnologiyası bəsit idi və «axşam qəzetinin» tələblərinə cavab vermirdi. Ədalət naminə qeyd etməliyəm ki, heç indiki kompüter bolluğunda da gündəlik «axşam qəzeti» çıxarmaq məsuliyyətini üzərinə götürən jurnalist (təsisçi, yaxud baş redaktor) yoxdur. Hər halda mən beləsini tanımıram...

Ötən yüzilliyin ortalarında gündəlik «axşam qəzeti» çıxarmağın bir çətinliyi də ondan ibarət idi ki, bu sahədə söykəniləcək, örnək ola biləcək təcrübə yox idi. O zaman üçün Azərbaycan milli mətbuatının yaşı səksənə çatsa da belə bir nəşr təcrübəsindən məhrum idi. Qeyd etməliyəm ki, o zamanadək SSRİ məkanında da «axşam qəzeti» nəşr edən bir respublika, yaxud şəhər olmamışdı...





Dövrün və quruluşun spesifik çətinliklərini ona görə xatırlatdım ki, belə bir zamanda və şəraitdə «Bakı»-«Baku» axşam qəzetlərinin baş redaktoru Nəsir İmanquliyev çiyinlərini olduqca ağır yükün altına vermişdi. Və artıq tarixə çevrilmiş illərin məsafəsindən görünən faktlara, habelə yaddaşımın «boğçasında» qərar tutmuş xatirələrimə istinad edərək, inamla deyə bilərəm ki, Nəsir müəllim bu ağır yükü şərəflə daşıdı. O, uzaq səfərlər gəmisinin kapitanı kimi öz gəmisini məharətlə idarə edərək, onu geniş «oxucu okeanına» çıxardı, otuz illik məsafəni böyük mətinliklə, mərd-mərdanə qət etdi. Başqa sözlə, bu çətin vəzifədə düz otuz il sərasər çalışdı. Özü də mərd-mərdanə, qətiyyətli və alnıaçıq. Baş redaktor Nəsir İmanquliyevi bir dəfə də olsun yolundan sarpan, əyilən, hərəkətindən xəcalət çəkən vəziyyətdə görmədik. Bu vəzifədən gedəndə də müdrikcəsinə getdi. Baş redaktorluğu «Nəsir məktəbinin» yetişdirməsi olan istedadlı şagirdlərindən birinə (Şamil Şahməmmədova) etibar edib, həmişəlik müəllimlik fəaliyyətinə keçdi. Ömrünün sonunadək Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsində müəllimlik etdi...

Nəsir İmanquliyev jurnalistika sahəsində «mahir strateq» olduğunu elə ilk fəaliyyətindən sübuta yetirmişdi. O, olduqca çevik və işgüzar redaksiya kollektivi yaratmağa müvəffəq olmuşdu, bu kollektivə arxalanaraq, ideyalarını uğurla həyata keçirirdi. Altmışıncı illərin əvvəlində artıq formalaşmış «Bakı»-«Baku» qəzetlərinin redaksiya kollektivi yeni və istedadlı qələm sahiblərini özündə

birləşdirirdi. Onların hər biri fərdi istedad sahibi olsa da hamısını birləşdirən bir keyfiyyətləri vardı: böyük şəhərin çoxşaxəli həyatını yaxşı bilir, bu həyatın düzgün və axşam qəzetinin tələblərinə uyğun işıqlandırılmasını gözəl bacarırdılar.

Jurnalistika aləmində «əsl model» adlandırılmağa layiq olan həmin kollektivin üzvləri indi də hörmətlə xatırlanır. Onların yaddaşımda qalan siyahısı təxminən belə idi: baş redaktorun müavinləri Əhməd Rəşidov və Vladimir Matyuşkin, məsul katiblər Adil Cavadlı və Mark Peyzel, şöbə müdirləri Kazım Ələkbərov, Oqtay Atayev, Çingiz Ələkbərov, Səfər Məmmədov, Qeybulla Rəsulov, Şakir Abdullayev, Şaban Şabanov, Rəfail Nağıyev, Şamil Şahməmmədov, Cəmşid Əmirov, tərtibatçı rəssamlar Arif Ələsgərov və Zeynal Zeynalov, ədəbi işçilər İsmayıl Kərimov, Cabir Novruzov, Famil Mehdiyev, Sabir Məmmədov, Ərşad Əhmədov, Aydın Mikayılov, Akif Ağayev, Ələbbas Əliyev, Əkbər İbrahimov, Şükufə Tağızadə, Xalidə Əmirova, Tofiq Əhmədov, Çingiz Hacıyev, fotomüxbir Fuad Rzazadə və bir sıra başqaları. Tam olmayan bu siyahı zaman-zaman dəyişəcəkdi. İrəli çəkilən, yüksək vəzifəyə dəvət alanların, yaxud elm-təhsil sahəsini seçənlərin («Nəsir məktəbindən» çıxıb, aşağı işə gedən əməkdaşı xatırlamıram) yerini istedadlı gənclər dolduracaqdı. Beləliklə, baş redaktorun «yaxşı kollektiv yaxşı işin təminatçısıdır» devizi reallığa çevrilərək, ənənə kimi yaşayacaqdı...

Baş redaktorun ikinci «kozuru» böyük oxucu potensialına arxalanması və redaksiya ətrafında geniş ictimai müxbir şəbəkəsi yarada bilməsi idi. Bu şəbəkədə ən yüksək dərəcəli ziyalıdan tutmuş, ən adi fəhləyədək müxtəlif zümrələrin nümayəndələri yer tuturdular. Elm və sənət xadimləri, neftçilər və inşaatçılar, ayrı-ayrı peşə adamları axşam qəzetlərini maraqla oxuduqları kimi, onların səhifələrində özlərini müəllif sifətində görməyi də şərəf sayırdılar. Yazıçılar yeni əsərlərinin ilk təqdimatını bu qəzetlərdə edirdilər.

Yaxşı xatırlayıram, yazıçı-rejissor Həsən Seyidbəylinin İmran Qasımovla birgə yazdığı «Uzaq sahillərdə» sənədli povestinin maraqlı epizodları ilk dəfə «Bakı» qəzetində çap olunmuşdu. Xalqımız əfsanəvi partizan «Mixaylonun» – Mehdi Hüseynzadənin şücaəti barədə ilkin olaraq bu qəzetdən xəbər tutmuşdu. Həsən Seyidbəylinin digər əsəri olan «Cəbhədən cəbhəyə» povesti (onu bestseller adlandırmaq daha düzgün olardı) düz bir il ərzində «Bakı» qəzetinin səhifələrini bəzədi. Əsər o qədər maraqlı idi ki, oxucular qəzetin hər sayını böyük səbirsizliklə gözləyirdilər. Xalq yazıçıları Mirzə İbrahimov, Mir Cəlal, Əli Vəliyev, Mehdi Hüseyn, İlyas Əfəndiyev, xalq şairi Rəsul Rza, yazıçılardan Qılman İlkin, Hüseyn Abbaszadə, Manaf Süleymanov və başqaları o zaman axşam qəzetlərinin ən fəal müəlliflərindən idilər.

Baş redaktorun «strategiyası» barədə fikrimi tamamlayaraq, xatırlatmaq istəyirəm ki, altmışıncı illərin ortalarından etibarən «Bakı»-«Baku» qəzetlərinin nəzdində «Fəhlə müxbirlər məktəbi» fəaliyyət göstərirdi...

Mənim Nəsir İmanquliyevlə tanışlığım və ünsiyyətim «Bakı»-«Baku» axşam qəzetlərinin

həyata vəsiqə alması ilə başlamışdı. O zaman mən Azərbaycan Dövlət Universitetinin jurnalistika şöbəsinə (hələ fakültə deyildi) daxil olmuşdum. Birinci semestri başa vurub, qış tətilindən təzəcə qayıtmışdım ki, qəzet köşklərində yeni nəşrin peyda olduğunu gördüm. Gördüm və sevindim. Burada haşiyəyə çıxıb deməliyəm ki, o zaman indiki kimi, qəzet bolluğunda yaşamırdıq və mətbuat dünyasında baş verən hər yenilik bizi – gələcəyin jurnalistlərini hədsiz maraqlandırır və sevindirirdi.

Mən də axşam qəzetlərinin ilk oxucularından və onları sevənlərdən biri oldum. Bir qədər sonra isə bu qəzetlərin redaksiyasına ayaq açdım və ən gənc müəlliflərindən oldum. Tələbəlikdə «debüt» yazım «Azərbaycan gəncləri» qəzetində dərc olunsa da mən əsasən «Bakı» qəzetində «məskunlaşdım» və onun fəal müxbirinə çevrildim. Bunun bir «baiskarı» da hələ tələbəykən «Bakı» qəzetinə işə qəbul olunmuş istedadlı gənc jurnalist Şamil Şahməmmədov olmuşdu. O, «Şəhər xəbərləri» şöbəsinə başçılıq edirdi və operativlik cəhətdən ən çətin şöbənin tələbinə uyğun olaraq, böyük təşkilatçılıq qabiliyyətinə malik idi. Şöbə ətrafında mənim kimi tələbə müxbirləri toplayıb, lazımi istiqamətdə işlətməyi bacarırdı...

Jurnalistika sahəsində həm nəzəri, həm də praktika cəhətdən ilk qida mənbəyim «Nəsir məktəbi» olmuşdur. Təfsilata varmadan təkcə onu deyə bilərəm ki, beş illik universitet həyatımda qazandığım biliyin və təcrübənin yekun göstəricisi olan Diplom işimin mövzusu cəmi dörd yaşlı «Bakı» qəzetinin çoxşaxəli fəaliyyətinə həsr olunmuşdu.





Diplom rəhbərim həmin qəzetin baş redaktoru Nəsir İmanquliyev idi (o, həm də ADU-nun jurnalistika şöbəsində müəllim kimi fəaliyyət göstərirdi). Universiteti bitirdiyim ilin baharında isə daha bir hadisə baş verdi ki, bu da peşə taleyimdə mühüm rol oynamaqla yanaşı, həyatımın düz on ilini «Bakı» qəzeti ilə bağlamağımın bünövrə daşı oldu.

1962-ci ilin baharında «Bakı» qəzetinin elan etdiyi «Ən yaxşı hekayə və oçerklərin Ümumrespublika müsabiqəsinə» yekun vuruldu. Müsabiqə gizli devizlə keçirilirdi, yəni yazı müəlliflərinin adları yalnız münsiflər heyətinin qərarından sonra açıqlana bilərdi. Respublikanın tanınmış yazıçılarının və publisistlərinin iştirak etdikləri bu məsul yarışa mən də cəsarət edib öz oçerkimi təqdim etmişdim. Yazım qışın qış günündə «Neft daşlarına etdiyim səfərin nəticəsi olaraq yaranmışdı. Dəniz neftçilərinin çətin və şərəfli həyatından bəhs edən oçerk «Hələlik, əzizim...» adlanırdı. Adı kimi, yazı üslubu da o zaman üçün qəbul olunan oçerk «trafaretindən» seçilirdi. Dənizdə buruq qazan qəhrəmanım romantik tərzdə Xəzərlə söhbətləşərək, həyatını ona danışırdı...

Müsabiqədə mükafata layiq yer tutacağıma ümidim az idi. Çünki bu yarışın münsiflər heyəti olduqca mötəbər və mənim aləmimdə «əlçatmaz» olan yazıçı və jurnalistlərdən «tərtib olunmuşdu». Təkcə onu demək kifayətdir ki, müsabiqənin «baş hakimi» dünya şöhrətli romanların müəllifi, xalq yazıçısı Mirzə İbrahimov idi. Heç cür inana bilmirdim ki, yazım belə səviyyəli qələm sahiblərinin xoşuna gələ bilər. Amma düşündüyümün əksinə oldu.

Münsiflər heyəti «Hələlik, əzizim...» oçerkini yekdilliklə bəyənərək, Ümumrespublika müsabiqəsinin Birinci mükafatına layiq gördü. Həmin yekun toplantının iştirakçıları olan məşhur publisistlərdən Nurəddin Babayev, Rəfail Nağıyev sonralar danışırdılar ki, kod adı («Günəş») yazılmış kiçik zərf açılıb, oçerk müəllifinin əsl adı elan olunarkən Müsabiqənin təşkilat komissiyasının sədri, münsiflər heyəti sədrinin müavini Nəsir İmanquliyev sevincini gizlədə bilməyib, ayağa qalxdı, hələ imzalar içində imzası kifayət qədər tanınmayan oçerk müəllifini qürur hissi ilə təqdim edib dedi: «Mənim tələbəmdir... «Bakı» qəzetinin yetişdirməsidir...» Doğrudan da Nəsir müəllim məni redaktor kabinetinə çağırıb, təbrik edəndə də sevinc və qürur hissini gizlətmədi. Üstəlik ömrüm boyu qulağımda sırğa olub qalacaq sözlər söylədi:

– İndiyədək heç bir tələbə belə məsul müsabiqənin qalibi olmayıb. Sən birincisən... Bundan sonra elə çalışmalısan ki, bu qələbənin təsadüfi olmadığını sübuta yetirəsən...

Mənim üçün bundan müdrik tövsiyə ola bilməzdi. Lakin o zaman ağlıma gəlməzdi ki, «Nəsir məktəbindən» qidalanacağım illər hələ qabaqdadır.

...İki il sonra yenidən «Bakı» qəzetinə qovuşdum. Bu iki ilin bir neçə ayını təyinat aldığım «Kommunist» qəzetində müxbir, qalan vaxtını isə Mərkəzi Komitənin rayonlararası orqanı olan «Yüksəliş» qəzetində məsul katib vəzifəsində çalışmışdım. Lakin harada olsam da qəlbim «Bakı» qəzetində qalmışdı. Sanki bu istəyimi Nəsir İmanquliyev də duymuşdu.





1964-cü ildə mən yenidən «Kommunist» qəzetinə çağırılarkən Nəsir müəllimdən dəvət aldım və tərəddüd etmədən şəhər qəzetində işləməyə razılıq verdim. Əvvəlcə tərcüməçi, sonra elm-təhsil bölməsinin rəhbəri, daha sonra «Şəhər xəbərləri» şöbəsinin müdiri vəzifələrində çalışdım. On ilə yaxın müddət ərzində bilavasitə Nəsir İmanquliyevin rəhbərliyi və qayğısı altında işlədim. Bu zaman kəsiyində «Nəsir məktəbinə» nə verdiyimi deməkdə çətinlik çəkirəm. Ancaq onu dəqiq bilirəm ki, bu «Məktəbdən» aldığım qazanc çox olub. İlk növbədə qələmimi püxtələşdirmiş, peşə ustalığımı artırmışam. Sonra isə həyatım üçün lazım olan şəraiti qazanmışam. Rayondan qayıdarkən şəhərdə daimi qeydiyyatı belə olmayan cavan jurnalistin (özümü nəzərdə tuturam) tezliklə mənzillə təmin olunması o zaman üçün əsl möcüzə hesab olunurdu. Belə «möcüzələri» isə yalnız Nəsir İmanquliyev kimi şəxsiyyətlər yarada bilərdi...

Jurnalistika aləmində belə bir «zərb-məsəl» var: «Hər bir qəzet öz redaktoruna oxşayır». «Bakı»–«Baku» qəzetləri də geniş mənada baş redaktora bənzəyirdi: Çevik və Cəsarətli, Zəhmətkeş və Məğrur! Başqa sözlə, Nəsir İmanquliyevin siqlətində olan xarakter nümunələri öz əksini çıxardığı qəzetlərdə tapırdı. Bakının və bakılıların həyatında nəzərə çarpan elə bir problem olmazdı ki, axşam qəzetlərinin səhifələrində öz əksini tapmasın. Hətta bu yolda ayrı-ayrı jurnalistlərimiz, bəzən bütün kollektiv məmur təzyiqinə, təqiblərə məruz qalırdı. Belə vaxtlarda Nəsir müəllim qaya parçasına çevrilib, sinəsini təhlükənin qabağına verirdi.

Nəsir müəllim işçilərinə qarşı sərt və olduqca tələbkar idi. Lakin onların başından bir tük də əskik olmasına imkan verməzdi. Ən sıravi işçisinin tərəfini ən yüksək mənsəb sahibinə verməzdi. Onun həyat proqramına həm də rəhbərlik etdiyi kollektivin toxunulmazlığını təmin etmək, işçilərinin rifahını mümkün qədər yaxşılaşdırmaq istəyi daxil idi.

Nəsir müəllimin bir «tərs xasiyyəti» də vardı. Başqa yerdən dəvət alıb, kollektivi tərk etmək istəyən işçiləri çox çətinliklə buraxırdı. Buraxanda da bunu o şərtlə edirdi ki, həmin işçi aşağı vəzifəyə, yaxud az təminatlı işə getməsin. Bəlkə də bu səbəbdən idi ki, «Nəsir məktəbindən» çıxan əməkdaşlar bir qayda olaraq jurnalistika sahəsində, yaxud dövlət qulluğunda yüksək vəzifələrə təyinat alırdılar. Elm-təhsil sahəsini seçənlər isə tezliklə dissertasiya müdafiə edib, yüksək elmi dərəcəyə çatırdılar.

...Jurnalistika sahəsində müəyyən pillələri qalxmaq mənə də nəsib oldu. «Bakı» qəzetindən gedəndən sonra Azərbaycan televiziyasında Gənclər üçün proqramlar Baş redaksiyasının baş redaktoru vəzifəsinə irəli çəkildim. Bir neçə il sonra isə Azərbaycanın müdrik rəhbəri Heydər Əliyevin xeyir-duası ilə respublikanın tanınmış qəzetlərindən biri olan «Azərbaycan gəncləri» qəzetinə redaktor təyin olundum. Nə az, nə çox, düz on beş il bu vəzifədə çalışdım...

Onu dəqiq bilirəm ki, yüksəliş yolunda mənim üçün ən kəsərli zəmanət «Nəsir məktəbinin» yetişdirməsi olmağım idi.



















































**Zemfira Məhərrəmli**
*yazıçı-publisist, pedaqoji elmlər namizədi*

## SAĞLAM BUDAQLAR SAĞLAM KÖKLƏRDƏN SU İÇİR

Elə əməlisaleh insanlar var ki, onlar istər sağlığında, istərsə də dünyasını dəyişəndən sonra xoş hisslər, ehtiram duyğusu ilə yada düşür, xatırlanırlar. Görkəmli jurnalist, tanınmış söz adamı, nüfuzlu qələm sahibi Nəsir İmanquliyev kimi.

Bir neçə nəslin, o cümlədən mənim də mənsub olduğum nəslin jurnalistlərinin yetişməsində Nəsir müəllimin əvəzsiz, ölçüyəgəlməz zəhməti olub.

Nəsir müəllim yetirmələrinin yaddaşında aydın fikirli, saf əqidəli, vətəndaş qeyrətli ziyalı, xalqına, vətəninə bağlı bir insan kimi qalıb. O, ustad jurnalist, gözəl müəllim, əsl pedaqoq idi. Jurnalistikanın incəliklərini tələbələrinə səbirlə, təmkinlə izah edir, jurnalist etikası, mədəniyyəti, sözün qədir-qiymətini, mizan-tərəzisini bilməyin vacibliyini aşılayırdı.





Təbiətən sadə insan olan, sadəlikdə böyüklüyün nümunəsini göstərən Nəsir müəllim auditoriyada tələbələri ilə canlı ünsiyyət qurur, gələcək jurnalistlərin mülahizələrini dinləyirdi.

Azərbaycan Dövlət Universitetinin (indiki BDU) jurnalistika fakültəsinin müəllim və tələbələri arasında belə bir fikir formalaşmışdı ki, fərasəti, yazı vərdişləri olan, ümidverən tələbə Nəsir müəllimin gözündən yayınmır. Bu sözlərdə həqiqət vardı: fakültənin ən yaxşı məzunları diplomunu alan kimi, N.İmanquliyevin xeyir-duası ilə «Bakı» və «Baku» qəzetlərinin redaksiyasında işə düzəlirdi. Belə bir xoşbəxtlik mənə də nəsib olmuşdu. 1958-ci ildən nəşr edilən, uzun illərdən bəri «imzalar içində imzası olan», populyarlığını itirməyən bu qəzetlər, sözün əsl mənasında, Nəsir İmanquliyevin jurnalist ömrünün, qəzetçilik fəaliyyətinin şah əsəri idi. O illərdə bu qəzetlər gerçəkliyə sədaqəti, reallığı əks etdirməsi ilə seçilir, oxucusunu düşündürürdü. Nəsir müəllimin «Yazı yazın, səs salıb mis kimi cingildəsin» kəlamı bu gün də peşəkar jurnalistlərin dilində zərb-məsələ çevrilib.

Nəsir müəllim həm də inandırıcı yazmağı tövsiyə edirdi. Deyirdi ki, publisistlər dövrün salnaməsini yaradan qələm sahibləridir. Dərc olunan qəzet məqaləsinin əsas məqsədi, publisist sözünün qayəsi oxucunu nəyə isə çağırmaq və onu inandırmaqdı. Yaxşı xatirimdədir, redaktorumuz antik dövrün filosof-natiqlərindən biri olan Diosfendən sitat gətirərək onun «mən sizi inandıra bilsəm, dediklərimin hamısına əməl edəcəksiniz» sözlərini tez-tez diqqətə çatdırardı. Deyərdi ki,

publisist sözünün əhəmiyyəti onun müəyyən işi görməyə nə dərəcədə sövq edə bilməsi ilə ölçülür.

Redaksiyamızda hər həftə sonu keçirilən, qəzetçilərin «letuçka» adlandırdığı istehsalat müşavirələri əsl məktəb idi. Yazdığımız materiallar təhlil olunur, qiymətləndirilirdi. Redaktorumuz günün aktual problemlərindən bəhs edən, cəmiyyətdə gedən proseslərin mahiyyətini açan, gerçəkliyi əks etdirən yazılar hazırlamağı məsləhət görürdü. Nəsir müəllim faktların danılmaz gücünə, cazibəsinə əsaslanan, dərhal oxucunun diqqətini cəlb edən publisistikaya üstünlük verirdi.

Hamımızın müəllimi olan N.İmanquliyevin gözünün nuru, ürəyinin odu ilə araya-ərsəyə gətirdiyi «Bakı» və «Baku» qəzetləri yaradıcılıq məktəbi kimi neçə-neçə ziyalının püxtələşməsində əvəzsiz rol oynamışdır. Bu qəzetlərin, necə deyərlər, «şinelindən çıxmış» qələm sahibləri həyatın müxtəlif sahələrində, yüksək kürsülərdə çalışır, xalqımıza fayda verirlər.

Yaxşı deyiblər ki, sağlam budaqlar sağlam köklərdən su içib ucalır. Məhz bu mənada ağsaqqal, ustad jurnalistlərimizin ömür yolu, apardıqları mübarizə, onların peşəkarlığı, sənətə olan münasibəti gənc jurnalistlər, qələm sahibləri üçün bir nümunə, örnəkdir.

Nəcib, xeyirxah əməlləri heç vaxt unudulmayan, yetirmələrinin, tələbələrinin qəlbində, hafizəsində, xoş xatirələrində yaşayan Nəsir müəllimin bu günlərdə 95 illik yubileyi təntənə ilə qeyd olunur. Ustad jurnalist bu sayğı və ehtirama, dərin sevgiyə layiqdir.



Ömrümün 25 ilini doğma divarları arasında keçirdiyim qəzetlərin bu gün iqtisadi çətinliklərlə üzləşməsi məni də qəlbən ağrıdır. Peşəkarlığın göstəricisi olan bu mətbu nümunələrin əvvəlki şöhrəti qaytarılsa, Nəsir müəllimin ruhu şad olar.

Sözümün sonunda bir ağrılı xatirəmi də dilə gətirmək istəyirəm. «Bakı»nın 40 illik yubileyi ərəfəsində hazırlanan xüsusi buraxılış üçün bu mətbu nümunənin yaradıcısı və həmin qəzetə 30 il rəhbərlik etmiş Nəsir İmanquliyevdən müsahibə almaq mənə həvalə olunmuşdu. Müsahibə çapa hazırlanarkən ustad jurnalist dünyasını dəyişdi. İlk redaktorla son müsahibəni hazırlamaq mənim taleyimə düşmüşdü.




*"Qəzet yaxşı yazıları ilə hörmətlənir. Onu oxunaqlı edən həm də müəlliflərin nüfuzu, qələmlərinin kəsərliliyidir".*

*Nəsir İmanquliyev*

**Abuzər Xələfov**
*əməkdar elm xadimi,*
*tarix elmləri doktoru, professor*

## AZƏRBAYCANDA MƏTBUAT İŞİNİN VƏ ALİ JURNALİSTİKA TƏHSİLİNİN GÖRKƏMLİ TƏŞKİLATÇISI

«İnsan var ki, şöhrət verər insanlığa!»
*Səməd Vurğun*

İnsan gənclik dövründə həmişə irəliyə baxır, zirvəyə can atır. Ancaq müəyyən yaşa çatdıqdan sonra keçdiyi yolu qiymətləndirmək, iş prosesində ünsiyyətdə olduğu insanları yadda saxlamaq, onlardan öyrəndiklərini, götürdüklərini yad etmək üçün dönüb yaxın keçmişə baxmalı olur. Bu təbii prosesdir. Bu geriyə baxış heç də geriyə qayıdış deyil, gələcəyi daha məzmunlu etmək, buraxılmış səhvləri düzəltmək, ünsiyyətdə olduğun adamların qədir-qiymətini bilmək, müdrik insanları qiymətləndirmək, onların millətimiz üçün, xalqımız üçün örnək olduğunu dərindən anlamaq, heç olmasa yolun yarısında olsa da bu müdrik ağsaqqalların qoyub getdiyi intellektual sərvətlərdən bəhrələnmək üçün olduqca zəruridir.





Mən hazırda yaşımın ahıllıq dövrünü yaşayıram, cəmiyyətdəki fəaliyyətim dövründə çoxlu müdrik müəllimlərdən, alim və pedaqoqlardan dərs almışam, onlarla oturub-durmuşam. Mən etiraf edirəm ki, əldə etdiyim bütün nailiyyətlərə görə bu müdriklərə minnətdaram.

Mən 1950-ci ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsinə qəbul olunmuşam. O dövrdə filologiya fakültəsi özünün intibah dövrünü yaşayırdı. Fakültədə 6 şöbə: Azərbaycan dili və ədəbiyyatı, rus dili və ədəbiyyatı, jurnalistika, məntiq, psixologiya, kitabxanaçılıq və incəsənət şöbələri fəaliyyət göstərirdi. Fakültədə böyük bir institutun elmi potensialı toplanmışdır. Bu dövrdə fakültədə xalqımızın mədəniyyət və ədəbiyyat tarixində çox mühüm rol oynamış bir neçə ziyalılar nəslinin müəllimi olmuş görkəmli şəxsiyyətlər çalışırdı.

Xalqımızın fəxr etdiyi belə ziyalılardan professor Mir Cəlal Paşayevi, Əli Sultanlını, Məmməd Arif Dadaşzadəni, Məmməd Cəfər Cəfərovu, Cəfər Xəndanı, Həmid Araslını, Nəsir İmanquliyevi göstərmək olar. Xalqımızın yetirmiş olduğu bu böyük şəxsiyyətlər o zaman universitetdə milli mentalitetimizə, yüksək intellektual səviyyəyə cavab verən, mühüm elmi və mədəni əhəmiyyət kəsb edən, yüksək mədəniyyəti, insani keyfiyyətləri, humanizmi və demokratiyanı özündə əks etdirən sağlam bir mühit yaratmışdılar.

Məhz bu böyük insanların şəxsi keyfiyyətləri, şəxsi nümunələri bu mühiti formalaşdırır və onu idarə edirdi. Heç də təsadüfi deyildir ki, bu elmi, mədəni, ədəbi mühit təkcə universitetin divarları arasında qalmırdı, tədricən respublikamızın elminə, təhsilinə, mədəniyyətinə ciddi təsir göstərirdi. Bu mühit o dövrdə həm təhsil alanlar - tələbələr üçün, həm də təhsil verənlər – müəllimlər üçün oxumağa, işləməyə, yaradıcılıqla məşğul olmağa, inkişaf etməyə əlverişli imkan yaratmışdı. Mən xoşbəxtəm ki, belə bir səmərəli mühitdə təhsil almış və fəaliyyət göstərmişəm. Mən bu gün həmin mühiti yaradan böyük şəxsiyyətlər, müdrik insanlar qarşısında baş əyir və onlardan biri – Azərbaycan mətbuat işinin və ali jurnalistika təhsilinin görkəmli təşkilatçısı, sadə, təvazökar, humanist bir insan olan Nəsir İmanquliyev haqqında ürək sözlərimi söyləməyi özümə borc bilirəm.

Nəsir müəllimlə mən tanış olanda artıq o, böyük həyat yolu keçmiş müdrik bir şəxsiyyət idi. Professor Nəsir İmanquliyevin XX əsrin otuzuncu illərindən başlayan mətbu yaradıcılığı onun jurnalist taleyini «Yeni yol», «Kommunist» qəzetləri ilə bağlamış, müharibədən sonrakı illərdə o, Azərbaycan KP Bakı Şəhər Komitəsində şöbə müdiri, Azərbaycan KP MK təbliğat və təşviqat şöbəsi müdirinin müavini, Azərbaycan Mədəniyyət Nazirliyi Baş Radio Məlumat İdarəsinin rəisi vəzifəsində çalışmış, 1958-ci ildən «Bakı», sonra «Baku» axşam qəzetlərinin redaktoru olmuş, demək olar ki, ömrünün sonunadək bu qəzetə rəhbərlik etmişdi. Məhz mətbuat sahəsində bu böyük, davamlı və yaradıcı fəaliyyəti onu Azərbaycan mətbuatının görkəmli təşkilatçılarından biri, mətbuat tariximizin canlı klassiki səviyyəsinə yüksəltmişdir. Mətbuatımızın elmi-nəzəri və praktiki əsaslarının hazırlanmasında Nəsir müəllimin xidməti böyük olmuşdur.

Olduqca təvazökar, sadə, səmimi, insanlara qayğı və məhəbbətlə yanaşan, böyüklə böyük, kiçiklə kiçik, olmağı bacaran, insanlar arasında fərq qoymayan, adi tələbələrin belə istək və arzularını canla-başla həyata keçirən, cavanların qeydinə qalan bir şəxsiyyət, sözün əsil mənasında böyük insan idi. O insanlarla danışanda çox astadan, olduqca yavaş və mülayim səslə danışardı. Mən bəzən fikirləşirdim ki, görəsən Nəsir müəllim niyə astadan danışır. Sonralar dərk etdim ki, məhz insanlarla aşağı tonda danışmaq o qədər də asan deyilmiş, bu, olduqca böyük mədəniyyət əlaməti, insanlara hörmət əlaməti imiş.

Professor Nəsir İmanquliyev respublika mətbuatında, böyük dövlət vəzifələrində işləməklə yanaşı 1947-ci ildən ömrünün sonunadək yarım əsrdən artıq bir müddətdə Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində yüksək ixtisaslı jurnalist kadrların yetişdirilməsində, jurnalistika təhsilinin əsas bilicilərdən biri kimi jurnalistika təhsilinin formalaşması və getdikcə təkmilləşməsi prosesində yaxından iştirak etmiş, bir ustad-müəllim kimi böyük hörmət qazanmış, bir neçə jurnalist nəslinin tərbiyə və təhsilində mühüm fəaliyyət göstərmişdir. İndi Azərbaycan mətbuatına rəhbərlik edən insanların böyük əksəriyyəti Nəsir müəllimin yetirmələridir.

Doğrudur, Nəsir müəllim mənə dərs deməyib, ancaq mən jurnalistika şöbəsinin tələbələri ilə yaxınlıq etdiyimdən onlar mənə onun dərs deməyi, mühazirələr oxuması haqqında çox qiymətli fikirlər söyləyir, ondan razılıq edirdilər. Onlar deyirdilər ki, Nəsir müəllim jurnalistikanın nəzəri hissəsini yüksək səviyyədə bildiyi kimi qəzetçilik texnikasını, məqalə yazmaq, redaktə etmək qaydalarını çox məharətlə tələbələrinə öyrətməyi bacarırdı. Nəsir müəllimin mühazirələrindən və təcrübi dərslərindən sonra məqalə yazmağı bacarmayan tələbələr də məqalə yazmağa başlayırdılar.

Nəsir müəllimdə öz həmsöhbətini inandırmaq qabiliyyəti var idi. Doğrudur bu keyfiyyət heç də hamıya nəsib olmur. Bu keyfiyyətə ən çox bilik dairəsi, mütaliə dairəsi, böyük mədəni və intellektual səviyyəsi yüksək olan insanlarda rast gəlmək olur.

Mənimlə əlaqədar belə bir hadisəni xatırlayıram. 1958-ci il idi. Mən dekan işləyirdim. Bizi partiya komitəsinə çağırıb dedilər ki, Mərkəzi Komitənin qərarı ilə bu ildən Bakı şəhərində «Bakı» axşam qəzetinin buraxılması haqqında qərar qəbul edilib. Ona görə də «Bakı» qəzetinə müəllimləri və tələbələri abunə yazdırmaq lazımdır.

Doğrusunu desəm, mən bu işə o qədər də ciddi əhəmiyyət vermədim.

Bir neçə gün keçmişdi ki, Nəsir müəllimin özü bizim dekanlığa gəldi. Salam verdi, ona yer göstərdim, əyləşdi. Əvvəlcə hal-əhval tutdu, kefimi soruşdu, fakültənin vəziyyəti ilə maraqlandı. Sonra dedi: «Abuzər, bilirsənmi dünyanın bütün böyük şəhərlərində axşam qəzetləri nəşr edilir. Onları heç





görmüsənmi? Mən dedim: «Veçerni Moskva»nı görmüşəm». O dilləndi: «Çox yaxşı, onda biz Bakı şəhərinin əhalisi üçün belə bir qəzet buraxsaq necə olar?» Mən dedim ki, çox yaxşı olar. Nəsir müəllim soruşdu: «Bəs onda niyə istəmirsən şəhərimiz də belə bir qəzetin sahibi olsun? Dedim ki, istəyirəm. Nəsir müəllim söhbəti yekunlaşdırdı: «Əgər istəyirsənsə, fakültədə bu qəzetə abunə təşkil elə!». Mən söz verdim, sonra bütün tələbə və müəllimləri «Bakı» axşam qəzetinə abunə yazdırdım.

Nəsir müəllim çox ədalətli, düzü-düz, əyrini-əyri kimi dəyərləndirən, bütün məsələlərdə obyektivliyi gözləyən bir jurnalist idi. Uzun illər çox mühüm qəzetlərə, böyük kollektivlərə rəhbərlik etməsinə baxmayaraq respublikada ondan incik adama rast gəlməmişəm. Nəsir müəllimin uzun illər vəzifə başında qalmasının səbəbi onun fəaliyyətinin şəxsi marağa, şəxsi mənafeyə yox, ümumi milli marağa, milli mənafeyə söykənməsində idi. Özünə qarşı olduqca tələbkar olan, bir yazının çapa getməsinə olduqca məsuliyyətlə yanaşan Nəsir müəllim başqalarından, o cümlədən redaksiyanın əməkdaşlarından da məsuliyyətli olmağı tələb edirdi.

50-60-cı illərdə «Bakı» qəzeti ən çox tənqidi materiallar verən, cəmiyyətdə olan antipodlar haqqında felyetonlar dərc edən qəzetlərdən biri olmuşdur. Qəzetdə bu qədər tənqidi yazı dərc edilməsinə baxmayaraq heç kəs bu qəzetin müdrik redaktorundan narazı deyildi. Hamı ona peyğəmbər xislətli bir adam kimi baxırdı. Mən şahidi olduğum bir əhvalatı yada salmaq istəyirəm. Mənim çox hörmət etdiyim yaxın bir dostum var idi:

respublikamızın əməkdar jurnalisti, «Bakı» qəzetinin şöbə müdiri Şakir Abdullayev. Şakir Abdullayev o dövrdə ən çox felyeton yazan bir jurnalist idi. Mən bir dəfə zarafat üçün ona dedim: «Şakir müəllim son zamanlar çox az felyeton yazırsan». Sonra o mənə dedi: «Nəsir müəllim qoyur ki? Bir felyeton yazmaq üçün faktları on dəfə yoxlamağı tələb edir. Mən yoxlayandan sonra bir daha özü də əlavə yoxlatdırır». Sonra əlavə etdi: «Əslində o düz də edir. Felyeton çıxandan sonra başımız ağrımır».

Bəli, Nəsir müəllim kimi peşəsinə hörmət edən, onu düzlüyün və ədalətin güzgüsü hesab edən jurnalistlər indi daha çox lazımdır. Qoy «qara piar»la məşğul olan, öz fəaliyyətini böhtan və dedi-qodu üzərində quran, ağa qara deyən, cəmiyyətdə baş verən hadisələrə qara gözlük arxasından baxan, nailiyyətlərimizə göz yuman bəzi müasir jurnalistlər Nəsir müəllim kimi fədakar və peşəkar jurnalistlərimizin elmi irsini və təcrübi ənənələrini öyrənib xəcalət çəksinlər.

Nəsir müəllim haqqında düşünərkən onun böyüklüyünü, qayğıkeşliyini yaşından və vəzifəsindən asılı olmayaraq tanıdığı bütün adamlara böyük hörmətlə yanaşmağını ifadə edən bir hadisəni yada salmaq istəyirəm. Nəsir müəllim ömrünün son çağlarında qəzetdə işləmirdi. Ancaq universitetdə dərs deyirdi. Cavanlıqda olduğu kimi çox səliqəli geyinir, demək olar ki, hər gün universitetə gəlir, dərsini deyir, tələbələrlə məşğul olurdu. Əvvəlki illərə nisbətən boş vaxtı olduğundan bizimlə də söhbət edir, dövr haqqında, zamanın gedişi haqqında, çox böyük təmkinlə öz





hikmətamiz fikirlərini söyləyirdi. Bizim fakültə jurnalistika fakültəsi ilə bir korpusda olduğundan onunla tez-tez rastlaşırdıq. Bəzən də Nəsir müəllimin vaxtı olanda bizim kafedraya gəlir, hal-əhval tutur, mənim işlərimlə, xüsusilə elmi işlərimlə maraqlanırdı. Nəsir müəllim gələndə zarafatyana deyirdi: «Buradan keçirdim, dedim görüm işləyirsinizmi?» O mənə deyirdi: «Abuzər, bilirsən mən sənə niyə hörmət edirəm, sən tək canına böyük bir fakültə yaratdın, respublikada kitabxanaşünaslığın inkişafında mühüm nailiyyətlər əldə etdin. Mən uzun müddət mətbuata, mədəniyyətə rəhbərlik etdiyimdən kitabxana işini çox yüksək qiymətləndirmişəm. Kitabxana işinin inkişafına böyük əhəmiyyət verirəm. Xalqımızın mədəni inkişafında, tərbiyə və təhsilində kitabxana işinin böyük əhəmiyyəti var».

Nəsir müəllim indi aramızda yoxdur, ancaq bu böyük insanın yeri görünür. İndi bizə müstəqillik əldə etdiyimiz bir şəraitdə Azərbaycan mətbuatının beşiyi başında duran, onu düzgün istiqamətə yönəldən, mətbuatı xalqımızın mədəni, siyasi inkişafının güzgüsünə çevirən Nəsir müəllim kimi fədakar insanlar lazımdır. Nə etməli, Nəsir müəllim aramızda yoxdur, ancaq onun elmi irsi, onun yaratdığı jurnalistika ənənələri qalır. Gənc nəsil bu böyük xəzinədən istifadə etməlidir.

Mən Nəsir müəllimi xatırladıqda onun böyüklüyü bir daha göz önündə canlandı. Böyük Allahdan Nəsir müəllimə rəhmət diləyirəm.

**Akif Rüstəmov**
*Bakı Dövlət Universitetinin jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının dosenti*

## XEYİRXAH İNSAN, QAYĞIKEŞ MÜƏLLİM

Dünyada elə insanlar olur ki, həmişə hamının qəlbində yaşayır. Beləleri öz xeyirxah əməllərinə, qayğıkeşliyinə, həssaslığına görə başqalarından seçilir. Onlar insanların sevincinə sevinir, kədərinə şərik çıxır, onu ovutmağa çalışır. Nəsir İmanquliyev də belə şəxsiyyətlərdən idi.

Uzun illər «Bakı» və «Baku» axşam qəzetlərinin redaktoru olmuş Nəsir müəllimi mən tələbəlik illərindən tanıyıram. Böyük ürək sahibi olan bu insan biz tələbələrə həmişə atalıq qayğısı göstərər, köməyini əsirgəməzdi.

Nəsir müəllim tələbələrin yazılarını redaktoru olduğu qəzetdə dərc edir, onlara yüksək qonorar yazardı. Bu da tələbələri daha da ruhlandırardı. Nəsir müəllim həm də redaksiya üçün kadr seçirdi. Tələbələrlə fərdi işləməyi xoşlayırdı. Onları redaksiyaya dəvət edir, tapşırıqlar verir, bir sözlə, jurnalist peşəsinin incəliklərinə yiyələnməkdə onlara kömək göstərirdi. Bir dəfə məni redaksiyaya dəvət etdi. Qısa söhbətdən sonra «Səni işə götürmək istəyirəm, necə baxırsan?» – dedi. Düzü, onun bu xeyirxah təklifinə bilmədim nə deyəm. Bir anlıq sükutdan sonra sıxıla-sıxıla «Nəsir müəllim, çox sağ olun, bu təklifə görə. Amma məni kafedrada saxlayıblar. Allah qoysa, bir yerdə işləyəcəyik» – dedim.

Bu xeyirxah insanın mənə göstərdiyi yaxşılığı heç vaxt unutmaram. Kooperativ mənzilə yazılmaq üçün çox get-gələ düşdüm. Axırda Nəsir müəllimə müraciət etməli oldum. Qəbri nurla dolsun, onun bircə telefon zəngi hər şeyi həll etdi.

Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasında işə başlayandan sonra da Nəsir müəllimlə əlaqəm daha ardıcıl oldu. Bu yaxınlıq Nəsir müəllimi mənə daha yaxından tanıtdı. Onun ürəyinin genişliyini hiss etdim, böyüklüyünü hiss etdim, vətəndaşlığını hiss etdim, insanlara münasibətini hiss etdim. İş elə gətirdi ki, onun tədris etdiyi «Jurnalistikaya giriş» fənnindən məşğələləri aparmağı mənə tapşırdılar. Kömək məqsədi ilə məni Nizami küçəsindəki mənzilinə çağırar, lazımi ədəbiyyatla təmin edərdi.

Bir gün Nəsir müəllimin eyvanının qarşısından keçərkən, onun səsini eşitdim, başımı qaldırıb gördüm ki, mənə işarə edir yuxarı qalxım. Mənzilə daxil olanda hiss etdim ki, şam yeməyinə hazırlaşır. Bir yerdə şam etdik. Ordan-burdan danışdıq, sonra özünün monoqrafiyasını mənə verdi. Nəsir müəllim

jurnalistikaya dair yeni kitab yazmaq arzusunda idi. Topladığı materialları mənə göstərdi, vaxtın azlığından gileyləndi.

Qətiyyətlə deyə bilərəm ki, Nəsir müəllim mətbuat üçün doğulmuşdu. Qəzetə o qədər bağlı idi ki, günün çoxunu mənəvi övladı kimi sevdiyi «Bakı» və «Baku» axşam qəzetlərinin redaksiyasında keçirirdi. Redaktor olmaqla yanaşı bir müəllim kimi isə dərs deməkdən zövq alırdı. Çalışırdı ki, oxuduğu mühazirələr tələbələrin ürəyincə olsun. O, ömrünün bütün çağlarında fəal olub və o, bu fəallığı axıra kimi saxlayıb.

Nəsir müəllimi həmişə cavan müəllimlərə nümunə göstərirdilər. Səliqə ilə geyinər, özünü şux saxlayardı Nəsir müəllim. Həmişə səhər tezdən, birinci saat dərsə gəlirdi, heç vaxt gecikməzdi.

Mənim dekan işlədiyim vaxtlar idi. Bir gün gördüm ki, fakültəyə məndən də tez gəlib. Özü də çox kefsiz idi. Onu heç vaxt belə vəziyyətdə görməmişdim. Dedi qızım xəstələnib. Kövrəldi, gözləri doldu. Ürək-dirək verdim, onu ovutmağa çalışdım. Birinci dəfə idi ki, dərsi mənə tapşırıb getdi. Axşam zəng edib qızı Aida xanımı soruşdum. Dedi Allaha şükür, yaxşıdır.

Nəsir müəllim nəvəcanlı idi. Onları o qədər istəyir, barələrində həmişə ağızdolusu danışırdı. Nəvələrini fakültəyə gətirdiyi günlər də olub.

90-cı illərin əvvəllərində acı ab-hava Nəsir müəllimin də başının üstünü almışdı. Bir Allah bilir o vaxt Nəsir müəllim nələr çəkdi. Yaxşı ki, çoxlarının sözünə baxmadım. Mənim ona olan





hörmətim, tələbəlik borcum bəzilərinin arzularının həyata keçməsinə imkan vermədi...

Nəsir müəllim xoşbəxt müəllimlərdən olub. İndinin özündə də kütləvi informasiya vasitələrində çalışanların əksəriyyəti jurnalistikanın qərəzsizlik, vicdanlılıq, obyektivlik, insana sayğı prinsiplərinə sədaqəti bu insandan öyrəniblər...

**Aqşin Babayev**
*filologiya elmləri doktoru, professor*

# İNSANLIĞIN ZİRVƏSİNƏ YÜKSƏLƏN İNSAN

Son günlərinədək zəngləşirdik. Kövrək olmuşdu. Səsi titrəyirdi. Ömrünün qış fəslini yaşayırdı. Gələn bahara ümidi yox idi. Həmişə nikbin olan Nəsir müəllim gileylənirdi: «Həyat insan üçün bir göz qırpımıdır. Səksən, doxsan, bir gün varsan, bir gün yoxsan», – deyirdi. Amma dünyadan ümidini üzüb ölümün yolunu gözləmirdi. Yaşayırdı. Tələbələri və yetirmələri ilə fəxr edərək yaşayırdı. Televiziyada, radioda, mətbuatda çalışanların çoxu Nəsir müəllimin «şinel»indən çıxmışdı. Onun mühazirələrini tələbələri bu günədək şükranlıqla xatırlayırlar.

Nəsir müəllimin təməl daşını 1958-ci ildə qoyduğu «Bakı» axşam qəzeti əsil jurnalistika məktəbi idi. Mən bu məktəbin ilk tələbələrindən olmuşam. Universitetdə Nəsir müəllimi uzaqdan-uzağa görsəm də, onun mühazirələrini dinləmək mənə nəsib olmasa da (mən filologiya fakültəsində oxuyurdum) burada onunla görüşdüm, dərs aldım. Həyat və jurnalistika dərsi!

«Bakı» qəzetinə dəvət olunanda mən beşinci kursda oxuyurdum, eyni zamanda sahə qəzetində işləyirdim. Nəsir müəllim tələbələrinə tapşırmışdı ki, az-çox yazı-pozu ilə məşğul olanlara deyin «Bakı» qəzetinə gəlsinlər. Mən də gəldim. Dəvət olunanları Nəsir müəllim şəxsən özü qəbul edirdi. Çox mehriban insandı. İlk görüşdən məndə elə bir təəssürat yarandı ki, sanki Nəsir müəllimi çoxdan tanıyıram. Mən beşinci kurs tələbəsiydim, o isə böyük bir qəzetin baş redaktoru, universitetin müəllimiydi. Ancaq mənimlə elə danışırdı ki, elə bil eyni səviyyəli adamlarıq. Bunu hamı deyirdi, tək mən yox.

Nəsir müəllim məni ədəbiyyat şöbəsinə göndərdi. Qəzetin ədəbiyyat şöbəsinin müdiri Qeybulla Rəsulov, ədəbi işçisi Cabir Novruz idi. Mən onların tapşırıqlarını yerinə yetirir, eyni zamanda kiçik hekayələrimlə də qəzet səhifələrində çıxış edirdim. Hekayələrimdən biri Nəsir müəllimin xoşuna gəlmişdi. Adı «Bir ürəyin hərarəti» idi. Hekayənin qısaca məzmunu belə idi ki, qoca professor təqaüdə çıxandan sonra onu hamı unudur. Bir tələbəsindən başqa – həmin tələbə də professorun ruh düşkünlüyünü görüb kafedraya gəlir, bunu bütün müəllimlərə deyir, xahiş edir ki, zəng etsinlər. Yalançı zənglərə qoca professor ağızucu cavab verir.

Axşam tələbə sevinə-sevinə qoca professorun evinə gəlir. Professor onu gülər üzlə qarşılayır və

deyir: «Oğlum, mənə təşkil olunmuş zənglər lazım deyil. Bir ürəyin hərarəti bəsimdir. Sənin ürəyinin!»

Yadımdadır, Nəsir müəllim məni çağırtdırdı. Hekayəm çap olunan qəzet qarşısındaydı.

– Otur görək, – dedi. – Sən cavan oğlansan. Bu qoca professorun dərd-sərini haradan bilirsən? Kimdən yazmısan bu hekayəni?

– Atamdan, – dedim. – Atam işdən çıxandan sonra hamı unutdu onu.

Kövrəldim. Nəsir müəllim ucadan güldü.

– Sən hələ həyat görməmisən, – dedi. – Həyatın enişi var, yoxuşu var, adamların yaxşısı var, pisi var. Ruhdan düşmə. Dünya xali deyil.

Bu söhbətdən sonra Nəsir müəllimlə lap yaxınlaşdıq. Artıq mən radioda işləyirdim. Amma, necə deyərlər, bir ayağım «Bakı» qəzetində idi. Yenə qəzet səhifələrində çıxış edirdim. Həm də təkcə oçerklərimlə, müsahibələrimlə deyil, hekayə və povestlərimlə də.

1964-cü ildə Azərbaycan Jurnalistlər İttifaqının Bakı şöbəsi yaradıldı. Şöbənin sədri Nəsir İmanquliyev seçildi. Məsul katibi isə mən oldum. Bu, Nəsir müəllimin istəyi, mənə olan rəğbəti ilə bağlı olan böyük etimad idi. O vaxt mənim iyirmi səkkiz yaşım vardı. Jurnalistlər İttifaqının o vaxtkı məsul katibi Oqtay Salamzadə bu şad xəbəri mənə bir gün əvvəl demişdi. Sevincimin həddi-hüdudu yox idi. Bu haqda xəbər mətbuatda çap olunandan sonra Nəsir müəllimin yanına gəldim, ona dərin təşəkkürümü bildirdim. Gözlərindən nur yağırdı. Əlimi sıxdı, mənə uğurlar dilədi.





– İndi işləmək lazımdır, – dedi. – Səninçün burada, «Bakı» qəzetində bir iş otağı da ayırmışıq.

Yenə minnətdarlığımı, təşəkkürümü bildirdim.

Canla-başla işləyirdim. Müxtəlif tədbirlər keçirirdik. Nəsir müəllim işimdən razı idi. Qəzet səhifələrində də çıxış edirdim. O illərdə mən türk ədəbiyyatı üzrə aspiranturanın qiyabi şöbəsində də təhsil alırdım. Günlərin birində əlimə təzəcə çap olunmuş bir kitab düşdü. Bu, türk yazıçısının Azərbaycan dilinə çevrilmiş romanı idi. Tərcüməçi romanı rus dilindən çevirmişdi. əsərin orijinalı, yəni türkcəsi məndə vardı. Müqayisə etdim. Dəhşətdi! Tənqidi məqalə yazmaq qərarına gəldim. Fikrimi çox emosional şəkildə Nəsir müəllimə bildirdim:

– Nəsir müəllim, təsəvvür edirsinizmi, romanın türkcəsi ola-ola onu ruscadan Azərbaycan dilinə tərcümə ediblər. Belə qiymətli romanı naşı, türk ədəbiyyatından bixəbər adama veriblər.

Nəsir müəllim kitabı aldı, vərəqlədi, mənə qaytararaq dedi:

– Niyə həyəcanlanırsan? Yaz, çap eləyək.

Duruxdum. Tərəddüd içində:

– Nə bilim, – dedim.

– Nədən qorxursan? – deyə Nəsir müəllim soruşdu.

– Pislik eləməkdən, – dedim.

Elə bil qarşımda Nəsir müəllim yox, doğma atam oturmuşdu. Ondan məsləhət almaq istəyirdim. Araya sükut çökdü. Nəsir müəllimin qiymətli vaxtını aldığım üçün xəcalət çəkdim. Ayağa qalxdım. Nəsir müəllim sözünü hökm kimi dedi:

– Ürəyinin səsinə qulaq as!

Ürəyim dedi ki, yazmalısan. Bu pislik deyil, həqiqəti deməkdi. Yazdım. Çox kəskin bir məqalə alındı. Nəsir müəllim narahat etmədim. Yazını katibəyə verdim. Səhərisi öyrəndim ki, mətbəəyə göndəriblər, bir-iki günə çap olunacaq.

Həmin gün günortadan sonra iş telefonuma zəng vuruldu. Dəstəyi götürdüm. Bir qadındı. Özünü təqdim etdi. Məlum oldu ki, zəng vuran mütərcimin həyat yoldaşıdır. Hardansa məqalədən xəbər tutmuşdu. Çox həyəcanlıydı. Dedi ki, ərim neçə vaxtdır ürək xəstəliyindən yatır, onu infarkt vurub. Əgər bu məqalə çap olunsa, kimsə ona xəbər versə, həyatı təhlükədə olar, ölümlə bitə bilər.

Çıxılmaz vəziyyətdə qalmışdım. Nə edəcəyimi bilmirdim. Başqa çıxış yolum yox idi. Hər şeyi olduğu kimi Nəsir müəllimə danışmalı idim.

Həmişə olduğu kimi Nəsir müəllim məni mehribanlıqla qarşıladı. Yer göstərdi. Mənə diqqətlə qulaq asandan sonra özünə tərzdə ucadan güldü və:

– İndi neyləyək? – deyə soruşdu və cavabımı gözləməkdən məsul katibə zəng vurub dedi:

– Kitab haqqında tənqidi yazı vardı ha... onu plandan çıxar.

Bu sözləri dedi, ayağa qalxdı, mən də durdum. İri əlləri ilə çiyinlərimdən tutdu.

– Həmişə belə ol! İnsan ömrü hər şeydən ucadır. Bunu unutma!

Bu hadisədən çox illər sonra Nəsir müəllimin evində qonaq idik. Unudulmaz şairimiz Nüsrət Kəsəmənlinin təşəbbüsü ilə televiziya verilişi hazırlanırdı. Mən Nəsir müəllim haqqında ürək sözlərimi dedim və bu hadisəni xatırladıq. Nəsir müəllimin o vaxt dodaqları güldü, gözləri yaşardı. Xəyalımda da eləcə qalıb. Gülər siması, mehriban baxışları ilə. Nəsir müəllim insanlığın zirvəsinə yüksələn İnsandı. Mən onu ürəyimdə yaşadıram.

**Cahangir Məmmədli**
*Bakı Dövlət Universitetinin jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının müdiri, İctimai Televiziya və Radio Yayım Şurasının sədri*

# KLASSİK MÜƏLLİMİN SƏNƏT HƏQİQƏTLƏRİ

Onda mən o uzaq kənddən bu böyük şəhərə hələ təzə gəlmişdim və o uzaq kəndin doğma, isti adamlarından ayrılıb yad və soyuq adamlarla dolu bu etinasız şəhərə necə alışacağımı düşünürdüm. Əlimdə Azərbaycan Dövlət Universitetinin jurnalistika fakültəsinə qəbul kağızım vardı və illərlə sadəlövhcəsinə həsrətində olduğum bu qəbul kağızının həvəsi ürəyimdən çıxmamış avqust istisinin yandırdığı böyük şəhərin kimsəsizlik, tənhalıq ovqatını yaşayırdım. Onda hələ o birinci kursun tələbələri də, müəllimləri də, ziyalıları da, üzü Kommunist küçəsinə baxan auditoriyaları da mənə çox darıxdırıcı və yad görünürdü. Bir neçə günün dərsləri də, bu dərslərə etinasız müəllimləri də bu yadlığa, bu kimsəsizliyə qəribə bir payız ovqatı gətirirdilər.





Bu payız ovqatının darıxdırıcı bir anında üzü Kommunist küçəsinə baxan auditoriyamıza ucaboylu, qamətli, cüssəli bir müəllim daxil oldu. Ucaboylu, qamətli, cüssəli bu müəllim yuxarı keçdi, üzünü auditoriyaya tutdu və çox sakit, mülayim bir səslə salam verdi. Bu ucaboylu, qamətli, cüssəli müəllimin üzündə bir nur vardı. Onun üzündəki bu nur içimdəki kənd nostalgiyasını, hərdən qayıdıb bu etinasız şəhərdən qaçmaq istəyimi azaltdı və mən həmin gün üzü Kommunist küçəsinə baxan o auditoriyada nədənsə bu müəllimin yaxşı adam olmağı qənaətinə gəldim. O gün o müəllim üzü Kommunist küçəsinə baxan o auditoriyada adlarımızı sinif jurnalından bir-bir oxudu. «Mən» deyib əsgərsayağı hər yerindən qalxan tələbəyə gülümsəyərək niyə jurnalist olmaq istədiyini soruşdu və deyəsən elə bu bircə suala cavablardan kimin kim olduğunu öyrənmək istədi. Sonra ayağa durdu və o ucaboylu, qamətli, cüssəli müəllim özünü təqdim etdi:

– Mənim də adım Nəsir müəllimdir – dedi. – Nəsir İmanquliyev. Mən sizə jurnalistikaya giriş fənnini deyəcəm...

Sonralar çox sevdiyimiz, auditoriyaya girəndə sakit olub qulaq kəsildiyimiz Nəsir müəllimlə ilk tanışlığımız belə başladı. Və müəllimlərimizlə yavaş-yavaş tanışlıqlardan sonra içimdəki kənd nostalgiyası yoxa çıxdı, yad adamlar doğmalaşmağa başladı və biz hamımız bu böyük şəhərə öyrəşə bildik.

Bir az da ötdü və biz «Jurnalistikaya giriş» müəllimimizin həm də «Bakı» və «Baku»

qəzetlərinin redaktoru olduğunu öyrəndik. Çətinlik çəkən tələbələrə hərdən deyirdi:

– Yanıma gəlin, redaksiyada söhbətimiz daha maraqlı olacaq.

Biz müəllimimizin və iki böyük, gündəlik qəzetin redaktorunun redaksiyadakı iş otağına ayaq açdıq. Bizi bir-bir şöbələrə tapşırırdı.

– Bunlara xəbər yazmağı öyrədin – deyirdi şöbə müdirlərinə. Və dərsdə də bizə jurnalistika peşəsinin xəbərdən başladığını dönə-dönə təkrar edirdi.

Tələbə həyatının pulsuzluq deyilən maraqlı bir cəhəti var. Nəsir müəllim bu həyatı çox yaxşı duyurdu və maddi kömək üçün bizə tez-tez xəbər yazdırırdı. «Bakı» qəzetində dərc olunan bu xəbərlərə – ilk imzalarımıza görə qürur duyurduq. Bu xəbərlərin qonorar kağızını alanda isə özümüzdə peşənin gücünü hiss edirdik.

Jurnalistika fakültəsində oxuyanların bəxti gətirmişdi. Biz Şirməmməd Hüseynov, Nəsir İmanquliyev, Həsən Şahgəldiyev kimi müəllimlərin illərlə qurduqları və təmizlik qeyrətini qoruduqları bir fakültədə oxuduğumuzu hiss edirdik. İndi biz tarixin bu günündən o günlərinə baxanda çağdaş Azərbaycan mətbuatında tüğyan edən bu hərc-mərcliyin, xaosun, reketçilik elementlərinin haradan qaynaqlandığını bilmək istəyirik. Ancaq bunda o qədər də böyük sirr yoxdur. Sadəcə, bu hərc-mərclik mətbuatının «jurnalistləri» o böyük müəllimlərin dərslərini görməyiblər. Və nə yazıq ki, həm də o böyük müəllimlərin dərsini görənlərin nostalji hissləri də bəzən onlara qəribə gəlir.





Nəsir İmanquliyev jurnalistikanın nəzəriyyəsini və təcrübəsini özündə birləşdirən müəllim idi. Onun tələbələri xoşbəxt idi ki, əllərində Nəsir müəllimin simasında «Bakı» və «Baku» kimi iki gündəlik qəzet laboratoriyası vardı. Jurnalistikanın adi müxbirliyindən tutmuş qəzet redaktorluğuna qədər yüksəlmiş, jurnalistikanın nəzəri problemlərini işləmiş və onun ciddi elmi sahəsini yaratmış Nəsir İmanquliyev neçə-neçə elmi əsərin müəllifi idi. Amma onun şah əsəri böyütdüyü, peşə sahibinə çevirdiyi, necə deyərlər, çörək verdiyi tələbələri idi. Bu gün Qərb ölkələrindən neçə-neçə jurnalist gəlir və Azərbaycanda öz «standartlarının» treninqlərini keçirib özlərini gözə soxurlar. Həmin o «standartları» Nəsir müəllim hələ otuz il bundan qabaq öz tələbələrinə qətiyyətlə öyrədirdi. Onun özünün rəhbərlik etdiyi qəzetlərin xəbər prinsiplərini Qərbə təqdim etmək indi yerinə düşərdi.

Nəsir müəllim haqqında çox yazı oxumuşam. Öz müəllimləri haqqında ürəkdolusu yazan jurnalistlərin hamısı onun xeyirxahlığından daha çox danışırlar. Həqiqətən də Nəsir müəllim çox xeyirxah bir insan idi. Mənim «Vağzalı» adlı ilk hekayəmi «Bakı» qəzetində dərc etdirmişdi. Doğrusu, o zaman bədii ədəbiyyata çox həvəsi olan bir cavan adam kimi uçmağa qanadım yox idi. Hekayənin dərcindən bir az sonra bu qəzet hekayəsinin qiymətinə sığmayan qonorar kağızı aldım. Onda mən müəllimim Şirməmməd Hüseynovun köməyi ilə jurnalistika fakültəsində laborant işləyirdim və mən cəmi 80 manat maaş alırdım. Nəsir müəllim bunu bilirdi və nəşriyyatın

mühasibinə xüsusi göstəriş vermişdi ki, o hekayəyə qonorarı artıq yazsın.

1970-ci illərin ortalarında mən hələ «naxalstroy» deyilən sınıq-salxaq bir evdə yaşayırdım. O ev plana düşürdü və Nəsimi rayon rəhbərliyi bu evin əvəzində bizi Bakının çox uzaq bir rayonuna göndərirdi. Onda Nəsir müəllim mənim, bizim ailəmizin köməyinə çatdı və mən bu gün yaşadığımız mənzili o böyük, xeyirxah insanın Bakı Sovetindən etdiyi xahiş nəticəsində ala bildim...

İndi Azərbaycan xalqı Heydər Əliyev Fondunun prezidenti Mehriban xanımın xalqa yanımı, qayğısı, uşaq evlərinə, məktəb tikintisinə göstərdiyi köməyin, yanımlığın haradan, hansı kökdən gəldiyini düşünür. Amma fikirləşəndə ki, ölkənin birinci xanımı və H.Əliyev fondunun prezidenti ana tərəfdən Nəsir İmanquliyevin, ata tərəfdən Azərbaycan ədəbiyyatının böyük siması Mir Cəlal Paşayevin nəvəsidir və üstəgəl Heydər Əliyev kimi bir xalq liderinin yanında yaşamaq xoşbəxtliyinə nəsib olmuşdur, onda heç bir təəccübə yer qalmır.

Mənə elə xoşbəxtlik nəsib olub ki, mən tələbə kimi həm Nəsir müəllimin, həm də Mir Cəlal müəllimin dərslərini keçmişəm və həm də universitetdə onlarla bir yerdə işləmişəm. Həyatımızda belə adamların olduğu bir şəraitdə bizim xeyirxah olmamağa, başqasının problemlərinə yanmamağa, haqqımız yoxdur.

Nəsir müəllim zəhmətkeş insan idi. İki qəzetin redaktoru, universitet müəllimi, ailə başçısı, ictimai xadim ... Bütün bunları çatdırmaq və həm də ictimai





məsuliyyət hissi ilə, vətəndaşlıq qeyrəti ilə çatdırmaq çox çətin idi. O, çox ciddi münasibət tələb edən vəzifələrdə bərkimişdi: «Bakı» və «Baku» qəzetlərində redaktorluğa qədər bir sıra partiya mətbuatında məsul vəzifələrdə olmuş, Bakı Şəhər Partiya Komitəsində şöbə müdiri, Azərbaycan KP MK-da təbliğat-təşviqat şöbəsinin rəhbəri, Radio Verilişləri baş idarəsinin rəisi, Radio-Televiziya Verilişləri Komitəsi sədrinin müavini kimi vəzifələrin öhdəsindən ləyaqətlə gəlmişdir. Təsadüfi deyildi ki, o, jurnalistika dərslərində mətbuatın, radionun, televiziyanın nəzəri və praktik problemlərini eyni səviyyədə tədris edirdi. Bəzən onun öz şəxsi təcrübəsi kifayət edirdi ki, tələbələr onun dərslərindən məmnun qalsınlar.

Bütün bunlarla belə tələbələrdən sonra Nəsir İmanquliyevin ən böyük əsəri «Bakı», «Baku» qəzetləri olub. Bugünkü yanaşmada qəzet yaratmaq su içimi kimi bir şeydir. Liberal qanunvericilik bazası var, söz və mətbuat azadlığı təmin olunub, dövlətin vətəndaş cəmiyyəti qurmaq iradəsi var və s. Mətbuat üzərində sovet dövlətinin və Kommunist Partiyasının qəti monopoliyasının hökmranlıq etdiyi dövrdə yeni qəzetin işıq üzü görməsi əsl hadisə idi. Nəsir İmanquliyev ömrünün sonunadək 1958-ci ildə yaranan «Bakı» qəzetinin redaktoru olmuşdur. Üstəlik 1963-cü ildə nəşrinə nail olduğu rus dilində çıxan «Baku» qəzetini də ömrünün axırınadək özü redaktə etmişdir.

«Bakı» Azərbaycan gerçəkliyində öz tipologiyasına görə tamamilə yeni qəzet idi.

Azərbaycan mətbuatı tarixində ilk axşam qəzeti olan bu mətbuat orqanı sadə fəhlənin, sadə bakılının problemlərinin ifadəçisi idi. Nəsir müəllim o dövrün ən cəsarətli qəzet redaktoru idi. Biz hamımız haqqımızı «Bakı»nın gücü ilə müdafiə edirdik. O qəzetin saralmış komplektlərində Nəsir İmanquliyevin cəsarət dolu imzası ilə xalqın haqqını tapdayan, rüşvətxor, əclaf adamlar barədə yüzlərlə felyeton var. Mən Nəsir müəllimin qəzetdə dərcinə imza atdığı dəqiq faktlara söykənən, amma böhtandan, təhqirdən uzaq o felyetonları xatırlayanda bugünkü bəzi qəzetlərimizin səhifələrində baş alıb gedən və insan ləyaqətini alçaldan səriştəsiz, səbatsız yazılara görə xəcalət hissi keçirirəm. Nəsir İmanquliyev dərsləri bizə oxucu qarşısında məsuliyyət daşımaq, hər bir leksik vahidin ölçüsünü bilmək, peşə etikasının bütün parametrlərinə əməl etmək, yazılarımızda dəqiq faktlara söykənmək, vicdanlı və qərəzsiz olmaq, problemlərin həlli yollarını göstərmək və s. kimi peşəkarlıq xarakteri öyrətmişdir.

Nəsir İmanquliyev son dərəcə milli ziyalı idi. Bu mənada onu XX əsrin əvvəlləri Azərbaycan milli intibahının nümayəndələri ilə müqayisə etmək olar. Tədris elədiyi fənləri H.Zərdabidən, C.Məmmədquluzadədən, Ö.F.Nemanzadədən gətirdiyi misallarla paralelləşdirib müasir günlərin milli ziyalı obrazını tamamlayırdı. Bədii ədəbiyyatın milli-mənəvi dəyərlərə bağlı nümunələrini «Bakı»qəzetində ləngitmədən dərc etdirirdi.

«Sovet adamı» ifadəsini bir dəfə auditoriyada lağa qoydu:



– Adamın da soveti olar? – dedi, – adamın milliyyəti olar, etnik mənsubiyyəti olar, lap ağını çıxarıblar!

Nəsir İmanquliyev klassik müəllim keyfiyyətində olan bir ziyalı idi. Səliqəli müəllim geyimindən tutmuş aydın nitqinə, tədris etdiyi fənlərdən tutmuş elmə münasibətinə, klassikaya məhəbbətdən tutmuş müasir düşüncəyə hörmət məqamlarınadək hər şeydə müəllim nümunəsi göstərirdi. Bu mənada onun tələbələrinin bəxti gətirmişdi. O tələbələrin bir çoxu indi yaşlı nəslin, xeyli hissəsi yeni dövrün söz adamlarıdır. Onu dəqiq bilirəm ki, Nəsir müəllimin tələbəsi olmuş jurnalistlər öz peşəsinə heç vaxt etinasızlıq etməyəcəklər. Çünki onların hər birinin qəlbində Nəsir İmanquliyevin klassik ənənələrdən yoğurulmuş müəllim sözü, müəllim həqiqəti var.

Əsədulla Qurbanov
*fəlsəfə elmləri doktoru, professor*

# GÖZƏL İNSAN, USTAD JURNALİST, UNUDULMAZ MÜƏLLİM

**...Bəzən elə olur ki, xətrini əziz tutduğum bir insan haqqında söz demək çətindən-çətin, bir sıra hallarda isə çox asan olur. Bunların ikisini də Nəsir müəllim barəsində söyləmək olar...**

...Əvvəla, ona görə çətindir ki, ona layiq ceyran belinə çıxan sözü ovlamaq heç də asan deyildir. Ovçu bərədə duran kimi, sən də məcbursan ki, haradasa, gizlində qalan sözü kəsəsən.

...İkincisi, asandır ona görə ki, xətri əzizdən-əziz olan insan haqqında söz söyləmək üçün təbii olaraq mat-məəttəl qalmırsan.

...Bax, Nəsir İmanquliyev mənim üçün belə tarixi şəxsiyyətlərdən olan doğma, əziz İNSAN idi. Onun müsbət məziyyətləri, insani keyfiyyətləri çoxdan-çox idi. Hansını deyəsən?! Onlardan birini çox



layiqli yetişdirmələrindən – tələbələrindən hazırda AzərTAc-da tanınan Aslan Aslanov və Dağbəyi İsmayılov deyiblər. Özü də, «Azərbaycan» qəzetinin 1 dekabr 2006-cı il tarixli, 269-cu sayında.

...*Nəsir müəllim bütün ömrü boyu saysız-hesabsız adama həyan olmuş, çoxunun müşkülünü yoluna qoymuş, dar günündə əlindən tutmuşdur.* Kursivlə yazılan bu sözlər sanki mənim barəmdə deyilmişdir.

...Budur, 1958-ci il idi. Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsinin ikinci kursunda əyani tələbə idim. O zaman doğma universitetimiz belə adlanırdı:

S.M.Kirov adına Azərbaycan Dövlət Universiteti. Yeri gəlmişkən, bununla əlaqədar olaraq bir arzumu da bildirmək istərdim. İstərdim ki, hazırda 85 yaşı olan, mövcudluğu illərində respublikamızın ali məktəblərinin flaqmanı sayılan doğma darülfünunumuz indi belə adlanaydı. «Heydər Əliyev adına Azərbaycan Dövlət Universiteti».

...O zaman universitetimiz hazırda İstiqlaliyyət küçəsi № 6-da yerləşən indiki Azərbaycan Dövlət İqtisad Universitetinin binasında yerləşirdi. Həmin binanın arxa tərəfində, Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutu ilə bitişik tinində şərqşünaslıq və jurnalistika fakültəsi yerləşirdi. Nəsir müəllim də həmin bu jurnalistika fakültəsində «Jurnalistikanın əsasları» fənnindən dərs deyirdi. Nəsir müəllim 1932-ci ildən «Kommunist» (indiki «Xalq» qəzeti), sonralar, «Gənc işçi», «Yeni yol» qəzetlərində, Bakı Şəhər Partiya Komitəsində Təbliğat-Təşviqat şöbəsində, Mərkəzi Komitədə, Radio Verilişləri Baş İdarəsində,

Azərbaycan Radio-Televiziya Komitəsində, müxtəlif, məsul rəhbər vəzifələrdə və «Bakı» və «Baku» axşam qəzetlərində baş redaktor işləsə də, heç zaman BDU-nun jurnalistika fakültəsində dərs deməkdən ayrılmamış, mənalı ömrünün sonuna qədər burada əzmkarlıq və fədakarlıqla çalışmışdır.

...Tələbəlik illərində Nəsir müəllimlə bağlı unudulmaz bir xatirəyə işıq salmaq istərdim.

...Tələbəlik illərində maddi vəziyyətim ağır idi. Bədəncə də çox zəif idim. «Bakı» qəzeti də yenicə fəaliyyətə başlamışdı. Bu qəzetdə əməkdaşlıq etmək qərarına gəldim. Düzü, mənim bu qənaətə gəlməyimə tələbə, yataqxana yoldaşlarım, gələcək jurnalistlərdən Şaban Şabanov, Şamil Qurbanov, Aydın Mikayılov, Şamil Şahməmmədov və başqaları yardımçı oldular. Allah Şaban Şabanova, Şamil Qurbanova və Aydın Mikayılova qəni-qəni rəhmət eləsin. Yuxarıda adları çəkilən müqtədir qələm sahibləri Nəsir müəllimin jurnalistika məktəbinin layiqli yetişdirmələri və davamçıları idi.

...Beləliklə, Nəsir müəllimin baş redaktor olduğu «Bakı» axşam qəzetində tez-tez çıxış etməyə başladım. Mövzum isə mövhumatı, xurafatı tənqid edən ədəbi-bədii yazıçılar idi. Aldığım qonorar da pis deyildi. Aylıq tələbə təqaüdümdən çox idi. Heç demə, Nəsir müəllim mənim tələbə olduğumu, maddi vəziyyətimin ağırlığını nəzərə alaraq qonorarı da yüksək yazırmış. Bax, budur Nəsir müəllimin insana olan insanlıq, müəllimin tələbəsinə olan yüksək atalıq qayğısı.

...Günlərin birində keçmiş tələbə və yataqxana yoldaşım olan Şamil Qurbanov mənə dedi:





– Nəsir müəllim – baş redaktorumuz səni görmək istəyir, sabah dərsdən sonra «Bakı» (axşam) qəzetinin redaksiyasına gəl.

Redaksiya da indiki «İstiqlaliyyət» küçəsi (keçmiş «Kommunist» küçəsi) Bakı Şəhər Partiya Komitəsinin binasında məskunlaşırdı.

Fikir məni götürdü. Görəsən nə etmişəm? Hansı yazımda səhvə yol vermişəm. Hansı faktda nöqsan işlətmişəm? Bu qəbildən olan suallar növbəyə düzüldü...

...Mən Nəsir müəllimin qəbul otağına daxil olanda Şamil Qurbanov içəridən çıxdı, salamlaşdıq.

– Niyə rəngin qaçıb?

– ...

– İndicə səndən söhbət düşdü, – deyə «Bakı» (axşam) qəzetinin ədəbiyyat və incəsənət şöbəsinin müdiri Şamil Qurbanov sözünə davam edərək dedi:

– Səninlə yaxşı mənada maraqlanır. Get, gör nə deyir, sonra görüşərik...

... Meşin qapını döyüb, açdım.

– Nəsir müəllim, olar?

– Buyur-buyur, – deyərək çox böyük mehribanlıqla məni qarşıladı. Oturmaq istəmirdim.

– Buyur, əyləş, – dedi. Sonra zəngi basıb, katibəni çağırdı və dedi:

– İki stəkan armudu qoy, – xahiş edirəm. Çay gəldi. Söhbət başlandı.

– Görürəm, qələmin itidir. Mövzuların da aktualdır. Diplom işini də yazdığın mövzuların birinə həsr elə. Ola bilsin, sənə lazım olar, – dedi...

Doğrudan da lazım oldu...

... 1976-cı ildə «Azərbaycan kəndlisinin mənəvi həyatında sekulyarlaşmanın xarakterik xüsusiyyətləri» (Şəki-Zaqatala zonasının materialları əsasında fəlsəfi və sosioloji təhlil) mövzusunda namizədlik dissertasiyası yazıb müdafiə etdim. Nəsir müəllim əvvəldən-axıra qədər müdafiədə nəinki iştirak etdi, hətta xeyir-dua da verdi...

...1990-cı ildə «Milli və millətlərarası münasibətlər kontekstində sekulyarlaşmanın xarakterik xüsusiyyətləri» (Azərbaycan Respublikasının materialları əsasında fəlsəfi, sosioloji təhlil) mövzusunda doktorluq dissertasiyası yazıb müdafiə etdim...

...Nəsir müəllim İslam fəlsəfəsi dissertasiyasının müdafiəsində fəal iştirak edib, xeyir-duasını vermişdir.

...Universitetdə dərslərimiz öz qaydasında davam edirdi. Üstəlik də tələbə elmi cəmiyyətinin üzvləri kimi yuxarı, aşağı kurs tələbələri bir yerdə tədbirlərdə olurdu. Canlı, maraqlı müzakirələr keçirilirdi...

...Tələbə elmi cəmiyyətinin növbəti yığıncaqlarının birində ərəb filologiyasının tələbəsi Aida İmanquliyeva çıxış etmiş oldu. İş elə gətirmişdir ki, burada Aidanın atası Nəsir müəllim də iştirak edirdi. Aidanın öz elmi işi haqqında səlis, məntiqli, dərin məna məzmun və mündərəcəli çıxışı hamı kimi onun atası Nəsir müəllimi də çox razı saldı...

...Yeri gəlmişkən, Allah Aida xanıma rəhmət eləsin. Qayğıkeşim, ustadım Nəsir müəllimin ailə ocağında ərsəyə gələn, boya-başa çatan Aida xanım,





Nəsir müəllimin çox yaxın məslək dostu, mənim də unudulmaz müəllimim böyük yazıçı, dahi insan Mir Cəlal Paşayevin ailəsinin də ən istəklisi olan gözəl, Aida xanım Azərbaycan şərqşünaslıq elmini dünyaya tanıtdı, doğma Azərbaycana Mehriban xanım, Nərgiz xanım kimi layiqli övladlar bəxş etdi. Aida xanımın həyat yoldaşı, dünya şöhrətli alim, insanlıq mücəssəməsi akademik Arif Paşayevdir...

Xoşbəxtlikdən iş elə gətirdi ki, sonralar Nəsir müəllimlə bir fakültədə, jurnalistika fakültəsində bir mərtəbədə, hətta bir kafedrada – «Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi» kafedrasında işləməli olduq. O zaman kafedramızın müdiri, mərhum şair-publisist, professor, filologiya elmləri doktoru Famil Mehdiyev idi. Onunla da tələbə yataqxana yoldaşı idik.

Allah ona da qəni-qəni rəhmət eləsin.

İndiki kafedra müdirimiz, məşhur jurnalist, müqtədir qələm sahibi, gözəl insan Cahangir Məmmədovdur. Mən bu kafedrada «Azərbaycan publisistikasında İslam amili» fənnindən dərs deyirəm.

...Bu günlərdə fakültəmizdə çox böyük canlanma var. Jurnalist müəllimlərin hamısı – Yalçın Əlizadə, Nəsir Əhmədov, Akif Rüstəmov... və başqaları öz unudulmaz, yaddançıxmaz əziz, doğma müəllimləri Nəsir İmanquliyevdən ağız dolusu xoş xatirələr danışır...

Belə xoş, şirin xatirələri jurnalistika fakültəsinin qurucuları və əməkdaşları – mərhum Nəriman Zeynalov, Nurəddin Babayev, Tofiq Rüstəmov, Seyfulla Əliyev, Şamil Qurbanov, Şakir Abdullayev, hazırda yazıb-yaradan ünlü Şirməmməd Hüseynov,

görkəmli ziyalı, mədəniyyətşünas Şəmsəddin Axundov və başqaları daim danışar, sağ qalanlar isə Nəsir müəllimi heç zaman unutmurlar.

...Təbii ki, öz xoş xatirələrinin gündəmə gəlməsində möhtərəm Prezidentimiz, dünya şöhrətli ictimai, siyasi və dövlət xadimi, ulu öndərimiz Heydər Əliyevin layiqli davamçısı prezident İlham Əliyevin unudulmaz müəllimimiz Nəsir İmanquliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında 4 sentyabr 2006-cı il tarixdə imzaladığı xüsusi sərəncam olmuşdur.

...Bəli, hələ sağlığında milli mətbuatımızın klassikinə çevrilmiş, Azərbaycan ictimai fikir tarixinin qızıl hərflərlə yazılan salnaməsi olan «Molla Nəsrəddin» jurnalının, «Əkinçi» qəzetinin işıqlı, nurlu ideyalarının alovlu təbliğatçısı, bu ideyaları müasirlik baxımından gözəl, mahir, ustad kimi tədris, tədqiq edən Nəsir İmanquliyev belə tarixi şəxsiyyətlərdəndir.

Önəmli yetirmələri və layiqli davamçıları olan fakültəmizin müəllimləri Nəsir müəllimin müdrikliyi, nəcibliyi, xeyirxahlığı və milli mətbuatımızda ən uğurlu, özünə vətəndaşlıq statusu qazanmaq, uzun ömürlü, gözəl ənənələrin təməlini qoyan, novator jurnalist, ustad müəllim, müqtədir redaktor olması barədə çox qiymətli fikirlər söyləyirlər...

...»Əməkdar mədəniyyət işçisi», «Əməkdar jurnalist» fəxri adları Nəsir müəllimin layiq görüldüyü yüksək titullar olsa da, o, daha böyük qiymətə mənsub olan milli mətbuatımızın inkişafındakı əvəzsiz xidmətlərinin rəsmi təsdiqidir.





...Artıq səkkiz ildir ki, Nəsir müəllim ölməzliyə, əbədiyyətə qovuşmuşdur. Onun unudulmaz, parlaq xatirəsi daim mənsub olduğu xalqın, o cümlədən jurnalistlərin qəlbində yaşayacaqdır...

...Sonda bir arzumu, tövsiyə xarakterli təklifimi də bildirmək istərdim...

Arzu edərdim ki, fakültəmizdə Nəsir müəllimin adını daşıyan mətbuat muzeyi, auditoriya yaradılsın, onun çalışdığı kafedranın qarşısına barelyefi vurulsun.

...Güman edirəm ki, Bakı Dövlət Universitetinin rektoru, fakültəmizin rəhbərliyi bu işi nəzərə alacaqdır.

**İfrat Əliyeva**
*filologiya elmləri doktoru, professor*

# REDAKTORU ÜÇÜN QƏRİBSƏMİŞ QƏZET

Dünyaya gəlmiş bir gün bu dünyadan gedəcəyi yaranışdan üzü bəri bütün insanlığa məlumdur. Ancaq elə bu zaman müddəti qədər də heç bir Allah bəndəsi bu məlum həqiqətlə barışa bilmir.

Hər bir insan itkisi beləcə ürəkləri göynədir, doğmalarına, yaxınlarına, həmkarlarına qəm-qüssə, nisgil gətirir. Bir də ki, həyatın çətin yollarında sınaqlardan alnıaçıq, üzüağ çıxan, nəcib insani keyfiyyətləri ilə hamının ürəyində yurd-yuva quran bir alim-müəllim itkisi ola...

Filologiya elmləri namizədi, Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin nəzəriyyəsi və təcrübəsi kafedrasının professoru, əməkdar mədəniyyət işçisi, «Qızıl qələm» mükafatı laureatı, 1990-cı ildə «Əməkdar jurnalist» fəxri adına layiq görülmüş Nəsir Əsəd oğlu İmanquliyevin vəfatı təkcə onun ailə üzvləri üçün deyil, o cümlədən





sözün əsl mənasında çox gözəl tanıdığım Azərbaycan xanımlarından özünün boy-buxunu, yerişi-duruşu, şax qaməti, hər dəfə kirpiyini qaldırarkən qələm qaşlar altından aləmi nura qərq edən və insanı valeh edən piyalə gözləri, ən ümdəsi isə intellektual səviyyəli, böyük diapazona malik, hər dəfə yüksək tribunalara qalxarkən həlim səsi ilə auditoriyaları ovsunlayan (bu epitetlərin sayını istənilən qədər artırmaq olar), İlahinin ona bəxş etdiyi gözəllər gözəli, xanımlar xanımı, ərəb məhcər ədəbiyyatının dünyada ilk qadın tədqiqatçı alimi Aida xanım İmanquliyeva üçün itki olmadı, bu bütövlükdə Respublika elmi-pedaqoji ictimaiyyəsi üçün sözün həqiqi mənasında «Bakı» və «Baku» axşam qəzetinin bütün kollektivi üçün böyük itkilərdən biri oldu. Etiraf etmək lazımdır ki, özünün sanballı çıxışları, dəyərli məqalələri isə respublika mətbuatında öz xəttini imzalar içində təsdiqləyən Nəsir müəllimin vəfatından sonra hər axşam hər bir nömrəsini maraqla izlədiyimiz (tapmayanda peşmançılıq çəkdiyimiz) «Bakı» və «Baku» axşam qəzeti boynubükük bənövşə tək yetim qaldı.

Dünyaya gələnin bir gün dünyadan gedəcəyi yaranışdan üzü bəri bütün insanlığa məlumdur. Ancaq elə bu zaman müddəti qədər də heç bir Allah bəndəsi bu məlum həqiqətlə barışa bilmir.

Hər bir insan itkisi beləcə ürəkləri göynədir, doğmalarına, yaxınlarına qəm-qüssə, nisgil gətirir.

Bir də bu, həyatın çətin yollarında sınaqlardan alnıaçıq, üzüağ çıxan, nəcib insani keyfiyyətləri ilə hamının ürəyində özünə yurd-yuva quran bir alim-müəllim itkisi ola!..

Mən deyərdim ki, Nəsir müəllimin vəfatından sonra «Bakı» və «Baku» axşam qəzeti boynu bükük bənövşə tək yetim qaldı. Çox yaxşı yadımdadır. O vaxtlar «Bakı» axşam qəzetinin gurhagur çıxdığı dövrdə biz tələbələr hər axşam bu qəzeti açar (tapmayanda peşman olardıq), böyük maraqla hər bir səhifəsini oxuyar, mübahisə edər, sonra isə dağılışıb gedər, gələn axşamı səbirsizliklə gözləyərdik. Mən bu sətirləri qələmə alarkən bu qəzetin daimi oxucusu kimi ötən əlçatmaz-ünyetməz gənclik illərimi sanki səhifə-səhifə vərəqlədim və şirin xatirələr burulğanında çırpına-çırpına qaldım.

«Bakı» qəzetinin adı çəkilər-çəkilməz bu qəzetin uzun müddət yaşamasında böyük xidməti olan Nəsir müəllimin nurlu siması gözlərim qarşısında canlandı. Ürəyimdən belə bir hiss keçdi: «Kaş bu qəzet yenidən işıq üzü görəydi. Məncə belə bir xeyirxah iş edilərsə, biz bununla həm Nəsir müəllimin ruhunu şad edər, həm də onun daimi oxucularını sevindirmiş olardıq.

Bu qəzetin ən gözəl cəhəti ondan ibarət idi ki, başqa qəzetlərdən fərqli olaraq şüarçılıqdan uzaq olan bu qəzetin hər səhifəsində yeni materialların verilməsi, ən əsası isə olaylarda baş verən hadisələrin operativ şəkildə əks olunması idi. Maraqlı cəhətlərdən biri də çap olunan hər bir məqalədə, bir materialda iti qələm sahibi Nəsir müəllimin bütün yazılara nəzarət etməsi idi. Qəzetin səliqə-sahmanından, şriftlərin mirvari kimi yan-yana düzülməsindən, ən əsası isə sözlərin, ifadələrin, cümlələrin yerli-yerində olmasından, fikirlərin aydın və səlis ifadə olunmasından, hətta bir nöqtənin, vergülün yerli-yerində olmasından (Allah göstərməsin bugünkü qəzetləri) söhbət ola bilməzdi.

Nəsir müəllim ibrətli bir həyat yolu keçmişdir. Anadan olduğu Bakı şəhərində təhsil almış, sonralar 1925-1926-cı illərdə peşə məktəbində oxumuş, 1934-cü ildə Lassal adına Neft texnikumuna daxil olmuş və həmin illərdən ilk yazıları ilə «Kommunist», «Yeni yol» və «Gənc işçi» qəzetlərində çap olunmağa başlayır. Gənc bir jurnalist kimi az bir müddət ərzində Nəsir müəllim böyük nüfuz qazanır və onun məhsuldar işləməsini, verilən tapşırıqlara məsuliyyətlə yanaşması çoxlarının nəzər-diqqətini cəlb edir. «Kommunist», «Yeni yol» və «Gənc işçi» qəzetlərində ədəbi işçi kimi fəaliyyətə başlayan Nəsir müəllim sonralar ədəbi şöbənin müdir müavini, məsul katib, redaktor vəzifəsinə qədər yüksəlir. Artıq öz xəttini imzalar içərisində təsdiqləyən Nəsir müəllim müharibənin ağır günlərində – 1942-ci ildə tanınmış bir jurnalist kimi Krım cəbhəsinə göndərilmiş, «Döyüşçü Krım» qəzetində məsul katib və hərbi hissədə peşəkar tərcüməçi kimi fəaliyyətini davam etdirmiş, sanballı yazıları ilə çıxış etmişdir. 1942-ci ildə ordudan tərxis olunan gənc Nəsir İmanquliyev arxa cəbhəyə gəldikdən sonra o dövrün totalitar rejiminin hökm sürdüyü bir vaxtda hökmlü bir qəzet olan «Kommunist» qəzetində məsul katib kimi fəaliyyət göstərməklə yanaşı, hərbi vətənpərvərlik ruhunda yazılarla mətbuatda çıxış edir və yazılar böyük marağa səbəb olurdu. O vaxtlar Kommunist Partiyasına, onun verdiyi qərar və qətnamələri öz həyat devizi sayan, bütün varlıqları ilə ona sədaqətlə bağlananlardan biri də Nəsir müəllim olmuşdur. Çox təəssüflər olsun ki,

bütün amal və arzular ilə Kommunist Partiyasına və onun yalançı «sədaqətinə» vicdanla xidmət edən alimlərimiz – o cümlədən Vətəninə, xalqına, onun doğma partiyasına gecəbəgündüz dincəlmədən, rahatlıq bilmədən xidmət edən, gəncliyin sağlamlığını bu yolda itirən Nəsir müəllim bu nankor Partiyanın dönüklüyünü, gözlərə dağ olan Şəhidlər xiyabanını və orada uyuyan körpələri, nər igidləri, sinəsi çalın-çarpaz olmuş anaların hayını-harayını görmədi. Nə yaxşı ki, görmədi... O və onun kimilər o müdhiş 20 yanvar faciəsinə dözə bilməzdilər. Bəli, sözü artırmadan dözə bilməzdilər. Bəs o əhd, o and, o sədaqət, o inam haralara getdi? Nə isə...

İllər bir-birini qovduqca Nəsir müəllimin həyatında yeni uğurlu səhifələr açılır, yeni-yeni irəliləyişlər özünü göstərir. Belə ki, Azərbaycan dilinə və ədəbiyyatına olan marağı onu Bakı Dövlət Universitetinə gətirib çıxarır. Doğma ədəbiyyatı öyrənməyi və öyrətməyi, dilin incəliklərinə sahib olmağı özünün müqəddəs məqsədi hesab edən Nəsir müəllim iki ilə ekstern yolla (1948-1950) universitetin filologiya fakültəsini bitirmiş, sonralar o, daha məsul vəzifələrdə – o cümlədən Azərbaycan Kommunist Partiyası Bakı Şəhər Komitəsində təbliğat-təşviqat şöbəsinin müdiri, Azərbaycan SSR Mərkəzi Komitəsində təbliğat-təşviqat şöbəsinin müdir müavini, 1956-cı ilin noyabrından 1957-ci ilin dekabrınadək Azərbaycan SSR Mədəniyyət Nazirliyinin Radio-informasiya Baş İdarəsinin rəisi kimi çox məsul və məsuliyyətli vəzifələrdə çalışmışdır və ən nəhayət lap gənclik illərindən qələminə bütün varlığı ilə bağlandığı, ağlayanda ağlayan, güləndə gülən və ona həmdəm olan





jurnalistika fəaliyyətini yenə davam etdirən Nəsir müəllim 1958-ci ildə Bakı Şəhər Sovetinin «Bakı» axşam qəzetinin yaranması ilə əlaqədar olaraq Mərkəzi komitənin qərarı ilə «Bakı» qəzetinə redaktor təyin olundu. 1963-cü ildə qəzetin rus versiyası «Baku» nəşrə başlayarkən onun redaktorluğu da Nəsir İmanquliyevə həvalə edilir. Respublikanın ictimai həyatında fəal iştirak edən Nəsir İmanquliyev dəfələrlə Bakı Şəhər Komitəsinin plenumlarının üzvü, Bakı Şəhər Sovetinin deputatı, Azərbaycan SSR XV, XVI, XVII, XVIII çağırış qurultaylarının nümayəndəsi olmuşdur. Bu illər ərzində Universitetdə pedaqoji fəaliyyətlə məşğul olan Nəsir müəllim eyni zamanda bir sıra mətbu orqanları ilə «Sovet kəndi», «Azərbaycan gəncləri» qəzetləri, «Təbliğatçı», «Azərbaycan Kommunisti», «Azərbaycan qadını» jurnalları ilə vaxtaşırı əməkdaşlıq etmiş və hər bir yazısı maraqla qarşılanmışdır.

Bir məsələni də xüsusilə qeyd etmək lazımdır, elmə, ədəbiyyata, tədqiqat işinə olan sonsuz məhəbbətinin və marağının nəticəsi olaraq Nəsir müəllim 1965-ci ildə namizədlik dissertasiya işinə görə filologiya elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşdür.

Həyatının 65 ilini Azərbaycan ədəbiyyatı və jurnalistikasının inkişafına həsr edən Nəsir İmanquliyev yüzlərlə məqalənin, onlarca kitabın müəllifi, həmmüəllifi və tərcüməçisi olmaqla yanaşı silsilə radio və televiziya verilişlərinin və aparıcısı olmuşdur. O eyni zamanda gözəl müəllim, görkəmli pedaqoq, istedadlı natiq idi. Onun mühazirələri öz elmi səviyyəsi, aydın, səlis üslubu, zəngin faktik materialı ilə həmişə tələbələrin böyük rəğbətini

qazanır, onları milli mədəniyyəti sevməyə, qayğı göstərməyə, mədəniyyətimizin, ədəbiyyatımızın nailiyyətlərini qorumağa və yaymağa həvəsləndirirdi. Nəsir İmanquliyevin müəllimliyində 3 sahə daha güclü idi. Sevdiyin və seçdiyin sənəti dərindən, kamil bilmək, onu aydın, şirin üslubda şərh etmək, özünü jurnalist adlandıran hər kəsin yazısında vicdanlı, qərəzsiz olmaq və jurnalist qələminə sadiq olmağı bacarmaq.

Nəsir müəllimin üslubu güclü yumora, kəskin satiraya, həzin, sirayətedici lirikaya malik idi. Səsində adilik, mənliyində ucalıq, görkəmində müdriklik var idi. Müəllim kimi obyektiv, prinsipial, qayğıkeş olan Nəsir müəllim tələbələrini biliyinə, intizamına, yaradıcılıq qabiliyyətinə və vətəndaşlığına görə qiymətləndirir, onlara qayğı göstərirdi. Bir məqamı da xüsusilə vurğulamağı özümə borc bilirəm. Nəsir müəllim həm də gözəl ailə başçısı, yaxşı ata, təkrarolunmaz baba idi. Onun arzularından biri övladlarını özü kimi yetişdirmək, yaxşı oxumağı, elmin, vətənin, torpağın qədrini bilməyə səsləməkdən ibarət idi. Bəli, Nəsir müəllimin arzuları çin oldu. Atalar demişkən ot kökü üstə bitər. Qızı – filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyeva ərəb məhşər ədəbiyyatının dünyada ilk qadın tədqiqatçılarından biri olmuş, Azərbaycan şərqşünaslıq elmini dəfələrlə yaxın və uzaq xarici ölkələrdə (Moskva, Kiyev, Poltava, Sankt-Peterburq, Hamburq, Halle və s.) təmsil etmiş, Ümumittifaq Şərqşünaslar Cəmiyyətinin Rəyasət Heyətinin, Şərq Ədəbiyyatının Tədqiqi üzrə Ümumittifaq Koordinasiya Şurasının və Yazıçılar Birliyinin üzvü olmuşdur.





Hər iki nəvələri ilə nəfəs alan, gözünün nurunu, işığını onlara verməyə hazır olan Nəsir müəllim uyuduğu məkanda rahat yata bilər. Nə üçün? Ona görə ki, onun sevimli Nərgiz xanımı, Mehriban xanımı da babalarının istəklərini, arzularını öz xoş məramlı işləri ilə həyata keçirirlər. Hər dəfə onların müxtəlif yüksək kürsülərdə sanballı çıxışlarını, məruzələrini dinlədikdə böyük fəxarət hissi keçirir və Azərbaycan torpağının belə xanımları ilə fəxr edirik. Əlbəttə, bu bir-iki cümlə ilə onların fəaliyyətini, vətəninə, xalqına göstərdikləri əvəzsiz xidmətləri işıqlandırmaq insafsızlıq olardı. Bu özü ayrıca bir mövzunun tədqiqatı kimi yazılmalı, qiymətləndirilməli və tədqiq olunmalıdır.

Nəsir İmanquliyev həqiqi mənada gözəl insan idi. İctimai mənafeyi, dövlət, xalq mənafeyini şəxsi mənafeyindən üstün tutmaq nümunəsi idi. Ölümündən sonra şəxsi işini vərəqlədik, yaxşı, nümunəvi işinə görə neçə-neçə orden və medallara, fəxri adlara, mükafatlara layiq olduğunu gördük. Elm, vətəni üçün təmənnasız çalışan bir alim, bir insanın müqəddəs siması bir daha gözlərimiz qarşısında canlandı. O, aydın və mənalı xarakterilə özünə dərin el məhəbbəti qazanmışdı.

Ədəbiyyatımızın ağsaqqalı, fəqət heç zaman qocalmayan yaradıcılarından olan Nəsir müəllimin unudulmaz və əziz xatirəsi onun əzizlərinin, dost və tanışlarının, çoxsaylı tələbələrinin, həmçinin qədirbilən respublika ədəbi ictimaiyyətinin yaddaşında həmişəlik yaşayacaqdır.

Izzət Rüstəmov
*Bakı Dövlət Universitetinin sosiologiya kafedrasının müdiri, fəlsəfə elmləri doktoru, professor*

## BİZLƏRƏ ÖRNƏK – BÖYÜK İNSAN

Nəsir İmanquliyev haqqında ürək sözlərimi yazmaq təklifini alanda, doğrusu, çox sevindim. Həqiqətən, Azərbaycanın mənəvi dirçəlişi, mədəni inkişafı yolunda böyük xidmətləri olmuş və hazırda sıralarımızda olmayan, haqq dünyasında yaşayan bir çox görkəmli şəxsiyyətlərimiz vardır ki, onlar dönə-dönə yad edilməyə, anılmağa layiqdirlər. Bu işi layiqincə həyata keçirmək bizlərin qarşısında duran çox ciddi mənəvi borcdur.

Mən 1949-cu ildən, Azərbaycan Dövlət Darülfünuna daxil olduğum vaxtdan Bakıdayam. Yaxın keçmişimiz də bizim üçün mənəvi örnək olmuş, gələcək üçün bizə həyat vəsiqəsi vermiş böyük alimləri: Abdulla Qarayevi, Səfaət Mehdiyevi, Mir Cəlalı, Cəfər Xəndanı, Mehbalı Qasımovu və başqalarını necə unutmaq olar! Keçən əsrimizin bu parlaq «ulduzları» sırasında böyük hərflərlə yazılmalı olan müəllimliyi – pedaqoqluğu, yüksək insani keyfiyyətləri, alicənablığı və nəcibliyi ilə fərqlənən, XX əsrin 2-ci yarısında Azərbaycanda jurnalistikanın inkişafında misilsiz xidmətləri olmuş, bu sahədə xüsusi elmi məktəb yaratmış olan Nəsir İmanquliyevi necə unutmaq olar! Buna haqqımız yoxdur. Hazırda bu günlərimizin xeyli sayda adlı-sanlı jurnalistləri Nəsir müəllimi özlərinin mənəvi ataları saya bilərlər. Əslində bu elə belə də olmalıdır. Xüsusilə də «Bakı» və «Baku» qəzetlərində uzun müddət fəaliyyət göstərmiş jurnalistlərimiz.

Nəsir İmanquliyev haqqında bir sıra konkret mülahizələrimi söyləməzdən əvvəl müəyyən, bəlkə də, maraqlı ola biləcək məqamlara toxunmaq istərdim. Yəqin çoxlu sayda oxucularımız, o cümlədən televiziya kanallarının tamaşaçıları tez-tez şahidi olurlar, yaxud müşahidə edirlər ki, mən jurnalistika məsələləri ilə əlaqədar Bakı Dövlət Universitetində, o cümlədən Respublika miqyasında keçirilən tədbirlərdə yaxından iştirak edirəm. Xüsusilə də hər il keçirilən mətbuat günü münasibətilə, «Əkinçi» qəzeti anılan zaman.

Mən heç təsəvvür etmirdim ki, Bakı Dövlət Universitetinin Fəlsəfə şöbəsini bitirdikdən sonra jurnalistikaya və jurnalistlərə bu qədər yaxın olacağam. Məsələ bundadır ki, Azərbaycan milli mətbuatının banisi, həm də dahisi, böyük alim Həsən bəy Zərdabinin ictimai-siyasi və fəlsəfi görüşlərinin elmi təhlilini özüm üçün daimi yaradıcılıq mövzusu seçdim. Əlimərdan bəy Topçubaşovun «Azərbaycanın mayakı» adlandırmış

olduğu «Əkinçi» qəzeti fəlsəfi tədqiqatlarımızda da «yol göstərənim» oldu...

Yəqin ki, bir neçə il müddətində universitetin jurnalistika fakültəsi ilə əməkdaşlığım, burada yeri gəldikcə magistrantlara dərs deməyim də təsadüf deyildir. Əsas mövzuya «körpü» salmaq üçün bir məqam da yada salmaq istərdim. Bu da ondan ibarətdir ki, mən uzun müddət universitet jurnalistlərinə fəlsəfədən dərs demişəm. Unudulmaz müəllim, ülvi şəxsiyyət olan Nəsir İmanquliyevlə tanışlığımız da elə o illərdən, elə o anlardan başlayıb. Etiraf etməliyəm ki, bir müəllim kimi püxtələşməyimdə Nəsir müəllimlə ünsiyyətimin, onunla görüşlərimin çox böyük rolu olub. Nəsir müəllimlə universitetdə, xüsusilə, jurnalistika fakültəsində tez-tez görüşərdik. O bizimlə həmişə xüsusi nəvazişlə görüşərdi, üzündə daim təbəssüm olardı, öz müəllimlik təcrübəsini bizimlə həvəslə bölüşdürərdi.

Sübuta ehtiyac yoxdur ki, böyük ictimai, dövlət xadimi olmuş, neçə-neçə məsul rəhbər vəzifələr tutmuş Nəsir müəllimin həyatında, jurnalistik fəaliyyətində «Bakı» və «Baku» qəzetlərində 30 ilə yaxın bir müddətdə redaktor kimi işləməsi xüsusi yer tutur.

Nəsir müəllimi Azərbaycan Kommunist Partiyası MK-də işləyərkən daim bir fikir tərk etmirdi. Necə ola bilərdi ki, getdikcə böyüyən, zənginləşən, həm də çoxlu problemləri olan Bakı şəhərinin öz qəzeti olmasın. Mən cəsarətlə deyə bilərəm ki, «Bakı» və «Baku» qəzetlərinin həyata qədəm qoyması, 1958-ci il yanvar ayının 10-da qəzetin ilk nömrəsinin işıq üzü görməsi respublikamızın ictimai-siyasi və





mədəni həyatında çox böyük, əlamətdar hadisə idi. Bu hadisə hamımızı sevindirmişdi.

Nəsir müəllimin sevincinin isə həddi-hüdudu yox idi. Axı onun uzun müddət sorağında olduğu bir hadisə həyata vəsiqə almışdı, «Bakı» qəzeti adında ictimai-siyasi bir tribuna yaranmışdı. Filosoflarımız, iqtisadçılar, tarixçilər, çoxlu sayda jurnalist və publisistlər bu tribunadan məharətlə istifadə etdilər. Etiraf etsəm yerinə düşər ki, məhz Nəsir müəllimin sayəsində, bəlkə də deyim, xüsusi səxavəti və qayğısı sayəsində xeyli sayda elmi-publisistik məqaləm məhz «Bakı» qəzetinin səhifələrində çap olunub. Bu, məni çox sevindirirdi. Bilirdim ki, mənim məqalələrimə xeyli yer verilməsi nəvazişli münasibətinin nəticəsi idi.

Əlbəttə, mən bu cür münasibətlərdən sui-istifadə etmirdim. Yaxşı məlumdur ki, Nəsir müəllim nəvazişi, insani, humanist münasibətilə yanaşı olduqca sərt və prinsipial idi. Keyfiyyətsiz, səthi yazıları, o, yaxına buraxmırdı. Yadımdadır, bir neçə məqaləmlə əlaqədar Nəsir müəllim özünün tənqidi iradlarını bildirərdi, haradasa elmi təhlilin zəif olduğunu söylərdi. Mən də bu iradlar üzərində işləyər, məqalələrimi keyfiyyətcə yaxşılaşdırardım.

Nəsir müəllim qəzetin əməkdaşlarına xüsusi qayğı göstərər, onların maddi-məişət ehtiyaclarının təmin edilməsi sahəsində də xüsusi fəaliyyət göstərirdi, bir növ onlara atalıq münasibəti nümayiş etdirirdi. Kiminsə övladı olub, yaxud kiminsə toyu olur və yaxud kimsə təzə ev alıb – bütün bunlar Nəsir müəllimin diqqətindən kənarda qalmazdı, simvolik ziyafətlər təşkil olunardı. Bu ziyafətlərdə

iştirak etmək mənə də qismət olardı. Bu işdə Nəsir müəllimin xoş münasibətilə yanaşı bütün şüurlu həyatını «Bakı» qəzetində fəaliyyətə həsr etmiş, indi də orada şöbə müdiri işləyən qohumum Ənvər Məşədiyevin də rolu vardı. Çox sevinirəm ki, mənim oğlum Oqtay da bir vaxtlar «Bakı» qəzetində işləmişdir.

Mən cəsarətlə deyə bilərəm ki, professor Nəsir İmanquliyev böyük jurnalistlər ordusunun müəllimi idi. Onun yaratdığı və bizə irs olacaq qoyub getdiyi ədəbi-publisist məktəb yenə də yaşayır, Nəsir müəllim jurnalistikasının gözəl ənənələri müstəqillik əldə etmiş, suveren Azərbaycanımızın mədəni quruculuq işlərində yenə də yaxından iştirak edir. Nəsir müəllimin şəxsiyyətində yüksək ülviliklə, ucalıqla misilsiz sadəlik, yüksək alimliklə pedaqoqluq ahəngdar vəhdət təşkil edir.

Nəsir İmanquliyev örnək, nümunə ola biləcək gözəl ailə başçısı idi. Bu ailənin Aida xanım İmanquliyeva kimi nadir bir övladı, böyük şərqşünas alimi cəmiyyətimizə bəxş etməsi əvəzsiz bir hadisədir. Aida xanımın indi sıralarımızda olmaması bir çox qədirbilən insanlar kimi mənim də qəlbimi sızıldadır. Lakin bunda təskinlik tapırıq ki, Aida xanımın övladları bu günkü həyatımızda fəal, canlı iştirakları ilə respublikamıza, xalqımıza baş ucalığı gətirirlər.

Mən də xüsusi qürur hissi keçirirəm. Şad oluram ki, Aida xanımın müəllimi olmuşam, ona fəlsəfədən dərs demişəm.

Ruhun şad olsun, Nəsir müəllim! Siz daim qəlbimizdə yaşayacaqsınız!







**Qəzənfər Paşayev**
*filologiya elmləri doktoru, professor*

## NƏCABƏTLİ ADAM

«Bakı» qəzeti deyəndə, göz önünə ilk olaraq Nəsir müəllim, Nəsir müəllim deyəndə «Bakı» qəzeti gəlir. Bu heç də təsadüfi deyildir. «Bakı» axşam qəzetinin yaradıcısı Nəsir müəllim sözün həqiqi mənasında bu mətbu orqanı çox mötəbər qəzetlər səviyyəsinə qaldırmış, oxucuların sevimli qəzetinə çevirmişdi. Keçən əsrin 50-ci illərinin sonu idi. O vaxt mən Dillər İnstitutunun İngilis-Azərbaycan dilləri fakültəsində oxuyurdum. İnsanlarda elmə, biliyə, ədəbiyyata qəribə bir ehtiras vardı. «Bakı» qəzetində Həsən Seyidbəylinin «Cəbhədən cəbhəyə» povesti çap olunurdu. Qəzet axşamüstü çıxdığından adamlar onun növbəti sayını əldə etmək üçün saat 5-dən qəzet köşklərinin qabağında növbə tuturdular. Azərbaycan ədəbiyyatına yeni ab-hava gətirən bu əsərə böyük maraq, «Bakı» qəzetinə böyük tələbat vardı. Həmin vaxt mən Lenin və Sabir adına kitabxanalarda gənc yazarlar üçün təşkil olunmuş dərnəklərə gedirdim. Kitabxanalar bir-birinə çox yaxın olduğundan hər iki dərnəyə gözəl şairimiz Tofiq Mütəllibov rəhbərlik edirdi.

Qərara alınmışdı ki, «Cəbhədən cəbhəyə» əsərini müzakirə edək. Əsərin məziyyətləri, səciyyəvi xüsusiyyətləri və s. barədə məruzə mənə həvalə olunmuşdu. Yığıncağa Həsən Seyidbəylinin özünün də gələcəyi gözlənilirdi. Odur ki, Tofiq müəllim məni «Bakı» qəzeti redaksiyasına göndərmişdi ki, əlavə məlumat toplayım. Qəzetin «Ədəbiyyat» şöbəsində nasir Qeybulla Rəsulov və ulduz kimi parlayan Cabir Novruz işləyirdi. Təkcə bu fakt Nəsir müəllimin əməkdaşları necə seçməsini və bunun nəticəsində qəzetin böyük uğurlar qazanmasını şərtləndirən amillərdir.

Maraqlıdır ki, o vaxt «Bakı» qəzetində «İlin ən yaxşı hekayəsi» adı altında gənc yazarlar arasında müsabiqə keçirilirdi. Nəsir müəllimlə şəxsən ilk dəfə bu vaxt tanış olmuşdum. Dərnəkdə oxuduğum «Ürəkdə məşəl» adlı hekayəmin süjeti ilə üst-üstə düşən bir hekayə müəllifi müsabiqədə birinci yeri tutmuşdu. Mənim xahişim ilə komissiya yaradılmışdı. Bir gün dedilər ki, qəzetin redaktoru Nəsir İmanquliyev səni çağırır. Suçlu adamlar kimi qorxa-qorxa Nəsir müəllimin iş otağına girəndə qalxıb əl verdi və əyləşməyə yer göstərdi. Mənimlə çox mehriban davrandı. Dedi ki, oğlum, dünyanın biri-birindən çox uzaq guşələrində bir də görürsən ki, eyni vaxtda kəşflər edirlər, süjeti uyğun gələn əsərlərə də çox təsadüf edilir. Bu məsələni özünə dərd eləmə. Sən tərcümə işinə fikir ver. İngilis

dilindən Azərbaycan dilinə birbaşa tərcümələr yoxdur. Məsləhət görürəm qələmini bu sahədə sınayasan.

Qeybulla Rəsulov və Cabir Novruzdan xahiş etdi (Qəribədir xahiş etdi, göstəriş vermədi. İndi dərk eləyirəm ki, bu onun böyüklüyünə dələlət edirmiş) ki, gələcəkdə mənə kömək etsinlər. Sonralar Cabir Novruz Yazıçılar İttifaqının katibi olanda da, «Ulduz» jurnalının eləcə də «Ədəbiyyat» qəzetinin Baş redaktoru olanda da Nəsir müəllimi xoş məramla xatırlayır və əlindən gələn köməyi əsirgəmirdi.

Aradan illər keçsə də, Nəsir müəllimin məsləhətləri yadımdan çıxmır. Bədii tərcümə sahəsində qazandıqlarıma görə o nəcabətli insana minnətdaram.

Deyirlər nəcabətli adam hər yerdə doğulmur. Ancaq belə müdrik harada doğulursa, orada bütöv bir xoşbəxt nəsil çiçəklənir. Heykəlini yaddaşlarımızda əbədiləşdirən, elmi ilə əbədilik qazanan, görkəmli şərqşünas alim, filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyeva, müasir ədəbiyyatımızı layiqincə təmsil edən görkəmli yazıçı və alim Mir Cəlal müəllimin davamçısı Nərgiz xanım Paşayeva, mədəniyyətimizi, mənəvi dəyərlərimizi, dövlətçiliyimizi xaricdə və vətənimizdə ləyaqətlə təmsil edən, Heydər Əliyev Fondunun rəhbəri, YUNESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın həyat və fəaliyyəti bu müdrik kəlamın doğruluğundan və böyük mətləblərdən söz açır.





**Nəsir Əhmədli**
*Bakı Dövlət Universitetinin beynəlxalq jurnalistika kafedrasının dosenti*

# JURNALİSTİKAMIZIN SİMVOLU

Nəsir müəllim jurnalistika fakültəsinin birinci kursunun birinci semestrində «Jurnalistikaya giriş» fənnini tədris edirdi. Dərsləri də həmişə birinci saat olardı. Yəni jurnalistika aləminə təzəcə qədəm qoymaqda olan gənclər birinci onun üzünü görərdilər və Nəsir müəllim onlar üçün jurnalistikanın simvoluna çevrilərdi. Hər gün üzünü tər-təmiz qırxar, son dərəcə səliqəli geyinər, səliqəli danışar, səliqəli davranardı.

Əvvəllər üç («Bakı», «Baku» və «Vətənin səsi»), sonralar isə iki («Bakı» və «Baku») qəzetə rəhbərlik edirdi. Bakı şəhər partiya bürosunun üzvü və s. kimi məsul ictimai vəzifələri vardı, amma tələbələr bunu heç vaxt hiss etməzdilər. Nə vaxtsa dərsə gəlməsin, nə vaxtsa dərsə geciksin, nə vaxtsa işinin çoxluğundan gileylənsin, belə şey ola bilməzdi.

«Bakı» və «Baku» qəzetləri fakültə tələbələrinin və müəyyən mənada həm də müəllimlərin təcrübə bazasına çevrilmişdi. İndi jurnalistika aləmində tanınmış qələm sahiblərinin çoxunun ilk yazısı məhz o qəzetlərdə dərc olunub. Nəsir müəllim dərs deyə-deyə yaxşı tələbələri gözaltı edir, istehsalat təcrübəsi zamanı onları sınaqdan keçirir, vaxtı çatanda öz yanına işə götürürdü. Famil Mehdi, Şamil Qurbanov, Nüsrət Kəsəmənli kimi neçə-neçə məşhur şair, alim, jurnalist Nəsir İmanquliyevin, «Bakı» qəzetinin «şinelindən» çıxmışdı.

Nəsir müəllimin adının mənası ilə («Nəsir» ərəbcədən tərcümədə «kömək edən» deməkdir) əməlləri arasında qəribə bir uyğunluq vardı. O öz tələbələrinə və tabeliyində olan əməkdaşlara təkcə müəllimlik, rəhbərlik yox, həm də atalıq, ağsaqqallıq, hamilik edirdi. Onların mənzillə təmin edilməsinə yardımçı olmaqdan, onlar üçün elçi getməkdən, toylarında qol qaldırıb oynamaqdan xoşu gəlir, öz xeyirxahlığından zövq alırdı. Nəsir müəllimi ömrünün sonuna qədər cavan, şux saxlayan da elə bu idi.

Mülayim, qayğıkeş, xeyirxah olduğu qədər də tələbkar idi. Həm özünə, həm də başqalarına qarşı. Ətrafındakıları öz şəxsi nümunəsi ilə tərbiyə edirdi.

Zəhmətlə, məhrumiyyətlərlə böyümüşdü Nəsir müəllim. Adi fəhlə-kəndli müxbirliyindən iki ən populyar qəzetin redaktorluğuna qədər ucalmışdı. Daha doğrusu, həmin qəzetlər onun peşəkarlığı, kadr seçimindəki ustalığı sayəsində belə populyar olmuşdu. «Bakı» və «Baku» axşam qəzetləri idi, satışa günortadan xeyli sonra gəlirdi. Qəzet hələ mətbəədə çap olunarkən adamlar günün ən son məlumatlarını almaq üçün köşklərin qarşısında

növbəyə dayanardılar. Qəzetin belə populyarlığı ilk gündən Bakıda və Moskvada bir çoxlarının ürəyincə deyildi, müxtəlif vasitələrlə onun bağlanmasına çalışırdılar, Moskvaya iftira dolu məktublar yazır, teleqramlar vururdular.

Bütün bunların nəticəsində Sov.İKP MK 1959-cu il iyulun 31-də «Qəzet və jurnalların zərərlə işləməsinin ləğvi haqqında» qərar qəbul etmişdi. Orada deyilirdi ki, Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi 1958-ci ildə Bakı şəhərində zərərlə işləyəcəyi əvvəlcədən bəlli olan axşam qəzetinin nəşrinə icazə vermişdi. Bu qəzetin buraxılmasına heç bir zərurət yox idi, ona tələb çox azdır: «Bakı» axşam qəzeti 20 min nüsxə tirajla çıxır, 1959-cu ildə onun nəşrinə 104 min manat dotasiya ayırmaq planlaşdırılıb. Qərarın 1-ci maddəsində Azərbaycan KP MK-dan tələb olunurdu ki, kütləvi oxucusu olmayan, dövlətə böyük zərər gətirən şəhər axşam qəzetinin nəşrinin dayandırılması məsələsinə baxsın. Yalnız Nəsir müəllimin şəxsi çalışmaları, gördüyü ağıllı tədbirlər nəticəsində qəzeti saxlamaq və ən oxunaqlı mətbuat orqanlarından birinə çevirmək mümkün olmuşdu.







**Şamil Qurbanov**
*filologiya elmləri doktoru, professor*

## İŞÇİLƏRİNİN QƏDRİNİ BİLƏN REDAKTOR

Nəsir İmanquliyev mənim müəllimim olmuşdur. O, bizə sovet mətbuatından dərs deyərdi. Özü təcrübəli mətbuat işçisi idi. Vaxtilə «Kommunist» qəzetində redaktor müavini işləmiş, bizə dərs deyən illərdə Mərkəzi Komitədə ideologiya şöbəsində işləyirdi. Bir az sonra Radiokomitəyə sədr getdi.

Müəllim kimi çox səliqəli, mühakiməli, mətbuatı bütün incəliyinə qədər başa düşən, bilən adam idi. Özü də suyu şirin, ünsiyyətli bir insan idi.

İlk günlərdən mən onun xoşuna gəldim və münasibətimiz müəllim-tələbə kimi uzun müddət davam elədi.

Mən universiteti bitirdim. Bir qədər mətbuatda işlədim, sonra Həsən Şahgəldiyev məni jurnalistika kafedrasına baş laborant gətirdi. Bir qədər də burada işlədikdən sonra aspiranturaya daxil oldum, vaxtından əvvəl müdafiə edib filologiya elmləri





namizədi adını aldım. Elə bu vaxt Nəsir müəllim məni çağırdı, işimi soruşdu, harada işləyəcəyimi xəbər aldı. O zaman Nəsir müəllim «Bakı» və «Baku» qəzetlərinin redaktoru idi. Mən dedim:

– Bu saat dekanımız Əlövsət müəllim, nazirlikdə danışdı, bir yer aldı və bizdə bir nəfər də işsiz var, o da müdafiə edibdir. Belə qərara gəldik ki, hələlik bir yeri iki yerə bölək o, da, mən də 0,5 ştat işləyək.

Nəsir müəllim mənə bir ata qayğısı göstərdi və dedi ki, əgər sən bizim qəzetdə işləmək istəsən, mən iki şöbədən birinin müdirliyini sənə verirəm, hansını istəyirsən, götür, işlə.

– Nəsir müəllim, bu şöbələr hansılardır? – deyə soruşdum.

– Biri ədəbiyyat şöbəsi, o birisi də partiya həyatı şöbəsidir. Sənə mən bələdəm, hər ikisində işləyə bilərsən.

Mən ədəbiyyat şöbəsinə razılıq verdim və 1966-cı ilin yanvar ayından oldum «Bakı» axşam qəzetinin ədəbiyyat şöbəsinin müdiri, alınan ştatı yarı bölmək istədiyimiz Famil Mehdinin də işi düzəldi. O da ştata keçdi və Bakı Dövlət Universitetində işləməyə başladı.

Mən «Bakı» qəzetində üç il işlədim, özü də yaxşı işlədim, Ali Sovetin fəxri fərmanını aldım, hər il yay aylarında ayrı-ayrı sanatoriyalara gedirdim. Nəsir müəllim özü şərait yaradır və kömək edirdi. Ümumiyyətlə, Nəsir müəllim işçilərinin qədrini bilən adam idi. Biz o zaman ona arxalanırdıq və düz işləyirdik, «Bakı» indiki qəzetlərin tayı deyildir, hər yerə nüfuz edən, təsir göstərən, hamının sevimlisi

olan bir mətbuat orqanı idi. Hər axşam saat 5-də qəzet köşklərinin qabağında yaranan növbələri indi də unutmaq olmur.

Mənim qəzetdəki çıxışlarım özüm üçün də çox maraqlı oldu. H.Minasazov, R.Məlikov, Ömər Faiq Nemanzadə və s. adamlar haqqında ilk dəfə burada yazmışdım, sonra bunlardan hərəsi bir monoqrafiyaya çevrildi. Bu qəzetin səhifələrində o qədər maraqlı, lazımlı materiallar dərc olunmuşdu ki, hamısı böyük rəğbət qazanırdı.

Biz yeni bır rubrika açmışdıq: «Siz nə üzərində işləyirsiniz?» Bu, yazıçılara, şairlərə aid idi. Hamı çıxış etməyə çalışırdı. Doğrudur, yaradıcılıq planı çox vaxt əvvəlcədən açılmır, bir növ intim xarakteri daşıyır. Amma həvəs göstərənlər çox idi. Yaxud böyük yubileyləri keçirmək üçün xırda, maraqlı materiallar təşkil edirdik. Məsələn, Səməd Vurğunun 60 illiyi ilə əlaqədar iki nömrəlik material toplanmışdı. Hamısını da qəzetdə verdik. «Molla Nəsrəddin»in 60 illiyini başqa cür hazırladıq. Vaxtilə jurnalda işləmiş, C.Məmmədquluzadə ilə əlaqə saxlamış adamları, «Ölülər»in ilk tamaşalarında oynamış aktyorları redaksiyaya dəvət elədik, filologiya elmləri doktoru, professor Əziz Mirəhmədovun rəhbərliyi ilə hamı ləzzətlə işlədi. Bir səhifəlik material hazırladıq və şəkillər ilə dərc etdik. Belə materiallar çox olurdu və Nəsir müəllim də, oxucular da razı qalırdı.

Bir gün mənim yanıma bir şair gəldi və şeir gətirdi. Mən şeirləri bir-bir oxudum, gördüm bizim qəzetdə gedəsi şeirlər deyillər. Məşhur «Sülh göyərçini»ni yaradan beynəlxalq sülh mükafatı laureatı rəssam Pablo Pikassonu və onun «ana abidəsini» tənqid edir, Pikassonu «dəli, sərsəri» adlandırır və deyirdi: mən bu əsərə baxanda yadıma saldım «mürəkkəbə, kağızlara qəsd eləyən bir dəlini, sərsərini».

– Bu bizdə getməz, – dedim və bir qədər əsəbi danışdıq. Səhərisi günü saat 4-də qəzet gəldi, gördüm ki, həmin mən bəyənmədiyim şeir dərc olunub. Tez qaçdım rəhmətlik Əhməd Rəşidovun yanına. Əhməd müəllim şerə baxırdı. Məlum oldu ki, şair onun da yanına gəlmiş, bir qədər artıq-əskik danışmış, o da şeri oxumuş və onu sakitləşdirmişdi. Şeri tez oxuyur, verir məsul katibə, o da tez nömrəyə salır. Bundan sonra aləm qarışdı. Xüsusən Mərkəzi Komitə bu məsələyə çox ciddi yanaşırdı. O zamanın məşhur qəzeti olan «Kommunist» son poçt verdi, saysız-hesabsız oxucu məktubları gəldi. Şerin getməsində mənim imzam yox idi, yoxsa ən cavan mən idim, mənim başım ağrıyacaqdı. Nəsir müəllim məni çağırdı, dedi:

– Bir nəfəri işdən çıxartmaq lazımdır. İndi mən kimi çıxardım? Gör məşhur şairlərdən birinə, xüsusən Rəsul Rzaya bu barədə bir şey yazdıra biləcəksənmi?

Rəsul müəllim o vaxt ensiklopediyada işləyirdi, baş redaktor idi. Mən özüm yanına getdim. Rəsul müəllim də əsəbiləşmişdi.

– Bu nə məsələdi, belə iş olar? – dedi.

– Olub da, Rəsul müəllim birtəhər vəziyyətdən çıxmaq lazımdır. Bütün ümidimiz sizədir.

Mən bu məsələ ilə bağlı bir şey yazmağını xahiş elədim.

– Ay oğul, mən heç vaxt sifarişlə şeir yazmamışam, – dedi.

– Nə olar, bu dəfə yazın, bizi də xilas edərsiniz, – dedim.

Birtəhər razılaşdı və «Pikasso ilə söhbət» adlı şeir hazır olanda orada belə misralar da var idi:

Sən Fransaya bağlısan,
Mən Azərbaycana.
Mənim Kəbəm Bakıdır,
Səninki Paris...
Nə sən Parisdə vardın,
Nə mən Bakıda
Kommunarların qanı töküləndə.
Onlar düşmən gülləsinə hədəf oldu,
Sən nadan sözünə.
Əsərlərini bəyənməyənlər də var;
rəsmin əlifbasını öyrənmədən...
Ünvanına tək-tək
Qafiyəli hərzə də yağdırdılar.
Göyərçinlər uçur şəhərimin göylərində,
Necə də bənzəyirlər sənin göyərçininə.
O göyərçin ki,
Gəzdi dünyanı diyar-diyar,
Ülfətin carçısı kimi;
Sənin qəlbinin canlı parçası kimi.
Mən demirəm səni anlayıb,
sevməlidir hamı.
Heç olmasa unudulmasın
bütün dillərdə tərcüməsiz səslənən
ağ göyərçin salamı.





Bu şeir həmin hadisələrin baş verdiyi 1967-ci ilin noyabrında yazılmışdır. Bununla da xalq şairi Rəsul Rza bizi xilas etdi. Arada, xalq içərisində, oxucular arasında söz-söhbət gəzirdisə də, rəsmi dairələrdə bütün tədbirlərə son qoyuldu. Bunun üçün biz hamımız Rəsul Rzaya minnətdarıq.

1968-ci ilin oktyabrında yenə də mənim xeyirxah müəllimlərim məni universitetə dəvət elədilər. Mən tərəddüd elədim, «axı Nəsir müəllimdən ayıbdır, özü də məni heç buraxmaz» – dedim. Çox söhbətimiz oldu, axırda mənim saqqızımı oğurladılar. Məndən heç bir sənəd istəmədilər, dedilər səni tanıyırıq.

Universitetdə Elmi Şura olan günü qəzetdə növbətçi idim. Yoldaşlarımdan birindən xahiş elədim ki, bu gün sən mənim yerimə növbətçi get, insafən o da getdi, mən isə Elmi Şuraya gəldim. Amma çox narahat idim. Nəsir müəllim hər gün saat 12-də gəlib qəzetə qol çəkməli idi. Universitetdə isə Elmi Şura bir qədər uzandı. Nəsir müəllim mətbəəyə gəlir, görür növbətçi başqa adamdır, soruşur.

– Şamil hardadır?

Deyirlər bu gün onun işi vardır. Nəsir müəllim bir qədər fikirləşir və tez durur ayağa, düz gəlir universitetə. Artıq səsvermə gedirdi, məni birbaşa dosent keçirirdilər. Nəsir müəllim dekanın, partkomun üstünə qışqırdı.

– Sizin nə ixtiyarınız var, mənim xəbərim olmadan mənim işçimi işə götürürsünüz?!

Aləm qarışdı, Nəsir müəllimi bir qədər sakitləşdirdilər. Artıq iş işdən keçib, nə etmək olar.

Nəsir müəllim qayıtdı işə, mən də qayıtdım. Amma heç yaxşı iş görməmişdim, cavanlığıma salmışdım. Nəsir müəllim istəsə Elmi Şuranın qərarını ləğv elətdirə bilərdi. Amma nə isə getmədi bu işə, mən isə heç onun gözünə görünə bilmirdim.

Nəsir müəllim mənim üçün bir ata idi Mənim elçiliyimə getmişdi, toyumda da iştirak etmişdi. Bunların hamısı «Bakı» qəzetində işlədiyim dövrdə olmuşdu. Bunların heç biri bu işlə tutmurdu.

Bir neçə ay Nəsir müəllimin gözünə görünmədim. Materialları hazırlayıb, qol çəkib, ədəbi işçimə verirdim ki, apar Nəsir müəllimə ver. Bir belə, beş belə, axır Nəsir müəllim soruşur:

– Şamil hanı?

O da deyir:

– Şamil deyir ki, özüm getmirəm, Nəsir müəllim məni görəndə əsəbiləşir.

Bir də gördüm özü zəng elədi.

– Şamil!

– Bəli, Nəsir müəllim.

– Bir bura gəl.

Durdum getdim, günahkar adam kimi. Nəsir müəllim yenə ata qayğısı ilə danışdı.

Şamil, – dedi, sən bilirsən ki, mən bütün ömrümü mətbuata sərf eləmişəm. Bu yolda çətin günlər də görmüşəm, asan günlər də, yaxşı adam da görmüşəm, pis adam da. Yaxşılardan yaxşını götürmüşəm, pisi isə kənara atmışam. İndi mən istəyirdim sənə mane olam, sən yaxşı işçisən. Amma bacarmadım, daha doğrusu, istəmədim. Gördüm ki, bu kollektiv kimi o kollektiv də səni istəyir. Nə olar, get universitetə, universitet də bizimdir, mən özüm



də universitetin dosentiyəm, sən bunu bilirsən. Səni mən çıxartmıram, şöbə də sənindir, nə vaxt istəyirsən gəl, get. Elə ki, özün getmək istədin, o başqa məsələ.

Bundan sonra yenə tələbə-müəllim münasibətimiz əvvəlki qaydası ilə davam etdi. Amma mənə çox isinişmişdi, harada görürdü, dərdləşər, söhbət edərdik. Başqalarından giley-güzar da olardı...

Universitetdən çıxandan sonra bircə dəfə məni evinə çağırdı. Mütləq gəl, – dedi. 1995-ci ildə biz bir neçə tələbə onun başına yığışdıq, 85 yaşı qeyd olunurdu. Ondan doyunca danışdıq, təriflədik. Bu ilk və son məclis oldu. Özü istəmirdi.

Çox yaxşı, mütərəqqi, xeyirxah adam idi, Allah ona rəhmət eləsin.

**Vaqif Arzumanlı**
*İctimai-siyasi Proseslər və Beynəlxalq Əlaqələr Elmi Araşdırmalar Mərkəzinin prezidenti, filologiya elmləri doktoru, professor*

# JURNALİSTİKA MƏKTƏBİNİ YARATMIŞ NƏSİR MÜƏLLİM

Həyatda az-az insanlar, şəxsiyyətlər olur ki, onlar elm və tədris sahələrində, ədəbiyyat və incəsənət aləmində, ictimai-siyasi mühitdə məktəb yarada bilirlər. Belə insanlardan, belə şəxsiyyətlərdən biri «Bakı» və «Baku» qəzetlərinin yaradıcısı və otuz il dəyişməz redaktoru olmuş, uzun müddət – gənclik illərindən başlamış ömrünün sonuna qədər bir sıra məsul vəzifələrdə çalışmış, fasiləsiz olaraq ali məktəbdə dərs demiş professor Nəsir İmanquliyev olub.

Bu gün ölkəmizdəki bir sıra idarə və təşkilatlarda elm və təhsil müəssisələrində, dövri mətbuat orqanlarında Nəsir müəllimin çoxsaylı yetişdirmələri, tələbələri məsul vəzifələrdə çalışırlar.





Nəsir müəllim böyük həyat məktəbi keçmiş yaradıcı ziyalı, şərəfli ömür yoluna malik ağsaqqal, qayğıkeş pedaqoq, bacarıqlı nasir, mahir jurnalist və ustad kimi yaddaşlara həkk olunub.

Nəsir müəllimi tanıyanların hamısı – istər vəzifə adamları, istər yaradıcı həmkarları, istər tələbələri, istər oxucuları onun çox mehriban və qayğıkeş insan, özünəməxsus mərdanə xarakterə və mülayim xasiyyətə malik olduğunu yaxşı xatırlayırlar.

Nəsir müəllim sözün əsl mənasında ziyalı, təvazökar, mülayim və nəcib insan idi. Mən özüm də dəfələrlə bunun şahidi olmuşam. Həmyaşıdlarım və həmkarlarım da bunun şahidi olub. Elə Nəsir müəllimin yetişdirmələri və tələbələri də bunu təsdiq edir. Bu yaxınlarda Nəsir müəllim haqqında çox maraqlı və səmimi bir məqalə oxudum. Onu Nəsir müəllimin tələbələri – tanınmış jurnalistlər Aslan Aslanov və Dağbəyi İsmayılov yazmışlar. Məqaləni oxuduqca gözlərim önündə Nəsir müəllimin həyat və fəaliyyətinin ən maraqlı və qiymətli səhifələri canlandı.

«Ustad dərsi unudulmur...» adlı həmin məqalənin iki abzası məni xüsusi olaraq kövrəltdi. Nəsir müəllimin tələbələri yazır: «...Mətbuatımızın tarixində 30 il fasiləsiz redaktor işləmək, hər həftə iki dildə bir-birini təkrarlamayan 12 nömrə qəzet buraxmaq, müxtəlif millətlərə, müxtəlif zövqlərə, fərqli düşüncələrə mənsub böyük bir kollektivi söz-söhbətsiz, dəqiq saat mexanizmi kimi işlətmək heç də hamıya nəsib olan hünər deyildir. Təkcə bu faktın özü Nəsir müəllimin ağsaqqallığı, idarəçilik

üslubu, redaktorluq məharəti, ustalığı və ustadlığı haqqında çox söz deyir.

Nəsir müəllim bütün ömrü boyu saysız-hesabsız adama həyan olmuş, çoxunun müşkülünü yoluna qoymuş, dar günündə əlindən tutmuşdur. Allah sevimli bəndəsi Nəsir müəllimə bir çox fəzilətlərlə bahəm mənalı cismani ömürdən əlavə, haqq dünyasına qovuşduqdan sonra qəlblərə xoş xatirələrlə əbədi yaşamaq şərəfi də qismət etmişdir» («Azərbaycan», 1 dekabr 2006-cı il).

Bəli, Nəsir müəllim qəlblərdə əbədiyaşar ziyalılarımızdandır. Çox maraqlı və qiymətli ömür yolu keçmiş bu müdrik insan harada işləməsindən, hansı vəzifədə çalışmasından asılı olmayaraq həmişə bacarığı, nəcibliyi, yüksək mədəniyyəti ilə seçilib, çoxlarına nümunə olub.

Nəsir müəllim əmək fəaliyyətinə başladığı «Kommunist» (sonralar «Xalq qəzeti») qəzetində, sonralar çalışdığı «Gənc işçi», «Yeni yol» qəzetlərində, cəbhə qəzetlərində, 25 ilə yaxın şöbə müdiri və baş redaktorun müavini olduğu «Kommunist» qəzetində işlədiyi dövrlərdə də, otuz il fasiləsiz olaraq «Bakı» və «Baku» qəzetlərinə başçılıq etdiyi vaxtlarda da bacarıqlı və milli əqidəli ziyalı, mahir publisist və nasir, həmişə obyektivliyi qoruyan qələm ustası, saf əqidə sahibi kimi tanınıb. Nəsir müəllim hətta bir sıra məsul vəzifələrdə Bakı şəhər Partiya Komitəsi təbliğat-təşviqat şöbəsinin müdiri, Azərbaycan KP MK-nın təbliğat-təşviqat şöbəsinin müdir müavini, Radio Verilişləri Baş İdarəsinin rəisi, Azərbaycan Radio-Televiziya Verilişləri Komitəsi sədrinin birinci müavini işlədiyi vaxtlarda da öz dəst-xətti, obyektiv mövqeyi ilə seçilən rəhbər işçilərdən sayılıb.

1966-cı ildə Bakıda ilk dəfə olaraq «Jurnalistika məsələləri» adlı dərs vəsaiti çap olundu («Maarif» nəşriyyatı). Ali məktəblərin tələbələri, jurnalistlər, mətbuat və nəşriyyat işçiləri, tarixçilər və filosoflar üçün nəzərdə tutulmuş bu nəsrin müəlliflər heyəti üzvlərindən biri məhz Nəsir müəllim idi. O vaxta qədər Bakı Dövlət Universitetində 1945-ci ildən təşkil edilmiş jurnalistika şöbəsində 225 gənc jurnalist təhsil almışdı.

Nəsir müəllim universitetdə elə «Jurnalistikanın əsasları» fənnindən dərs demişdir. Əvvəlcə Universitetin dosenti, sonra professoru kimi Nəsir müəllim ömrünün sonunadək Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində yüzlərlə jurnalistin yetişməsində əvəzsiz xidmətlər göstərmişdir.

Bir çoxları kimi mənim də Nəsir müəllimlə yaxından tanışlığım olub. Tələbəlik illərindən başlanan tanışlığımız Nəsir müəllimin haqq dünyasına qovuşduğu vaxta (1998) qədər davam edib. Bizim çoxlu görüşlərimiz; tariximiz, ədəbiyyatımız, mədəniyyətimiz barədə xeyli söhbətlərimiz, fikir mübadilələrimiz olub. Bu haqda hətta ayrıca bir kitab da yazmaq olar...

Nəsir müəllimlə ilk görüşümüzün və tanışlığımızın maraqlı tarixçəsi vardır. 1964-cü ildə mən Bakı Dövlət Universitetinin filologiya fakültəsinin birinci kursunda oxuyurdum. «Qədim mağaranın sirləri» adlı bir məqalə yazıb «Bakı» qəzeti redaksiyasına apardım. Məqalədə

doğulduğum Quba rayonunun Söhüb kəndinin ərazisindəki – Söhüb qalasının iki kilometrliyində yerləşən «Pirəbənövşə nənə» adlı müqəddəs ocaqdan – mağaradan bəhs olunurdu. Bir neçə gündən sonra məqaləm qəzetdə dərc olundu (Bax: «Bakı», 31 oktyabr 1964-cü il). Çox sevindim və minnətdarlığımı bildirmək üçün səhərisi günü redaksiyaya getdim. Elə dəhlizdə o vaxt qəzetin müxbiri işləyən Şükufə Tağızadə ilə rastlaşdıq. O məni görcək sevinə-sevinə dedi: - Ay Vaqif, nə yaxşı gəldin. Dünənki məqalən hamının xoşuna gəlib. Baş redaktorumuz tapşırıb ki, o cavan oğlanı tapın, istəyirəm onunla görüşüm, soruşacağım şeylər var.

Təxminən yarım saatdan sonra Şükufə xanım məni Nəsir müəllimə təqdim etdi. Düzü, fikirləşirdim ki, bu boyda tanınmış qəzetin baş redaktoru məndən nə soruşacaq?!

Nəsir müəllimin mənə oturmaq təklifindən sonra ilk sualı bu oldu:

– Məqalən çox maraqlı idi. Belə başa düşdüm ki, Qubadansan. Həm də təbiət vurğunu kimi maddi mədəniyyət abidələrimizi sevirsən. De görək, bu məqaləndə yazdıqların doğrudan həqiqətdir? Bəs indiyə qədər bu təbiətin möcüzəsi niyə diqqətdən kənarda qalıb?

Mən «Pirəbənövşə nənə» ocağı və mağarası barədə Nəsir müəllimə daha əlavə məlumatlar verdim. Diqqətlə qulaq asdıqdan sonra mənə bir daha təşəkkür edərək dedi: - Oğul, sən bizimlə əməkdaşlıq et. Məqalələr yaz qəzetimiz üçün. Mövzuları özün seç. Dünənki məqalən barədə isə mən akademik Əlisöhbət Sumbatzadə ilə danışaram.





Qoy tarixçilərimiz, arxeoloqlarımız bu abidə ilə yaxından maraqlansınlar, onu öyrənsinlər...

Nəsir müəllimlə tanış olmağım məndə böyük qürur hissi oyatdı. «Bakı» qəzeti ilə o vaxtdan daha yaxından əməkdaşlıq etməyə başladım.

«Qədim mağaranın sirləri» məqaləsinin səsi-soraği da çox eşidildi. Belə ki, qəzetdən götürülmüş məqaləm 1965-ci ilin təqvimində – «Təqvim – 1965»də, o vaxtkı «Oqonyok» jurnalının səhifələrində, Moskvanın «Yunost» radio-jurnalının verilişlərində özünə yer tapdı.

1965-ci ilin yazında isə Azərbaycan Milli Elmlər Akademiyasının bir qrup tarixçi-alimi (arxeoloq və etnoqraflardan ibarət) «Pirəbənövşə nənə» abidəsini öyrənmək üçün Qubaya getdilər və bu maddi mədəniyyət möcüzəsinin sirlərini öyrənməyə çalışdılar.

1965-ci ilin mayında mətbuat günü münasibətilə mənə Nəsir müəllimin təklifi ilə «Bakı» qəzetinin ən gənc yazarı kimi xüsusi mükafat – «Çin istehsalı olan avtoqələm və müəyyən məbləğdə pul» – verdilər. O vaxtdan «Bakı» qəzeti ilə əlaqələrim də intensivləşdi, onun səhifələrində məqalələrim və bədii tərcümələrim müntəzəm olaraq çap edildi. Elə tələbəlik illərində də, sonralar da...

1988-1991-ci illər Nəsir müəllimin həyatında sıxıntılı və çətin dövrlər idi. «Bakı» və «Baku» qəzetlərində işdən çıxmışdı. Amma universitetdə dərs deyirdi. Jurnalistika fakültəsində. Mən də o vaxtlar bu fakültədə «SSRİ xalqları ədəbiyyatı» və «Azerbaydjanskaya literatura» fənlərindən dərs deyirdim. Tez-tez görüşür, dərdləşirdik. Mən ona

həmişə təsəlli verəndə deyərdi: – Ay Vaqif müəllim, yel qayadan nə aparır ki?! Sağ olsun qədirbilən adamlar. Əvvəllər bərk darıxırdım, sıxılırdım. İndi daha yaxından bağlanmışam bu fakültəyə. Burada çox etibarlı və savadlı ziyalılarımız çalışır. Tələbələrim də sağ olsunlar. Məni çox istəyirlər. Bu da bir ömürdür yaşayırıq.

Mən hər dəfə Nəsir müəllimə təskinlik vermək üçün deyirdim:

– Ay Nəsir müəllim, Sizin varlığınız hər şeydən qiymətlidir. Baxın, dörd ətrafınız sizin yetirmələrinizdir. Canınız sağ olsun, səhhətinizə fikir verin. Qalanı düzələcək. Bu dünyada onsuz da əbədi heç nə yoxdur. Siz o qədər xeyirxah əməllər sahibi olmusunuz ki, onlar mütləq qabağınıza çıxacaq.

Nəsir müəllim isə hər dəfə gülə-gülə deyərdi:

– Yox, ay oğul, elə sən deyən narahat deyiləm. Zəmanədir də. Biri enər, biri qalxar. Biri çox irəli gedər, biri yarı yolda qalar. Hərə öz taleyini yaşayır. Təki sağlıq olsun. Bu günə də şükür. Heç nəyin dərdini çəkmirəm. Bircə bəzi adamların dönüklüyü və biganəliyi mənə pis təsir edir. Zərər yoxdur, bu da yəqin müvəqqətidir, keçib gedər.

Həqiqətən bir müddət bu müdrik və nəcib insana münasibətində dönük çıxan adamlar da tapılırdı. Çox təəssüf ki, bunu büruzə vermək istəməsə də, Nəsir müəllim ona olan münasibətə görə hərdən qayğılı görünürdü.

Amma deyirlər hər şeyin zamana ehtiyacı var. Doğrudan da bir neçə il sonra, daha dəqiq desəm, 1993-cü ildən sonra Nəsir müəllimə az-çox biganə





olanlar indi onun başına toplaşır, ətrafından çəkilmirdilər. Dünya görmüş Nəsir müəllim isə hər şeyi yaxşı başa düşürdü, ancaq heç nəyin üstünü vurmurdu. Beləcə illər illəri əvəz etdi. 1993-1998-ci illər ərzində Nəsir müəllimə cürbəcür xahişlərlə o qədər adamlar yan alırdılar ki!

Yaxşı yadımdadır ki, fakültəyə gəlib auditoriyaya girmək istəyəndə də Nəsir müəllimin ətəyindən yapışıb, müxtəlif xahişlər edənlərdən bu müdrik və dözümlü insan zorla yaxasını qurtara bilirdi...

* * *

Bu gün Bakı Dövlət Universitetinin jurnalistika fakültəsində Nəsir müəllimin yeri daha çox görünür. Bu gün gənc jurnalistlərə Nəsir müəllim kimi ağsaqqal professorun, zəngin həyat və peşə təcrübəsinə malik pedaqoqun, məsləhətçinin böyük ehtiyac olduğunu duymamaq mümkün deyil. Amma, nə edəsən ki, həyatın, insan ömrünün öz qayda-qanunları var. Təsəllimiz odur ki, bu gün əbədiyyətə qovuşmuş Nəsir müəllim kimi ziyalılarımız ürəklərdə, hafizələrdə, xatirələrdə yaşayır və bundan sonra da yaşayacaqlar. Çünki milli mədəniyyətimizin tarixində, müasir jurnalistikamızda özünəməxsus və xeyirxah əməlləri ilə dərin və silinməz izlər buraxmış Nəsir müəllim kimi ziyalılarımız sağlığında olduğu kimi, dünyalarını dəyişəndən sonra da qəlblərdə, xatirələrdə əbədi yaşamaq haqqını qazanmış insanlardandır.

**Yalçın Əlizadə**

*Bakı Dövlət Universiteti*
*Jurnalistika fakültəsinin dekanı*

# İŞIQLI ÖMÜR

Nəsir müəllim hər bir peşəkar qələm sahibinin qibtə edə biləcəyi sənət ömrü yaşamışdır. O, mətbuata XX əsrin 30-cu illərində gəlmiş və adına jurnalistika deyilən bir məbədi 70 il özünə qibləgah saymışdır.

Hər şey isə müxbirlikdən başlanmışdır. Sonra «Kommunist» və «Yeni yol» qəzetlərində ədəbi işçi, müharibənin acıları, yenidən «Kommunist» qəzeti (artıq redaktorun müavini qismində), Bakı şəhər partiya komitəsində şöbə müdiri, Baş Radio Məlumat idarəsinin rəisi, Azərbaycan KP MK təbliğat və təşviqat şöbəsi müdirinin müavini, Azərbaycan SSR Nazirlər Soveti yanında Radio və Televiziya Verilişləri Komitəsi sədrinin birinci müavini, nəhayət sənətin zirvə nöqtəsi – 30 il «Bakı» və «Baku» axşam qəzetlərinin redaktoru...





1947-ci ildən bu ömür yolu yeni bir işıqlı ünvanla qovuşmuşdur. Nəsir müəllim həm də Bakı Dövlət Universiteti jurnalistika şöbəsi – fakültəsinin nüfuz sahibli müəllimi – professoru olmuşdur.

Nəsir İmanquliyevin çox sevdiyi və peşə seçimində əhəmiyyətini yüksək qiymətləndirdiyi bir fənn vardı – «Jurnalistikaya giriş». Birinci kursda tədris edilən bu fənlə müəllimimiz jurnalistika deyilən cazibədar bir aləmin qapısına açar salır, tələbələrinə – gələcək qəzetçilərə, televiziya və radio reportyorlarına, nəşriyyat işçilərinə seçimlərində məqsəd aydınlığı gətirir, sənətə məhəbbət aşılayırdı.

Hələ jurnalist seçimimizin romantikası ilə yaşadığımız və tələbə kimi I kursa qəbul olunmağımızdan qürur duyduğumuz 1957-ci il sentyabrın sonlarında dekanımız professor Əli Sultanlı yanında iki nəfər icazə alıb auditoriyaya daxil oldular (sonra öyrəndik ki, gələnlərdən biri hüquq fakültəsinin dekanı, digəri isə şərqşünaslıq şöbəsində kafedra müdiri imiş). Nəsir müəllimin «Jurnalistikaya giriş» fənnindən dərsi idi. Mühazirə bütün qrupu yenə sanki sehirləmişdi. Dekanımız qrupumuzun çox yüksək qəbul imtahanı göstəricilərini xatırladaraq (maksimum 20 baldan 18 bal toplamış abituriyentlər müsabiqədən kənarda qalmışdılar) söylədi ki, hüquq fakültəsində və şərqşünaslıq şöbəsində tutulmamış boş yerlər qalıb. Sizlərdən kim arzu edirsə ərizə yazıb həmin ixtisaslara keçə bilər. Bir nəfər də olsun əlini qaldırmadı. Qonaqlar gedəndən sonra hiss etdik ki, Nəsir müəllim bizim yekdilliyimizdən məmnun

qalıb. Sonralar həmin qrupda «Jurnalistikaya giriş» və digər ixtisas fənlərinin təsiri altında Mailə Muradxanova, Yusif Kərimov, Rafiq Zeynalov, Aydın Əliyev, Ələkbər Abbasov, İlyas Adıgözəlov, Əlövsət Başirov kimi peşəkarlar yetişdi.

Nəsir İmanquliyev 1958-ci ilin yanvarından artıq «Bakı» axşam qəzetinin redaktoru idi.

Onun Azərbaycan jurnalistikasında ən böyük və danılmaz xidmətlərindən biri qəzetdə informasiya xidmətinin yüksək statusunun bərpası yolundakı yaradıcılıq əzmkarlığı ilə bağlıdır. Peşəkar duyğulu informasiya bilicisi idi. Qəzetdə informasiya yaradıcılığını ən vacib və gərəkli sahə hesab edən Nəsir müəllim, xüsusən, «Bakı» və «Baku» qəzetlərinə rəhbərlik etdiyi illərdə bir daha təsdiq etdi ki, istənilən qəzetin simasını, nüfuzunu, oxucu auditoriyasını onun düşünülmüş və peşəkarlığa söykənən informasiya siyasəti müəyyənləşdirir. Nəsir İmanquliyev bu sahədə öz məktəbini yaratmışdı.

İstedadlar gözündən yayınmazdı. Auditoriyadan başlanan seçim Nəsir müəllimin yaradıcılıq laboratoriyası hesab edilən «Bakı» və «Baku» qəzetlərində tamamlanardı. Şamil Şahməmmədov, Şamil Qurbanov, Famil Mehdi, Yusif Kərimov, Dağbəyi İsmayılov Nəsir müəllimin tapıntısı idi. Ancaq müəllimimizin birmənalı qarşılanmayan xasiyyəti vardı: yaradıcılıq pilləsi ilə inkişafından tutmuş, sosial-məişət problemlərinin həllinədək yetirmələrinə şərait yaradan və bundan həmişə daxili bir məmnunluq duyan Nəsir müəllim onlardan hansınınsa başqa işə keçmələrini həddən artıq qısqanclıqla qarşılayardı. Buna bəlkə də haqqı vardı.

N.İmanquliyev sonralar onun müəllim həmkarlarına çevrilən tələbələri ilə çox mehriban münasibət yaratmışdı. Ümumiyyətlə yetirmələrinin uğuruna, yüksəlişinə ürəkdən sevinməyi bacaran adam idi. Onun vaxtilə «Bakı» qəzetinə işə götürdüyü Famil Mehdi sonralar Azərbaycanda jurnalistika sahəsində ilk elmlər doktoru və Nəsir müəllimin çalışdığı jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının müdiri oldu. Xatirini çox istədiyi tələbəsi – professor Tofiq Rüstəmov uzun illər jurnalistika fakültəsinin dekanı və universitet partiya komitəsinin katibi, «Xalq qəzeti»nin baş redaktoru işlədi. Yadımdadır bir dəfə kafedrada Nəsir müəllimlə Tofiq Rüstəmovun söhbətinin üstünə çıxdım. Nəsir müəllim Tofiq müəllimin «7 gün» qəzetinə verdiyi müsahibədən məmnun qalmışdı. Xüsusilə sonuncu sual və Tofiq müəllimin ona cavabı sanki Nəsir müəllimin ürəyindən xəbər vermişdi. «Jurnalist üçün ən vacib keyfiyyət hansıdır?» sualı belə cavablandırılmışdı: «Mədəniyyət, mədəniyyət, yenə də mədəniyyət. Xüsusən, davranış mədəniyyəti, ünsiyyət mədəniyyəti, nitq mədəniyyəti... hər bir qəzetin səhifələri söyüşün, təhqiramiz ifadələrin üzünə bağlı olmalıdır. Belə sözlər və ifadələr heç vaxt, heç bir cəmiyyətdə onları yazanların və camaat arasına çıxaranların üzünü ağ eləməyib...»

Nəsir müəllimin 70 illik yubileyi ilə bağlı jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasında keçirilən şadyanalıqda mən də vardım və müəllimin

adına sağlıq da söylədim. Sağlığın ruhu deyəsən xoşuna gəlmişdi və sonralar rastlaşanda «amma o qalstuk məsələsi maraqlı məsələdi», – deyə gülümsəyər, sifəti nurlanardı.

... Həmin yubiley məclisinə kafedra müdiri professor Famil Mehdi rəhbərlik edirdi. Ürək sözlərini söyləmə növbəsi mənə çatdı. Nəsir müəllimimin jurnalistika aləmində, qəzetçilik və müəllimlik sahəsində yeri və sanbalı haqqında düşündüklərimi söyləyərək tam əminliklə vurğuladım ki, müəllimimiz mənalı ömür yolunda nə əldə edibsə, ancaq və ancaq zəhmətsevərliyi, əqidə saflığı və bütövlüyü, yüksək təşkilati və insani keyfiyyətləri, mədəniyyəti sayəsində əldə edib, qazandığı nüfuz, hamılıqla istək də məhz bunlara görədir. Həmin anda məşhur gürcü müğənnisi və aktyoru Vaxtanq Kikabidzenin bir qədər əvvəl «Komsomolskaya pravda» qəzetində dərc olunmuş ibrətamiz müsahibəsi yadıma düşdü və onun məzmununu məclisə xatırlatdım. Müğənni rəhbərlik etdiyi «Orero» ansamblı ilə Afrikanın ucqar ölkələrindən birinə qastrol səfəri barədə məlumat verərək bildirirdi ki, bu dövr həm də «Mimino» filminin ittifaq miqyasında və dünyanın bir çox ölkəsində görünməmiş rəğbət qazandığı bir dövr idi. O, söyləyirdi ki, qastrolumuzun sonuncu günü həmin ölkədəki (ölkənin adını dəqiq xatırlaya bilmirəm – Y.Ə.) sovet səfirliyi bizim şərəfimizə ziyafət təşkil etdi. Səfir konsertlərimizin müvəffəqiyyəti, yerli əhalinin sovet artistləri kimi bizə münasibəti ilə maraqlandı. Mən mehribanlıqla qarşılanmağımızdan, şəxsən özümə olan böyük simpatiyadan razılıqla danışdım və bildirdim ki, bunlar yəqin həm də «Mimino» filminin gətirdiyi uğurlardır. Söhbət davam etdikcə gördüm ki, səfirin diqqəti daha çox mənim qalstukumdadır. Sonda soruşdu: «Qastrol zamanı həmişə bu qalstuku taxmısınız?». «Hə» cavabını verdim. «Orkestrin üzvləri də?» Yenə təsdiqləyici cavab verdim. Səfir xəfifcə gülümsədi:

– Çox istərdim gümanınız doğru ola. Amma belə deyil. «Mimino» bu ölkəyə hələ gəlməyib. Siz də burada ilk dəfəsiniz və tanınmırsınız. Məsələ başqa cürdür. Buranın camaatında öz ölkəsinin dövlət rəmzlərinə bir fanat istəyi, sevgisi var. Bu rəmzlərə hörmətlə yanaşanlara da eynilə. Bayaq qalstuk barədə sualım təsadüfi deyildi. Boynunuzdakı qalstukun rəngləri bu ölkənin dövlət bayrağının rəngləri ilə eynidir. Sizə olan hörmət, gülərüzlülük də xeyli dərəcədə burdan gəlmişdir.

Mən onda özüm üçün yenidən bir həyat fəlsəfəsini dərk etdim: Bir var adama özünə görə hörmət edənlər, bir də var qalstukuna görə.

Nəsir müəllimin xoşuna gəlmişdi bu.

Professor Nəsir İmanquliyev biz tələbələrinə qəzetçiliyə, radio-televiziya işinə azalmaq bilməyən məhəbbət, təşkilatçılığın sirlərini aşılayırdı, həyatda şəxsiyyət kimi necə formalaşmağı, təmənnasızlığı, övlada, nəvələrə ilahi istəyi ondan əxz etməyə çalışırdıq.

Nəsir müəllim mənim diplom rəhbərim olmuşdu. Diplom yaradıcı mövzuda idi. Hələ IV kursda oxuyarkən digər sənət müəllimimiz professor Nurəddin Babayevin tövsiyəsi ilə Azərbaycan

komsomolunun Mərkəzi Komitəsi qrupumuzdan üç nəfəri kənd təsərrüfatının gənc istehsalat qabaqcıllarından – mayaklardan (ötən əsrin 60-cı illərində onlar belə adlandırılırdı) oçerk yazmaq üçün rayonlara ezam etdi. Mən Saatlı rayonundakı Mirbəşir Qâsımov adına kolxozun qabaqcıl manqabaşçısı İpək Rzayeva ilə bir neçə gün görüşüb söhbət etdim və Bakıya qayıtdıqdan sonra İpək və onun pambıqçı rəfiqələrindən bəhs edən oçerk yazdım. 1961-ci ildə Azərbaycan Uşaq və Gənclər Nəşriyyatı həmin oçerki kitab şəklində 5 min nüsxə tirajla nəşr etdi. Növbəti ildə isə kafedra həmin oçerki diplom işi kimi müdafiə etməyi məsləhət gördü.

Nəsir müəllimin bir sıra yaradıcı tövsiyəsinə uyğun olaraq kitabın üzərində yenidən işlədim, rəhbərim oçerk-diplom işini «hələ redaksiya həyatına tam atılmamış gənc jurnalistin fəaliyyəti üçün çox səciyyəvi və əhəmiyyətli» hadisə adlandıraraq onu «əla» qiymətlə müdafiəyə buraxdı.

Müdafiədən sonra çox sevindim ki, məni «Bakı» qəzetinə işə dəvət etmək istəyir. Ancaq təyinat bölgüsündə Azərbaycan SSR Nazirlər Soveti yanında Radio və Televiziya Verilişləri Komitəsinə göndərildim. Xatırımdaydı ki, Nəsir müəllim Komitə yaranmazdan əvvəl Baş Radio Məlumat idarəsinin rəisi, sonra isə Komitə sədrinin birinci müavini vəzifələrində çalışmışdı. Görünür, bu da tale işi idi: radioda da Nəsir müəllimin işinin davamçılarını onun öz yetirmələri arasından seçmək istəmişdi.







"Qəzet beyinlərə mənəvi qida verən, fikirlərə və düşüncələrə işıq bəxş edən kəsərli vasitədir".

Nəsir İmanquliyev



**Ağabəy Sultanov**
*əməkdar elm xadimi, professor*

## SAĞLAMLIĞIN KEŞİKÇİSİ

Mənim arxivimdə nadir nüsxə – 1 iyun 1963-cü ildə nəşrə başlayan «Baku» qəzetinin birinci sayı var.

«Bakı» sonra isə «Baku» qəzetləri az müddətdə, demək olar ki, ən çox oxunan nəşrlərə çevrildilər. Onların operativliyi həqiqətən çox gözəl idi. Necə deyərlər, o vaxtdan çox sular axmışdır, ancaq onu əvəz edə biləcək, qərəzsiz, dəqiq informasiyanı operativcəsinə ötürəcək bir mətbu orqan «Bakı»nı ötüb keçə bilməyibdir.

Çünki «Bakı» əsl redaktorun redaktəsi, Nəsir müəllim kimi böyük şəxsiyyətin, alimin, peşəkar jurnalistin əsəri idi. Hər şeyə isə əsər demək olmaz.

Nəsir müəllim əsl insan idi. O, şəhər mühitində böyümüşdü. Onun istisinə alışmışdı. Bütöv xarakteri, ləyaqətli şəxsiyyəti var idi. Buna görə də «Bakı» qəzeti təkcə Bakı mühitində qapanıb qalmadı. Qısa müddətdən sonra respublika səviyyəli qəzetlərin cərgəsinə çıxdı. Bununla da ən ucqar dağ kəndində «Bakı»nın sərin mehi əsməyə başladı. Bu qəzetin xoş bir aurası var idi. Bunları oxuduqca su kimi axırdın, ruhun, beynin dincəlirdi. Bu Nəsir müəllimin xarakteri, orada çalışanların səmimiyyəti ilə bağlı idi. Həyatı boyu insanlara xeyirxahlıq edən Nəsir müəllim qəzetlə də bu hissləri təbliğ edirdi.

Bu gün onun nəvələri – əzizlərimiz Mehriban xanım da, Nərgiz xanım da o yolun davamçıları olduqlarını addımbaşı sübut edirlər. Çünki böyük genlərdən dünyada məhz korifeylər, istedadlı insanlar törəyər. Onlar sağlamlığın, gözəlliyin keşiyində durar. Nəsir müəllim də, nəvələri də sağlam ruha sahib insanlar kimi sevgiyə layiqdirlər.

**Akif Əlizadə**
*akademik*

# ALİM HƏR YERDƏ QABAQCIL OLA BİLİR

**Bunu tarixçi alim, professor Nəsir İmanquliyev də sübut etmişdir**

Elm cəmiyyətin başlıca sahəsi, zirvələri fəth etməyin ən doğru yoludur. Alimlik xarakteri insanı hər yerdə ucalda, birinci edə bilir. Bunu tarix elmləri namizədi professor, milli mətbuatımızın klassiki, əməkdar mədəniyyət işçisi, əməkdar jurnalist, mərhum Nəsir Əsədulla oğlu İmanquliyevin simasında açıq-aydın görmək mümkündür. Şərəfli ömür yaşayan, özündən sonra silinməz izlər qoyan, Vətən təəssübkeşliyi, xeyirli işləri, sadəliyi, mərdliyi ilə qəlblərdə yaşayan bu şəxsiyyət jurnalistikada zirvəni fəth etmişdir.

Əslində, elmin müxtəlif sahələrində alim jurnalist daim olub və indi də vardır. Onların hər birinin həm elmdə, həm də jurnalistikada böyük xidmətləri olmuşdur. Nəsir İmanquliyevin jurnalistikaya vermiş olduğu əvəzsiz töhfələr onu bu sahənin zirvəsinə ucaltmışdır. Həmin zirvənin pillələrinə qısaca nəzər salmaq istərdim. Belə ki, Nəsir İmanquliyev 1911-ci il dekabrın 11-də Cənubi Azərbaycanda anadan olmuşdur. Onun həyat və yaradıcılığı çox zəngindir. İxtisasca tarixçi olsa da, jurnalist peşəsinə yiyələnmiş, bu sənətin incəliklərini öyrənmiş, öyrətmiş və inkişaf etdirmişdir. N.İmanquliyevin söz sənətinə vurğunluğu və sənətin incəliklərini duyması onun gələcək həyatını, yaradıcılığını birdəfəlik jurnalistikaya bağlamışdır. Dünyagörüşünün zənginliyi, böyük iş qabiliyyəti, qələminin kəsərliliyi ilə seçilən Nəsir İmanquliyev 1932-ci ildə Azərbaycan KP Mərkəzi Komitəsinin tapşırığı ilə «Kommunist» (indiki «Xalq qəzeti») qəzeti redaksiyasında işə qəbul olunur. Sonralar «Gənc işçi», «Yeni yol» qəzetlərində, müharibə illərində cəbhə qəzetində, daha sonra sərasər 24 il yenə də «Kommunist»də şöbə müdiri, məsul katib, redaktor müavini vəzifələrində çalışmışdır. Bir müddət Bakı Şəhər Partiya Komitəsi təbliğat-təşviqat şöbəsinin müdiri, Mərkəzi Komitədə həmin şöbənin müdir müavini, Radio Verilişləri Baş İdarəsinin rəisi, Azərbaycan Radio-Televiziya Verilişləri Komitəsi sədrinin birinci müavini vəzifələrində işləmiş, nəhayət, 1958-ci ildə «Bakı» qəzetini, 1963-cü ildə isə həm də «Baku»nu yaradaraq, tam 30 il bu nəşrlərin stabil redaktoru olmuşdur.

Nəsir müəllim o vaxtkı hakimiyyətin ali orqanı olan Mərkəzi Komitədə fəaliyyət göstərdiyi müddətdə tapşırılan işi yerinə yetirməklə, necə

deyərlər, adi qrafiklə kifayətlənmirdi. İşə hər zaman yaradıcı yanaşmağı və yazıb-yaratmağı sevir, bunu bir vətəndaş, jurnalist kimi öz borcu, kredosu hesab edirdi. O, öz istedadının, yaradıcılığının və qabiliyyətinin nəticəsini görmək, Vətəninə, vətəndaşına xidmət etmək arzusu ilə yaşayırdı. Necə deyərlər, niyyətin hara, mənzilin də ora. Nəsir müəllim 50-55 il bundan əvvəl düşünürdü ki, nə üçün Bakı boyda şəhərin özünün mətbu orqanı olmasın? O, özü bu barədə yazırdı: «Hələ 50-ci illərdə Mərkəzi Komitədə işləyərkən şəhərin öz qəzetini açmaq fikrini beynimdə çox dolandırdım. Yeni açılacaq qəzetin adını, həcmini, nizamnaməsini öz-özlüyümdə götür-qoy etmişdim. Belə bir qəzetin açılmasının zəruriliyini nəzərə alaraq, Mərkəzi Komitə qarşısında məsələ qaldırmışdım. Məni müdafiə edənlər də olmuşdu, ağız büzənlər də. Lakin sağlam düşüncəli insanların fikirləri üstün gəldi».

Həmin zamanda, senzura qılıncının tüğyan etdiyi məkanda yeni qəzet yaratmaq asan iş deyildi. Qərarı Azərbaycan KP MK qəbul etməli, Sov.İKP MK isə təsdiq etməli idi. Təbii ki, Bakının mətbu orqanı olacaq qəzetin açılması bu səviyyələrdə xeyli ləngidi. Qərarın təsdiq edildiyi vaxt N.İmanquliyev artıq Azərbaycan Radio Verilişləri Komitəsinə sədr təyin edilmişdi və bir il idi ki, yeni vəzifədə işləyirdi. Amma buna baxmayaraq, qəzetin açılması üçün təşkilati işlərin görülməsi və qəzetə rəhbərlik edilməsi kimi məsul işlər Nəsir müəllimə tapşırıldı. Və nəhayət 1958-ci il yanvarın 10-da Azərbaycan paytaxtının adını daşıyan «Bakı» qəzetinin ilk nömrəsi işıq üzü gördü.





Paytaxtımızın salnaməsini yaradan «Bakı» və «Baku» qəzetlərini vərəqlədikcə əmin olursan ki, bu mətbu orqanları şəhərimizin mədəniyyətini, elmini, incəsənətini, sosial-iqtisadi inkişafını, nailiyyətlərini, problemlərini hərtərəfli işıqlandırmağa səy göstərib və buna yüksək səviyyədə nail olub. Hələ Nəsir müəllimin rəhbərliyi dövründə böyük populyarlıq qazanmış bu qəzetlər məhz onun bir redaktor kimi obyektivliyi, cəsarəti, novatorluğu və bacarığı sayəsində nüfuz qazanmış, geniş oxucu kütləsi toplamış və məşhurlaşmışdı.

Bəli, Nəsir müəllim jurnalistikada yeni bir məktəb — «Nəsir İmanquliyev məktəbi» yaratmışdı. Bu məktəbin yaranmasında onun Azərbaycan Dövlət Universitetinin (indiki BDU) jurnalistika fakültəsində ömrünün sonunacan professor kimi böyük pedaqoji fəaliyyəti, yeni jurnalist nəslinin yetişməsində fəal iştirak etməsi də böyük rol oynamışdır. Hazırda bu məktəbin yetirmələrindən bir çoxu müstəqil Azərbaycan dövlətinin qurulmasında, inkişaf etməsində, elmin, mədəniyyətin irəli getməsində, yeni zirvələrə yüksəlməsində yaxından iştirak edirlər. Nəsir İmanquliyevdən bəhrələnənlər arasında Cabir Novruz, Nüsrət Kəsəmənli kimi şairlər, Cəmşid Əmirov, Manaf Süleymanov, Rəfael Nağıyev kimi publisist alimlər var. «Bakı» qəzeti Azərbaycan ədəbiyyatının tanınmış simaları olan bir sıra yazıçılar, şairlər, alimlər üçün ilkin tribuna olmuşdur.

Nəsir İmanquliyevin təmkinli, alicənab, insanı səbirlə, sonacan dinləməsi və başa düşməsi, qayğı

göstərməsi, «Bakı» qəzetinin səhifələrində də hiss olunan araşdırıcı xarakteri onun alimliyindən irəli gəlirdi.

Bizi Nəsir müəllimdən ayıran tarix 1998-ci il martın 6-sıdır. O zaman mən və bir çox həmkarlarım böyük ümid bəsləyirdik ki, alimliyin aliliyini gözəl təcəssüm etdirən, bu adın şərəfli daşıyıcısı olan Nəsir İmanquliyevin xatirəsi nə zamansa əbədiləşdiriləcək. Bu yalnız alim və jurnalistə yox, həm də sanki elmin böyüklüyünə, şərəfinə, gücünə verilən bir qiymət olmalı idi. Ümidlərimiz bu ilin sentyabrında cənab Prezident İlham Əliyevin məlum sərəncamı ilə doğruldu. Hesab edirəm ki, Nəsir İmanquliyev zirvəsinə verilən ən böyük qiymət məhz onun xatirəsinin əbədiləşdirilməsi ilə bağlı verilmiş sərəncamdır. Qocaman alim və jurnalistin keçmiş olduğu bu cür şərəfli yol sübut edir ki, məhz alimlik ziyalının adını yalnız sağlığında deyil, ölümündən sonra da ucalda bilir.

Sonda bir də qeyd etmək istəyirəm ki, Nəsir İmanquliyev kimi parlaq ömür yaşayan, eyni zamanda böyük pedaqoq, gözəl jurnalist və sadə insan olan şəxsiyyətlərin xatirəsi xalqımızın tarixinə əbədi həkk olunmuşdur. İlham Əliyev kimi qayğıkeş, qədirbilən oğullara malik olan xalqımız yaşadıqca bu cür ziyalıların adları da yaşayacaq, yaddan çıxmayacaqdır.







**Akif Hacıyev**
*akademik*

## BÖYÜK MÜƏLLİM

Həyatda o insanlar xoşbəxt, bəxti üzünə güləndir ki, qismətinə düşən ömür payında onun adı ilə çağırıla biləcək bir izi, cığırı olsun. Tanrı lütfündə tale payı kimi sahib çıxdığı bu yolda atılan hər addım, hər bir əməl o şəxsin adına yazılmaqla milyonların yaddaşına hopur və «bu yol filankəsin yoludur» deyirlər. Adı bəlli kişilərin gördüyü işlər, əməllər yalnız onların adları ilə çağırılır. Çünki insanın bu gün sala biləcəyi ən kiçik iz, cığır belə millətin sabahlarına yazılacaq böyük bir tarixdir.

O böyük kişilərdən biri kimi Azərbaycanın görkəmli şəxsiyyətləri sırasında adını mədəniyyət tariximizə qızıl hərflərlə yazan, milli mətbuatımızın inkişafında böyük rol oynamış, yeni jurnalistlər nəslinin yetişməsində təcrübəli pedaqoq kimi müstəsna xidmətlər göstərmiş, çox nüfuzlu naşir kimi dövri mətbuatın istiqamətlərini müəyyənləşdirənlərdən biri olmuş, istedadlı jurnalist, tanınmış publisist, böyük qələm sahibi Nəsir İmanquliyevin ən böyük əməli, ən mükəmməl işi düz əlli ildir bizə şirin-şirin gah pıçıltı, gah da gur səslə yurdumuzun baş şəhəri, ala gözlü Xəzərin – sular Mələyinin, şəhərlər gözəli Bakının bitib-tükənməyən nağılını söyləyən «Bakı» qəzetini milli mətbuatımıza təqdim etməsidir.

«Bakı» qəzeti nəinki Azərbaycan mətbuatında, bütövlükdə götürdükdə mədəniyyət tariximizdə böyük hadisə idi. «Bakı» sadəcə bir qəzet deyil, əksinə ölkəmizdə ilk şəhər qəzeti olaraq böyük bir şəhər mədəniyyətimizin təcəssümü, əksi idi. Paytaxt kimi respublikamızın ictimai-siyasi həyatında aparıcı rol oynayan Bakı şəhərində baş verən bütün hadisələr «Bakı» qəzetində öz təzahürünü tapırdı. Qəzetdə siyasi ab-hava ilə yanaşı, elm, mədəniyyət, ədəbiyyat, təhsil, səhiyyə, idman və digər sahələrlə bağlı mütəmadi yazılar dərc olunurdu.

Nəsir müəllimin xidmətləri sayəsində şəhərə, onun ictimai həyatına yeni nəfəs gətirildi. O illərdə «Bakı» qəzeti qədər izlənilən, oxunan ikinci bir qəzet yox idi. «Bakı» paytaxt qəzeti olsa da, ölkənin ən ucqar guşələrindən belə maraqla izlənilər, sevilə-sevilə oxunardı. Bu böyük sevgini «Bakı» qəzetinə qazandıran əsas cəhətlərdən biri Nəsir İmanquliyevin səriştəli bir qəzetçi, peşəkar publisist kimi xidmətləridirsə, digər tərəfdən başına topladığı və əksəriyyəti öz yetirmələri olan qələm sahiblərinin obyektiv, qərəzsiz yazıları idi.

Nəsir müəllim nəinki «Bakı» qəzetini oxucularına çatdıra bildi, həm də öz yetirmələrini gözəl qələm sahibləri kimi xalqımıza tanıtdı. Onun peşəkar jurnalist kimi fəaliyyətinin ən dəyərli istiqamətlərindən biri «Bakı»nın rus variantını – «Baku» qəzetini çıxarması idi ki, onun bu qəzetdə başlıca məqsədi, amalı şəhərimizin ictimai həyatında baş verən hadisələri, mədəni, elmi, kütləvi yenilikləri rusdilli əhaliyə çatdırmaq idi.

Bu gün də «Bakı» qəzeti öz fəaliyyətini Nəsir müəllimin qoyduğu yol, istiqamət, ideya axarında davam etdirir. O böyük yolla addımlayan bütün qələm sahiblərinə, yaradıcı insanlara uğurlar diləyirəm.





**Arif Mehdiyev**
*akademik*

# KÖÇ YOLU

Vətəndə oturub vətən həsrətinə, vətənsizlik yanğısına göz yaşı tökmək əzabı qədər dünyada ikinci ağrı-acıya rast gəlmək mümkün deyil. Gülüstan, Türkmənçay sövdələşmələrindən üzü bu yana çox ağrılarla baş-başa qalmışıq. Çay boyunca çəpər çəkiləndən Araz boyda dərdimizlə o taylı bu taylı edib bizi atdılar çay kənarına. Hamı yolunda ikən biz yoldan atılıb kənarda qaldıq.

İllərlə yol axtarışına çıxdıq. Ümid millətin başbilənlərinə, ziyalı, alim işığına, qələm sahiblərinin sözünün gücünə, qüdrətinə, müdriklərin hikmətinə qaldı. Millət öz yolunu tapıb aydınlığa çıxsın deyə onlar zaman-zaman o taydan bu taya adlayıb Araz üstə körpüyə döndülər, vətəni vətənə calaq etdilər, Mirzə Cəlillər kimi. Elimizin ayrılıq ağrısının simvolu olan Dədə Şəhriyar Heydər





babaya hələ salam verməmiş, bir çox qələm sahiblərimiz Heydər babaynan sağollaşıb Xudafərinin ayrılıq daşına üz söykəyərək bu taya pənah gətirdilər.

Böyük köçə qoşulan həmin zəvvarlar sonralar yurdun sayılıb-seçilən kişilərindən, başbilənlərindən oldular, ictimai xadim, alim, görkəmli ədib, yazıçı, şair adında Mir Cəlal kimi qələm sahibi millətin mənəvi dəyərlər adında manifestini yaratdısa, Mirzə İbrahimov sözə böyük dayaq oldu. Onların səsinə səs verən Balaş Azəroğlular, Mədinə Gülgünlər, Əli Tudələr, Söhrab Tahirlər də ədəbiyyatımızın tanınmış simalarından oldular.

Onların sırasında görkəmli geoloq-alim, şair, publisist kimi elinə, obasına şöhrət gətirən, atam akademik Şəfaət Mehdiyev də var idi. O da uşaqlığından ayrılığın oduna yanıb Arazı bu taya adlamışdı. Mazutlu yollar boyunca, neft buruqları arasında sıralanan yosmaca daxmaların birində anası Bəyim xanımın bizdən keçən ayrılıq bayatılarına boy atıb, dirçəlib.

Həmişə də boyundan yuxarı boylanıb ki, tez böyüyüb Vətənin başını görə bilsin. O da Vətəndə vətənsizlik ağrısına alışıb yananlardan idi. Torpağın altını belə axtardı, nefti, qazı, filizi tapdı, ancaq yurdu bir-birinə qovuşduracaq yolları arayıb tapa bilmədi. Dərdini ürəyindən asıb Səttarxandan, Ərk qalasından keçib getdi. Beləcə, dünyaynan bir adını bizimlə, Azərbaycanla qoyub getdi, dərdini isə özünə yoldaş etdi.

Akademik Şəfaət Mehdiyev elmdəki yenilikləri, uğurları qədər də oturub-durduğu dostları, dərddaşları ilə məşhur idi. Hamısı da bir-birindən sanballı, adı bəlli kişilər. Onların arasında Cəfər Xəndan, Mirzə İbrahimov, Mir Cəlal Paşayev, Nəsir İmanquliyev daha çox atamla ayrılığın dərdinə ortaq olardılar. Azərbaycan boyda bu böyük dərdin hərəsi bir başından tutub çəkərdi. Hər birinin özünəməxsus üslubu, yazı tərzi, yaradıcılıq yolu vardı.

Nəsir İmanquliyevin yaradıcılıq yolu isə bir qədər də maraqlı, diqqətçəkən idi. Nəsir müəllim böyük qələm sahibi, görkəmli alim, təcrübəli pedaqoq, tanınmış nasir kimi ətrafına onlarla yaradıcı insan toplayaraq cəmiyyətin ictimai şüurunun inkişafında böyük xidmətlər göstərdi. «Bakı» ilə yanaşı həm də rusca işıq üzü görən «Baku» qəzetləri onun adı ilə mətbuat tariximizin yaddaşına yazıldı. «Bakı» axşam qəzeti qaynar xətt kimi şəhər əhalisinin canlı ünsiyyət vasitəsinə çevrilmişdi. Şəhərimizin gündəlik həyatında baş verən əsas hadisələr, demək olar ki, bütünlüklə «Bakı» qəzetinin səhifələrində öz əksini tapırdı. Nəsir müəllim obyektiv insan olduğundan onun rəhbərliyi, redaktorluğu ilə işıq üzü görən qəzetdə gedən yazılar da qərəzsiz olardı.

Nəsir İmanquliyev peşəkar jurnalist olmaqla yanaşı, həm də böyük alim, gözəl tərcüməçi idi. Bakı Dövlət Universitetinin professoru kimi mətbuat tariximizə həsr olunmuş çox ciddi tədqiqat əsərlərinin müəlliflərindən biri məhz Nəsir İmanquliyevdir. Onun araşdırmaları öz aktuallığını bu gün də qoruyub saxlayır. Əsərləri dəyərli mənbə kimi tədqiqata cəlb edilir.

Nəsir İmanquliyev şəxsiyyəti, yaradıcılıq yolu şərəfli tariximiz, dünənki Böyük Köçə qoşulan canlı yaddaşımızdır ki, bu gün biz onu qürurla anıb yada salırıq. Ruhu şad olsun!

**Azad Nəbiyev**
*Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü*

# QƏZETÇİLİYİN SONUNCU MOGİKANI

XX yüzillik Həsən bəy Zərdabi ənənələri əsasında Azərbaycan milli mətbuatının tərəqqi və inkişafı ilə də əlamətdar olmuşdur. Əsrin əvvəllərindən işıq üzü görən müxtəlif məfkurəli qəzet və jurnallar milli həyatı, xalqımızın mədəni yüksəlişini, getdikcə genişlənən istiqlal mübarizəsini eyni mövqedən, lakin müxtəlif platformalardan əks etdirmişdir.

«Molla Nəsrəddin» və «Füyuzat» ədəbi məktəblərinin bu istiqamətdəki çoxcəhətli fəaliyyəti xalqımızın bir çox görkəmli ictimai xadiminin ardıcıl qəzetçiliklə məşğul olmasını gündəmə gətirmişdi. Onları gələcək nəsillərə xalqımızın şöhrətli naşirləri və mühərrirləri kimi tanıtmışdı. C.Məmmədquluzadə, Ə.Hüseynzadə, Ə.Ağaoğlu, M.Şahtaxtinski, Ö.F.Nemanzadə və onlarla başqa naşir və mühərrirlərimizin adı əsrin birinci yarısında





yaranıb yayılan milli mətbuatımızın tarixinə əbədi olaraq həkk edildi. Bu ənənə müharibədən sonrakı illərdə böyük ardıcıllıqla davam etdirildi. Lakin sovet ideologiyasını, sosialist həyat gerçəkliklərini təbliğ etməyi qarşısına başlıca məqsəd qoyan dövrün mətbuatı milli-mənavi və əxlaqi dəyərlərin qorunub saxlanmasında üzərinə düşən vəzifələrin də öhdəsindən, demək olar ki, gələ bilmişdir.

50-ci illərin ikinci yarısından bütün başqa sahələrdə olduğu kimi, mətbuat sahəsində də silsilə yeniliklər özünü göstərməyə başladı. İdeoloji məddahlıqdan uzaqlaşma, xalqın həyatını, məişətini, əxlaq məsələlərini əhatə etmək, oxucunun estetik zövqünü, geniş informasiya tələbini oxşaya biləcək məsələlər qəzet naşirləri qarşısında ciddi şəkildə qoyuldu. Mətbuatın məzmun və formaca zənginləşdirilməsinin vacibliyini önə çıxardı. Bu tələblərə cavab verə biləcək yeni sahə və region qəzetlərinin nəşri axtarışlarına başlanıldı. Keçmiş Sovetlər Birliyi məkanında genişlənən bu prosesə Azərbaycan jurnalistləri də qoşuldular. İrəli sürülən çoxsaylı təklif və təşəbbüslər Azərbaycanın rəhbər orqanlarında da müzakirə edildi.

Geniş müzakirələrdən sonra onların bir qismi Kremlə – ölkənin baş ideoloji mərkəzinə göndərildi. Bir xeyli sükutdan sonra Moskvadan xoş xəbər alındı. Bir neçə çoxtirajlı qəzetlərlə yanaşı, Bakıda şəhər partiya və icraiyyə komitələrinin orqanı kimi rus və Azərbaycan dillərində «Bakı» və «Baku» qəzetlərinin nəşri barədə tanınmış jurnalist Nəsir İmanquliyevin təklifi bir sıra təshihlərlə qəbul edilmişdi. Təklifin qəbulunun əsas səbəbi isə Nəsir

İmanquliyevin həmin qəzetləri «Axşam qəzeti» kimi nəşr etmək təklifi, bu təklifə əlavə edilən tərtibat və proqram göstəricisinin bəyanilməsi idi. Həmin təklifdə N.İmanquliyevin axşam qəzetini müstəqil nəşr kimi çap təklifi isə qəbul edilməmiş, qəzetin partiya və sovet idarəçiliyinin nəzarəti altında nəşri məqsədəuyğun hesab olunmuşdu. Qərar çox keçmədən reallaşdı. 1958-ci ildə Nəsir müəllim çoxdan bəri istədiyi bir arzusuna qovuşdu. Onun baş redaktorluğu ilə «Bakı» axşam qəzeti kiçik formatda işıq üzü gördü. Bir qədər sonra isə qəzet iki dildə – rus və azərbaycan dillərində böyük formatda nəşr olunmağa başladı.

«Bakı» və «Baku» axşam qəzetlərinin nəşri təkcə dövrünün tanınmış jurnalisti Nəsir İmanquliyevin həyatında yox, Azərbaycan mətbuatı tarixində yeni hadisə oldu. Dünya mətbuatı təcrübəsinə əsaslanan Nəsir müəllim sovet dövrü mətbuatının buxovlarını qıraraq Azərbaycan mətbuatı tarixində forma, məzmun və tərtibat baxımından yeni qəzet yaratdı. Qəzetçiliyə silsilə yeniliklər gətirdi. Elə bu keyfiyyətlərinə görə «Bakı» və «Baku» axşam qəzetləri şəhər oxucularının geniş dairəsini əhatə etdi, dövrünün ən oxunaqlı və kütləvi qəzetlərindən biri kimi tanındı.

Qəzetçiliyin nəzəri və praktiki məsələlərini dərindən bilən Nəsir İmanquliyev jurnalistikaya dair elmi-nəzəri fikri inkişaf etdirdi, respublikada qəzet jurnalistikasının elmi əsasını qoydu və onun hüdudlarını genişləndirdi. Hələ çox gənc yaşlarından fəaliyyətini iki istiqamətdə – peşəkar mühərrir və Bakı Dövlət Universitetinin «Mətbuat tarixi və nəzəriyyəsi» kafedrasının dosenti kimi yüksək ixtisaslı jurnalist kadrlarının hazırlanması istiqamətlərində davam etdirən Nəsir İmanquliyev öz fəaliyyətində nəzəriyyə ilə təcrübəni sıx şəkildə birləşdirə bildi. Bu isə ona bir neçə nəsil peşəkar jurnalist kadrlarını yetişdirməyə imkan verdi. Nəsillər yetişib boya-başa çatdıqca Nəsir müəllimin qəlbi fərəhindən dağa döndü, onlarla dost, həmkar oldu, uğurlarına sevindi.

Mənim Nəsir İmanquliyevlə tanışlıq və dostluğum da elə onun yüzlərlə tələbələrindən biri kimi universitetin auditoriyalarında başlamış və uzun illər davam etmişdir. Nəsir İmanquliyev universitet müəllimlərinin öz tələbələrinə övlad münasibəti bəsləyən nəslinə məxsus korifeylərindən idi. Dərs dediyi tələbələri sevirdi, onların öz ixtisasına yiyələnməsi üçün əlindən gələni edirdi. Tələbələrindən hansınınsa maddi çətinliyə düşdüyünü hiss edəndə onu qəzetinə ştatlı, yaxud ştatdankənar işə dəvət edirdi. Ayrı-ayrı istedadlı tələbələrinə qəzet səhifələrində yer ayırmaq üçün müntəzəm olaraq onların yazılarını çap edib məharətlə ictimai fikrə təqdim edirdi.

Nəsir müəllimlə mənim də maraqlı tanışlığım vardı. Tale elə gətirmişdi ki, mən filologiya fakültəsinin ikinci kursunda bu fakültənin jurnalistika şöbəsinə keçməli olmuşdum. Nəsir müəllimdən dörd fərq imtahanı verməli idim. Göndərişləri alıb kafedraya gəldim. Dedilər bu həftə Nəsir müəllimin fakültəsində dərsi yoxdur. İş yerinə getməlisən, getdim, tələbəsinin gəldiyini bilən kimi məni içəri çağırdı, çox xoş qarşıladı, mənimlə xeyli

söhbət elədi, qiymət kitabçasını istədi, açıb baxdı və heç nə soruşmadan dörd fəndən «əla» qiymət yazdı, sonra onları səbir və səliqə ilə göndərişlərə köçürdü. Müəllimin bu səmimiyyətindən çox sıxıldım. Məni tər basdı. Güclə «sağ olun» deyə bildim. Ayağa qalxıb getmək istəyəndə qoymadı. Mənə çay gətirtdi. Sonra isə «ədəbi tənqid» şöbəsinin müdirini çağırıb ona dedi ki, mənim tələbəmdir, hər həftə qəzetdə bir yazısı getsin, sifariş elə yazsın, işləyib təqdim edin».

Belə də oldu, uzun müddət hər həftə «Bakı» qəzetində bir yazım getdi. Bu, mənim Nəsir İmanquliyev haqqında ilk, heç vaxt solub yaddan çıxmayan gənclik təəssüratım idi. Ondan sonra Nəsir müəllim daha iki semestr dərs dedi. Bu illərdə ilk növbədə mən çalışdım ki, Nəsir müəllimin mənə göstərdiyi etimadı doğruldum. Yaxşı oxudum, dərslərə hazırlığımdan və çap etdirdiyim yazılardan Nəsir müəllim razı qalmışdı. Sonrakı semestr ərzində gördüm ki, ilk baxışda çox ciddi, bir az da zəhmli görünən bu insanın yumşaq qəlbi, tələbələrinə isti və qılıqlı münasibəti var. O, hamı ilə səmimi münasibət saxlayır, hər kəsə hamıya əlindən gələn köməyi edirdi. Gündəlik dərslərdə tələbkar, imtahanda yumşaq və mehriban idi.

Mühazirələri məzmunlu, diqqətçəkən idi. Hər bir mühazirəsində jurnalistikanın yeni bir problemini tələbəyə çatdırır, seminar dərslərində isə həmin «nəzəri» fikirləri bizə praktik baxımdan öyrədirdi.

İllərin arxasında qalaraq xatirəyə çevrilən o günlərə qayıdıb Nəsir müəllimin həmişə parlaq, xoş və gülümsər çöhrəsini yaddaşımıza əbədi həkk olan nəsihətlərini xatırlayanda bu gözəl insanın cismani





yoxluğuna təəssüflənir, onu minnətdarlıqla xatırlayaraq deyirəm ki, Nəsir müəllim bizə sadə, mənalı, gözəl yazmağı və gözəl danışmağı öyrətdi. O, bizə elmləri, insanları sevmək, vərdişlərini aşıladı, əlimizdən tutub həyatın bir az hamar, bir az dolanbac yollarında irəliyə doğru yerişimizi səmtləndirdi.

XX yüzillikdə qəzetimizin və milli mətbuatımızın sonuncu mogikanı kimi o, özündən sonra təkcə yeni qəzetçilik təcrübəsi və nəzəriyyəsi ənənəsi, oxucu zövqünü oxşayan, tarixən yeni bir «Axşam qəzeti» qoyub getmədi. Eyni zamanda bu yeni düşüncə və ideyaları hələ uzun illər çiynində apara biləcək bir ziyalı nəsli, jurnalist ordusu qoyub getdi.

Ruhun şad, məzarın daim nurlu, işıqlı olsun, əziz və unudulmaz müəllimim!

**Bəkir Nəbiyev**
*akademik*

## BÖYÜK ƏMƏL SAHİBİ

Keçən əsrin 50-ci illərinin başlanğıcında Bakıdakı yeganə universitetin filologiya fakültəsində təhsil alarkən mənim yataqxana yoldaşlarım və dostlarım, həmin fakültənin jurnalistika şöbəsinin tələbələri Xəlil Xəlilov (xalq şairi Xəlil Rza Ulutürk) və Qulu Xəlilov (filologiya elmləri doktoru, professor Qulu Xəlilli) onlara ixtisas fənnindən dərs deyən bir müəllimi çox tərifləyir, onun bir psixoloq kimi auditoriyanı necə ram etdiyindən heyranlıqla danışırdılar. Dostlarım onun müdrik kəlamlarından sitatlar gətirir, qəzet nəşrinin kənar gözlə görünməyən çox incə, etik mətləblərdəki sahəsində öyrəndikləri yenilikləri barədə fikir mübadiləsi aparır, bəzən məni də bu söhbətlərə cəlb edirdilər. Onlar tez-tez Nəsir müəllimin adını çəkir və özlərinin bu müəllimə məhəbbət və inamlarını əsla gizlətmirdilər.





Bizim də o zaman əla müəllimlərimiz və elminə, əxlaqına pərəstiş etdiyimiz Mikayıl Rəfili, Həmid Araslı, Fuad Qasımzadə, Cəfər Xəndan, Məmməd Arif Dadaşzadə və Əli Sultanlı kimi professorlarımız var idi. Bununla belə, Nəsir müəllimin şəxsiyyətinə məndə xüsusi maraq oyanmışdı. Arzumu nəzərə alan dostlarım bir gün dərsarası tənəffüs vaxtı fakültə dekanlığının dəhlizində məni öz sevimli müəllimləri ilə tanış etdilər.

Mən nə üçünsə onu universitetin qocamanlarından biri kimi təsəvvür edirdim. Amma qarşımda orta yaşlarında, qədd-qamətli, gülərüzlü, vüqarlı bir kişi durmuşdu. Bir qədər çaşan kimi oldum... Adımı, soyadımı eşidən kimi işıqlı çöhrəsi daha mehriban bir görkəm aldı, məqalələrimlə tanış olduğunu dedi (o zaman artıq iki il idi ki, Xəlilin şeirləri, Qulunun və mənim yeni bədii əsərlər haqqında resenziyalarımız dövri mətbuatda, özəlliklə də «Ədəbiyyat qəzeti»ndə dərc olunurdu). Tələbələrə münasibətindəki səmimiyyəti, o zamanın qaynar informasiya mühitindəki yeniliklərə dair başqalarınkından seçilən mötəbər qənaətləri məni Nəsir müəllimə bağladı və biz 1998-ci ildə dünyasını dəyişənə qədər onunla ünsiyyətdə olduq. Heç də təsadüfi deyil ki, Azərbaycan mətbuatının ən nüfuzlu və çox oxunan nümunələrindən olan «Bakı» qəzeti ilk nömrələrdən etibarən həm oxucu, az sonra isə həm də bir müəllif kimi mənim doğma qəzetim oldu.

1957-ci ilin son günlərində belə bir xoş xəbər aldıq ki, Bakıda şəhər qəzeti təsis olunur. Bu, çox

fərəhli hadisə idi. Çünki dünyanın bir çox ölkəsində şəhər (axşam) qəzetləri olduğu halda, mənim doğma paytaxtımda ilk dəfə idi ki, belə bir qəzet səsini ucaltmağa imkan tapırdı.

Əlbəttə, mən də cavan bir jurnalist və ədəbiyyatçı kimi elə ilk çağlardan bu qəzetlə əməkdaşlığa başladım. Nəsir İmanquliyevin, bu qəzetin yüksək səviyyədə çıxıb tezliklə özünə geniş oxucu kütləsi qazanmasında əvəzsiz xidmətləri olub. Məni də bu qəzetə o cəlb eləmişdi. O zamankı ədəbi proses haqqında bəzi yazılarım, yeni kitablar haqqında resenziyalarım məhz «Bakı» qəzetinin səhifələrində işıq üzü görüb. Sonralar bəzi xarici ölkələrə səfərlərimin təəssüratı olan yol qeydlərini də «Bakı»nın səhifələrində dərc etdirmişəm.

Nəşr olunduğu ilk gündən elm, sənət adamlarını, cavan istedadları başına toplayan «Bakı» qəzeti xoş məramlı, ideyası çevik, operativ, peşəkar yazıları, məlumatları ilə Nəsir müəllimin mənəvi aləminə ayna olmuşdu. Düz 30 il bu iki dildə nəşr olunan şəhər qəzetinə rəhbərlik edən Nəsir İmanquliyev təmənnasız bir maarifpərvər ziyalı kimi istedadlı qələm sahiblərinin, xeyirxah insanların arxa-dayağı olmuşdur. Bu isə o zamanlar çox böyük hadisə idi. Bu səbəbdən də Nəsir müəllimin yetirmələri də xasiyyətdə, böyük-kiçiyə hörmətdə onu xatırlayır, yada salırlar.

Yaxşı yadımdadır. 1999-cu ilin martında Həcc ziyarətinə yollanmışdıq. Təyyarədə Nəsir müəllimin yetirmələrindən də var idi. «Bakı» qəzetindən, onun mərhum baş redaktorundan, hörmətli Nəsir





müəllimdən xeyli söhbət etdik. Onunla bağlı xoş xatirələri yada saldıq. «Bakı» qəzetinin əməkdaşı olmuş Dağbəyi İsmayılov dedi ki, bu gün Nəsir müəllimin xatirə günüdür. Dünyasını dəyişməsindən bir il ötür. İmkan olsaydı bir ehsan süfrəsi açardıq, Quran tapşırtdırardıq. Dedim, hörmətli Şeyxə – Allahşükür Paşazadəyə deyərəm. Dedim də... Şeyximiz çox sağ olsun, bizi qırmadı.

O zamanlar doğma Azərbaycanımızın uzaq ölkədəki bir parçasında, Səudiyyə Ərəbistanındakı səfirliyimizdən – Elman Araslıdan xahiş etdik. Səfirlikdə süfrə açdıq, Nəsir müəllimi adına, əməlinə layiq ehtiramla yada saldıq.

Yada salınmağa tam haqqı çatan kişiyə dualar oxuduq. Bu da hər adama nəsib olmur. Gərək əməlinlə, nəcibliyinlə bunu qazanasan. Nəsir müəllim kimi!

**Budaq Budaqov**
*akademik*

## JURNALİST ELMİMİZİN XX ƏSR ÖNDƏRİ

Mən Nəsir müəllimlə tanış olduqdan sonra özümə sual verirdim ki, ondakı yumşaqürəklilik, yetimlərə qayğı, işsizlərə dayaq olmaq, əliaçıqlıq, insanlara xoş münasibət, səmimilik, təmizlik, dərin mənəviyyatlıq, vətənpərvərlik haradandır belə.

Nəsir (Nəsrulla) müəllimdə bütün bu keyfiyyətlər onun keçdiyi ağır həyat yolundan gəlirdi. O, vətəndən didərgin düşmüş, Sabunçuda ağır həyat keçirmiş, «Kommunist», «Yeni yol», «Gənc işçi» qəzetlərində işləmiş, 1941-1945-ci illər müharibəsində barıt qoxusu duymuş, «Döyüşən Krım» qəzetində məsul katib işləmiş, hərbi hissədə tərcüməçi kimi fəaliyyət göstərmişdi... Nəsir müəllimi bir insan kimi belə bir həyat formalaşdırmışdı. 1934-cü ildən başlayaraq mətbuata həvəs göstərən Nəsir İmanquliyev 1947-ci ildə Azərbaycan Dövlət Universitetinin filologiya





fakültəsində pedaqoji fəaliyyətə başlayıb. Bu universitetdə mətbuatın nəzəriyyəsindən və təcrübəsindən mühazirələr oxuyub. Nəsir müəllim artıq 37 yaşında respublikada tanınmış jurnalist idi.

Əslində Nəsir müəllimin jurnalistika ixtisasının kökü 1934-cü ildə qoyulub. Çünki o, peşə məktəbində oxuya-oxuya dövri mətbuatın astanasından içəri daxil olub. Mətbuata olan bu həvəsi də onu Azərbaycanda XX əsrin görkəmli və ağsaqqal bir jurnalisti səviyyəsinə ucaldıb. 1932-1952-ci illərdə Nəsir İmanquliyev qəzetlərdə ədəbi işçi, ədəbi şöbənin müdir müavini, şöbə müdiri, məsul katib, redaktor vəzifələrində çalışıbdı. İş elə gətirib ki, Nəsir müəllim ordu sıralarında (1942) Krım cəbhəsində «Döyüşən Krım» qəzetində də məsul katib vəzifəsində çalışıb.

Nəsir müəllimin vətənpərvər olmasının kökü onun qanında idi. O, «Kommunist» qəzetində məsul katib işləyə-işləyə, hərbi vətənpərvərlik mövzusunda məqalələr dərc etdirirdi.

Nəsir İmanquluyevin jurnalistika sənəti özünü daha qabarıq şəkildə pedaqoji fəaliyyətə başladığı dövrdə – 1947-ci ildən büruzə verib.

Nəsir İmanquliyev 1948-1950-ci illərdə eksperiment yolla ADU-nun filologiya fakültəsində təhsil alıb, 1948-1955-ci illərdə isə Moskvada partiya məktəbini bitirmişdi.

Jurnalistlərin real yazıları ölkələrin informasiya aynasıdır. Jurnalistlərin birgə müsbət fəaliyyəti dünyanı narahat edən bir çox mənfi məzmunlu problemlərin müsbət relsə keçməsinə səbəb olur. Bu

baxımdan bəşəriyyət jurnalistlərin xeyirxah əməllərinə çox borcludur.

Dünya ictimaiyyətinin tanıdığı və onların yaradıcılığına hörmət etdiyi şəxslərin vaxtında işıq üzü görmüş yazıları bir neçə beynəlxalq əhəmiyyətli problemlərin müsbət həll edilməsinə öz töhfəsini vermiş olur. Bu mənada tanınmış jurnalistlər, eyni zamanda birbaşa ancaq öz vətəninə yox, dünya xalqlarına xidmət etmiş olurlar.

Dünyanı narahat edən bu və digər problemləri vaxtında açıqlayan jurnalistlər bəşəriyyət üçün xeyirxah işlər görmüş olurlar. Jurnalistlər dünyada cərəyan edən iqtisadi, siyasi, mədəni prosesin təbliğ edilməsinin ilk qaranquşlarına və carçılarına çevrilirlər. Jurnalistlər əksər hallarda yolunu azmışları düzgün yola dəvət edən xeyirxah qüvvələrdi.

Onlar dahilərin elmi kəşfini dünyaya bəyan edən və bu yolda faydalı əmək sərf edən şəxslərdir.

Sağlam ruhlu jurnalistlər sağlam ictimai-siyasi mühit yaradırlar. Jurnalist xalqın, ölkənin bütün beynəlxalq əhəmiyyətli problemlərini vaxtında dünyaya elan edən ziyalı qüvvəsidir. Jurnalist ölkənin daxilində baş verən bütün proseslərin cəminin araya gətirilməsində faydalı əmək sərf edən ziyalı dəstəsidir.

Əgər ölkə daxilində baş verən və müşahidə edilən müsbət və ya mənfi əhvalatları günaşırı qələmə alan və onları saflaşdırma yoluna dəvət edən qüvvə olmasa, ölkə daxilində qarşısı çətin alınan bir neçə hadisə baş verə bilər.

Jurnalistlər ölkə daxilində açıq-açığına və ya gizlində baş verə biləcək prosesləri duyub onu ölkə





əhalisinin nəzərinə çatdıran qüvvədir. Jurnalist gözü qartal gözü kimi yuxarıdan müsbət və mənfi cəhətləri görən və onun başının üstünü alan çevik bir qüvvədir. Jurnalistlər qarışqa kimi daim informasiya yükü daşıyır və qlobal miqyaslı informasiyaları ictimaiyyətin nəzərinə çatdıran şəxslərdir. O şəxslər proseslərə öz münasibətlərini bildirirlər. Bu yolla jurnalistlər ölkənin regionun və ya dünyanın keşiyində duran əli silahlı ayıq əsgərlərdir.

Əgər jurnalistlər olmasa, ölkə əhalisi dünyada baş verən hadisələrə biganə olarlar. Deməli, jurnalistlər öz informasiyaları ilə xalqı daim ayıq saxlayırlar.

Jurnalist qələminin itiliyi əsgərin düşmənə qarşı qılıncını daim iti saxlaması deməkdir. Jurnalist hər gün kərənti ilə alaq otlarını biçən və daim ölkə tarlasına əlvan çiçəklər əkən əli qabarlı ziyalı dəstəsidir.

Dülgərlər əyrini rəndələdiyi kimi jurnalistlər də cəmiyyətdə müşahidə edilən siyasi, iqtisadi, hərbi əyintiləri düzəldir.

Jurnalist ölkənin əli qələmli ayıq-sayıq və narahat ordusudur.

Jurnalist əyrini düzə, düzü zirvəyə yönəldən sağlam ictimai-siyasi qüvvədir.

Jurnalistlər ölkəni əhalisinə və bütün dünyaya tanıdan faydalı bir qüvvədir. Jurnalistlərə yamanlıq edənlər İlahinin düşmənidir.

Ölkənin həyatında elmə, incəsənətə, televiziyaya, radioya, dövri mətbuata, hərbə, siyasətə, iqtisadiyyata, sənayeyə, kənd təsərrüfatına və ya

həyatın bütün şaxələrinə xidmət edən peşəkar jurnalistlər ölkəyə daim ümid olan dayaqdırlar.

Jurnalistlər beynəlxalq miqyasda verilən informasiyalarıyla insanların diqqətini bu qitədən o qitəyə, bu ölkədən o ölkəyə, bu dövlətdən o dövlətə, bu xalqdan o xalqa, bu qonşudan o qonşuya istiqamətləndirən çevik bir qüvvədirlər. Qüdrətli ölkəyə qüdrətli də jurnalistlər lazımdır.

Jurnalistsiz ölkə köstəbək kimi daim qapalı və qaranlıq mühitdə həyat sürən mənasız bir varlığa bənzər.

Jurnalistlərin verdikləri informasiyalar daim dinləyicilərin, tamaşaçıların, oxucuların düşüncə yükünü artırmaqla onların daxili dünyasına işıq saçır və bununla onların mənalı yaşamasına yardımçı olurlar. Jurnalist əməyi dünyaya mənəvi işıq saçan vacib ictimai siyasi qüvvədir.

Jurnalistlərin aramsız real məlumatları dünyada baş verə biləcək bütün qorxulu sahələrin gərginliyini azaldır. Bununla onlar ola biləcək müharibə təhlükəsini belə aradan qaldırmağa zəmin yaradırlar. Bu yolla jurnalistlər dünyaya öz ən ali xidmətlərini göstərmiş olurlar. Jurnalistlər dünyaya sağlam ab-hava gətirən əvəzsiz ictimai siyasi qüvvədir. Jurnalistlərdə xəbis təbiətli dövlət xadimlərini, gizli aqressiv fikirli şəxsləri ovsunlamaq, onların qapalı daxili dünyasını dünyaya bəyan etmək məharəti bəşəriyyət üçün çox faydalıdır.

Vətənpərvər jurnalistlərin başının tacı günəşdən gələn işıqdır. Jurnalistlər lal dillərin açarı, xəstə fikirlərin cərrahı, sağlam fikirlərin carçısıdırlar.





Mətbuatın nəzəri problemlərinə yiyələnmiş Nəsir müəllim onu çox zəngin praktiki biliyi ilə dərindən uğurlu çarpazlaşdırmışdı. Buna görə də o, təkmil redaktor, respublikada sayılıb seçilən jurnalist və bununla yanaşı, öz işini məsuliyyətlə aparan dövlət xadimi olmuşdu.

Bu səbəbdən də o, 1952-ci ildə Azərbaycan Kommunist Partiyasının Bakı şəhər Komitəsində təbliğat-təşkilat şöbəsinin müdiri, həmin ilin iyulundan 1956-cı ilin sonuna qədər Azərbaycan Mədəniyyət Nazirliyinin Radio informasiya baş idarəsinin rəisi olmuşdu və nazirliyin kollegiya üzvü seçilmişdi. Bu vəzifədə Nəsir müəllimin jurnalistikada olan təcrübəsi onun partiyanın mətbuata verdiyi tələblə uzlaşmışdı. Nəsir müəllim etibarlı partiya işçisi kimi 1958-ci ildə Bakı şəhər sovetinin «Bakı» axşam qəzetinin, eyni zamanda 1963-cü ildən rus dilində işıq üzü görən «Baku» axşam qəzetinin redaktoru olmuşdur. O, hər iki qəzetin redaktoru ola-ola yazdığı məqalələri respublikanın bir neçə qəzet və jurnallarında dərc etdirmişdi.

Məşhur redaktor Nəsir İmanquliyev 1965-ci ildə əldə etdiyi elmi nəticələri ümumiləşdirərək alimlik dərəcəsi almaq üçün filologiya elmləri namizədi dissertasiyası müdafiə etmişdi. 1965-ci ildə Nəsir İmanquliyev ADU-nun jurnalistika nəzəriyyəsi və təcrübəsi kafedrasının dosenti, 1996-cı ildən isə məsləhətçi professoru seçilmişdi.

Nəsir müəllim əmək fəaliyyətini məqsədyönlü olaraq bir istiqamətə yönəltmişdi. O, jurnalistika sənətinə tam yiyələnmiş, bu sahədə həm nəzəri və

həm də praktiki cəhətdən məşhur şəxs olmuşdu. Nəsir İmanquliyev elmi-pedaqoji fəaliyyətini haçalayaraq iki istiqamətə uğurla yönəltmişdi. Onlardan biri çoxlarının qibtə edəcəyi jurnalist, digəri isə elmi-pedaqoji fəaliyyəti olmuşdur.

Onu da deyim ki, Nəsir İmanquliyev bu hər iki istiqamətdə xalqın ürəyindən olan uğur qazanmış və partiyanın etimadını doğrultmuşdu.

Nəsir müəllim quru və ya cılız qanunpərəst deyildi. O, əldə etdiyi insani keyfiyyətlərlə rast gələnən həyat hadisələrini uğurla qovuşdurmağı bacarırdı. Onun ən ali insani keyfiyyəti və zəngin jurnalist qabiliyyəti Azərbaycanın daha da faydalı yolla yüksəlişinə və yolunu azmışların islahına xidmət etmişdi. Nəsir İmanquliyev həyatda dərin iz buraxdığı üçün mətbuat tarixinin yaddaşında bu gün də yaşayır. Onun yetirdiyi çoxsaylı kadrlar da uğurla xalqa xidmət etmişlər.

Azərbaycanda hər əsrin özünəməxsus görkəmli ziyalıları o, cümlədən də böyük şəxsiyyətləri olmuşdur. Onlar öz yazıları ilə xalqımızın ən yetkin və hamının qəbul etdiyi şəxslər olmuşlar. Onlar xalqa nümunə olmuşlar. Xalqın ön cərgəsində gedən şəxslər olmuşlar. XX əsrdə Azərbaycan jurnalistləri içərisində Nəsir İmanquliyev və Qulam Məmmədli Azərbaycan jurnalistika sənətinin ən möhtəşəm və ən hörmətli, sayılıb-seçilən adamları olmuşlar. Azərbaycan jurnalistləri bu iki şəxsə onlara baxıb özlərini nizamlayır, onlardan tərbiyə alır və öz ixtisaslarından zövq alırdılar.

XX əsrin ikinci yarısında yetişmiş Azərbaycan jurnalistləri içərisində Nəsir İmanquliyevin özünəməxsus yeri var. Nəsir müəllim ucaboy, sakit təbiətli, beş eşidib bir danışan, dərin biliyə malik olan, Azərbaycan jurnalistlərinin ağsaqqalına çevrilmiş bir şəxs idi. Səmimi dost, gənclərə arxa, yeni əmək fəaliyyətinə başlayan jurnalistlərə işgüzar qayğı göstərən qayğıkeş şəxs idi.

Nəsir İmanquliyev və Qulam Məmmədli XX əsrin ən möhtəşəm jurnalistlərindən idilər. Mən Nəsir müəllimə bütöv bir insan kimi baxırdım. O, məğrur idi. Əyilməz idi. Nəsir müəllim öz jurnalist sənətinin şahı idi. Onun şahlıq kürsüsü Azərbaycan torpağında özünə yer almışdı. Nəsir müəllimin sənətkarlığının gücü də eləcə yaşadığı və gəzdiyi torpaqda idi.

Müdrik insanların çoxu kimi o, daim dərin düşüncəli, təmkinli, özünü hər tərəfdən qorumağı bacaran vətən övladı idi. Məncə, əgər XX əsrin ikinci yarısında jurnalistlər ordusunun içində Nəsir müəllimlə Qulam Məmmədli olmasaydı, bu sənət cılız və ya yararsız görünərdi.

1970-ci il və ondan sonrakı illər Azərbaycan elminin çiçəklənən dövrü idi. Buna səbəb 1945-1955-ci illərdə AEA Rəyasət Heyəti üzvlərinin və onun prezidentinin elmi kadrların seçilməsində düşünülmüş və ədalətli olmaları idi. Onlar Azərbaycanda ali məktəbləri yüksək göstəricilərlə bitirmiş ali təhsilliləri diqqətlə seçərək, SSRİ EA-nın müxtəlif institutlarına elmi ezamiyyətə göndərməklə vətən qarşısında öz borclarını yerinə yetirmişlər. Aspiranturaya daxil olmuş Azərbaycan övladları Moskvada təhsil alan millətlərdən olan gənc kadrlarla demək olar ki, yarışa girərək aspiranturada

təhsillərini uğurla başa vuraraq, Bakıya, AEA-nın müvafiq institutlarında işə daxil olmuşlar.

Moskvada yüksək təhsil almış gənc elmi kadrların hər biri ciddi elmi tədqiqat işlərini davam etdirmişlər. Onu da deyim ki onların cərgəsi hər il yeni aspirantlarla və başqa gənc elmi kadrlarla möhkəmlənirdi. Bu obyektiv səbəbdən 1970-ci və ondan sonrakı illərdə Azərbaycan EA-da elm şahə qalxmaqda davam edirdi.

Bu dövrdə (1969-cu ildən başlayaraq) cənab Heydər Əliyevin Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə gəlməsi və yüksək ixtisaslı kadrların hazırlanması, gənc kadrların yetişdirilməsi ilə onun elmə olan qayğısı elmin məqsədyönlü inkişafı ilə üst-üstə düşdü.

Heydər Əliyevin mətbuata olan ciddi tələbkarlığı Azərbaycanın çoxistiqamətli mətbuatını köklü şəkildə canlandırdı.

Elmin inkişafı dövri mətbuatın canlanması ilə üst-üstə düşdüyünə görə onların arasında sıx əlaqə yarandı. Dövri qəzetlər, xüsusilə «Kommunist» və «Bakinskiy raboçiy» qəzetləri aid öz səhifələrində elmin uğurlarına məqalələr dərc etdirməyə can atdılar.

Bu baxımdan Nəsir İmanquliyevin baş redaktoru olduğu «Bakı» və «Baku» qəzetlərinin əməkdaşları çox fəal və uğurlu fəaliyyət göstərirdilər.

1970-1990-cı illərdə AEA Coğrafiya İnstitutunda da çox məqsədyönlü elmi tədqiqat işləri aparılırdı. Hər il institut əməkdaşları respublika ərazisinə bir neçə ekspedisiyalar təşkil edir, ezamiyyətlərə gedir, respublika əhəmiyyəti konfranslar keçirirdilər. SSRİ-nin müttəfiq respublikalarında keçirilən elmi simpoziumlarda iştirak edir, məruzələrlə çıxış edirdilər.

Bu səbəbdən də çox təcrübəli jurnalist Nəsir İmanquliyevin redaktor olduğu qəzetlərin redaksiya heyətinin işçiləri, xüsusilə jurnalist Şükufə xanım Tağızadə hər həftə mənə, institutun elmi işlər üzrə direktor müavininə zəng edir və ciddi işgüzar tələblərlə yeni elmi informasiya tələb edirdi ki, «Bakı» qəzetinin səhifələrində işıqlandırılsın.

O vaxtlar «Bakı» qəzetinin məsul katibi çox savadlı, talantlı Şamil müəllim idi. Şamil Nəsir müəllimin rəhbərliyi altında yetişir, püxtələşir və adlı-sanlı mətbuat işçisinə çevrilirdi. Heç təsadüfi deyildi ki, Şamil müəllim sonradan AKP MK birinci katibi Heydər Əliyevin seçimi ilə respublika mətbuatının başında durdu.

Nəsir müəllimə mən çox isti və xoş münasibət bəsləyirdim.

Jurnalist Nəsir İmanquliyev respublikada bütün aparıcı jurnalistləri yaxşı tanıyırdı. Bundan əlavə, o, dövri mətbuatda istər siyasi və istərsə də elmi baxımdan çıxış edən müəlliflərin əksəriyyətini tanıyır, onlarla sıx əlaqə saxlayırdı. Nəsir müəllim çalışırdı ki, onun redaktor olduğu qəzetlərdə qəlbinə yatan jurnalistlərin sanballı məqalələri dərc edilsin.

Nəsir müəllim mənim «Bakı» qəzetində dərc edilən məqalələrimə yaxşı münasibət göstərirdi. Bu da məni həvəsləndirirdi ki, yazacağım çoxsaylı məqalələri «Bakı» qəzetində dərc etdirim.

Redaktor Nəsir İmanquliyevin və qəzetin məsul katibi Şamilin xoş münasibəti sayəsində mənim

«Bakı» qəzetində bir çox, o cümlədən də «Tarixi həqiqətlər belədir. Redaksiyaya məktub» (Bakı, 1971, 18 may) işıq üzü görmüşdü. Bu məqalə olduğu kimi 1971-ci il iyun ayının 17-də «Azərbaycan gəncləri» qəzetində də dərc edildi.

Mən həmin bu məqaləni yazmaqla iki məqsəd daşımışam. Onlardan biri Bakı coğrafi adı ilə bağlıydı, ikincisi isə Qız qalası haqqında əfsanəyə mənfi münasibətə qarşı idi. XX əsrin son illərində mətbuatda dərc edilmiş məqalələrdə deyilirdi ki, guya Bakı adı fars dilində «Badi kuba»-«Küləkli şəhər» deməkdir. Tarixçi toponimist Əli Hüseynzadə öz tədqiqatında göstərmişdi ki, Bakı coğrafi adı Mahmud Kaşğarinin məşhur lüğətində göstərilmişdi ki, Bakı toponimi qədim türk dillərində təpə deməkdir. Əslində Bakı şəhəri də təpə üzərində salınmışdı (İçəri şəhər). Beləliklə, mən bu məqalədə Bakı haqqında olan yanlış fikirləri inkar edərək tarixi həqiqəti bərpa etmişəm.

Məqaləmin ikinci hissəsi Qız qalası haqqında olan tarixi əfsanədir. Qız qalası əfsanəsində deyildiyi kimi, qala dənizin içərisində deyil, quruda tikilib. Qala tikilənə qədər orada quyu qazıblar. Quyuda içməli su olduğundan Qız qalasını həmin quyu üzərində tikmişlər. Azərbaycanda bir neçə yerdə Qız qalası adlı qalalar da tikilmişdi. Qalaya qız qalası deməkdə, o qalaları alınmazlıq (bakirəlik) mənasında belə adlandırmışlar.

Mən məqalədə yazmışam ki, Bakıya gələn turistlərə izah edirlər ki, guya qalanı qızına aşiq olmuş bir xan tikdirib. Guya qala tikilib qurtarana qədər atada qızına qarşı olan məhəbbət sönməyib, ona görə də qala tikilib başa çatdıqda qız özünü dənizə atıb.

Bəla burasındadır ki, bələdçilik edən turizm şirkətinin işçiləri heç bir mənəvi əzab çəkmədən bu əfsanəni turistlər arasında yayır və bununla özləri heç bir əsası olmadan millətə qara yaxırlar. Mən bu məqalədə göstərmişdim ki, turistlərə bələdçilik edən şəxslər millətimizə qarşı olan bu əfsanəni onlara danışmasınlar və qalanın müdafiə istehkamı olması kimi izah etsinlər. Onu da yada salım ki, bir erməni şairi də Qız qalasına həsr edilmiş poema yazmışdı. Bu poema ilə erməni millətindən olan şair xalqımıza böhtan atmışdı. Bu əfsanə əsasında Azərbaycanda balet əsəri də yazılmışdı. Mənim o məqaləmi Nəsir müəllim bəyəndiyindən onun «Bakı» qəzetində dərc edilməyinə razılıq vermiş və mənə şəxsi görüşümüzdə öz sağolunu demişdi.

Onu da deyim ki, «Bakı» qəzeti respublika oxucuları arasında çox populyar idı. Bu qəzetdə dərc edilən məqalələr çox oxunaqlı olduğundan onun abunəçiləri də ildən-ilə artırdı. «Bakı» qəzeti işçilərinin, xüsusilə onun redaktoru Azərbaycan jurnalistlərinin müqəddəs şəxsi Nəsir müəllimin öz sənətini gözəl bilməsi, qəzetdə dərc ediləcək məqalələrin oxunaqlı olması oxucular arasında qəzetin hörmətini çox qaldırmışdı. «Bakı» qəzeti 1958-ci ildə təsis ediləndə əsas məqsəd Bakı oxucuları üçün nəzərdə tutulmuşdu və bu qəzet «Axşam qəzeti» funksiyasını yerinə yetirməli idi. Ancaq qəzetdə dərc edilənlər savadlı və o günlər üçün çox aktual olduğundan Azərbaycanın rayonlarından da onun abunəçiləri çox idi. «Bakı»

və «Baku» qəzetlərinin respublika ictimaiyyəti arasında populyar olması, bir daha qeyd edim ki, Nəsir İmanquliyevin jurnalist fəaliyyətinin yetkinliyi və hər bir məqaləyə olan ciddi tələbi sayəsində idi.

O dövrdə Azərbaycan KP MK birinci katibi Heydər Əliyev dövri mətbuat işinə həm nəzarət edir və həm də tələb edirdi.

Bir dəfə «Bakı» qəzetinin əməkdaşlarından biri neçəsi öz işlərində müxbir etikasına tam riayət etmədikləri üçün onların məsələsi müzakirə olundu və onlardan bir neçəsi «Bakı» qəzeti redaksiyasından çıxarıldı.

Deməli, Nəsir müəllim nə qədər ağsaqqal olsa da, nə qədər qayğıkeş olsa da, yenə də işdə səhv etmiş əməkdaşlarının cəza almasına razı olmadı.

Redaksiya işçiləri işgüzar olmaqdan başqa həm də öz obyektiv yazıları ilə xalqın hörmətini qazanmış jurnalistlər olmalıydı. O, bu tələbkarlığı ömrünün sonuna qədər davam etdirdi.

Nəsir müəllim öz işçilərinə tələbi artıra-artıra onların qayğısına da qalırdı. Ona görə də Nəsir müəllimin redaksiya işçiləri arasında xüsusi hörməti var idi.

Nəsir İmanquliyev Azərbaycan dövri mətbuatın mayakı idi. Nəsir müəllimlə mən nadir hallarda görüşürdük. Buna baxmayaraq onun mənə olan hörməti əsaslı və həm də köklü idi.

Nəsir müəllimin mənə olan münasibəti ilə əlaqədar bir həqiqəti də oxucuların nəzərinə çatdırmağı lazım bilirəm.

Bir neçə il bundan əvvəl mənim yanıma bir nəfər gəldi. Özünü təqdim etdi və sonra dedi ki, Nəsir müəllim mənə demişdi ki, «əgər gələcəkdə sənin hər hansısa bir işinə görə köməyə ehtiyacın olsa, Budaq müəllimə müraciət edərsən».

Nəsir müəllimin mənə olan inamı, etibarı məndə qürur hissi oyatdı. Mən Nəsir müəllimə bir daha rəhmət oxudum, onun o dünyası nurla dolsun, yeri cənnətlik olsun, dedim.

Sonra mənə müraciət edən şəxsə məsləhət gördüm ki, vaxt gələcək, sizin məsələniz də həll olunacaq.

Nəsir müəllim aydan arı, sudan duru müqəddəs bir şəxs idi. Nəsir müəllimin özü bir insan kimi, jurnalist sənətinin zirvəsində duran bir mütəxəssis kimi onu tanıyanların hamısına nümunə idi.

Nəsir İmanquliyev bütün şəxslərə dayaq olmağa, onların işinə yaramağa hazır idi.

Ancaq ondan da çox qanunpərəst idi. Qanunu pozanlarla, ümumi milli ənənələrə riayət etməyənlərlə arası olmazdı və belələrinə haqlı olaraq kəc baxırdı. Nəsir İmanquliyevin redaktor olduğu «Bakı» və «Baku» qəzetləri əsasən respublikamızın paytaxt vətəndaşlarına xəbərlər çatdırmaq üçün yaradılmışdı. Bu qəzetdə ciddi, məzmunlu, oxunaqlı məqalələr də çox olurdu.

Azərbaycan KP MK birinci katibi Heydər Əliyev demək olar ki, hər gün qəzetləri mütaliə edir və onu maraqlandıran məqalələri oxuyurdu.

Heydər Əliyevin o məqalələr haqqında öz fikrini açıq deməsi qəzet işçilərinin məsuliyyətini daha da artırırdı. Bu səbəbdən də qəzet redaktorları yaxşı yazılar axtarışında idilər. O dövrdə tənqidi xarakterli obyektiv yazılara da xüsusi diqqət yetirirdilər.

«Bakı» axşam qəzeti həmin dövrdə qismən azsaylı qəzetlər karvanı tərkibinə orqanik şəkildə daxil olmuşdu.

Azsaylı qəzetlərin oxucusu daha çox olur. İndiki dövrdə oxucu bilə bilmir ki, hansı qəzet onun ruhunu oxşaya bilir ki, o qəzeti alıb oxusun. Bundan əlavə müasir (xüsusilə müxalifət yönlü) qəzetlərdə dərc olunmuş məqalələrin böyük əksəriyyətində böhtan, təhqiredici yazı və ya yalan məzmunlu məqalələr oxucunu onlardan çiyrəndirir.

Keçid dövrünün müasir mərhələsində bəzi Azərbaycan jurnalistlərinin çoxu, xüsusilə gənc jurnalistlər Nəsir İmanquliyevə müraciət edir və ondan məsləhətlər alırdılar. Nəsir müəllimin BDU-nun jurnalistika fakültəsində dərs deməsi onların yüksək professional səviyyədə hazırlanmalarına əməli kömək edirdi.

«Bakı» qəzetinin işçiləri öz işlərinə böyük məsuliyyətlə yanaşırdılar. Bu da qəzetdəki məqalələrin məzmunlu və savadlı olmasına yaxından kömək edirdi.

AEA Coğrafiya İnstitutunun 1970-1995-ci illərdəki tarixini «Bakı» qəzet səhifələrində axtarmaq lazımdır. Bu qəzetdə Coğrafiya İnstitutundan alınan elmi məlumatlar respublikada təşkil olunan ekspedisiyalardan, o ekspedisiyaların təşkili məqsədindən və ekspedisiyalardan sonra əldə edilmiş ilkin elmi nəticələrdən bəhs olunurdu. Bundan əlavə ilin sonunda elmin yeni uğurlarına aid yazılar verilirdi. İnstitutun il ərzində çap olunmuş əsərləri, monoqrafiyalar, xəritələr haqqında da ətraflı məlumatlar dərc edilirdi.





Bir sözlə, Nəsir müəllimin «Bakı» qəzeti yaxşı bir ənənə yaratmışdı. Kommunist rejimi dövründə rus dilində çıxan «Bakinskiy raboçiy», «Vışka», «Molodyoj Azerbaydjana» qəzetlərində dərc edilən tənqidi məqalələrə Mərkəzi Komitədə xüsusi əhəmiyyət verirdilər. Bundan əlavə «Bakinskiy raboçiy" qəzetinin redaktoru və ya redaksiya heyətinin işçiləri Azərbaycan xalqının boynunun ardında yerləşən sehrli qılınc idi. Bu qəzetin işçiləri Azərbaycan xalqına qanun öyrədir, ağıl verir və kiminsə adi, bir səhvinin şişirdilərək araşdırılmasında və hər hansısa bir hökm çıxarmaqda mühüm rol oynayırdı.

Ancaq rus dilində dərc edilən «Baku» adlı qəzetin xalqın işinə yersiz qarışmağa heç bir hüququ yox idi. Nəsir müəllim bir vətənpərvər redaktor kimi buna icazə verməzdi. Nəsir müəllim bir vətənpərvər alim kimi respublikanın, o cümlədən də xalqın mənafeyini müdafiə edirdi. Bu, Nəsir müəllimə xas olan ən ali bir cəhət idi.

Nəsir İmanquliyev zamanın tələbini ciddi yerinə yetirən, eyni zamanda xalqın, onun ayrı-ayrı övladlarının qayğısına qalan şərəfli və qeyrətli vətən övladı idi.

**Fuad Qasımzadə**
*akademik*

## ADINA VƏ SOYADINA LAYİQ İNSAN

Nə üçün yazıma belə ad, belə sərlövhə seçdim. Haqqında xatirə söyləyəcəyim şəxs Nəsir İmanquliyevdir. Ərəbcə «iman» inanma, inam, etiqad deməkdir, «qulu» isə köməkçi. «İmanqulu» dedikdə imana, inama, etiqada kömək edən nəzərdə tutulur. «Nəsir» (nasir) isə yenə də kömək edən deməkdir. Yazıçı, (nasir) isə ədib mənasında da işlədilir. Bəli, hansını qəbul etsən, düz çıxar. Nəsir İmanquliyev əsl iman, inam, etiqad adamı idi, həm də elə istedadlı ədib, nasir, yazıçı, jurnalist, publisist.

Nəsir müəllimin atası ona ad qoyanda və soyadı qəbul edəndə, səhv etməyib. Ad və soy adı daşıyıcısına uyğun gəlir, fəlsəfi dildə desək, bu, məzmunla formanın uyğunluğudur. Elə əsl fəlsəfə məhz bunu istəyir, bunu bəyənir: məzmunla forma tuş gəlsin, uyğun olsun.





Nəsir İmanquliyev Azərbaycanın sovetlər dövründə yetişən və məhsuldar fəaliyyət göstərən jurnalistlərinin yaşlı nəslinə mənsubdur. Belə nəslə, zənnimcə, Ruhulla Axundov, bir qədər sonra Əli Vəliyev, Həsən Şahgəldiyev, Qəzənfər Məmmədov, Şəmsəddin Abbasov, İsrafil Nəzərli kimi jurnalistləri aid etməliyik.

Mən Nəsir İmanquliyev kimi müqtədir jurnalisti demək olar ki, öz uşaqlıq vaxtlarımdan, yeniyetməlik və tələbəlik vaxtlarımdan tanıyırdım. Yazdıqlarını həvəslə oxuyanlardan idim. Xeyli qəzet və jurnal məqalələrini oxumuşam desəm, səhv olmaz. Onun yaradıcılığının, jurnalistlik fəaliyyətinin iki dövrünü isə xüsusi qeyd etmək istərdim: «Kommunist» (sovetlər dövrünün mətbuatında baş orqanı olan qəzet və «Bakı» («Baku») axşam qəzetləri. Bu qəzet isə bakılıların, paytaxt əhalisinin sevimli qəzeti idi. «Kommunist» və «Bakı» qəzetlərinə abunəçi idik. Elə vaxt olub ki, atam da yazılıb, mən də. İmtina etməmişik. Eyni qəzetdən evimizə 2 nüsxə gələn vaxtlar da olub. Elə bunu «Bakı» qəzeti haqqında da demək olar. Çünki abunə öz yerində, dözə bilməyib aşağı düşür, qəzet köşkündən alırdım. Bəzən çalışırdım ki, abunə Azərbaycan dilində olanını alım. Xülasə, hansı variant olursa-olsun mənzilimizə daxil olan bir nüsxədə deyil, 2 nüsxədə olurdu. Nəsir müəllim elə baş redaktor olduğu vaxtlarda və ondan sonra da jurnalistika fakültəsində dərs deyirdi. Mənim işlədiyim və 1962-ci ildən bu vaxta kimi müdiri olduğum fəlsəfə kafedrası da bu fakültənin ərazisində, eyni bir mərtəbədə yerləşir. Odur ki,

burada da tez-tez görüşə bilirdik. Evdə də, ictimai yerlərdə də, xüsusən, rəsmi dairələrdə, o vaxt rəhbər idarə olan MK-da, Bakı Komitəsində də görüşlərimiz az olmurdu. Park və bağlarda, xüsusən, dəniz kənarı bulvarda da.

Bütün bu saysız-hesabsız görüşlər, maraqlı söhbətlər məndə Nəsir müəllim haqqında dolğun bir təsəvvür yaradıb. Özü də çox yüksək mənada, sözün ən yaxşı mənasında.

Görüşlər vaxtı olduqca maraqlı söhbətlərimiz olurdu. Əsasən xalqımızın tarixindən, keçmişindən, daha çox elm və mədəniyyətindən, ədəbiyyatından, incəsənətindən, idmandan, başlıca olaraq futboldan, «Neftçi»dən. Onu da deyim ki, Nəsir müəllim «Bakı» və «Baku» redaksiyalarına yaxşı idman jurnalistlərini yığmışdı.

Çox təriflədiyi, sevdiyi adamlar sırasında daha çox Şəfaət Mehdiyevin, Mir Cəlal Paşayevin adlarını çəkərdi. Atam akademik Feyzulla Qasımzadə, onun öz sözlərilə desək, «Mirzə Feyzulla» haqqında xüsusi hörmətlə danışardı. Sultanovlar qardaşlarından: Məmmədağa, Rəhim və Qədir Sultanovlardan da həmçinin.

Bəzən gənclər ağsaqqaldan, yaşca özündən böyük olan, sanballı şəxslərdən bilikli, müdrik kişilərdən söhbət düşəndə «məzəli» sözünü, «məzəli kişi» ifadəsini işlədirlər. «Məzə» bizim dildə «ləzzət», «zövq», «dad» deməkdir. «Maraq» mənasında da işlədilir, «məzəli» dedikdə yeni «ləzzətli», «zövqlü», «maraqlı» adam. Məncə, məhz bu mənalarda «məzə» sözü Nəsir müəllimə çox yaraşır (türklər «yaraşır», yox «yapışır» deyirlər).





Bəli, hansı mənada qəbul edirsənsə et: Nəsir müəllimə məzə sözü yaraşır, yapışır. Çünki həqiqətən məzəli adam, məzəli kişi idi. O, tanınmış, məhsuldar, bilikli jurnalist olmaqla yanaşı, həm də gözəl insan, əsl ziyalı, sadə və təvazökar adam idi. Sadə, mədəni və təvazökar! Üstəgəl, həm də cəsarətli. Bunu şəxsən özüm dərk etmiş, canlı şahidi olmuşam.

Nəsir müəllimin baş redaktor olduğu qəzetlər («Bakı» və «Baku») paytaxtımızın iqtisadi, ictimai-siyasi və elmi-mədəni həyatına dair geniş məlumatlar verir, orijinallığı ilə seçilirdi. Azərbaycan dilində ilk nömrəsi 1958-ci il yanvarın 10-da, rus dilində isə 1963-cü il iyunun 1-də çıxmışdı. Tezliklə məşhurlaşmışdı. 1976-cı ildə onun Azərbaycan dilində tirajı demək olar ki, yüz min (dəqiq desək 99 min), rus dilində isə az qala bunun yarısı (45 min) qədər idi. O biri illər barədə dəqiq məlumatım yoxdur.

Məhz, Nəsir müəllimin vaxtında qəzetin formatı böyüdü, səhifələri artdı. Dedim ki, Nəsir müəllimin cəsarəti, iradəli jurnalist, redaktor olduğunu şəxsən dərk etmişəm. 60-cı illərdə mənim respublikamızın bir qrup adamı ilə Türkiyəyə səfərim oldu. O vaxt sovet-Türkiyə münasibətlərində gərginlik var idi. Boğazlar məsələsindəki mövqeyinə görə sovetləri Türkiyədə o qədər də sevmir, yaxşı qarşılamırdılar. Erməni və bir para şovinistlərin təbliğatı da öz işini görmüşdü. Türkiyədən danışanlara, Türkiyənin sadəcə olaraq adını belə çəkənlərə «pantürkist» damğası vurulur, belələri pislənilirdi. O vaxt mən bir sıra rəsmi vəzifəli şəxsiyyətlə, tanınmış

adamlarla yuxarı təşkilatlara müraciət etdik ki, bizə heç olmazsa turist qrupu kimi, öz pulumuza bir neçə günlüyə Türkiyəyə getməyə icazə versinlər. Xahişimiz baş tutdu. Mən ömür-gün yoldaşım Mələk xanımla, bir neçə rəsmi şəxslə (Bakı Komitəsinin birinci katibi N.Nəsrullayev və arvadı, Sumqayıtın birinci katibi N.Balakişiyev və arvadı, MK işçisi, şərqşünas və şair Ənvər Nəzərli, SSRİ xalq artisti H.Qurbanova və başqaları ilə birlikdə Türkiyəyə getmək imkanı əldə etdik. Amma bir çox şərtlərlə, 30 günlük səfərin 18 günü əvvəlcə o vaxt sosialist ölkəsi olan Bolqarıstanda olmalı, verdiyimiz pulun böyük əksəriyyəti (təxminən 3/4) Bolqarıstana çatmalı, 18 gün orada qalmalı idik. Türkiyənin isə cəmisi 3 şəhərində, hər birində 4 gün qalmaqla (İstanbul, İzmir, Ankara), cəmisi 12 gün qala bilərdik. Xülasə, getdik. Mən səfərlə bağlı xatirə və müşahidələrimi: «Rumeli-Anadolu yazıları» adı altında «Bakı» qəzeti redaksiyasına verdim. Yazılarım Türkiyəyə böyük məhəbbət, hörmət və maraq ruhunda yazılmışdı, ölkəni və qardaş türk xalqını tərifləyən müddəalarla dolu idi. Nəsir müəllim bu irihəcmli yazıları, heç bir ixtisar etmədən, dəyişdirmədən bir-birinin ardınca 5 məqalə şəklində, qəzetin 5 sayında verdi. Bu, böyük bir cəsarət idi. Yazılar böyük maraq və gurultulu əks-səda, rezonans doğurmuşdu.

Minlərlə oxucu redaksiyaya, Nəsir müəllimə, mənə, evə və iş yerinə zəng vurub minnətdarlıq etdiklərini bildirirdilər.

Nəsir müəllim gözəl bir ata, qayğıkeş valideyn və ailə başçısı idi. Təkcə elə bunu deyim ki, yeganə





övladı olan Aida xanım görkəmli ərəbşünas alim, SSRİ-də tanınan şərqşünas oldu. Onun ərəb ədəbiyyatına, xüsusən mühacir (məhcər) ədəbiyyatına aid olan sanballı tədqiqatları bütün şərqşünaslıq aləmində, dünya və sovet şərqşünaslığında böyük maraq doğurmuşdu, indi də yüksək qiymətləndirilir, təriflənir. Aida xanım xalqımızın görkəmli filoloq alimi və yazıçısı Mir Cəlal Paşayevin böyük oğlu Arif müəllimlə ailə həyatı qurdu. Arif müəllim indi fizika sahəsində dünya şöhrətli alim, akademik, Aviasiya Akademiyasının rektorudur.

Arif müəllim və Aida xanımın övladları respublikamızda tanınmış, gözəl ziyalı xanımlardır: Mehriban xanım YUNESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı, Heydər Əliyev fondunun prezidentidir, təhsil, səhiyyə və elm sahəsindəki məhsuldar fəaliyyətilə dərin hörmət qazanmışdır. Nərgiz xanım – filologiya elmləri doktoru, BDU-nun prorektorudur və universitetimizin beynəlxalq əlaqələr sahəsində geniş və uğurlu fəaliyyəti ilə tanınmışdır.

Bəli, Nəsir müəllimin qızı, kürəkəni, nəvələri xalqımızın dərin hörmət və istəyini qazanmış adamlardır.

Mən, Nəsir İmanquliyevə Allahdan qəni-qəni rəhmətlər diləyirəm, ruhu şad olsun!

Nəsir İmanquliyev haqqında yazılarımı başlıqda dediyim sözlərlə bildirmək istəyirəm. O, adına və soy adına mənaca uyğun gələn adam idi. İmana, inama, əqidəyə, mənəvi dəyərlərimizə kömək edən şəxs olmuşdur.

Nəsir müəllimə çeviklik, operativlik xas idi, bu isə jurnalist, xüsusən qəzet redaktoru olan jurnalist üçün vacib şərtdir. Şahidi olduğum bir faktı xatırladım. 1988-ci ildə olmuşdu.

Ömür-gün yoldaşım Mələk xanım bioloq alim kimi yox, ictimaiyyətçi bir qadın kimi məqalə yazmışdı.. O, vaxt o biologiya fakültəsində qadınlar şurasının sədri idi. Məqalədə Bakının Xətai rayonundakı 3 saylı uşaq evinə himayəlik məsələlərinə həsr olunmuşdu. Məqalə BDU-nun biologiya fakültəsinin himayəçiliyindən və Novruz bayramı günlərində (21 mart) uşaqların bayram sevincindən söhbət gedirdi. O məqaləni «Bakı» qəzetinin redaksiyasına verdi. Elə o günü Nəsir müəllim özü məqaləni oxuyub, redaktə etdi. Elə ertəsi günü də martın 22-də qəzetdə dərc olundu.







**Seyfəddin Qəndilov**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, əməkdar elm xadimi, professor*

## XATİRƏSİ ƏZİZ İNSAN

Ömrümüzdən illər çox sürətlə keçir, heç göz açmağa belə imkan qalmır. Ancaq bu sürətin izləri zaman-zaman xatırlana-xatırlana bizim xatirə yaddaşımızın bir parçasına dönür. Yaddaşlarda yaşanan xatirələr həyatımızın bir daha mənalı anlarına çevrilir. Həmin illərə, anlara yenidən qayıdır, o illəri bir daha maraqla yada salırsan.

O günləri indi də tez-tez xatırlayıram. Respublikamızın tanınmış jurnalisti, Azərbaycan jurnalistikasının görkəmli siması, istedadlı alim, qayğıkeş pedaqoq, mehriban, xeyirxah, müdrik insan Nəsir İmanquliyevlə ilk tanışlığımızı, onunla olan görüş və təmaslarımızı yada salıram. Doğrudan da, bu tanışlıq az sonra çox mehriban ünsiyyətə çevrildi. Hər zaman görüşəndə o, mənə gülərüz, mehriban münasibət göstərərdi. Üz-üzə gələndə heç bir zaman təkcə salamlaşmaqla ayrılmazdıq. Hökmən hər ikimiz ayaq saxlayıb mehribanlıqla hal-əhval tutar, qısa söhbətdən sonra ayrılardıq. Universitetdə birgə çalışdığımız illərdə tez-tez görüşərdik. Bəzən görüşlərimiz çay süfrəsi arxasında davam edərdi. Söhbətlərimiz hər zaman çox maraqlı keçərdi. Bir-birimizi bir sözdən başa düşərdik. Nəsir müəllim mənim həmin illərdə respublika televiziyasında «Beynəlxalq həyat» məsələlərinə dair çıxışlarıma, hazırladığım siyasi icmallara maraq göstərər və xoş sözlər deyərdi. Onunla hər görüş məndə böyük həvəs, ruh yüksəkliyi yaradırdı. Hər dəfə ondan nəsə öyrənirdim, ruhlanırdım. Mənə Jurnalistlər İttifaqına üzv olmağı məsləhət görərdi və deyərdi ki, istəsən sənə zəmanət də verərəm. Sonralar onun məsləhətilə respublika Jurnalistlər İttifaqının üzvü oldum.

Yaxşı yadımdadır. 1958-ci il yanvar ayının 10-da «Bakı» qəzeti fəaliyyətə başlayandan düz bir ay sonra qəzetdə mənim namizədlik dissertasiyamın müdafiəsi haqqında elan dərc olunmuşdu. O zaman dissertasiya müdafiələrindən əvvəl qəzetdə elan verilirdi. Mənim müdafiəm haqqında «Bakı» qəzetində elanın dərci 1958-ci il fevralın 10-a təsadüf etdi («Bakı» qəzetinin həmin nömrəsi indi də mənim şəxsi arxivimdədir). Elə Nəsir müəllimlə ilk tanışlığımız da o zaman olmuşdu. Mən özümü təqdim edərək universitetin komsomol komitəsinin birinci katibi olduğumu, müdafiəyə hazırlaşdığımı bildirdim və qəzetdə bu məsələ ilə əlaqədar elan verməyi xahiş etdim. O, məni çox mehribanlıqla

qarşıladı. Müdafiə edəcəyimə şad oldu və zarafatla dedi ki, «komsomola yol həmişə açıqdır». Bu məni çox sevindirdi. Sanki müdafiə qabağı mənə böyük ruh verdi. Beləcə tanışlığımız və ünsiyyətimiz yarandı. Sonrakı illərdəki təmaslarımızın birində, televiziya ilə çıxışlarımdan razı olduğunu bildirdi. «Dünyada baş verən ictimai-siyasi hadisələri çox yaxşı şərh edirsən, hadisələrə ötəri deyil, dəqiqliklə yanaşırsan. Bu mənim xoşuma gəlir. Planetin mənzərəsini olduğu kimi tamaşaçıya çatdırmağı, informasiyaları düzgün, yerində toplamağı isə peşəkarlar bacarırlar. Bəlkə elə bizim «Bakı» qəzetində «Beynəlxalq həyat» rubrikası açaq. Müntəzəm olaraq bizim qəzetin səhifələrində də çıxış edərsən» – deyə bildirdi. Onun bu təklifi çox xoşuma gəldi və özümə olan inamımı daha da artırdı. Belə populyar və çox oxunan bir qəzetdə müntəzəm çıxış etmək hörmətli iş idi. Həmin vaxtdan başlayaraq, Nəsir müəllimlə təkcə universitetdə deyil, qəzetdə də əlaqələrimiz davam etməyə başladı. O, həqiqətən çox maraqlı həmsöhbət və xeyirxah bir insan idi. Təkcə respublikada deyil, bütün dünyada gedən prosesləri düzgün qiymətləndirməyi bacarır, onları dərindən təhlil edə bilirdi. Zəngin dünyagörüşü, iti hafizəsi var idi. Aydın hiss olunurdu ki, müntəzəm mütaliə edir, hərtərəfli biliyə malikdir. Daim mütaliə etdiyindən öyrəndiyini və bildiklərini başqalarına öyrətməkdən də sanki zövq alırdı.

O illərdə redaksiyalarla, jurnalistlərlə ünsiyyətim çox olduğundan onun yetirmələrindən həmişə Nəsir müəllim haqqında xoş sözlər eşidərdim. Onlar bu





nəcib insanın səmimi ünsiyyəti, böyük qayğısı haqqında həmişə xoş sözlər deyirdilər. Onun tanıdığım yetirmələri Nəsir müəllimi çox sevdiklərini bu gün də deyir, bu nəcib və xeyirxah insanı xoş hisslərlə xatırlayırlar.

Bu insan həqiqətən sənətinin vurğunu idi. Bütün qəlbi və varlığı ilə jurnalistika aləminə bağlı idi. Respublikamızın jurnalistika məktəbinin təməlini qoruyub inkişaf etdirən şəxslərdən idi.

Nəsir müəllim başqa işlərinin çox olmasına baxmayaraq, jurnalistika fakültəsindəki dərslərinə elə həvəslə gələrdi ki, bunu kənardan görməmək mümkün deyildi. Nə vacib işi olursa-olsun, bu onun dərslərinin boş keçməsinə səbəb olmurdu. Tələbələrini çox sevir, istedadlı gəncləri tapıb seçir və qiymətləndirirdi. Tənəffüslər arası dəhlizlərdə qarşılaşanda həmin o az vaxtda imkan tapar, hal-əhval tutduqdan sonra öz işlərindən danışardı.

Nəsir müəllimin başçılıq etdiyi «Bakı» və «Baku» qəzetləri həmin vaxtlar paytaxtda öz nüfuzu, obyektivliyi, operativliyi ilə seçilən çox populyar bir qəzet idi. Və təbii ki, bu qəzet Nəsir müəllimin qayğısı və gərgin səmərəli fəaliyyəti sayəsində geniş oxucu kütləsi toplaya və nüfuz qazana bilmişdi. Qəzeti populyar və oxunaqlı edən başqa bir amil də vardı. Bu amil Nəsir müəllimin cəsarətli olmasından irəli gəlirdi. Qəzetdə tənqidi materiallar vermək, sonra da onların arxasında durmaq o qədər də asan məsələ deyildi. Bundan ötrü adamın başı heç də az ağrımazdı. Qəzet səhifəsinə çıxarılmış felyetonlarda, tənqidi materiallarda insanlara biganə yanaşan vəzifə sahibləri, cəmiyyətə yad olan ünsürlər,

işbazlar və digərləri tənqid edilirdi. Onların fəaliyyətlərindən bəhs edən belə materiallar isə yalnız Nəsir müəllimin cəsarəti sayəsində işıq üzü görə bilərdi.

Nəsir müəllim həm də nüfuzlu ailə başçısı idi. Onun əsl ziyalı təbiəti ailəsinə də sirayət etmişdi. Təsadüfi deyildi ki, bu ailənin övladı olan və təkcə respublikamızda deyil, hüdudlarımızdan çox-çox kənarda da tanınan şərqşünas alim, mərhum professor Aida xanım İmanquliyeva Azərbaycanın şərqşünaslıq elminə öz töhfələrini vermiş çox istedadlı alim qadınlarımızdan olmuşdur.

Doğrudan da, insan öz əməlləri, öz nəcibliyi, öz xeyirxahlığı ilə yaddaşlarda qalır. Nəsir müəllim bu gün sıralarımızda olmasa da, onun əziz xatirəsi onu yaxından tanıyanların qəlbindən silinmir, xatirəsi daim əziz tutulur. Yaxşılar sırasında xatırlanmaq həqiqətən də insanın həyatda qoyduğu izin davamıdır.

Allah ona rəhmət eləsin!







**Vasim Məmmədəliyev**
*AMEA-nın müxbir üzvü,*
*əməkdar elm xadimi, professor*

## MİLLİ JURNALİSTİKAMIZIN PATRİARXI

Mən rəhmətlik Nəsir müəllimi hələ uşaqlıqdan qiyabən tanıyırdım. Nəsir müəllim haqqında ilk dəfə atamdan eşitmişdim. Rəhmətlik atam Məmmədəli Məmmədəliyev Nəsir müəllimlə, Şəfaət Mehdiyev, Murtuza Nağıyev, Mirzə İbrahimov, Məmmədağa Sultanov, Rəhim Sultanov və İbadulla Mədətovla orta məktəbdə bir oxumuşdu. Atam onlardan ağız dolusu danışar, hamısını tərifləyər, böyük alim, gözəl insan olduqlarını söyləyər, Nəsir müəllimlə Şəfaət müəllimdən söz düşəndə «onlar kişi adamdırlar, dostluqda çox möhkəmdirlər» deyərdi.

İllər keçdi, mən orta məktəbi bitirib Bakı Dövlət Universitetinin şərqşünaslıq fakültəsinə daxil oldum. Bizim fakültəmizlə jurnalistika fakültəsi eyni binada idi. Nəsir müəllim jurnalistika fakültəsində dərs deyirdi. O həm də «Bakı» və «Baku» axşam qəzetlərinin baş redaktoru idi. Nəsir müəllim şirin danışığı, dərin biliyi, mehriban xasiyyəti, müəllim və tələbələrlə mədəni davranışı ilə hamının hörmətini qazanmış bir insan idi.

Nəsir müəllimin yeganə övladı, məşhur alimimiz, Azərbaycan ərəbşünaslığının ən görkəmli nümayəndələrindən biri rəhmətlik Aida İmanquliyeva məndən iki kurs yuxarıda oxuyurdu. Mən onun Nəsir müəllimin qızı olduğunu bildikdə çox sevindim və tezliklə bir tələbə yoldaşı kimi onunla tanış oldum. Nəsir müəllimlə isə məni rəhmətlik atam tanış etdi. Yüksək vəzifəsinə, cəmiyyətdəki yüksək mövqeyinə baxmayaraq Nəsir müəllim adamla görüşəndə özünü elə sadə, elə mehriban aparırdı ki, sanki sən öz tay-tuşunla söhbət edir, onunla ünsiyyətdə bulunursan. Təbii ki, bütün bunlar Nəsir müəllimin yüksək nəcabətindən, gözəl əxlaq, dərin intellekt sahibi olmasından irəli gəlirdi. Adi davranışında çox sadə olan Nəsir müəllim bir insan kimi çox məğrur, əyilməz, vüqarlı, necə deyərlər, ağır-batman bir kişi idi.

Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin yaranması və inkişafında Nəsir müəllimin əvəzsiz xidməti vardır. Nəsir müəllim bu fakültənin yarandığı ilk günlərdən orada dərs demiş, Şirməmməd Hüseynov, Qulu Xəlilov, Famil Mehdi, Xəlil Rza Ulutürk, Nəriman Zeynalov, Tofiq Rüstəmov, Yalçın Əlizadə, Nəsir Əhmədov, Cahangir Məmmədov, Akif Rüstəmov, Qulu Məhərrəmli kimi görkəmli jurnalistlərimizin, söz ustalarımızın yetişməsində böyük rol oynamış, yüzlərlə qələm əhlinə həyat vəsiqəsi vermişdir.

Nəsir müəllimi yetişdirmələri bu gün jurnalistika fakültəsində onun yolunu çox ləyaqətlə davam etdirirlər.

Nəsir müəllimin 30 ildən artıq baş redaktoru olduğu «Bakı» və «Baku» axşam qəzetləri o zaman Azərbaycanda ən çox oxunan qəzetlərdən idi.

Nəsir müəllim sözün əsl mənasında yetim-yesir atası idi. İşdə çox tələbkar olan Nəsir müəllim həyatda öz işçilərinin qayğısına qalan, onların çətinliklərini həll edən, ehtiyaclarını təmin edən bir insan idi. «Bakı» və «Baku» qəzetlərinin onlarca əməkdaşı məhz Nəsir müəllimin qayğısı sayəsində ev almış, ailə qurmuş, yurd-yuva sahibi olmuşdular. Nəsir müəllim ailə qurmaq istəyən gənc jurnalistlərin elçiliyinə gedər, toylarında ağsaqqallıq edər, onlara ehtiyacları olan mənzil ləvazimatı hədiyyə edərdi. Bütün bu nəcib əməllərin nəticəsidir ki, bu gün bir çox tanınmış jurnalistlərimiz, qələm əhlimiz Nəsir müəllimdən söhbət düşəndə onun ruhuna rəhmət oxuyurlar. Yeri gəlmişkən qeyd edim ki, elə mənim üçün də elçiliyə bir ağsaqqal kimi Nəsir müəllim getmişdi.

Mən Nəsir müəllimin Bakının Torqovı küçəsindəki evində, Pirşağıdakı bağında çox olmuşam. Nəsir müəllimin ömür-gün yoldaşı rəhmətlik Gövhər xanımın ləziz təamlarını çox yemişəm. Rəhmətlik Aida xanımın, onun həyat yoldaşı akademik Arif Paşayevin və başqa qohumlarının iştirak etdiyi bu məclislərdə Nəsir müəllim yeyib-içməkdə də hamıdan qabaqda idi. Belə məclislərdə onunla ayaq uzatmaq çox çətin idi. Bu cür ziyafətlərdə onunla ayaqlaşmaqda çətinlik çəkdiyimi görən Nəsir müəllim gülər və zarafatla mənə «qardaşoğlu, belə cavanlıq olmaz» deyərdi. Yaşa dolduqca bir şeyi təəssüflə qeyd etmək istəyirəm ki, bizim ağzımızın dadı elə o cür kişilərlə getdi.

Həyatda çox nikbin bir insan olan Nəsir müəllim gözünün ağı-qarası Aida xanımın vaxtsız vəfatından çox kövrəlmişdi. O Aidadan sonra məni gördükdə həmişə gözü yaşarar, «Aida mənim belimi sındırdı» deyərdi.

Mənə gəldikdə isə belə hesab edirəm ki, artıq əbədiyyətə qovuşmuş, haqq dərgahında olan Nəsir müəllim bu gün Azərbaycan jurnalistikasının patriarxı, görkəmli ərəbşünasımız Aida xanımın atası, akademik Arif Paşayevin qayınatası, Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun Prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban Əliyevanın, tanınmış alimimiz, orijinal təfəkkürlü tədqiqatçımız Nərgiz Paşayevanın babası kimi ən xoşbəxt insandır. Allah ona qəni-qəni rəhmət eləsin, qəbri nurla dolsun! Amin!

**Yaqub Mahmudov**
*Milli Məclisin üzvü, AMEA Tarix İnstitutunun direktoru, əməkdar elm xadimi*

## DOĞMA XALQINA NUR PAYLAYAN BÖYÜK ZİYALI

Hər bir xalq, onun milli-mənəvi varlığı doğma elinə, torpağına bağlı olan görkəmli şəxsiyyətlərin, o cümlədən tək-tək qeyrətli ziyalıların fəaliyyəti və mübarizəsi sayəsində yaşayır, qeyri-millətlər içərisində əriyib yox olmaq təhlükəsindən qurtulur. Şərəfli ömür yolu keçmiş Nəsir İmanquliyev də Azərbaycanımızın bu cür nadir ziyalılarından biri idi.

Bütün ruhu, varlığı ilə xalqına bağlı olan böyük ziyalı Nəsir müəllim İmanquliyevlə bağlı ilk xatirələrim uzaq tələbəlik illəri ilə bağlıdır.

Ötən əsrin 50-ci illərinin sonları idi. Unudulmaz, xoşbəxt tələbəlik illərimiz yenicə başlamışdı. Tarix fakültəsində oxuyurdum. Bəzi fənlər, o cümlədən Marksizm-Leninizm nəzəriyyəsi fənni üzrə mühazirələri tarixçi, filoloq, şərqşünas tələbələr birlikdə dinləyirdilər. Bu mühazirələr zamanı yüksək əxlaqi keyfiyyətləri, geniş dünyagörüşü, eyni zamanda sadəliyi və alicənablığı ilə hamıdan fərqlənən və sözün həqiqi mənasında əsilzadə bir Azərbaycan gözəli hamının diqqətini cəlb edirdi. Hamımızın «Bakı» qəzetinin redaktoru «Nəsir İmanquliyevin qızı» kimi tanıdığımız və dərin hörmət bəslədiyimiz bu tələbə yoldaşımız Aida xanım İmanquliyeva idi.

«Bakı» qəzeti o zaman tələbə gənclərin əlindən düşməyən ən sevimli qəzetimiz idi. Başdan ayağadək rəsmi materiallarla yüklənmiş, quru dillə yazılan partiya qəzetlərindən fərqli olaraq «Bakı»da Azərbaycanımızın keçmişinə, mədəniyyət tarixinə, görkəmli tarixi şəxsiyyətlərimizin həyat və fəaliyyətinə dair olduqca maraqlı materiallar verilirdi. Əlbəttə, biz bunun səbəblərini çox sonralar qəzetin redaktoru Nəsir müəllim İmanquliyevin kim olduğunu öyrəndikdən, onun nəsillərə nümunə olan tərcümeyi-halı ilə tanış olduqdan sonra daha dərindən başa düşdük!

Nəsir müəllim həyatın bütün çətinliklərini, məşəqqətlərini, sovet rejiminin ziddiyyətlərini, ədalətsizliklərini öz şəxsi həyatında yaşamış və yaxından müşahidə etmiş ziyalımız idi. Onun ziyalılıq zirvəsinə ucalan yolu halal zəhmətdən, necə deyərlər, həyatın lap dibindən başlanmışdı. Balaxanı neft mədənlərindən birində çalışan atası Əsəd kişinin ağır zəhmətlə qazandığı halal çörəklə böyüyən Nəsir müəllim özü də həyat yoluna ağır zəhmətlə, halallıqla başlamışdı. O, peşə məktəbini bitirmiş, çilingər işləmiş, Neft Texnikumunda təhsil

almış, hələ yeniyetməlik və ilk gənclik illərində bütün varlığı ilə doğma xalqına bağlanmışdı. Elə buna görə də sonralar partiya-sovet orqanlarında, o cümlədən Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsində və Bakı Şəhər Partiya Komitəsində məsul vəzifələrdə çalışanda da, öz istedadı və zəhmətli ilə ucaldığı elmi-pedaqoji vəzifələrdə fəaliyyət göstərəndə heç zaman doğma xalqını, onun çətinlik və ağır zəhmətlə dolu həyatını unutmamışdı. Həmişə xalqına sadiq qalmışdı!

İlk jurnalistlik fəaliyyətinə hələ XX əsrin 30-cu illərində «Yeni yol», «Gənc işçi» və digər qəzetlərdə başlayan Nəsir İmanquliyev Azərbaycan jurnalistikasının tarixində dərin iz qoymuşdur. O, «Bakı» və «Baku» axşam qəzetlərinin redaktoru kimi fəaliyyət göstərərkən Azərbaycan jurnalistikasını yeni zirvəyə qaldırmışdı. Ustad jurnalistimizin özü isə bu zirvədə müdrik və ağsaqqal ziyalı mövqeyinə ucalmışdı.

XX yüzilliyin 60-cı illərinin gəncliyi bütün təqiblərə rəğmən Cənub həsrəti ilə yaşayan gənclik idi. Buna görə biz Mirzə İbrahimovun «Gələcək gün»ünü, Süleyman Rüstəmin cənub şeirlərini dönə-dönə oxuyurduq. Və bu baxımdan Nəsir müəllim İmanquliyev bizim hamımızın qəlbində Cənub işığını sönməyə qoymayan tək-tək ziyalılardan biri idi. Biz o zaman bu cür say-seçmə ziyalılarımızın simasında bütün Cənubi Azərbaycanı görürdük, şimallı-cənublu bir kökdən olduğumuzu daha dərindən başa düşür, yaddaşımıza həkk edir, nə vaxtsa birləşəcəyimizə bütün varlığımızla inanırdıq...





Nəsir müəllim İmanquliyev mənim üçün, həm də, həyatımda iz qoymuş unudulmaz şəxsiyyətlərdən biridir. Bu mənə qarşı yol verilmiş və sonrakı həyatımda ağır iz buraxmış bir hadisə ilə bağlıdır...

...Həmin hadisəsinin qısa tarixçəsi belədir: universiteti bitirən kimi məni aspiranturada saxladılar. 1966-cı ildə tarix fakültəsində namizədlik dissertasiyası müdafiə edərkən o dövrün çox görkəmli alimlərindən ibarət olan Elmi Şura mənə birbaşa doktorluq elmi dərəcəsi vermək barədə qərar qəbul etdi. O zamankı qaydalara görə bu qərar universitetin Böyük Elmi şurasında təsdiq olunmalı idi. Lakin müdafiənin səhərisi günü «hələ ağzından süd iyi getməyən bir uşağa birdən-birə doktorluq elmi dərəcəsi versək hamı bizə gülər» (bu sözlər indi də qulağımdan getmir!) deyən şər-ənənəvi xəbislər fəaliyyətə başladı. Çətin ayaqda gözləmədiyim halda müdafiəmə qalxan və İncəsənət İnstitutunda işləyən filosof Şəmsəddin Cəfərov məni yanına çağırdı və dedi: «Elə qüvvələr var ki, onlar sənin müdafiən barədə qərarı həyata keçməyə qoymayacaqlar. Müdafiən barədə qərarı hökmən mətbuata çıxarmaq lazımdır. Mətbuat isə buna getməyəcək. Ümidim bircə «Bakı» qəzetinə qalır. Bu barədə Nəsir müəllimlə danışaram. Sabaha mənə baş çəkərsən». Səhərisi Şəmsəddin müəllimin yanına getdim. Hazırladığı yazını zərfə qoyub mənə verdi və dedi bunu redaksiyaya çatdır, Nəsir müəllimlə danışmışam.

Nəsir müəllim məni son dərəcə mehribanlıqla qarşıladı. Ürək-dirək verdi. Köməkçini çağırıb dedi:

bu yazını hökmən sabahkı nömrədə verərsiniz! Dünya görmüş müdrik ziyalımız daxilimizdə yaşayan şərin gücünə dərindən bələd olduğu üçün mənə dönə-dönə ruhdan düşməməyi nəsihət etdi. Ayrılarkən onun acı təəssüflə söylədiyi «biz beləyik də!» kəlməsi indi də qulağımda səslənir...

Səhərisi gün «Bakı» qəzetində universitetin tarix fakültəsinin Elmi-Şurasının bir gəncin namizədlik dissertasiyasına doktorluq elmi dərəcəsi verməsi barədə sensasiyalı məlumat getdi...

Əlbəttə, o zaman şər kənddən gəlmiş, arxasız bir gəncə üstün gəldi. İllər keçdikdən sonra mən içimizdəki bədxahlara Vətəndən uzaqlarda Moskva Dövlət Universitetinin tarix fakültəsinin Elmi Şurasında qalib gəldim. Doktorluq dissertasiyası müdafiə etdim. Lakin iki xatirə yaddaşıma həmişəlik həkk olundu: dar ayaqda Nəsir müəllim kimi xeyirxah Vətən oğullarının mənə dayaq durması, qayğıkeşliyi və cəsarəti, bir də bədxahların bitib-tükənməyən bəd əməlləri...

Bu gün Azərbaycan xoşbəxt günlərini yaşayır. Azadıq. Müstəqilliyimiz gündən-günə möhkəmlənir. Dünyada layiq olduğumuz mərtəbəyə ucalırıq. Xeyir yenə xeyirli əməllərlə məşğul olur, Şər isə yenə öz işindədir.

Nəsir müəllim kimi el müdriklərinin nurlu əməlləri yenə Vətənin keşiyindədir. O günləri və bu günləri öz gözləri ilə görmüş bizim nəsil bunu daha yaxşı görür, daha dərindən duyur. Çünki biz Nəsir İmanquliyev kimi xalqına nur paylayan böyük ziyalıların gördükləri xeyirli işlərin, yaşadıqları şərəfli ömür yolunun canlı şahidləriyik. Biz öz





gözlərimizlə görmüşük ki, doğrudan da «ot kökü üstə bitər!». Necə ki, illər keçdikdən sonra böyük ziyalı Nəsir İmanquliyevdən Vətən dərsi almış Aida xanım İmanquliyeva Azərbaycan Şərqşünaslıq elminin şöhrətini dünyaya yaydı və özü də bu elmin başında durdu!

Bu gün xalqımız Heydər Əliyev fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın çoxşaxəli xeyirxah əməllərini böyük razılıq hissi ilə qarşılayır, onun gördüyü böyük işləri qürurla alqışlayır, Nərgiz xanım Paşayevanın milli-mənəvi dəyərlərimizin dirçəldilməsi sahəsindəki uğurlarından böyük fərəh hissi keçirir. Bütün xalqımız bu xeyirli əməllərdən qürurlanır. Ürəyimiz dağa dönür. Çünki bu, bizim genetik ənənələrimizin davamıdır, yaşamasıdır... Çünki bu xeyirxah əməllər doğma xalqına nur paylayan böyük ziyalı Nəsir İmanquliyevdən, ustad yazıçımız Mir Cəlaldan, görkəmli şərqşünasımız Aida xanım İmanquliyevadan üzü bəri davam edən genetik ənənələrin davamıdır. Hamısının ruhları şad olsun!

Texniki redaktor: *Rövşən Ağayev*

Tərtibatçı-rəssam: *Nərgiz Əliyeva*

Kompyuter səhifələyicisi: *Rəvan Mürsəlov*

Korrektor: *Bətul Eyvazlı*

Yığılmağa verilmişdir 14.11.2006.
Çapa imzalanmışdır 18.12.2006.
Formatı 54×84 $^1/_{16}$. Fiziki çap vərəqi 22.
Ofset çap üsulu. Tirajı 1000. Sifariş 46.
Kitab "Qızıl Şərq" mətbəəsində çap olunmuşdur.

# TƏRCÜMEYİ-HAL

Nəsir (Nəsrulla) Əsəd oğlu İmanquliyev 1911-ci il dekabrın 22-də Bakı şəhərində anadan olub.
Atası Əsəd İmanquliyev 1922-ci ildə vəfat edib.
Nəsir İmanquliyev 1925-1926-cı illərdə Lenin rayonundakı peşə məktəbini bitirib. Çilingər peşəsinə yiyələnib. 1934-cü ildə Lassal adına Neft Texnikumuna daxil olub. Texnikumda oxuya-oxuya, «Kommunist», «Yeni yol», «Gənc işçi» qəzetlərində çalışıb.
1932-1952-ci illərdə bu qəzetlərdə ədəbi işçi, ədəbi şöbənin müdir müavini, şöbə müdiri, məsul katib, redaktor vəzifələrində çalışıb.
1942-ci ilin yanvarında müharibəyə, siyasi işçi kimi Krım cəbhəsinə göndərilib. «Döyüşən Krım» qəzetində məsul katib və hərbi hissədə tərcüməçi kimi fəaliyyət göstərib.
1943-cü ilin sonunda ordudan tərxis olunaraq arxa cəbhəyə göndərilib. «Kommunist» qəzetində məsul katib kimi fəaliyyət göstərməklə yanaşı, hərbi vətənpərvərlik ruhunda yazılarla mətbuatda çıxış edib.
1946-cı ildə Moskvada Mərkəzi Qəzet Kursunu bitirib.
1947-ci ildə pedaqoji fəaliyyətə başlayıb. Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində partiya və sovet mətbuatının nəzəriyyə və təcrübəsi fənnindən mühazirələr oxuyub.
1948-1950-ci illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsində təhsil alıb. İki ilə ekstern yolu ilə universiteti bitirib.
1948-1955-ci ildə qiyabi yolla Moskva Ali Partiya məktəbini bitirib.
1952-ci ilin fevralından iyuluna qədər Azərbaycan KP Bakı Şəhər Komitəsində təbliğat-təşviqat şöbəsinin müdiri işləyib.
1952-ci ilin iyulundan 1956-cı ilin noyabrınadək Azərbaycan KP Mərkəzi Komitəsində təbliğat-təşviqat şöbəsinin müdir müavini işləyib.
1956-cı ilin noyabrından 1957-ci ilin dekabrınadək Azərbaycan SSR Mədəniyyət Nazirliyinin Radioinformasiya baş idarəsinin rəisi olub. Nazirliyin kollegiya üzvü seçilib.
1958-ci ildə Bakı Şəhər Sovetinin «Bakı» axşam qəzetinin yaranması ilə əlaqədar Azərbaycan KP Mərkəzi Komitənin qərarı ilə qəzetə redaktor təyin edilib.
1963-cü ildə qəzetin rus versiyası «Baku» nəşrə başlayarkən onun redaktorluğu da Nəsir İmanquliyevə həvalə edilib.
Bu illər ərzində Azərbaycan Dövlət Universitetində pedaqoji fəaliyyətlə məşğul olmaqla yanaşı, «Sovet kəndi», «Azərbaycan gəncləri» qəzetləri, «Təbliğatçı», «Azərbaycan kommunisti», «Azərbaycan qadını» jurnalları ilə əməkdaşlıq edib.
1965-ci ildə namizədlik dissertasiyası müdafiə edib. 1988-ci ildə ADU-nun jurnalistika fakültəsinin nəzəriyyəsi və təcrübəsi kafedrasının dosenti, 1996-cı ildə isə məsləhətçi professoru seçilib.
1926-1943-cü illərdə Respublika Komsomolunun üzvü olan Nəsir İmanquliyev 1944-cü ildən Sov.İKP üzvü seçilib.
Bakı Şəhər Sovetinin deputatı olan Nəsir İmanquliyev dəfələrlə Bakı Şəhər Komitəsinin plenumlarının üzvü və Azərbaycan Kommunist Partiyasının qurultaylarının nümayəndəsi seçilib.
Yüzlərlə məqalənin, onlarla kitabın müəllifi, həmmüəllifi və tərcüməçisi olan Nəsir İmanquliyev silsilə radio və televiziya verilişlərinin müəllifi və aparıcısı olub. O, Azərbaycan Dövlət Universitetinin auditoriyalarında, eləcə də 30-40-cı illərdə gecə kurslarında mühazirələr oxuyub.
Onun əməyi dövlət tərəfindən daim qiymətləndirilib, orden və medallara, fəxri adlara, mükafatlara layiq görülüb.
Azərbaycan Jurnalistlər İttifaqının «Qızıl Qələm» mükafatını alan Nəsir İmanquliyev 1976-cı ildə əməkdar mədəniyyət işçisi, 1990-cı ildə isə əməkdar jurnalist fəxri adına layiq görülüb.
Nəsir İmanquliyev 1998-ci ilin 7 martında dünyasını dəyişib.
Qızı, şərqşünas alim, filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyeva ərəb məhcər ədəbiyyatının dünyada ilk qadın tədqiqatçısıdır.